Azərbaycan Turizm və Menecment Universiteti
Azerbaijan Tourism and Management University

Turizm
və
qonaqpərvərlik tədqiqatları
Beynəlxalq jurnal

Tourism
and
Hospitality Studies
International journal

Turizm və qonaqpərvərlik tədqiqatları
"BİROL GROUP" MMC, Bakı, 2026, 238 səh.
ISSN 2409-6032 / *E-ISSN -2959-8389*
***DOI* 10.61226/12.2.2023/20262**

Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 05.12.2011-ci il tarixli 3507 № ilə qeydiyyata alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 16 may 2014-cü il tarixli (protokol № 07-R) qərarı ilə **İqtisad elmləri, Tarix elmləri** və **Sənətşünaslıq üzrə** (6219.01-*Kulturologiya və onun ümumi məsələləri;* 6220.01-*Muzeyşünaslıq*) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlərin siyahısı"na daxil edilmişdir.

Tourism and Hospitality Studies
"BİROL GROUP" LLC, Baku, 2026, 238 p.
ISSN 2409-6032/ *E-ISSN -2959-8389*
***DOI* 10.61226/12.2.2023/20262**

The journal was registered at the Ministry of Justice of the Republic of Azerbaijan by Minutes № 3507 dated 05.12.2011 and included in the list of periodical scientific publications where the main results of the theses on **Economic Sciences, History Sciences** and **Cultural Studies** (6219.01-*Cultural Studies and its general issues*; 6220.01-*Museum Study*) are recommended to be published by the decision dated May 16, 2014 (Minutes № 07-R) of the Board of Supreme Attestation Commission attached to the President of Azerbaijan.

Turizm və qonaqpərvərlik tədqiqatları
Tourism and Hospitality Studies
Beynəlxalq elmi jurnal/International Scientific Journal
İl 15, Say 2, 2026/ Volume 15, Number 2, 2026
ISSN 2409-6032,
E-ISSN -2959-8389
***DOI* 10.61226/12.2.2023/20262**

Redaksiya Şurası	**Editorial board**
Fuad Nağıyev *Redaksiya şurasının sədri* İlham Mədətov *Baş redaktor* İranə Əliyeva *Baş redaktorun müavini*	Fuad Nagiyev *Chairman of Editorial Board* Ilham Madatov *Editor-in-Chief* İrana Aliyeva *Deputy Editor-in-Chief*
Redaksiya şurasının üzvləri Zaur Bağırov Nəsirulla Nəsirli Bahadur Bilalov Kənan Allahverdiyev Hafiz Hüseynov Cənnətxan Eyvazov Əli Əlirzayev Rəna Sultanova Vüqar Nəzərov Novruz Quliyev Həbibə Sultanova Məhərrəm Zülfüqarlı Kərim Şükürov Əliağa Məmmədli Minaxanım Əsədova Sabirə Dünyamalıyeva Günay Qafarova	**Editorial Board Members** Zaur Bagirov Nasirulla Nasirli Bahadur Bilalov Kanan Allahverdiyev Hafiz Huseynov Jannatkhan Eyvazov Ali Alirzayev Rana Sultanova Vugar Nazarov Novruz Guliyev Habiba Sultanova Maharram Zulfugarli Karim Shukurov Aliaga Mammadli Minakhanim Asadova Sabira Dunyamaliyeva Gunay Gafarova

Əcnəbi üzvlər Cəfər Cəfəri (ABŞ) Eva Verner (Avstriya) Ömər Baybars Tek (Türkiyə) Mustafa Tanyeri (Türkiyə) İkbal Aksulu (Türkiyə) Bülent Himmetoğlu (Türkiyə) Hilmi Yüksel(Türkiyə) Uve Veithöner(Almaniya) Vladimir Şalayev(Rusiya) Alberto Romero-Ania (İspaniya)	**Foreign Members:** Jafar Jafari (USA) Eva Werner (Austria) Omer Baybars Tek (Turkey) Mustafa Tanyeri (Turkey) Ikbal Aksulu (Turkey) Bulent Himmetoglu (Turkey) Hilmi Yuksel (Turkey) Uwe Weithoner (Germany) Vladimir Shalayev (Russia) Alberto Romero-Ania (Spain)

MÜNDƏRİCAT

Emin ƏLİRZAYEV
SOSİAL MÜDAFİƏ SİSTEMİNİN TƏŞKİLİ PROBLEMLƏRİ: AZƏRBAYCAN SOSİAL MÜDAFİƏ SİSTEMİNİN İNKİŞAFI AMİLLƏRİ.....9

Aqil ƏSƏDOV
Zəhra QASIMZADƏ
MİLLİ BRENDLƏRİN FORMALAŞMASI VƏ RƏQƏMSAL YÜKSƏLİŞİ: XİDMƏT SEKTORUNDA AZƏRBAYCANIN İDENTİKLİYİ.....26

Camal HACIYEV
Nəzrin MEHDİYEVA
AZƏRBAYCAN KOMMERSİYA BANKLARINDA RİSKLƏRİN İDARƏ EDİLMƏSİNDƏ BEYNƏLXALQ HƏLLİ STANDARTLARIN TƏTBİQİ PROBLEMLƏRİ VƏ YOLLARI.....36

Bəhman KƏRİMOV
AKADEMİK ƏBDÜLKƏRİM ƏLİZADƏNİN MUZEY KOLLEKSİYASINDA QORUNAN BİR MƏKTUBUN İZİ İLƏ.....52

Zahid BÜNYADOV
Nailə QASIMOVA
İQTİSADİ MODERNLƏŞMƏ VƏ SOSİAL İNKİŞAFIN ƏSAS İSTİQAMƏTLƏRİ.....63

Emil BAĞIRLI
RESURS BOLLUĞU PARADOKSU: TƏBİİ RESURS ASILILIĞI ölkələrarasl İNKİŞAF FƏRQLƏRİNİ NECƏ DƏRİNLƏŞDİRİR?.....68

Fərid CABBARLI
Brilyant ƏLİYEVA
TURİZM MÜƏSSİSƏLƏRİNDƏ İŞÇİ MƏMNUNİYYƏTİNİN SİRRİ: MÜHİTLƏ UYĞUNLUQ.....79

Fərid AĞABABAZADƏ
AZƏRBAYCANDA KORPORATİV STRUKTURLU MÜƏSSİSƏLƏRDƏ İŞÇİ DÖVRİYYƏSİNİN İQTİSADİ TƏSİRLƏRİNİN TƏHLİLİ 84

Фарид ДИЛАВАРОВ
ВЛИЯНИЕ ТЕХНОЛОГИИ БЛОКЧЕЙН НА ЭКОНОМИЧЕСКУЮ ЭФФЕКТИВНОСТЬ СЕЛЬСКОХОЗЯЙСТВЕННЫХ ПРЕДПРИЯТИЙ В АЗЕРБАЙДЖАНЕ: НА ПРИМЕРЕ ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЙ.....98

Məhərrəm ZÜLFÜQARLI
SUMQAYIT ŞƏHƏRİNİN İCTİMAİ-SİYASİ TARİXİ.....110

Məmmədrəhim NƏCƏFOV
AZƏRBAYCANDA NEFT ASILILIĞI VƏ İXRACIN ŞAXƏLƏNDİRİLMƏSİ PROBLEMLƏRİ 122

Orxan ƏLİYEV
AZƏRBAYCANIN ARXEOLOJİ VƏ MƏDƏNİ İRSİNDƏ GƏMİQAYA PETROQLİFLƏRİ.....130

Camal HACIYEV
Nabat BƏKİROVA
AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFININ ÖLKƏNİN MAKROİQTİSADİ SABİTLİYİNDƏ ROLU.....140

Nadir ƏLƏKBƏROV
AZƏRBAYCANDA İKT-NİN İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN ARTIRILMASI YOLLARI.....150

Nərgiz AXUNDOVA
ORTA VƏ SON TUNC DÖVRÜ ABİDƏLƏRİ, QƏDİM YAŞAYIŞ YERLƏRİ, KURQANLAR, DAŞ QUTU VƏ TORPAQ QƏBİRLƏRİ (E.Ə. II MİNİLLİK).....160

Səbinə BABAYEVA
MUZEY KADR HAZIRLIĞI SİSTEMİNİN YARANMASI VƏ İNKİŞAFI.....172

Sara BAĞIRLI
MÜALİCƏ-SAĞLAMLIQ TURİZMİNDƏ YOLLAYIŞ SİSTEMİ VƏ MÜASİR İQTİSADİ İNKİŞAF PERSPEKTİVLƏRİ 181

Sənubər CABBAROVA
AZƏRBAYCANIN BEYNƏLXALQ MƏDƏNİ ƏMƏKDAŞLIĞINDA TÜRKSOY-UN ROLU.....192

Taleh AĞAZADƏ
AZƏRBAYCANDA DAYANIQLI TURİZM SƏNAYESİNİN İNKİŞAFINDA NƏQLİYYAT SİSTEMİNİN STRATEJİ ƏHƏMİYYƏTİ.....202

Zenfira SEYİDOVA
RƏQƏMSAL, HİBRİD VƏ QARIŞIQ TƏDRİS YÖNÜMLÜ MUZEY PROQRAMLARINA MÜƏLLİMLƏRİN MÜNASİBƏTİNİN TƏHLİLİ.....213

Lamiyə QULİYEVA
AZƏRBAYCANDA POLYAK MEMARLIĞININ ŞAH ƏSƏRLƏRİ.....221

CONTENTS

Emin ALIRZAYEV
PROBLEMS OF ORGANIZING THE SOCIAL PROTECTION SYSTEM: FACTORS OF DEVELOPMENT OF THE AZERBAIJAN SOCIAL PROTECTION SYSTEM..... 9

Agil ASADOV
Zahra GASIMZADE
FORMATION OF NATIONAL BRANDS AND DIGITAL RISE: AZERBAIJAN'S IDENTITY IN THE SERVICE SECTOR.....26

Jamal HAJIYEV
Nazrin MEHDIYEVA
PROBLEMS AND SOLUTIONS FOR THE IMPLEMENTATION OF INTERNATIONAL RISK MANAGEMENT STANDARDS IN AZERBAIJAN'S COMMERCIAL BANKS.....36

Bahman KARIMOV
TRACING A LETTER PRESERVED IN THE MUSEUM COLLECTION OF ACADEMICIAN ABDULKARIM ALIZADE.....52

Zahid BUNYADOV
Naila GASIMOVA
MAIN DIRECTIONS OF ECONOMIC MODERNIZATION AND SOCIAL DEVELOPMENT.....63

Emil BAGIRLI
THE RESOURCE CURSE PARADOX: HOW NATURAL RESOURCE DEPENDENCE DEEPENS CROSS-COUNTRY DEVELOPMENT GAPS?.....68

Farid JABBARLI
Brilyant ALIYEVA
THE SECRET OF EMPLOYEE SATISFACTION IN TOURISM ENTERPRISES: PERSON–ENVIRONMENT FIT.....79

Farid AGABABAZADA
ANALYSIS OF THE ECONOMIC EFFECTS OF EMPLOYEE TURNOVER IN CORPORATE ENTERPRISES IN AZERBAIJAN 84

Farid DILAVAROV
THE IMPACT OF BLOCKCHAIN TECHNOLOGY ON THE ECONOMIC EFFICIENCY OF AGRICULTURAL ENTERPRISES IN AZERBAIJAN: THE CASE OF THE LIBERATED TERRITORIES.....98

Maharram ZULFUGARLI
THE SOCIO-POLITICAL HISTORY OF THE CITY OF SUMGAYIT.....110

Mammadrahim NAJAFOV
OIL DEPENDENCY AND EXPORT DIVERSIFICATION CHALLENGES IN AZERBAIJAN 122

Orkhan ALIYEV
GAMIGAYA PETROGLYPHS IN AZERBAIJAN'S ARCHAEOLOGICAL AND CULTURAL HERITAGE.....130

Jamal HAJIYEV
Nabat BAKIROVA
THE ROLE OF TOURISM DEVELOPMENT IN THE MACROECONOMIC STABILITY OF AZERBAIJAN.....140

Nadir ALAKBAROV
WAYS TO INCREASE THE INVESTMENT ATTRACTIVENESS OF THE ICT SECTOR IN AZERBAIJAN.....150

Nargiz AKHUNDOVA
MIDDLE AND LATE BRONZE AGE MONUMENTS, ANCIENT SETTLEMENTS, KURGANS, STONE-CIST AND EARTH GRAVES (2ND MILLENNIUM BC)...160

Sabina BABAYEVA
THE ESTABLISHMENT AND DEVELOPMENT OF THE MUSEUM PERSONNEL TRAINING SYSTEM.....172

Sara BAĞIRLI
REFERRAL SYSTEMS IN MEDICAL AND HEALTH TOURISM AND PROSPECTS FOR MODERN ECONOMIC DEVELOPMENT.....181

Sanubar JABBAROVA
THE ROLE OF TÜRKSOY IN AZERBAIJAN'S INTERNATIONAL CULTURAL COOPERATION 192

Taleh AGAZADE
THE STRATEGIC IMPORTANCE OF THE TRANSPORT SYSTEM IN THE DEVELOPMENT OF SUSTAINABLE TOURISM IN AZERBAIJAN.....202

Zenfira SEYIDOVA
ANALYSIS OF TEACHERS' ATTITUDES TOWARDS DIGITAL, HYBRID AND BLENDED LEARNING-ORIENTED MUSEUM PROGRAMMES.....213

Lamiya GULIYEVA
MASTERPIECES OF POLISH ARCHITECTURE IN AZERBAIJAN.....221

UOT: 364.3 : 351.84
DOI: doi.org/ 10.61226/12.2.2023/20262.1
Emin ƏLİRZAYEV
iqtisad üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), doktorant
alirzayev@gmail.com
https://orcid.org/0000-0001-8622-6905

Emin ƏLİRZAYEV
SOSİAL MÜDAFİƏ SİSTEMİNİN TƏŞKİLİ PROBLEMLƏRİ: AZƏRBAYCAN SOSİAL MÜDAFİƏ SİSTEMİNİN İNKİŞAFI AMİLLƏRİ

Xülasə: Tədqiqatın məqsədi – məqalədə sosial müdafiə sistemlərinin formalaşmasında rol oynayan müasir amillərə iqtisadi-nəzəri rakursdan baxılmaqla, Azərbaycan Respublikası nümunəsində inkişaf çağırışları və problemlər araşdırılır. Tədqiqatın metodologiyası –ümumi elmi təhlil və nəzəri ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Metodoloji təhlillərin aparılması zamanı yerli və xarici elmi mənbələrə, beynəlxalq ixtisaslaşmış təşkilatların hesabatlarına və milli qanunvericilik sənədlərinə istinad olunmuşdur. Tədqiqatın əhəmiyyəti – Azərbaycan Respublikasında növbəti inkişaf baxımından sosial müdafiə sistemini əhatə edən amillərin kompleks təhlili əsasında idarəetmədə müxtəlif amillərin sistemli şəkildə nəzərə alınmasının, maliyyə dayanıqlılığı probleminin, demoqrafik risklərin aktuallığının, eləcə də rəqəmsal texnologiyaların tətbiqi məsələlərinin strateji əhəmiyyəti ilə bağlı konkret elmi-praktiki nəticələr əldə edilmişdir. Tədqiqatın nəticələri – araşdırma nəticəsində Azərbaycan Respublikasında sosial müdafiə sahəsində aktuar proqnozlaşdırmanın gücləndirilməsi, investisiyayönümlü sosial müdafiə modelinə keçid, qeyri-formal məşğulluqla mübarizə və kompleks idarəetmə yanaşmasının tətbiqi kimi prioritet istiqamətlər müəyyənləşdirilmişdir. Tədqiqatın elmi yeniliyi – beynəlxalq təcrübə ilə müqayisəli şəkildə və yerli praktika nəzərə alınmaqla, Azərbaycan Respublikasında sosial müdafiə sisteminin inkişafına təsir edən əsas endogen və ekzogen faktorlar sistemli şəkildə müəyyən edilmiş, sistemin növbəti mərhələdə təkmilləşdirilməsi və islahatların işlənilməsi üçün vacib prioritetlər irəli sürülmüşdür.

Açar sözlər: sosial müdafiə sistemi, iqtisadi-nəzəri rakurs, aktuar proqnozlaşdırma, investisiyayönümlü model, kompleks idarəetmə, endogen və ekzogen faktorlar.

Emin ALİRZAYEV

PROBLEMS OF ORGANIZING THE SOCIAL PROTECTION SYSTEM: FACTORS OF DEVELOPMENT OF THE AZERBAIJAN SOCIAL PROTECTION SYSTEM

Abstract: Purpose of the study – the article examines the development challenges and problems in the case of the Republic of Azerbaijan, by looking at modern factors playing a role in the formation of social protection systems from an economic-theoretical perspective. Methodology of the research – general scientific analysis and theoretical generalization methods were used. During the methodological analysis, local and foreign scientific sources, reports of international specialized organizations, and national legislative documents were referenced. Significance of the research – based on a complex analysis of factors covering the social protection system from the perspective of further development in the Republic of Azerbaijan, concrete scientific-practical results were obtained regarding the strategic importance of systematically considering various factors in management, the problem of financial sustainability, the urgency of demographic risks, as well as the issues of applying digital technologies. Results of the research – as a result of the study, priority directions such as strengthening actuarial forecasting in the field of social protection, transitioning to an investment-oriented social protection model, combating informal employment, and implementing a complex management approach in the Republic of Azerbaijan were identified. Scientific novelty of the research – by systematically identifying the main endogenous and exogenous factors affecting the development of the social protection system in the Republic of Azerbaijan, in a comparative context with international experience and taking into account local practice, important priorities to be considered in the development of reforms and the next stage of improvement were put forward.

Keywords: social protection system, economic-theoretical perspective, actuarial forecasting, investment-oriented model, complex management, endogenous and exogenous factors.

Эмин АЛИРЗАЕВ

ПРОБЛЕМЫ ОРГАНИЗАЦИИ СИСТЕМЫ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ: ФАКТОРЫ РАЗВИТИЯ СИСТЕМЫ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ АЗЕРБАЙДЖАНА

Резюме: Цель исследования – в статье с экономико-теоретического ракурса рассматриваются современные факторы, играющие роль в формировании систем социальной защиты, а также исследуются вызовы развития и проблемы на примере Азербайджанской Республики. Методология исследования – в ходе выполнения работы использовались методы общего научного анализа и теоретического обобщения. При

проведении методологического анализа были использованы местные и зарубежные научные источники, отчеты международных специализированных организаций и национальные законодательные документы. Значимость исследования – на основе комплексного анализа факторов, охватывающих систему социальной защиты с точки зрения дальнейшего развития в Азербайджанской Республике, получены конкретные научно-практические результаты относительно стратегического значения системного учета различных факторов в управлении, проблемы финансовой устойчивости, актуальности демографических рисков, а также вопросов применения цифровых технологий. Результаты исследования – в результате исследования были определены такие приоритетные направления в сфере социальной защиты в Азербайджанской Республике, как усиление актуарного прогнозирования, переход к инвестиционно-ориентированной модели социальной защиты, борьба с неформальной занятостью и применение комплексного управленческого подхода. Научная новизна исследования – путем системного определения основных эндогенных и экзогенных факторов, влияющих на развитие системы социальной защиты в Азербайджанской Республике в сравнительном контексте с международным опытом и с учетом местной практики, были выдвинуты важные приоритеты, которые необходимо учитывать при разработке реформ и на следующем этапе совершенствования.

Ключевые слова: система социальной защиты, экономико-теоретический ракурс, актуарное прогнозирование, инвестиционно-ориентированная модель, комплексное управление, эндогенные и экзогенные факторы**.**

GİRİŞ

Müasir dövrdə sosial müdafiə sistemi dövlətin iqtisadi və sosial siyasətinin ən strateji sütunlarından biri kimi çıxış edir. Bu sistemin inkişafı təkcə inzibati tənzimləmə mexanizmləri ilə məhdudlaşmır, eyni zamanda çoxşaxəli daxili və xarici amillərin davamlı təsiri altında transformasiya olunur. Hazırda qlobal səviyyədə sosial müdafiədə məqsəd və hədəflərin uğurlu icrası, sistemə təsir göstərən makroiqtisadi, demoqrafik və institusional faktorların dəqiq dəyərləndirilməsi metodologiyasına söykənir. Sosial müdafiənin inkişafı həm də milli təhlükəsizliyin mühüm tərkib hissəsidir. Çünki sosial sabitlik və əhalinin rifahı birbaşa olaraq dövlətin sosial-iqtisadi risklərə qarşı dayanıqlığından asılıdır. Qloballaşma və beynəlxalq iqtisadi inteqrasiyanın dərinləşdiyi hazırkı mühitdə daxili (lokal) problemlərin beynəlxalq təcrübə və innovativ yanaşmalarla uzlaşdırılması uğurlu nəticələrin əldə olunması üçün həlledici rol oynayır. Bu çərçivədə, sosial müdafiəyə təsirli amillərin düzgün müəyyənləşdirilməsi təkcə mövcud vəziyyəti təsvir etmir, həm də strateji qərar qəbulu üçün fundamental baza rolunu oynayır. Azərbaycan Respublikasında sosialyönümlü bazar iqtisadiyyatının bərqərar olması, əhalinin artan ehtiyacları və dəyişən sosial gözləntilər fonunda bu

məsələlərin tədqiqi daha da aktuallaşır. Milli sosial müdafiə sisteminin təkmilləşdirilməsi prosesi stabil parametrlərlə kifayətlənə bilməz, çünki zaman keçdikcə rəqəmsallaşma, demoqrafik yaşlanma və əmək bazarındakı transformasiyalar kimi yeni çağırışlar ortaya çıxır. Xüsusilə, postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərin iqtisadi dövriyyəyə tam cəlb edilməsi istiqamətində [11, s. 18] qeyd olunduğu kimi, inklüziv cəmiyyətin qurulması və yüksək sosial rifahın təmini dövlətin əsas hədəflərindəndir. Bu baxımdan, milli sosial müdafiə sisteminin struktur və mahiyyət etibarilə inkişaf mərhələsində olduğu hazırkı şəraitdə, sözügedən amillərə sistemli və kompleks baxış bu tədqiqatın əsasını təşkil edir. Mövzunun yerli elmi mühitdə amillər spektrindən tam şəkildə araşdırılmaması isə təqdim olunan işin elmi və praktiki əhəmiyyətini daha da artırır. Tədqiqatın əsas hədəfi, sosial müdafiə sisteminin endogen və ekzogen faktorlarını təsnifləşdirməklə, milli mühitdə sosial siyasətin gələcək prioritetlərini müəyyən etməkdir.

METODOLOGİYA

Tədqiqatın metodologiyası sosial müdafiə sistemini formalaşdıran amillərin və onlar arasındakı qarşılıqlı asılılıqların nəzəri müstəvidə təhlilinə söykənir. Mövzunun özünəməxsusluğunu nəzərə alaraq, prosesdə çoxistiqamətli yanaşmadan istifadə olunmuşdur: Sistemli təhlil: Sosial müdafiəyə təsir edən faktorlar endogen və ekzogen qruplara ayrılaraq təsnif edilmiş, sistemin inkişaf istiqamətləri ümumiləşdirilmişdir; Normativ baza: Mövzu üzrə yerli elmi ədəbiyyatın və məlumatların məhudluğu nəzərə alınmaqla, Azərbaycan Respublikasının mövcud qanunvericilik aktları və sahəvi strateji sənədləri əsas istinad mənbəyi kimi götürülmüşdür; Empirik yanaşma: Müəllifin fərdi müşahidələri ilə beynəlxalq sığorta-pensiya təcrübəsi qarşılaşdırılmışdır. Belə bir kompleks yanaşma sistemin inkişafı ilə bağlı prioritet təsir faktorlarını daha dərindən araşdırmağa imkan vermişdir.

ƏSAS HİSSƏ

Müasir şəraitdə Azərbaycanda sosial müdafiə mühüm və spesifik əhəmiyyətli dövlət idarəetməsi sahəsi kimi çıxış etməklə, eyni zamanda digər sahələrlə müqayisədə inkişafı daha çox diqqət cəlb edən sferadır.

Sosial müdafiə sahəsində fəaliyyətin mahiyyətinin insan və əhalinin həyat və fəaliyyəti ilə bağlı olması onun spesifikasını formalaşdırmaqla inkişafı ilə bağlı tənzimləmələrin də spesifik olaraq işlənilməsini və tətbiqini şərtləndirir.

Sosial müdafiənin təkmilləşməsi üçün qlobal səviyyədə formalaşmış nəzəri baza ilə əlaqədə problem-idarəetmə əsaslarının Azərbaycanda tətbiqi nöqteyi-nəzərdən araşdırılması böyük əhəmiyyət kəsb edir.

Sosial müdafiənin təşkilinin fərd və əhali maraqlarına uyğunlaşdırılmaqla həyata keçirilməsindəki qaçılmazlıq idarəetmə aparatı üzərində ictimai nəzarəti doğurur ki, bu da tənzimləmə tədbirlərinin sosial müdafiənin təşkilinin dövlətin sosial müdafiə ilə məşğul olan qurumları, işəgötürənlər və benefisiarların (fərdlər)

iştirakçılığı mühitində onların əlaqələndirilmiş maraqları gözlənilməsilə üfüqi və şaquli həyata keçirilməsini zəruri edir [25, s.16-18].

Azərbaycanda işəgötürənlərin məşğulluğun təmin olunmasında, eyni zamanda dövlət və qeyri-dövlət maliyyə resurslarının formalaşmasındakı, dolayısı ilə sosial müdafiənin də maliyyə mənbəyi kimi çıxış etməsindəki, sosial müdafiə qurumlarının və ya təşkilatlarının mənbəyindən asılı olmayaraq formalaşan fondlar hesabına müxtəlif sosial həssas kontingentlərin sosial cəhətdən dəstəklənməsinə istiqamətlənmiş fəaliyyətinin qurulması və bu çərçivədə sosial müdafiə mahiyyətli xidmət və ya məhsulların benefisiarlara təqdim olunmasındakı rolu sosial müdafiənin təşkilində əsas iştirakçıları ortaya çıxarır.

Bu baxımdan, maraqlar nöqteyi-nəzərdən hesab etmək lazımdır ki, **sosial müdafiənin iştirakçıları**nı üç əsas qolda fərqlənməkdədir: dövlət və ya sosial müdafiə institutu - işəgötürənlər - fərd və ya əhali. Hazırda sosial müdafiədə münasibətlərin onun iştirakçılarının maraqlarına uyğun tənzimlənilməsi inkişafın əsas məsələlərindən hesab olunur [13].

Strateji baxımdan qeyd olunmalıdır ki, sosial həssas əhalinin həyat səviyyəsinə dəstəkverici təsir göstərilməsini nəzərdə tutan sosial müdafiə sahəsi sistem olaraq onun təşkil edildiyi müdafiə alətləri və ya mexanizmlərinin sosial ehtiyaclara yönəlmiş əhatəliliyi, spektr genişliyi, bilavasitə sosial təminat və ya sosial müdafiə təyinatlı olmasından asılı olmayaraq şaxələnməsi və inkişafı səviyyəsi ilə bağlıdır.

İqtisadi sistemlərin qlobal səviyyədə tarixi inkişaf prosesində müxtəlif formalarda təzahür etməklə və tədricən formalaşma mərhələlərindən keçən sosial müdafiənin inkişafı mahiyyətcə iqtisadi imkanlar, bu imkanların genişləndirilməsi və differensiallaşdırılmış bölüşdürülməsi ilə daha sıx bağlıdır [14, s. 17-18]. Qlobal səviyyədə gəlir səviyyəsinə görə ölkə qruplaşdırılmasına münasibətdə gəlirlilik artdıqca əhalinin sosial sığorta, sosial yardım və əmək bazarına istiqamətlənmiş sosial müdafiə proqramları ilə əhatəliliyin artması qanunauyğunluğu müşahidə olunur [27, s. 32].

İqtisadi sistemin inkişafının müxtəlif sosial-iqtisadi risklərlə müşayiət olunması sosial müdafiə sahəsində də spesifik təhdidlər yaradır. Belə bir şəraitdə, sosial müdafiə sisteminin davamlı risklər fonunda idarə edilməsi və müvafiq strateji gedişlərin müəyyənləşdirilməsi müasir dövrdə onun təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Sosial müdafiə sistemlərini əhatə edən struktural (idarəetmə, maliyyələşmə, institusional) əhəmiyyətli risklər fərdlər (əhali) ilə bağlı sosial müdafiə əhəmiyyətli risklərlə müqayisədə mahiyyətcə fərqli xüsusiyyətlər ehtiva edir [16].

Sosial müdafiənin tarixi inkişafı təcrübəsini də nəzərə almaqla, qənaətimizcə, Azərbaycan Respublikasının sosial müdafiə sistemi reallıqlarında sosial müdafiə sisteminə təsirli amilləri aşağıdakı kimi təsnifləşdirmək olar:


1. **Tənzimləmə tələb edən amillər** (sosial müdafiənin endogen amilləri):
1.1. İqtisadi amillər (ümumən aşağı iqtisadi inkişaf səviyyəsi və aşağı iqtisadi

potensial, ölkədə iqtisadi dövriyyənin zəif olması, sosial müdafiə sisteminin maliyyə dayanıqlılığının zəif olması); 1.2. Sosial və ya sosial-iqtisadi amillər (demoqrafik vəziyyət, daxili və beynəlxalq miqrasiya, işsizlik, yoxsulluq, sosial müdafiəyə münasibətdə dəyişən əhali stereotipləri); 1.3. İnzibati-təşkilati (idarəetmə əsaslı) amillər (əsaslandırılmamış və ya adekvat olmayan siyasi qərar qəbulu, sosial müdafiə üzrə siyasətin düzgün işlənilməməsi, inkişaf etməmiş dövlət idarəetmə infrastrukturu, sosial müdafiə ilə məşğul olan strukturların zəif maddi-texniki bazaya malik olması, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi vəziyyəti, aşağı səviyyəli kadr potensialı); 1.4. Maarifləndirmə, sosial müdafiə ilə bağlı təbliğat-təşviqat çatışmazlığı

2**. Sərbəst amillər** (sosial müdafiənin ekzogen amilləri): müxtəlif kənar amillər (ölkədə gərgin sosial-siyasi vəziyyətin olması, müharibə və digər hərbi konfliktlər, təbiət hadisələri, təbii fəlakət, epidemioloji vəziyyət, fövqəladə hal, təbii-coğrafi yerləşmə ilə əlaqədar əlçatanlığın (kommunikasiyanın) zəif olması).

Sosial müdafiə sistemlərini əhatə edən amillər özlüyündə sosial müdafiə ilə bağlı riskləri də ehtiva etməkdədir.

Aşağıdakı sxemlə Azərbaycanın sosial müdafiə sistemi kontekstində sosial müdafiənin inkişafına təsirli olan amillərin təsnifləşdirilmiş təsvirini verə bilərik (Şəkil 1):



Şəkil 1. **Sahələrarası əlaqədə sosial müdafiənin əsas inkişafı amilləri**
(Müəllif tərəfindən məqalə üzrə məzmun ümumiləşdirilməsi əsasında tərtib edilmişdir)

Sxem (Şəkil 1.) həmçinin sosial müdafiə məsələlərinin təsnifatında əsas sektorlararası iqtisadi təsir əlaqələrinə işarə edir.

Sosial müdafiə tənzimlənilən idarəetmə sistemi olduğundan onun inkişafı ilə bağlı idarəetmə mənşəli problemlər mühüm əhəmiyyətli olmasına baxmayaraq, **sosial müdafiənin inkişafı üçün iqtisadi amillərin təsiri**nin əlverişli vəziyyətdə olması baza əhəmiyyəti kəsb edir. Belə ki, sistem daxilində idarəetmədən qaynaqlanan çatışmazlıqların aradan qaldırılması, müxtəlif istiqamətlərdə optimal yanaşmaların tətbiqilə fəaliyyət səmərəliliyinə nail olunmasının mümkünlüyünə baxmayaraq, sosial müdafiəyə maliyyə resurslarının cəlbi artırılmadan onun təkmilləşdirilməsinə nail olunması yalnız məhdud nəticələrlə müşayiət oluna bilər.

Sosial müdafiə proqramları və məhsulları ilə daha çox əhali kontingentinin əhatə olunması, eləcə də hər bir fərdə münasibətdə müdafiənin maliyyə tutumunun artırılması ilk növbədə sosial müdafiə üzrə cari xərclərin miqyasında özünü

göstərir. Beynəlxalq səviyyədə sosial-əmək məsələləri üzrə ixtisaslaşmış qurum olan Beynəlxalq Əmək Təşkilatının [9] tövsiyələrində də bu məqama toxunulur. Bu zaman xüsusən bu xərclərin ümumi daxili məhsulda payı göstəricisi əhəmiyyətli meyar hesab edilir [17, s. 149].

Qənaətimizcə, bu amil özü sosial müdafiənin iqtisadiyyatın spesifik sahəsi olmasını şərtləndirməklə, maliyyə resurslarının genişlənməsi imkanları baxımından iqtisadi inkişafla sosial müdafiənin təkmilləşməsi arasındakı asılılıq əlaqəsinin mahiyyətini də açmağa imkan verir.

Sosial müdafiədə maliyyə resurslarının mənbələri sosial müdafiənin sahəsindən asılı olaraq əsasən sığorta haqları, dövlət büdcəsi vəsaitləri ilə məhdudlaşmaya da bilər.

Belə ki, sosial müdafiənin maliyyə mənbələri, dövlət büdcəsi gəlirlərinin artımına imkan verən – proqressiv vergi genişləndirilməsi, sosial sığorta haqları normativlərinə və onun işəgötrən və işçi arasında struktur bölgüsünə yenidən baxılması, dövlət xərcləri istiqamətləri arasında yenidən prioritetləşmənin aparılması və bu zaman səmərəsiz xərclərin sosial müdafiəyə yönəldilməsi, təbii resurslardan gələn rentadan istifadə, kölgə iqtisadiyyatında rəsmiləşdirilmənin artırılması, hətta dövlət borclanması, habelə ianələr, yardım və qrant kimi mənbələrlə də genişləndirilməsi nəzərdə tutula bilər [22, s. 2-3].

Ümumiləşdirilməklə yanaşsaq, belə təsvir etmək olar ki, Azərbaycan Respublikasında sosial təminat və ya bəzi sosial müdafiə sahələri (məs. əlillərin sosial müdafiəsi, müavinətlərlə təminat, ünvanlı sosial yardım) dövlət büdcəsi vəsaitləri, sığorta mahiyyətli istiqamətlər (dövlət sosial sığorta sistemi daxilində məcburi dövlət sosial sığortası, işsizlikdən sığorta, icbari tibbi sığorta və s.) isə müvafiq büdcədənkənar fondlar vasitəsilə maliyyələşdirilməkdədir. Büdcə sistemi haqqında qanunvericiliyə görə [1] büdcədənkənar fondlar da dövlət büdcəsi ilə yanaşı, icmal büdcənin tərkib hissəsi hesab edilir ki, bu da burada maliyyələşmələrə cəlb edilən maliyyə resurslarına bütövlükdə dövlət vəsaitləri mahiyyətində baxılmasını və bu mənada onun istifadəsinə də yanaşılması zərurətini özündə ehtiva edir.

Yardım mahiyyətli sosial təminat sahələrindən fərqli olaraq, sosial müdafiə sahələrinin maliyyə resurslarının əsas mənbəyi rolunda muzdlu əsaslara söykənən məşğulluq çıxış etməklə, Azərbaycanda sosial müdafiənin aparıcı maliyyələşməsi mənbələri kimi getdikcə daha çox əhəmiyyət qazanan - dövlət sosial müdafiə fondu, işsizlikdən sığorta fondu kimi büdcədənkənar dövlət fondlarının [5], [6] maliyyə imkanlarının genişlənməsi birbaşa əməkhaqqı sistemi və onun səviyyəsi ilə bağlıdır. Kənd təsərrüfatı və sahibkarlıq gəlirlərinin də bu maliyyə resurslarının mənbə baxımından digər bir qolunu təşkil etdiyi nöqteyi-nəzərdən [4] iqtisadiyyatın qeyri-dövlət sektorunun inkişafı sosial müdafiənin maliyyə mənbələrinin genişlənməsi üçün əslində əlavə maliyyə imkanları ehtiva edir.

Azərbaycanda əmək pensiyaları və qanunla sığorta haqları hesabına ödənilməsi nəzərdə tutulan sosial müavinətlərlə təminatı nəzərdə tutan mövcud dövlət sosial sığorta sistemi (sığorta-pensiya sistemi) [2], [4] məcburi yığım və

həmrəylik əsasında bölüşdürülmə prinsiplərinə əsaslanmaqla fəaliyyət göstərməkdədir.Qeyd etmək lazımdır ki, bu qanunvericilikdə könüllü sığortalanma mexanizmlərinin tətbiqi ilə bağlı normativ imkanlar əvvəlcədən nəzərə alınsa da, bu istiqamətdə atılan addımlar praktiki müstəviyə hələ ki keçirilməmişdir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, beynəlxalq hesabatlılıq məlumatları üzrə araşdırma nəticələrinə əsasən qlobal səviyyədə də ölkələrin sosial müdafiə sistemlərinin inqtisadi imkanlarla əlaqədə hələ də inkişaf mərhələsində olduğu qənaətinə gəlmək olur [27, s. 32].

Bu çərçivədə sosial qrupların real sosial müdafiə ehtiyaclarına uyğunlaşdırılan (adaptiv) sosial müdafiə sisteminin formalaşdırılması strateji əhəmiyyətli hesab olunmaqla, **sosial müdafiə sisteminin maliyyə-resurs təminatının genişləndirilməsi, maliyyə bazarları ilə əlaqələndirilmiş fəaliyyətinin təmin olunması** son qlobal çağırış xətlərindən birini təşkil etməkdədir [26, s. 2-3].

Digər tərəfdən, dövlət sığorta-pensiya sistemlərinin maliyyə resurslarının bir hissəsinin birbaşa təminatla yanaşı, investisiyayönümlü istifadəsilə müxtəlif dividendlilik və risk xüsusiyyətlərilə birgə qlobal təcrübə formalaşmaqdadır [23].

Azərbaycan Respublikasında dövlət büdcəsinin və digər dövlət vəsaitlərinin formalaşması, idarə olunması və istifadəsinin düzgünlüyünə, səmərəliliyinə nəzarət etməklə parlament qarşısında hesabatlılıq təmin edən ali kənar dövlət maliyyə nəzarəti orqanı olan Azərbaycan Respublikası Hesablama Palatasının [3] son rəylərində də [10, s. 6-9] dövlət sosial müdafiə fondu vəsaitlərinin idarə edilməsində bu məsələlərə önəm verilməsi tövsiyə olunur.

Beləliklə, sosial müdafiənin maliyyə-resurs təminatı problem olaraq iqtisadi artım fonunda təmin edilir.

Maliyyə elminin mahiyyətinə uyğun olaraq sosial müdafiədə maliyyə idarəetməsi maliyyə dayanıqlılığı probleminin həlli ilə sıx bağlıdır.

Azərbaycanda sosial müdafiənin əsasını gəlir və xərcləri dövlət büdcəsindən asılı olmayan büdcədənkənar fondlar hesabına maliyyələşdirilən dövlət sosial sığorta sistemi (sığorta-pensiya sistemi) təşkil edir. Əmək pensiyaları və məcburi dövlət sosial sığorta haqları hesabına sosial müavinətlərlə, eləcə də işsizlikdən sığorta üzrə təminatın maliyyələşmə mənbəyi kimi çıxış edən büdcədənkənar fondlara münasibətdə sosial müdafiənin inkişafına maliyyə dayanıqlılığı probleminin həlli kontekstində baxılır. Belə ki, sosial müdafiə kateqoriyasına geniş mənada yanaşmada da icbari tibbi sığorta, işsizlikdən sığorta kimi mexanizmlərin əhatəliliyi şərtində maliyyə dayanıqlılığı məsələsi ümdə əhəmiyyətini saxlayır.

Sosial müdafiənin kəsilməz xarakterli təminat üzrə idarəetmə sistemi kimi çıxış etməsindən irəli gələrək sosial müdafiə xərclərinin maliyyə mənbələrinin formalaşdırılması istiqamətində göstərilən fəaliyyətin əsasında idarəetmə səviyyəsində müntəzəm maliyyə təhlili, nəzarət və monitorinqlərin aparılması dayanmaqdadır. Sosial müdafiədə son məhsul və ya xidmətin benefisiarlarının isə insan ömrü ilə bağlı olmasından irəli gələrək uzunmüddətli dövr üçün sosial müdafiə sistemi qarşısında xərclər formalaşdıracağı baxımından sosial müdafiədə

hər növbəti perspektiv üçün idarəetmə qərarlarının verilməsinin maliyyə proqnozları ilə uzlaşdırılması sistemin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir.

Sosial müdafiəni əhatə edən dəyişkən amillər mühitində demoqrafik proseslərin və meyllərin nəzərə alınması zərurəti getdikcə artmaqdadır.

Qlobal əhəmiyyət kəs edən bu məsələ Azərbaycan Respublikasında da dövlət səviyyəsində aktual mühüm çağırış kimi qəbul edilir [7].

Son illər Dövlət Statistika Komitəsinin hesabatları Azərbaycanda ciddi demoqrafik transformasiyadan xəbər verir. Nikahların sayının azalması fonunda boşanma hallarının çoxalması ailə institutunun zəifləməsini və ölkənin yaxın gələcəkdə demoqrafik qocalma tendensiyası ilə üz-üzə qalacağını deməyə əsas verir. 2024-cü ilin yekunları üzrə statistik hesabatlar göstərir ki, Azərbaycanda əhalinin təkrar istehsalı, həmçinin hər 1000 nəfərə düşən uşaq doğumu göstəriciləri, xüsusən son illərdə daha sürətli azalma dinamikası nümayiş etdirərək 1935-ci ildən bəri olan tarixi minimuma düşmüşdür (əhalinin təkrar istehsalı əmsalı 1,4; əhalinin hər 1000 nəfərinə doğum isə 10,0 nəfər təşkil etmişdir). Təkcə 2006-cı illə müqayisədə 2024-cü ildə əhalinin hər 1000 nəfərinə düşən nikahların sayısı təxminən 2 dəfəyə yaxın (9,4-dən 4,9-dək) azaldığı şəraitdə, boşanma göstəricisi 2,3 dəfədən çox (0,9-dan 2,1-dək) artmışdır [8, s. 110; 122; 402].

Sosial müdafiədə problem olaraq maliyyə təminatı məsələsinin və maliyyə risklərinin xarakterik olmasına baxmayaraq, nikahların azalması, boşanmaların sayının artması, nikaha daxilolma yaşının artması, doğulan uşaqların sayının azalması və s. kimi aktual demoqrafik problemlər özlüyündə eyni zamanda yığım potensialının aşağı düşməsi risklərini daşıması nöqteyi-nəzərdən sosial müdafiənin xüsusən sığorta əsaslı təminat mexanizmlərinə münasibətdə maliyyə imkanlarının zəifləməsi, həmçinin qeyri-likvidliyə mənfi mənada əlverişli zəmin yaradır.

Qeyd etmək lazımdır ki, müxtəlif sosial və iqtisadi səbəblərə bağlı olaraq əhalinin təkrar istehsalı prosesinin ləngiməsi, səhiyyə xidməti səviyyəsinin və ümumən həyat səviyyəsinin yüksəlməsi və s. nəticəsində əhali uzunömürlülüyünün artması fonunda əhalinin yaş strukturunda əmək qabiliyyətli hesab olunmayan əhali kontingentinin xüsusi çəkisinin genişlənməsi sosial müdafiədə başlıca problem olan – onun maliyyə təminatının zəifləməsinə, xüsusən sığorta prinsipilə yığım bazası üzərində fəaliyyətə əsaslanan dövlət sosial sığortası, işsizlikdən sığorta, icbari tibbi sığorta kimi mexanizmlərə münasibətdə maliyyə dayanıqlılığı probleminin, o cümlədən qeyri-likvidlik hallarının və büdcə defisitliyinin ortaya çıxmasına gətirib çıxarır.

Demoqrafik problemlərin sığorta-pensiya sistemində **maliyyə dayanıqlılığı problemi**nə yol açması səbəbilə beynəlxalq təcrübədə bəzən sosial müdafiə sisteminin əmək bazarının struktur dəyişiklikləri ilə inkişafı deyil, idarəetmə səviyyəsində parametrik, yaxud struktur islahatları mahiyyətli müdaxilələr hesabına tənzimlənilməsinə də əl atılır ki, bu da ilk növbədə əmək bazarının özünün inkişafı ilə bağlı olan bürokratik maneələr, bazarın sərbəst olmaması, əmək bazarında iştirakla bağlı gender əsaslı problemlərin olması, digər diskriminasiya halları, əmək miqrasiyası, erkən pensiyaya çıxma kimi şərtlərin yumşaldılmasını nəzərdə tutan siyasi qərarlar və s. kimi problemlərlə də əlaqəli olaraq sistemin

maliyyə mexanizmlərində aktuarial tarazlığın pozulmasına gətirib çıxarmaqla, heç də hər zaman müsbət nəticələr də vermir. Bu çərçivədə dövlət-sənaye-universitetlər modelində əməkdaşlıq münasibətlərinin inkişafı şəraitində əmək fəallığının yüksəldilməsi ilə sosial müdafiə sistemlərinə də dəstək göstərilməsi elmi araşdırmalar nəticəsində mümkün yollar qismində düşünülür [12, s.153-163]. Xüsusən gözlənilən ömür müddətinin uzanmasının pensiya sistemlərinin xərclərini artırması baxımından bəzən pensiya yaşının bir çox Avropa ölkələrində tədricən artırılması təcrübəsinin tətbiqi pensiyaların maliyyə yükünü yüngülləşdirilməyə yönəldilirsə də, bunun səhiyyə sistemləri baxımından xərcləri artıracağı ilə bağlı düşüncələr də mövcuddur. Həmçinin aparılmış sorğu nəticələrinə əsasən hesab edilir ki, pensiya çıxmanın insanın öz sağlamlıq vəziyyətini yaxşılaşdırdığı barədə qavrayışı da mövcuddur, lakin bunun sığorta və sonradan səhiyyə xərclərinin artması ilə bağlı da təsirləri nəzərə alınmalıdır [20, s. 12-13].

Bu baxımdan problemin nəzarətdə saxlanılması üçün uzunmüddətli proqnozlaşdırmaya imkan verəcək verilənlər bazasının və həmin məlumatlardan istifadə olunmaqla aktuar hesablama mexanizmlərinin təşkil edilməsi vacib məsələlərdəndir.

Hazırkı beynəlxalq inteqrasiyanın gücləndiyi şəraitdə **miqrasiya prosesləri** də sosial müdafiə sistemləri üçün müəyyən çətinliklər yaradır [18, s. 147; 19, s. 185]. Belə ki, bu proses əmək qüvvəsinin ölkədaxili və beynəlxalq balanslı paylanmasına mənfi təsir göstərməklə, özlüyündə sosial sığortaya cəlb olunma nöqteyi-nəzərdən gəlirlərin regional paylanması ilə bağlı tarazlığın da pozulması hallarını, regional əsasda işsizlik və məşğulluq problemlərini əmələ gətirir. Bu hal eyni zamanda sığorta haqları ödəyicilərinin sığorta mexanizmləri üzrə fondlara ödəmələrinin müntəzəmliyi və sistemliyinin də pozulmasına, sığorta haqlarının milli sığorta sisteminin yığım bazasından kənarda qalmasına, fərdi uçot sistemində sığortaolunanların fərdi şəxsi hesablarında kapitallarının formalaşmamasına gətirib çıxarır ki, bu da gələcəkdə fərdlərin sosial sığorta sistemi ilə əhatə olunmasını məhdudlaşdırmaqla sosial müdafiənin əhatəliliyinə birbaşa mənfi təsir göstərir. Bu kimi halların artması əhalinin yoxsulluğa meyllənməsi ilə də bağlı riskləri artırır.

Bazar iqtisadiyyatının mühüm problemlərindən biri olan işsizlik probleminin yaranması təkcə tələb və təklifə əsaslanan iqtisadi amillərlə bağlı olmamaqla, həmçinin fərdin sosial baxışları ilə də bağlıdır ki, bu amil özü də həyat səviyyəsinin qorunub saxlanılması və yüksəldilməsi üçün işsizliyin səviyyəsinin tənzimlənilməsi ilə bağlı zərurəti ortaya çıxarmaqla, əmək və məşğulluq məsələlərini sosial müdafiənin mühüm mexanizmlərindən biri kimi formalaşdırır. Əmək və məşğulluq məsələləri eyni zamanda sosial müdafiədə sığorta prinsipinə əsaslanan sadaladığımız sosial zəmanət mexanizmlərinin fəaliyyətinin təmin edilməsi üçün maliyyə probleminin həllindəki rolu baxımından əhəmiyyətli hesab edilir.

Bu baxımdan, sosial müdafiə sistemində mövcud olan problemlərin həllinə kompleks yanaşılması daha səmərəli nəticələrin əldə olunmasına zəmin yaradır.

Sosial müdafiənin dayanıqlı və proqressiv inkişafı sərbəst baş verən bir sistem deyildir. Onun məqsədyönlü inkişafı üçün ilk növbədə təkcə iqtisadi, sosial və sosial-iqtisadi mənşəli amillər təsirli olmamaqla, onun idarə edilməsi ilə bağlı problemlərin də dövlət tənzimlənməsi mahiyyətində nəzarətdə saxlanılması labüd əhəmiyyətlidir. Sosial müdafiə sisteminin idarə edilməsinə yanaşma, bu sahənin mahiyyətindən irəli gələrək iqtisadi faktorlarla yanaşı, siyasi, mədəni, mənəvi, demoqrafik və texniki-təşkilati aspektlərin qarşılıqlı əlaqədə nəzərə alınmasını zəruri edir. Məsələn, əməyin ödənilməsi, əməyin mühafizəsi və təşkili ilə bağlı insan hüquqlarına, beynəlxalq konvensiya və ya standartlara uyğun münasibətlərin qurulması bu sistem üzərində məşğulluq, vergi, sosial sığorta və s. ilə bağlı qeydiyyatlılıq, hesabatlılıq, nəzarət kimi idarəetmə məsələlərinin həlli üçün baza əhəmiyyətlidir. Bu məsələlərlə bağlı sistem xarakterli və ya fərdə münasibətdə istənilən çatışmazlıq sosial müdafiə problemi olaraq özünü büruzə verə bilir. Yaxud elektron hökumət sisteminin tətbiqinin təşviqi şəraitində sahələrə spesifik elektron idarəetmə sistemlərinin, eyni zamanda qərar qəbulu proseslərinin qurumlararası elektron informasiya mübadiləsinin lazımi səviyyədə qurulmadığı şəraitdə (informasiya təhlükəsizliyi, real vaxt rejimində və s. şərtlərdə) aparılması, elektron idarəetmə məqsədilə adekvat proqram təminatlarının olmaması müasir sosial müdafiənin inkişafını ləngidən amillərdən hesab edilir.

Bu çərçivədə vətəndaş qeydiyyatlılığının özü və vətəndaşla bağlı elektronlaşdırılmış hərtərəfli məlumatların saxlanıldığı və idarə edildiyi bütün ölkəni əhatə edən mərkəzləşdirilmiş elektron informasiya sistemlərinin qurulması beynəlxalq səviyyədə (BMT hesabatlarında) hələ də qlobal gündəmdə qalan problemlərdəndir. Bu məsələlər xüsusən vətəndaş müraciətləri halında gəlir, əmlak, sosial status, təhsil, səhiyyə və s. əhatəli məlumatların emalı və mübadiləsi əsasında qərar qəbulu zamanı əhəmiyyətli məsələ olan – sosial müdafiə əhatəliliyinin genişlənməsi üçün mühüm əhəmiyyət kəsb edir [24]. Eyni zamanda, Dünya Bankı Qrupunun Rəqəmsal İctimai İnfrastruktur üzrə hesabatına görə, parçalanmış rəqəmsal sistemlərin mövcudluğu və mərkəzləşdirilmiş vətəndaş qeydiyyatının olmaması, xüsusən də sosial müdafiə ilə bağlı institusional potensiala və effektiv dövlət xidmətlərinin göstərilməsinə mane olur [28, s. 12-28].

Sosial müdafiə sistemlərinin inkişafına təsirsiz ötüşməyən amillər sırasında iqtisadi münasibətlərlə yanaşı, **sistemdaxili idarə edilə bilən amillərdən asılı olmayaraq inkişaf edən müxtəlif amillər** də təsirlidir.

Fikrimizcə, ölkə daxilində məhkəmə təsisatlarının, hüquq mühafizə sisteminin fəaliyyəti, ictimai təhlükəsizliyin səviyyəsi, ictimai-siyasi vəziyyət, pandemiya, hərbi münaqişə, müharibə, yaxud fövqəladə vəziyyətin mövcudluğu istər-istəməz sosial müdafiə strategiyası və siyasətinin yönünü və məzmununu müəyyənləşdirir. Sosial-iqtisadi stabillik şəraitində məşğulluq, istehsal və sahibkarlığın inkişafı ilə əlaqədar gəlirlərin formalaşması bazasında, həmçinin sosial müdafiə mexanizmlərinin müvəffəqiyyətli həyata keçirilməsi yolu ilə əhalinin sosial həssas hissəsi arasında maliyyə resurslarının müəyyən formalarda bölüşdürülməsi sosial müdafiənin inkişafı üçün mühüm rol oynamaqdadır. Bu

məqsədlə qeyd edilən amillərin sosial müdafiənin idarəetməsi səviyyəsində nəzarətə götürülməsi üçün elmi yanaşmalarla əsaslanan təhlil, monitorinq və qiymətləndirilmələrin aparılması dövlət idarəetmə aparatı qarşısında idarəetmənin tərkib hissəsi kimi sosial müdafiəyə münasibətdə spesifik idarəetmə tələbləri formalaşır.

Eyni zamanda **subyektiv təsirlərlə əlaqəli olmayan müxtəlif təbiət hadisələri**nin də sosial müdafiə sisteminə təsirləri qiymətləndirilməlidir. Nisbətən daha az əlverişli iqlimi, nəqliyyat-kommunikasiya imkanları zəif olan yaşayış məntəqələrində əhalinin sosial müdafiə ilə əhatə edilməsi və real rejimdə sosial müdafiə xidmətlərinin göstərilməsi də inzibati və maliyyə əhəmiyyəti baxımından problemli məsələyə çevrilir.

Hazırda spesifik təsiri amili kimi, **əhalinin hüquqi və maliyyə savadlılığının aşağı olması** və ya rəqəmsal və inzibati idarəetmə sistemləri ilə bağlı məlumatsızlığı da sosial müdafiənin təşkili və həyata keçirilməsi baxımından idarəetmə problemi hesab edilir [21, s. 13, s. 15, s. 39]

Təbii **ərazi uzaqlığı** halı özü ilə qeydiyyatlılıq, yaxud nəzarət-monitorinq imkanlarını azaltmaqla özlüyündə bəzən sosial müdafiənin inzibati effektivliyinə mənfi təsir göstərən amillər kimi çıxış edir. Dünya Bankının 2024-cü il tarixli "İndoneziyanın ucqar ərazilərində sosial müdafiənin inklüzivliyi" hesabatında coğrafi təcridin xidmətlərə çıxışı maneə törətdiyi, vətəndaşlıq qeydiyyatını məhdudlaşdırdığı və monitorinq imkanlarını ciddi şəkildə azaltdığı vurğulanır [29, s. 6-25].

Müharibə və ya hərbi əməliyyatlar, epidemik və ya pandemik şərait, iqlim dəyişiklikləri və digər böhranlı vəziyyətlər də sosial müdafiə sistemləri qarşısında çoxşaxəli təzyiq formalaşdırılması ilə nəticələnir. Bu amilin sosial müdafiəyə təsir göstərən endogen amillərlə müqayisədə mahiyyət fərqi sosial müdafiə sistemləri qarşısında əlavə və gözlənilməz maliyyə tələbatı (xərci) formalaşdırması ilə səciyyəvidir.

World Bank Group (2023) hesabatı, böhranlı vəziyyətlərin sosial müdafiə sistemlərinə inzibati, məlumat bazaları və maliyyə baxımından çoxşaxəli təzyiqlər yaratdığını qeyd edir, növbəti böhranlı vəziyyətlərə hazırlıq olaraq operativ şəkildə monitorinq, çatdırılma və qiymətləndirmələrə hazır effektiv sosial müdafiə sisteminin qurulmasını vacib hesab edir və bu məqsədlərlə həssas əhali qruplarının dəstəklənməsi və onların ehtiyaclarının ödənilməsinə imkan verəcək proqram dizaynının əvvəlcədən müəyyən edilməsi strategiyasının seçilməsini vacib hesab edir [30, s. 46-47].

Azərbaycanda 2020-ci ilin birinci rübünün sonundan yayılmağa başlamış və həmin il ərzində kəskin təsirli olmuş (2021-ci ildən etibarən səngimələr müşahidə edilməklə) COVID-19 pandemiyası dövründə həyata keçirilmiş sosial müdafiə əhəmiyyətli dövlət dəstəyi tədbirlərini kifayət qədər müsbət tənzimləmə təcrübəsi kimi qiymətləndirmək olar. Belə ki, həmin vaxt ölkədə mikrosahibkarlara fəaliyyətlərini dayandırmaları ilə əlaqədar maddi yardımlar verilmiş, bəzi sahələrdə daha aşağı sığorta tarifləri və vergi güzəştləri tətbiq edilmiş, ünvanlı

sosial yardım ödənilməsi müddətinin müəyyən müddətə uzadılması praktikası tətbiq edilmişdir [15].

Sadalanılan amillərlə bağlılığı olmaqla, törəmə olaraq hesab edə biləcəyimiz – **qeyri-formal iqtisadi münasibətlər** də müasir şəraitdə sosial müdafiəyə təsirli amil kimi qiymətləndirilir [21, s. 40].

Belə ki, qlobal miqyasda ölkələr səviyyəsində fərqlər müşahidə edilməsinə baxmayaraq, kölgə iqtisadiyyatının iqtisadiyyatın tərkib hissəsi kimi mövcudluğu [31] sosial-iqtisadi inkişafın bütün sahələrinə olduğui kimi, sosial müdafiənin maliyyə əsaslarını da sarsıtmaqla vergi gəlirləri və sosial sığorta fondlarına daxilolmaların lazımı səviyyədə olmasına, gəlirlərin dinamikasına və sistemin maliyyə təminatı və dayanıqlılığına maneəçilik təşkil edir. Belə bir şəraitdə yığım potensialının doğru qiymətləndirilməməsinə süni şəkildə şərait yaradılmaqla, cari yığım axınının da dövlət büdcəsi və digər fondlara daxil olmasının zəifləməsi baş verir ki, bu, xüsusən məşğulluq məsələləri ilə bağlı çatışmazlıqlar sosial müdafiə hüquqlarının təmin olunması, əhalinin sosial müdafiə ilə əhatə olunması kimi istiqamətlərdə problemlərin daha çox qabarmasını qaçılmaz edir. Bu halda məhsuldarlığın aşağı düşməsilə istehsal imkanlarının da zəifləməsi multiplikativ effektdə iqtisadiyyatın təbii genişlənməsinin və nəticədə sosial müdafiənin də maliyyə dayanıqlılığının zəifləməsinə gətirib çıxarır.

Beləliklə, sosial müdafiənin inkişafına təsir edən amillər çoxsaylı olmaqla, həmin amillər fərqli zaman və fərqli sosial-iqtisadi münasibətlər mühitində fərqli dərəcədə təsir imkanlarına malik olur. Qənaətimizcə, bu baxımdan sosial müdafiənin davamlı inkişafı və təkmilləşdirilməsi istiqamətində mahiyyət etibarilə dinamik olan sosial müdafiə strategiyalarının konkret zaman müddətləri üçün onu əhatə edən bütün əsas amillər qiymətləndirilməklə işlənilməsi və tətbiqi, təxirəsalınmaz səmərəli idarəetmə yanaşmalarının rəhbər tutulması şərtləndirilir.

NƏTİCƏ

Məqalədə Azərbaycan Respublikasında sosial müdafiə sisteminin inkişafı baxımından sosial müdafiəni əhatə edən amillərin kompleks təhlili əsasında aşağıdakı elmi-praktiki nəticələrə gəlinir:

1. **Amillərin sistemli xarakteri:** Sosial müdafiə sisteminin inkişafı həm daxili idarəetmə qərarlarından (endogen), həm də müharibə, pandemiya, təbii-iqlim problemləri və qlobal sosial-iqtisadi konyunktur kimi kənar təsirlərdən (ekzogen) birbaşa asılıdır. Tədqiqat göstərir ki, sosial müdafiə təkcə sosial deyil, həm də maliyyə resurslarının iqtisadi dövriyyəsi ilə sıx bağlı olan spesifik bir iqtisadi sahədir.

2. **Maliyyə dayanıqlılığı problemi:** Sosial müdafiənin inkişafı istənilən nəticədə iqtisadi artımla düz mütənasibdir. Azərbaycanda sosial müdafiənin maliyyə mənbələri kimi çıxış edən - büdcədənkənar fondların (dövlət sosial müdafiə fondu, işsizlikdən sığorta fondu) gəlir bazasının əsasən muzdlu məşğulluğa və sığorta haqlarına söykənməsi, sistemin maliyyə dayanıqlılığını

əmək bazarının şəffaflığından və qeyri-dövlət sektorunun inkişafından asılı vəziyyətə salır. Bu baxımdan sosial müdafiə sistemi üçün alternativ (əlavə) maliyyə mənbələrinin formalaşdırılması aktual əhəmiyyətlidir.

3. **Demoqrafik risklərin aktuallığı:** Baş verən uzunömürlülüyün artması və demoqrafik yaşlanma tendensiyası fonunda əmək qabiliyyətli olmayan əhalinin xüsusi çəkisinin yüksəlməsi sığorta-pensiya sistemində aktuarial tarazlığın pozulması riskini yaradır. Nikah-boşanma dinamikasındakı neqativ meyillər və miqrasiya prosesləri gələcək yığım potensialını zəiflədən mühüm faktorlardır.

4. **Rəqəmsal idarəetmənin rolu:** Müasir mərhələdə sosial müdafiənin əhatə dairəsinin genişlənməsi mərkəzləşdirilmiş elektron informasiya sistemlərinin və qurumlararası məlumat mübadiləsinin effektivliyindən birbaşa asılıdır.

Tədqiqatın nəticələrinə əsasən aşağıdakı təkliflər irəli sürülür:

- **Aktuar proqnozlaşdırmanın gücləndirilməsi:** Sosial müdafiə xərclərinin uzunmüddətli dövr üçün maliyyə proqnozlaşdırılması məqsədilə müasir aktuar hesablama mexanizmləri və genişləndirilmiş verilənlər bazası formalaşdırılmalıdır;
- **İnvestisiyayönümlü modelə keçid:** Sığorta-pensiya sisteminin maliyyə resurslarının bir hissəsinin maliyyə bazarlarında investisiya edilməsi və dividend gəlirlərinin əldə olunması vasitəsilə sistemin özünümaliyyələşdirmə imkanları artırılmalıdır;
- **Qeyri-formal məşğulluqla mübarizə:** "Kölgə iqtisadiyyatı"nın aradan qaldırılması və əmək münasibətlərinin rəsmiləşdirilməsi sosial müdafiə hüquqlarının təmin olunması və yığım bazasının genişləndirilməsi üçün prioritet istiqamət kimi saxlanılmalıdır;
- **Kompleks idarəetmə yanaşması:** Sosial müdafiə strategiyaları hazırlanarkən təkcə iqtisadi deyil, həm də sosial-psixoloji, demoqrafik və regional əlçatanlıq amilləri qarşılıqlı əlaqədə nəzərə alınmalıdır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

I. Azərbaycan Respublikasının normativ-hüquqi aktları

1. Azərbaycan Respublikasının "Büdcə sistema haqqında" Qanunu: Bakı şəhəri, 2 iyul 2002-ci il, № 358-IIQ // [Elektron resurs]. URL: https://e-qanun.az/framework/1126
2. Azərbaycan Respublikasının "Əmək pensiyaları haqqında" Qanunu: Bakı şəhəri, 7 fevral 2006-cı il, № 54-IIIQ // [Elektron resurs]. URL: https://e-qanun.az/framework/11566
3. Azərbaycan Respublikasının "Hesablama Palatası haqqında" Qanunu, № 1199-VQ // Hüquqi Aktların Dövlət Reyestri [Elektron resurs]. – URL: https://e-qanun.az/framework/39922 (Müraciət tarixi: 14.05.2026).
4. Azərbaycan Respublikasının "Sosial sığorta haqqında" Qanunu: Bakı şəhəri, 18 fevral 1997-ci il, № 250-IQ // [Elektron resurs]. URL: https://e-qanun.az/framework/3813
5. "Dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (09 dekabr 2025-ci il, № 293-VIIQ) // Hüquqi Aktların

Vahid Elektron Bazası (e-qanun.az) [Elektron resurs]. – URL https://e-qanun.az/framework/61113 (Müraciət tarixi: 14.05.2026).
6. "İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (09 dekabr 2025-ci il, № 294-VIIQ) // Hüquqi Aktların Vahid Elektron Bazası (e-qanun.az) [Elektron resurs]. – URL: https://e-qanun.az/framework/61132 (Müraciət tarixi: 14.05.2026).
7. "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (11 noyabr 2004-cü il, № 517) // Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti [Elektron resurs]. – URL: https://www.migration.gov.az/content/pdf/967380974825a42d887db528911a9340.pdf

II. Azərbaycan dilində olan elmi ədəbiyyat və resurslar

8. Azərbaycanın demoqrafik göstəriciləri: statistik məcmuə / Dövlət Statistika Komitəsi. – Bakı: DSK, 2025. – 644 s. – [Səhifələr: 110, 122, 402].
9. Beynəlxalq Əmək Təşkilatı: Azərbaycan MDB-də ən çox BƏT-in standartlarını qəbul etmiş ölkələrdən biridir // Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi: [rəsmi internet portalı]. – 30 oktyabr 2024. – S. 18. – URL: https://sosial.gov.az/media/xeberler/beynelxalq-emek-teskilati-azerbaycan-mdb-de-en-cox-bet-in-standartlarini-qebul-etmis-olkelerden-biridir (Müraciət tarixi: 14.05.2026).
10. Dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsinin layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi üzrə xülasə. – Bakı: Hesablama Palatası, 2025. – S. 6-9. – URL: https://sai.gov.az/files/budce_xulasesi/X%C3%9CLAS%C6%8F%202026%20DSMF-35397.pdf (Müraciət tarixi: 14.05.2026).
11. "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində də Sosial Tədqiqatlar Mərkəzi. Elmi-analitik materiallar toplusu [Elektron resurs]. – S. 18. – URL: http://stm.gov.az/frq-content/plugins/socialjournal_x1/item/file/20251118102728_26875900.pdf (Müraciət tarixi: 14.05.2026).

III. Xarici dillərdə olan ədəbiyyat

12. Ağören, V. Sosyal güvenlik sisteminin finansman krizine yönelik yeni yaklaşımlar: / Doktora Tezi / V. Ağören. - Ankara, 2024. – 191 s. – [s. 153-163]. – URL: https://dspace.ankara.edu.tr/server/api/core/bitstreams/2b3fe7b6-7574-48db-a70f-7369dcf73b19/content
13. Burchi, F., Loewe, M., Malerba, D., Leininger, J. Disentangling the relationship between social protection and social cohesion: introduction to the special issue // European Journal of Development Research, 2022, Vol. 34, No. 3, pp. 1195–1215. – URL: https://doi.org/10.1057/s41287-022-00532-2
14. Ghețan, D., Paierele, A. Social protection systems and economic growth // Theoretical and Applied Economics, 2020, Vol. XXVII, No. 3(624), pp. 17–18. – URL: https://store.ectap.ro/articole/1470.pdf
15. Guliyev, F. Azerbaijan's social policy response to Covid-19: Swift response, modest benefits [Electronic resource] / F. Guliyev // CRC 1342 Covid-19 Social Policy Response Series, No. 8. – Bremen, 2021. – URL: https://media-

api.suub.uni-bremen.de/api/core/bitstreams/7a3e439a-0239-44e2-85d6-06dffaf0ff94/content
16. International Labour Organization (ILO). Social protection: Topic portal // ILO Official Platform, 2026. – URL: https://www.ilo.org/topics-and-sectors/social-protection
17. World Social Protection Report 2024–26: Universal social protection for climate action and a just transition. Geneva: ILO, 2024, 380 p. URL: https://www.ilo.org/sites/default/files/2024-09/WSPR_2024_EN_WEB_1.pdf (müraciət tarixi: 20.05.2026).
18. International Labour Organization (ILO). World Social Protection Report 2020–22: Social protection at the crossroads [Electronic resource]. – Geneva: ILO, 2021. – p. 147. – URL: https://www.ilo.org/publications/flagship-reports/world-social-protection-report-2020-22-social-protection-crossroads-%E2%80%93 (müraciət tarixi: 20.05.2026).
19. International Organization for Migration (IOM). World Migration Report 2022 [Electronic resource]. – Geneva: IOM, 2022. – p. 185. – URL: https://publications.iom.int/books/world-migration-report-2022 (müraciət tarixi: 20.05.2026).
20. Keuschnigg, C., Kogler, M. Die Wirtschaft im Wandel: Innovation, soziale Sicherheit, und Wohlfahrt. – St. Gallen: Springer Nature, 2021. – 237 s. – s. 12-13. – URL: URL:https://library.oapen.org/bitstream/handle/20.500.12657/46824/2021_Book_DieWirtschaftImWandel.pdf?sequence=1&isAllowed=y
21. OECD. Social Protection System Review: A Toolkit, OECD Development Policy Tools. Paris: OECD Publishing, 2018, pp. 13; 15; 39. URL: https://www.oecd.org/content/dam/oecd/en/publications/reports/2018/12/social-protection-system-review_g1g9a88a/9789264310070-en.pdf (müraciət tarixi: 20.05.2026).
22. Ortiz, I., Cummins, M., Karunanethy, K. Fiscal Space for Social Protection and the SDGs: Options to Expand Social Investments in 187 Countries / I. Ortiz, M. Cummins, K. Karunanethy // ILO Autumn/ESS Working Paper, No. 48. – Geneva: International Labour Office, 2017. – pp. 2–3. – URL: https://socialprotection-humanrights.org/wp-content/uploads/2017/07/51537.pdf
23. Stieber H. An enhanced role for insurers and pension funds in funding risky investments and boosting EU capital markets?: Briefing. Brussels: European Parliament, Economic Governance and EMU Scrutiny Unit (EGOV), 2026, 10 p. URL: https://www.europarl.europa.eu/RegData/etudes/BRIE/2026/779839/ECTI_BRI(2026)779839_EN.pdf (müraciət tarixi: 14.05.2026).
24. United Nations. Handbook on Civil Registration and Vital Statistics Systems: Management, Operation and Maintenance, Rev. 1 / United Nations Department of Economic and Social Affairs. – New York: United Nations, 2016. – URL: https://unstats.un.org/unsd/demographic-social/Standards-and-Methods/files/Handbooks/crvs/crvs-mgt-E.pdf.
25. United Nations. Global Overview: Global research on governance and social protection / Department of Economic and Social Affairs (DESA). – New York:

United Nations, 2021. – pp. 16-18. – URL: https://www.un.org/development/desa/dspd/wp-content/uploads/sites/22/2021/08/Global-overview_SP-Governance_June-2021.pdf
26. Weingärtner L., Ulrichs M., Costella C. [et al.] Linking Financial Services and Social Protection for Resilience in Kenya: Working paper. London: ODI, 2019, pp. 2–3. URL: https://media.odi.org/documents/12701.pdf (müraciət tarixi: 14.05.2026).
27. World Bank. State of Social Protection Report 2025: The 2-Billion-Person Challenge [Electronic resource] / World Bank Group. – Washington, D.C.: World Bank, 2025. – p. 32. – URL: https://www.worldbank.org/en/topic/socialprotection/publication/state-of-social-protection-2025-2-billion-person-challenge (Müraciət tarixi: 14.05.2026).
28. World Bank Group. Digital Public Infrastructure and Development: A World Bank Perspective // World Bank Open Knowledge Repository. – Washington, D.C.: World Bank, 2022. – pp. 12-28. – URL: https://documents1.worldbank.org/curated/en/099031025172027713/pdf/P505739-84c5073b-9d40-4b83-a211-98b2263e87dd.pdf
29. World Bank Group. Social Protection Inclusion in Indonesia's Remote Areas. – Washington, DC: World Bank, 2024. – pp. 6-25. – URL: https://documents1.worldbank.org/curated/en/099062624071020814/pdf/P177341-b77c6fc9-f2db-4e5c-b24f-c41e1ce945ca.pdf
30. World Bank Group. Social Protection in a World of Crisis: Learning from the COVID-19 Response in Armenia, Azerbaijan, Georgia, Moldova, and Ukraine. – Washington, DC: World Bank, 2023. – pp. 46-47 (və s. 211). – URL: https://openknowledge.worldbank.org/entities/publication/1f6c4468-0276-4ce3-985f-e59add242aa6
31. World Economics. Azerbaijan's Informal Economy Size: Database [Data table]. London: World Economics, 2026. URL: https://www.worldeconomics.com/Informal-Economy/Azerbaijan.aspx (müraciət tarixi: 20.05.2026).

Məqalənin redaksiyaya daxilolma tarixi: 20.05.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 26.05.2026
Məqalənin çapa daxil olunma tarixi: 20.07.2026

UOT: 33.338., 379.85, 391/393
DOI: doi.org/10.61226/12.2.2023/20262.2
Aqil ƏSƏDOV
İqtisadi İslahatların Təhlili və Kommunikasiya
Mərkəzinin şöbə müdiri,
iqtisad elmləri doktoru, dosent
agil.asadov@ereforms.gov.az
orcid.org/0000-0002-8020-8922
Zəhra QASIMZADƏ
zahra.gasimzade@ozu.edu.tr,
Prezident mükafatçısı, İslahat könüllüsü

MİLLİ BRENDLƏRİN FORMALAŞMASI VƏ RƏQƏMSAL YÜKSƏLİŞİ: XİDMƏT SEKTORUNDA AZƏRBAYCANIN İDENTİKLİYİ

Xülasə. Müasir dövrdə qlobal rəqabət mühitində ölkələrin iqtisadi dayanıqlığı yalnız maddi resurslarla deyil, həm də milli-mədəni kapitalın effektiv istifadəsi ilə müəyyən olunur. Bu baxımdan milli brendlərin formalaşdırılması və onların rəqəmsal mühitdə mövqeləndirilməsi xüsusi aktuallıq kəsb edir. Məqalədə Azərbaycanın xidmət sektorunda milli identiklik üzərində qurulan brendləşmə modelləri təhlil edilir və bu istiqamətdə mövcud potensial qiymətləndirilir. Araşdırma göstərir ki, mədəni irs elementlərinin – o cümlədən xalçaçılıq, kəlağayı sənəti, regional mətbəx və çay mədəniyyətinin – iqtisadi dəyərə çevrilməsi qeyri-neft sektorunun inkişafında mühüm rol oynaya bilər. Eyni zamanda "Made in Azerbaijan" brendinin gücləndirilməsi milli məhsulların beynəlxalq bazarda rəqabət qabiliyyətini artıran əsas alətlərdən biri kimi çıxış edir. Məqalədə Türkiyə təcrübəsi ilə müqayisəli yanaşma aparılaraq Azərbaycan üçün uyğun model təklif edilir. Nəticə etibarilə milli brendlərin inkişafı iqtisadi artımla yanaşı, milli identikliyin qorunması və təşviqi baxımından da strateji əhəmiyyət daşıyır.

Açar sözlər: *Azərbaycan, potensial-oriyentasiyalı yanaşma, milli brend, mədəni identiklik, xidmət sahələri, turizm, kəlağayı, Şəki, Qarabağ, Türkiyə və s.*

Agil ASADOV
Zahra GASİMZADE

FORMATION OF NATIONAL BRANDS AND DIGITAL RISE: AZERBAIJAN'S IDENTITY IN THE SERVICE SECTOR

Abstract. In the modern era, the economic stability of countries in a global competitive environment is determined not only by material resources, but also by the effective use of national and cultural capital. In this regard, the formation of national brands and their positioning in the digital environment is of particular relevance. The article analyzes the branding models built on national identity in

the service sector of Azerbaijan and assesses the existing potential in this direction. The study shows that the transformation of cultural heritage elements – including carpet weaving, kelagayi art, regional cuisine and tea culture – into economic value can play an important role in the development of the non-oil sector. At the same time, strengthening the "Made in Azerbaijan" brand acts as one of the main tools that increase the competitiveness of national products in the international market. The article proposes a suitable model for Azerbaijan by taking a comparative approach with the experience of Turkey. Consequently, the development of national brands is of strategic importance in terms of economic growth, as well as the protection and promotion of national identity.

Keywords: *Azerbaijan, potential-oriented approach, national brand, cultural identity, service sectors, tourism, kelagayi, Sheki, Karabakh, Turkey, etc.*

Агил АСАДОВ
Захра ГАСИМЗАДЕ

ФОРМИРОВАНИЕ НАЦИОНАЛЬНЫХ БРЕНДОВ И ЦИФРОВОЙ РАЗВИТИЕ: ИДЕНТИЧНОСТЬ АЗЕРБАЙДЖАНА В СФЕРЕ УСЛУГ

Резюме. В современную эпоху экономическая стабильность стран в условиях глобальной конкуренции определяется не только материальными ресурсами, но и эффективным использованием национального и культурного капитала. В этой связи особое значение приобретает формирование национальных брендов и их позиционирование в цифровой среде. В статье анализируются модели брендинга, построенные на национальной идентичности в сфере услуг Азербайджана, и оценивается существующий потенциал в этом направлении. Исследование показывает, что трансформация элементов культурного наследия – включая ковроткачество, искусство келагайи, региональную кухню и чайную культуру – в экономическую ценность может играть важную роль в развитии не нефтяного сектора. В то же время, укрепление бренда «Сделано в Азербайджане» является одним из главных инструментов повышения конкурентоспособности национальной продукции на международном рынке. В статье предлагается подходящая модель для Азербайджана на основе сравнительного анализа с опытом Турции. Следовательно, развитие национальных брендов имеет стратегическое значение с точки зрения экономического роста, а также защиты и продвижения национальной идентичности.

Ключевые слова: *Азербайджан, потенциально-ориентированный подход, национальный бренд, культурная идентичность, сектор услуг, туризм, келагайи, Шеки, Карабах, Турция и др.*

GİRİŞ

Qloballaşma şəraitində milli iqtisadiyyatların rəqabət qabiliyyəti yalnız istehsal həcmi və ya texnoloji inkişaf səviyyəsi ilə deyil, eyni zamanda ölkənin özünəməxsus dəyərlərini iqtisadi sistemə inteqrasiya etmə bacarığı ilə müəyyən olunur. Bu kontekstdə milli brendlər həm iqtisadi, həm də mədəni identikliyin daşıyıcısı kimi çıxış edir və ölkənin beynəlxalq imicinin formalaşmasında mühüm rol oynayır.

Azərbaycan iqtisadiyyatında son illərdə aparılan islahatlar qeyri-neft sektorunun inkişafını prioritet istiqamət kimi müəyyən etmişdir [1]. Bu istiqamətdə "Made in Azerbaijan" təşəbbüsü yerli məhsul və xidmətlərin beynəlxalq bazarlarda tanıdılması üçün strateji platforma rolunu oynayır. Mövcud potensiala baxmayaraq, milli brendlərin sistemli və davamlı şəkildə formalaşdırılması, onların rəqəmsal mühitdə effektiv təqdimatı və qlobal bazarlara inteqrasiyası hələ də aktual olaraq qalır.

Milli brendlərin inkişafı yalnız iqtisadi faktorlarla məhdudlaşmır; bu proses həm də xalqın tarixi-mədəni irsinin müasir iqtisadi modelə uyğunlaşdırılmasını tələb edir. Azərbaycanın zəngin mədəni elementləri – o cümlədən kəlağayı sənəti, xalçaçılıq ənənələri, milli mətbəx və çay mədəniyyəti – düzgün brendləşmə strategiyası ilə yüksək əlavə dəyər yaradan iqtisadi resursa çevrilə bilər.

Eyni zamanda, rəqəmsallaşma və yeni texnologiyalar milli brendlərin təşviqində yeni imkanlar açır. Sosial media platformaları, e-ticarət sistemləri və rəqəmsal marketinq alətləri vasitəsilə lokal məhsulların qlobal auditoriyaya çıxışı daha əlçatan olmuşdur. Bu isə milli dəyərlərin yalnız qorunması deyil, həm də müasir bazar mexanizmləri vasitəsilə kommersiyalaşdırılması üçün əlverişli şərait yaradır.

Bu məqalənin əsas məqsədi Azərbaycanın xidmət sektorunda milli brendlərin formalaşdırılması imkanlarını təhlil etmək, mövcud problemləri müəyyənləşdirmək və beynəlxalq təcrübə əsasında effektiv inkişaf istiqamətləri təklif etməkdir. Bu çərçivədə Türkiyə modeli ilə müqayisəli yanaşma aparılaraq Azərbaycan üçün praktik tətbiq edilə biləcək nəticələr irəli sürülür.

POTENSİAL-ORİYENTASİYALI YANAŞMANIN NƏZƏRİ ƏSASLARI

İqtisadi potensial anlayışı ənənəvi olaraq təbii resurslar, əmək ehtiyatları və kapital imkanları ilə əlaqələndirilmişdir. Lakin müasir iqtisadi nəzəriyyədə potensial daha geniş məna daşıyır və institusional, mədəni və sosial resursları da əhatə edir. Bu kontekstdə potensial-oriyentasiyalı inkişaf modeli mövcud, lakin tam reallaşdırılmamış imkanların üzə çıxarılmasını və sistemli iqtisadi mexanizmlərlə aktivləşdirilməsini nəzərdə tutur.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyalarında regional balansın qorunması [3] və yerli resursların səmərəli istifadəsi əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir. Bu yanaşma potensial-oriyentasiyalı modelin praktiki tətbiqi üçün institusional baza yaradır. Xüsusilə regionların ixtisaslaşması

siyasəti yerli üstünlüklərin müəyyən edilməsi və həmin üstünlüklərin iqtisadi dəyərə çevrilməsi istiqamətində mühüm addımdır.

Potensial yalnız maddi resurslarla məhdudlaşmır. Mədəni irs, ənənəvi sənətkarlıq, regional mətbəx və sosial davranış modelləri də iqtisadi dəyər yarada bilən qeyri-maddi resurslardır. Bu resursların sistemli şəkildə brendləşdirilməsi [9] və xidmət sektoruna inteqrasiyası dayanıqlı inkişaf üçün mühüm zəmin yaradır.

Araşdırmalar göstərir ki, iqtisadiyyat cəmiyyətin sosial strukturu və mədəni xüsusiyyətlərindən təcrid olunmuş şəkildə mövcud ola bilməz. Hər bir ölkənin iqtisadi modeli onun tarixi təcrübəsi, mentaliteti və dəyərlər sistemi ilə sıx bağlıdır. Azərbaycan cəmiyyətində ailə institutunun güclü olması, kollektivçilik meyilləri və ənənəvi qonaqpərvərlik mədəniyyəti xidmət sektorunun inkişafı üçün mühüm sosial baza yaradır.

Mədəni-sosial kontekst nəzərə alınmadan qurulan iqtisadi strategiyalar uzunmüddətli perspektivdə effektiv olmur. Bu səbəbdən regional brendləşmə və xidmət sektorunun inkişafı prosesində yerli əhalinin dəyərləri, adət-ənənələri və sosial münasibət formaları diqqət mərkəzində saxlanılmalıdır.

Türkiyə təcrübəsi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Türkiyədə regional mədəniyyət elementləri – qastronomiya, sənətkarlıq, tarixi irs – iqtisadi inkişaf strategiyasının ayrılmaz hissəsinə çevrilmişdir. Məsələn, müəyyən şəhərlərin konkret mədəni xüsusiyyətlər üzərində mövqeləndirilməsi həm daxili, həm də beynəlxalq turizm axınını artırmışdır. Bu model Azərbaycan üçün də uyğun adaptasiya nümunəsi ola bilər.

Milli-mədəni xüsusiyyətlər, adət-ənənələr ilə yanaşı, milli ruh da iqtisadi tərəqqidə önəmli rol oynayır. Ümumiyyətlə, milli ruh anlayışı yalnız ideoloji kateqoriya deyil, həm də iqtisadi davranış modelinə təsir edən amildir. İstehsalçı və istehlakçı davranışı, yerli məhsula münasibət, sahibkarlıq təşəbbüsləri milli identiklik və özünüdərk səviyyəsi ilə sıx əlaqəlidir. Milli ruh üzərində qurulan iqtisadi strategiya daxili bazarda yerli məhsullara üstünlük verilməsini təşviq edir, regional brendlərin formalaşmasını sürətləndirir və ixrac potensialını gücləndirir. Bu kontekstdə coğrafi göstəricilərin tətbiqi, mədəni irsin qorunması və milli məhsulların beynəlxalq platformalarda tanıdılması strateji əhəmiyyət daşıyır.

Azərbaycanın tarixi-mədəni müxtəlifliyi iqtisadi strategiyanın diferensiallaşdırılmış formada qurulmasına imkan verir. Hər bir regionun özünəməxsus identikliyi mövcuddur və bu identiklik iqtisadi modelin əsas dayağına çevrilə bilər. Beləliklə, milli ruh və iqtisadi potensial bir-birini tamamlayan və qarşılıqlı şəkildə gücləndirən kateqoriyalar kimi çıxış edir.

MİLLİ BRENDLƏRİN İQTİSADİ ROLU VƏ NƏZƏRİ ƏSASLARI

Müasir iqtisadi nəzəriyyələrdə brendləşmə yalnız marketinq aləti kimi deyil, eyni zamanda strateji iqtisadi resurs kimi qiymətləndirilir. Xüsusilə milli brendlər ölkənin yumşaq gücünün (soft power) formalaşmasında və ixrac potensialının genişləndirilməsində mühüm rol oynayır. Bu baxımdan milli brendlər həm daxili

bazarda istehlakçı davranışlarına təsir edir, həm də beynəlxalq bazarlarda ölkənin rəqabət üstünlüyünü artırır.

Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən siyasətlər milli brendlərin formalaşdırılmasını zəruri edir. Statistik göstəricilər göstərir ki, son illərdə qeyri-neft ixracının artım dinamikası müşahidə olunsa da, bu artımın strukturunda yüksək əlavə dəyər yaradan brend məhsulların payı hələ də məhduddur. Bu isə onu göstərir ki, istehsal mövcuddur, lakin brendləşmə və bazar mövqeləndirilməsi kifayət qədər inkişaf etməmişdir.

Azərbaycan iqtisadiyyatında milli brendlərin rəqabət qabiliyyətinin yüksəldilməsi üçün təkcə istehsalın artırılması kifayət deyil; eyni zamanda istehsal olunan məhsulların effektiv şəkildə bazara təqdimatı və brendləşdirilməsi də mühüm rol oynayır. Bu göstərir ki, milli brendlər iqtisadi sistemdə yalnız tamamlayıcı element deyil, eyni zamanda əsas komponentlərdən biridir.

Milli brendlərin iqtisadi təsiri bir neçə istiqamətdə özünü göstərir [7]. İlk növbədə, brendləşmə məhsulun əlavə dəyərini artıraraq daha yüksək qiymətlə satış imkanları yaradır. İkinci olaraq, güclü brend istehlakçı etibarını formalaşdırır və bazarda davamlı tələb yaradır. Üçüncü olaraq isə milli brendlər ölkənin turizm sektoruna dolayı təsir göstərərək xidmət ixracını genişləndirir.

Bu kontekstdə Azərbaycanın zəngin mədəni irsi mühüm iqtisadi resurs kimi çıxış edə bilər. Məsələn, kəlağayı, xalçaçılıq və milli mətbəx elementləri yalnız mədəni dəyər daşımır, eyni zamanda düzgün mövqeləndirmə ilə beynəlxalq bazarlarda premium seqmentə daxil ola biləcək məhsullardır. Bu isə "Made in Azerbaijan" brendinin təkcə məhsul mənşəyi deyil, keyfiyyət və orijinallıq göstəricisi kimi qəbul edilməsinə şərait yaradır.

Eyni zamanda, qlobal təcrübə göstərir ki, milli brendlərin inkişafı üçün dövlət dəstəyi, institusional koordinasiya və özəl sektorun aktiv iştirakı vacib şərtlərdir. Bu elementlərin sinerjisi olmadan milli brendlərin davamlı və sistemli inkişafı mümkün olmur.

AZƏRBAYCANIN XİDMƏT SEKTORUNUN MÖVCUD VƏZİYYƏTİ VƏ STRUKTUR XÜSUSİYYƏTLƏRİ

Azərbaycan iqtisadiyyatında xidmət sektoru son illərdə ÜDM-in formalaşmasında mühüm paya malik olmuşdur [10]. Ticarət, nəqliyyat, turizm, ictimai iaşə, maliyyə və digər xidmət sahələri qeyri-neft sektorunun əsas istiqamətlərini təşkil edir. Dövlət səviyyəsində aparılan iqtisadi şaxələndirmə siyasəti xidmət sektorunun inkişafını prioritet kimi müəyyən etmişdir.

Bununla belə, xidmət sektorunun mövcud inkişaf modeli əsasən şəhər mərkəzli və standartlaşmış xidmətlər üzərində qurulmuşdur. Regional identiklik və mədəni potensialın sistemli şəkildə bu sektora inteqrasiyası hələ tam reallaşmamışdır. Halbuki, Azərbaycanın hər bir bölgəsi spesifik iqtisadi-mədəni üstünlüklərə malikdir və bu üstünlüklər xidmət sektorunun diferensial inkişafı üçün geniş imkanlar yaradır. Xidmət sektorunun dayanıqlı inkişafı üçün üç əsas amil vacibdir:

– regional ixtisaslaşma;
– brendləşmə və bazar mövqeləndirməsi;
– mədəni kapitalın iqtisadi mexanizmlərə inteqrasiyası.

Bu baxımdan regional modellərin formalaşdırılması [6], yalnız turizm sahəsinin deyil, ümumi-likdə xidmət sektorunun rəqabət qabiliyyətini artıran strateji yanaşma kimi qəbul edilə bilər. Konkret nümunələr üzərində yanaşmanı daha ətraflı nəzərdən keçirək.

Məsələn, Şəki şəhəri tarixən sənətkarlıq və ticarət mərkəzi kimi formalaşmışdır. Bu şəhərin mətbəxi özünəməxsus kulinariya ənənələri ilə seçilir və artıq daxili turizmdə müəyyən mövqeyə malikdir. "Şəki mətbəxi modeli" regional qastronomiyanın sistemli şəkildə brendləşdirilməsi və xidmət sektoruna inteqrasiya konsepsiyasını ifadə edir. Bu model çərçivəsində aşağıdakı istiqamətlər prioritet hesab edilə bilər:

- Şəkiyə məxsus məhsulların pasportlaşdırılması (patentləşdirilməsi) və qorunması;
- tematik restoran və kulinariya festivallarının təşkili;
- mətbəx mədəniyyətinin turizm marşrutlarına inteqrasiyası;
- kulinariya üzrə peşə təhsili proqramlarının genişləndirilməsi.

Türkiyədə Qaziantep mətbəxinin beynəlxalq səviyyədə tanınması və UNESCO-nun "Yaradıcı Şəhərlər Şəbəkəsi"nə daxil edilməsi regional qastronomiyanın iqtisadi təsir gücünü nümayiş etdirir. Oxşar model Şəki üçün tətbiq olunduğu halda region həm daxili, həm də xarici turist axını baxımından daha güclü mövqeyə sahib ola bilər. Beləliklə, Şəki mətbəxi yalnız qida sektoru deyil, həm də turizm, təhsil və kiçik sahibkarlıq üçün çoxşaxəli iqtisadi platformaya çevrilə bilər.

Digər bir nümunə Qarabağ xalça identikliyidir. Azərbaycan xalçaçılıq ənənəsi beynəlxalq səviyyədə tanınmış mədəni irs nümunəsidir. Qarabağ xalça məktəbi isə ornamentika və kompo-zisiya baxımından xüsusi fərqlənir. "Qarabağ xalça identikliyi" modeli bu sənətin iqtisadi kapitallaşdırılmasını və xidmət sektoruna inteqrasiyasını nəzərdə tutur. Bu istiqamətdə aşağıdakı mexanizmlər təklif oluna bilər:

- xalça emalatxanalarının turizm obyektinə çevrilməsi;
- "canlı istehsal" konsepsiyası əsasında turistlər üçün təcrübə proqramları;
- dizayn və interyer sektorunda Qarabağ ornamentlərinin istifadəsi;
- yüksək gəlirli bazarlara yönəlmiş premium ixrac strategiyası.

Türkiyədə Kapadokya və Konya bölgələrində xalçaçılıq sənətinin turizm məhsulu kimi təqdim edilməsi iqtisadi baxımdan uğurlu nəticələr vermişdir. Azərbaycan da Qarabağ regionunda analoji yanaşmanı tətbiq etməklə həm mədəni irsi qoruyar, həm də regionun sosial-iqtisadi dirçəlişinə töhfə verə bilər. Bu model mədəniyyət, turizm və istehsal sektorları arasında sinerji yaradır və yüksək əlavə dəyər formalaşdırır.

Oxşar təcrübənin Lənkəran çay mədəniyyəti timsalında da nəzərdən keçirə bilərik. Aydındır ki, Lənkəran bölgəsi Azərbaycanın çayçılıq mərkəzi kimi tanınır. Çay yalnız kənd təsərrüfatı məhsulu deyil, sosial ünsiyyət və

qonaqpərvərlik mədəniyyətinin ayrılmaz hissəsidir. "Lənkəran çay mədəniyyəti" modeli aqrar sektor ilə xidmət sektorunun inteqrasiyasına əsaslanır. Bu modelin əsas istiqamətləri aşağıdakılar ola bilər:

- çay plantasiyalarının aqroturizm obyektlərinə çevrilməsi;
- çay dequstasiya və təqdimat mərkəzlərinin yaradılması;
- yerli çay brendlərinin formalaşdırılması və ixrac təşviqi;
- çay mədəniyyəti festivallarının təşkili.

Türkiyənin Rize bölgəsində çay turizminin inkişafı göstərir ki, kənd təsərrüfatı məhsulu düzgün marketinq və infrastrukturla xidmət sektorunun əsas dayaqlarından birinə çevrilə bilər. Azərbaycan üçün Lənkəran modeli regional məşğulluğun artmasına və kənd yerlərində gəlir səviyyəsinin yüksəlməsinə şərait yarada bilər.

Bu yanaşma aqrar potensialın dəyər zəncirinin genişləndirilməsi və əlavə xidmət komponentləri ilə zənginləşdirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Yuxarıda təqdim olunan regional modellər ümumi xidmət sektorunun struktur transformasiyasını tələb edir. Bu transformasiya üçün aşağıdakı strateji addımlar məqsədəuyğun hesab edilir:

- Regional brendlərin dövlət səviyyəsində vahid konsepsiya əsasında koordinasiyası;
- Coğrafi göstərici sisteminin geniş tətbiqi və beynəlxalq qeydiyyat mexanizmlərinin aktivləşdirilməsi;
- Dövlət–özəl sektor tərəfdaşlığının gücləndirilməsi;
- Regional xidmət klasterlərinin yaradılması və ixtisaslaşma siyasətinin dərinləşdirilməsi;
- Milli xüsusiyyətlərin qorunması şərti ilə Türkiyə təcrübəsinin adaptasiyası.

Bu yanaşma nəticəsində xidmət sektoru yalnız iqtisadi fəaliyyət sahəsi kimi deyil, həm də milli identikliyin daşıyıcısı kimi formalaşa bilər.

AZƏRBAYCANIN MİLLİ BREND POTENSİALI VƏ PRAKTİK İMKANLAR

Azərbaycan zəngin tarixi-mədəni irsə malik ölkə kimi milli brendlərin formalaşdırılması üçün unikal resurs bazasına sahibdir. Bu resurslar yalnız mədəni dəyər kimi deyil, eyni zamanda iqtisadi baxımdan yüksək əlavə dəyər yaradan məhsul və xidmətlərə çevrilə biləcək potensiala malikdir. Lakin bu potensialın tam reallaşdırılması üçün sistemli yanaşma və müasir brendləşmə strategiyalarının tətbiqi vacibdir.

Azərbaycanın milli brend potensialının əsas istiqamətlərindən biri ənənəvi sənətkarlıq nümunələridir. Xüsusilə kəlağayı sənəti UNESCO tərəfindən qeyri-maddi mədəni irs kimi tanınmaqla yanaşı, həm də beynəlxalq bazarlarda fərqləndirilə biləcək unikal məhsuldur. Kəlağayının dizayn, rəng və simvolika baxımından zənginliyi onu yalnız suvenir deyil, həm də yüksək moda seqmentində mövqeləndirilə biləcək məhsula çevirir. Lakin bu sahədə əsas problem məhsulun

müasir bazar tələblərinə uyğunlaşdırılması və effektiv marketinq strategiyalarının çatışmazlığıdır.

Digər mühüm istiqamət milli mətbəxdir. Azərbaycan mətbəxi müxtəlifliyi və orijinallığı ilə seçilir və bu sahədə brendləşmə potensialı olduqca yüksəkdir. Kulinariya ənənələrinin iqtisadi potensialı ilə bağlı [5] azərbaycanlı alim, əməkdar mədəniyyət işçisi T.Əmiraslanov qeyd edir ki, milli mətbəx yalnız qida deyil, eyni zamanda ölkənin mədəniyyətinin və həyat tərzinin təqdimat vasitəsidir. Plov, dolma, piti kimi milli yeməklər artıq region səviyyəsində tanınsa da, onların qlobal səviyyədə sistemli şəkildə təqdimatı hələ də məhduddur. Halbuki düzgün konseptual yanaşma ilə bu məhsullar restoran şəbəkələri, hazır qida məhsulları və kulinariya turizmi vasitəsilə "Made in Azerbaijan" brendi altında beynəlxalq bazarlara çıxarıla bilər.

Çay mədəniyyəti də Azərbaycanın milli identikliyinin ayrılmaz hissəsidir. Çayın təqdimat forması, onun ətrafında formalaşan sosial münasibətlər və istifadə olunan atributlar (armudu stəkan və s.) bu sahəni fərqləndirən əsas elementlərdir. Bu xüsusiyyətlər düzgün brendləşmə ilə yalnız daxili istehlak deyil, həm də turizm və ixrac yönümlü xidmətlərə çevrilə bilər.

Bununla yanaşı, Azərbaycanın regionlarına xas olan lokal məhsullar da milli brend potensialının mühüm hissəsini təşkil edir. Məsələn, müəyyən bölgələrə aid kənd təsərrüfatı məhsulları, əl işləri və ənənəvi istehsal üsulları coğrafi göstərici əsaslı brendləşmə üçün əlverişli imkanlar yaradır. Bu isə həm regionların iqtisadi inkişafına töhfə verir, həm də məhsulların autentikliyini qoruyur.

Mövcud potensial imkanlar, Azərbaycanın nəqliyyat-tranzit-logistika imkanları nəzərə alınaraq resursların daha sistemli və planlı şəkildə təqdim olunması zəruridir. Milli brendlərin vahid konsepsiya əsasında formalaşdırılması, onların rəqəmsal platformalarda aktiv təşviqi və beynəlxalq bazar tələblərinə uyğunlaşdırılması zəruri şərtlər kimi çıxış edir. Xüsusilə, rəqəmsal marketinq, e-ticarət və sosial media alətləri bu prosesdə mühüm rol oynaya bilər.

Nəticə etibarilə, Azərbaycanın milli brend potensialı kifayət qədər genişdir, lakin bu potensialın iqtisadi dəyərə çevrilməsi üçün ənənəvi elementlərin müasir biznes modelləri ilə inteqrasiyası əsas şərt kimi çıxış edir.

TÜRKİYƏ MODELİ İLƏ MÜQAYİSƏ VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Milli brendlərin formalaşdırılması sahəsində beynəlxalq təcrübə göstərir ki, uğurlu nəticələr əsasən sistemli dövlət siyasəti, effektiv marketinq strategiyaları və milli dəyərlərin müasir yanaşmalarla təqdim olunması ilə bağlıdır. Bu baxımdan Türkiyə təcrübəsi Azərbaycan üçün öyrənilə biləcək uğurlu modellərdən biri hesab olunur.

Türkiyədə milli məhsulların və xidmətlərin beynəlxalq bazarlarda təşviqi məqsədilə həyata keçirilən "Turquality" proqramı brendləşmə prosesinin institusional səviyyədə dəstəklənməsinin uğurlu nümunəsidir. Bu proqram çərçivəsində şirkətlərə maliyyə dəstəyi, marketinq resursları və beynəlxalq bazarlara çıxış imkanları təqdim olunur. Nəticədə, Türkiyəyə məxsus tekstil, qida

və xidmət sektorunda fəaliyyət göstərən bir çox brendlər qlobal bazarda tanınan markalara çevrilmişdir.

Azərbaycanla müqayisədə əsas fərqlərdən biri brendləşmə prosesinin koordinasiyalı şəkildə həyata keçirilməsidir. Azərbaycanda "Made in Azerbaijan" təşəbbüsü mühüm addım olsa da, bu istiqamətdə fəaliyyətlərin daha sistemli və uzunmüddətli strategiya əsasında qurulmasına ehtiyac vardır. Xüsusilə özəl sektorun bu prosesə daha aktiv şəkildə cəlb olunması və dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi vacibdir.

Digər mühüm fərq milli dəyərlərin təqdimat formasında özünü göstərir. Türkiyə təcrübəsində ənənəvi elementlər müasir dizayn və marketinq yanaşmaları ilə birləşdirilərək qlobal auditoriyaya uyğunlaşdırılır. Azərbaycanda isə bu elementlər çox zaman yalnız lokal və ənənəvi çərçivədə təqdim olunur ki, bu da onların beynəlxalq bazarlarda rəqabət qabiliyyətini məhdudlaşdırır.

Bu kontekstdə Azərbaycanın milli brendlərinin inkişafı üçün bir sıra istiqamətlər müəyyən edilə bilər. İlk növbədə, milli məhsulların vahid brend konsepsiyası altında birləşdirilməsi və onların "Made in Azerbaijan" adı altında sistemli şəkildə təşviqi təmin olunmalıdır. İkinci olaraq, rəqəmsal platformaların imkanlarından daha geniş istifadə edilməli, e-ticarət və sosial media vasitəsilə qlobal auditoriyaya çıxış gücləndirilməlidir. Üçüncü olaraq isə milli dəyərlərin müasir dizayn və innovativ yanaşmalarla inteqrasiyası təmin edilməlidir.

Bu çərçivədə tövsiyələrdən biri də brendləşmə prosesində hekayələndirmə yanaşmasının tətbiqidir. "Storytelling approach in branding" (brendinqdə hekayə danışma yanaşması) müasir marketinqdə istehlakçı ilə emosional əlaqə qurmaq üçün ən effektiv alətlərdən biri hesab olunur. Bu yanaşmaya görə, məhsul yalnız fiziki xüsusiyyətləri ilə deyil, onun arxasında dayanan mədəniyyət, tarix və insan hekayələri ilə təqdim olunur. Məsələn, kəlağayı yalnız bir tekstil məhsulu kimi deyil, qadın zərifliyini, milli kimliyi və ornomentləri özündə əks etdirən simvol kimi təqdim edildikdə onun bazar dəyəri və cəlbediciliyi əhəmiyyətli dərəcədə artır.

Eyni zamanda, "digital storytelling" (rəqəmsal hekayələndirmə) vasitəsilə milli brendlərin sosial media platformalarında daha geniş auditoriyaya çatdırılması mümkündür. Bu isə xüsusilə gənc nəsil istehlakçılar arasında brendə olan marağın və bağlılığın artmasına səbəb olur.

Nəticə etibarilə, Türkiyə təcrübəsi göstərir ki, milli brendlərin uğurlu inkişafı üçün ənənəvi dəyərlərlə müasir texnologiyaların sintezi əsas şərtdir. Azərbaycan üçün də bu istiqamətdə atılacaq addımlar milli brendlərin beynəlxalq bazarlarda mövqeyinin güclənməsinə və qeyri-neft sektorunun davamlı inkişafına əhəmiyyətli töhfə verə bilər.

NƏTİCƏ

Aparılan təhlil göstərir ki, Azərbaycanın iqtisadi inkişaf perspektivləri yalnız makroiqtisadi göstəricilər və maliyyə investisiyaları ilə müəyyən olunmur; mədəni-sosial kapitalın iqtisadi sistemə inteqrasiyası da dayanıqlı və rəqabətqabiliyyətli inkişaf üçün vacib şərtdir. Potensial-oriyentasiyalı yanaşma

resursların struktur və funksional imkanlarını nəzərə alaraq regional mədəni identiklik elementlərini – qastronomiya, sənətkarlıq, aqrar ənənələr, çay və turizm mədəniyyəti – iqtisadi artımın strateji dayaqları kimi qiymətləndirir.

Praktiki nümunələr göstərir ki, Şəki mətbəxinin xidmət sektoruna inteqrasiyası və Şirniyyat Festivalı çərçivəsində paxlava brendləşməsi, Qarabağ xalçasının premium bazara çıxarılması və Lənkəran çay mədəniyyətində xidmət klasterlərinin formalaşdırılması milli iqtisadi potensialın reallaşdırılmasının uğurlu nümunələridir. Bu yanaşma milli ruhu gücləndirir, yerli məhsula etimadı artırır və sahibkarlıq təşəbbüslərini stimullaşdırır.

Türkiyənin "Turquality" proqramı təcrübəsi göstərir ki, regional mədəniyyət elementlərinin sistemli brendləşdirilməsi və rəqəmsal platformalarda tanıdılması xidmət sektorunun sürətli inkişafına və beynəlxalq bazarlarda rəqabət üstünlüyünün əldə olunmasına xidmət edir. Azərbaycan üçün də regional klasterlərin fokuslu və ixtisaslaşmış şəkildə qurulması, dövlət–özəl sektor tərəfdaşlığının gücləndirilməsi və vahid rəqəmsal brend konsepsiyasının tətbiqi strateji əhəmiyyət daşıyır.

Nəticə etibarilə, milli-mədəni kontekst əsasında iqtisadi potensialın reallaşdırılması Azərbaycan üçün alternativ inkişaf yolu deyil, həm də strateji zərurətdir. Qeyri-neft sektorunun gücləndirilməsi, regionlararası tarazlığın təmin olunması və milli brendlərin inkişafı yalnız iqtisadi artımı deyil, həm də milli identikliyin qorunmasını təmin edir.

ƏDƏBİYYAT

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". https://president.az/az/articles/view/50474;
2. "Made in Azerbaijan" təşviq mexanizmləri haqqında məlumat. https://economy.gov.az;
3. Azərbaycan Respublikasının "Azərbaycan Respublikasında qeyri-neft sektorunun inkişafına dair Strateji Yol Xəritəsi", 2016, İqtisadiyyat Nazirliyi. https://economy.gov.az
4. "Azərbaycanda qeyri-neft sektorunun inkişaf istiqamətləri və prioritetləri". Bakı, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu, 2020;
5. Əmiraslanov T. Azərbaycan mətbəxi və kulinariya ənənələri. Bakı: Mədəniyyət Nəşriyyatı, 2018.
6. Əlirzayev Ə. "Turizmin iqtisadiyyatı və idarə olunması". Bakı: Təhsil Nəşriyyatı, 2017.
7. Məmmədov E. "Turizmin inkişafı və milli brendləşmə məsələləri". Bakı: Elmi Məqalələr Toplusu, 2019.
8. Hacızadə Y. "Zəfərə aparan yol". https://azertag.az/xeber/Zefere_aparan_yol-1923424;
9. "Azərbaycanda mədəni irsin iqtisadi potensialı və onun inkişaf perspektivləri". Bakı, 2019;
10. https://stat.gov.az;

Məqalənin redaksiyaya daxilolma tarixi: 26.05.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 01.06.2026
Məqalənin çapa daxil olunma tarixi: 20.07.2026

UOT 336.71:005.334
DOI: doi.org/10.61226/12.2.2023/20262.3
Camal HACIYEV
Azərbaycan Turizm və Menecment Universiteti
Menecment kafedrasının müdiri, i.ü.f.d.dos
ORCID: 0000-0002-6409-3010
jamal.hajiyev@atmu.edu.az

Azərbaycan Turizm və Menecment Universiteti,
Nəzrin Mehdiyeva
Magistrant
ORCID:0009-0000-1071-8372
mehtiyevan64@gmail.com

AZƏRBAYCAN KOMMERSİYA BANKLARINDA RİSKLƏRİN İDARƏ EDİLMƏSİNDƏ BEYNƏLXALQ HƏLLİ STANDARTLARIN TƏTBİQİ PROBLEMLƏRİ VƏ YOLLARI

Xülasə

Müasir dövrümüzdə bank sektorunda risklərin səmərəli idarə olunması maliyyə sabitliyinin təmin edilməsində əsas amillərdən biri sayılır. Qlobal maliyyə bazarlarında baş verən dalğalanmalar bankların fəaliyyətində risklərin daha dəqiq təhlil edilməsi və idarə olunmasını zəruri etmişdir. Bu səbəbdən beynəlxalq təcrübədə formalaşmış risk idarəetmə standartlarının tətbiqi Azərbaycanda kommersiya bankları üçün xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan bank sektorunda beynəlxalq standartların, xüsusilə də Bazel prinsiplərinin tətbiq edilməsi istiqamətində mühüm addımlar atılmışdır. Bununla yanaşı, proses zamanı bir sıra çətinliklərlə müşayiət olunur. Mühim problemlər sırasında risklərin qiymətləndirilməsi üçün etibarlı məlumat bazasının məhdudluğu, müasir informasiya texnologiyalarının kifayət qədər inkişaf etməməsi, ixtisaslı kadr çatışmazlığı və bir sıra banklarda korporativ idarəetmə mexanizmlərinin yetərincə formalaşmaması nümunə göstərilə bilər. Bundan başqa, beynəlxalq standartların tətbiqi əlavə maliyyə xərcləri tələb etdiyindən xüsusilə kiçik və orta ölçülü banklar üçün bu proses daha da mürəkkəb xarakter daşıyır.

Mövcud olan problemlərin aradan qaldırılması məqsədilə banklarda risk mədəniyyətinin gücləndirilməsi, əməkdaşların peşəkar hazırlıq səviyyəsinin artırılması və rəqəmsal texnologiyalara investisiyaların genişləndirilməsi vacibdir

Nəticə etibarilə, beynəlxalq risk idarəetmə standartlarının tətbiqi Azərbaycanda bank sektorunun dayanıqlılığının artırılmasına, maliyyə sabitliyinin möhkəmləndirilməsinə və bankların beynəlxalq maliyyə sisteminə inteqrasiyasının daha da sürətləndirilməsinə xidmət edir. Mövcud çətinliklərin sistemli formada aradan qaldırılması gələcəkdə daha güvənilir və rəqabətqabiliyyətli bank sektorunun formalaşmasına təkan verəcəkdir.

***Açar sözlər**: Azərbaycan bank sistemi, Beynəlxalq standartlar, Bazel prinspləri.*

PROBLEMS AND SOLUTIONS FOR THE IMPLEMENTATION OF INTERNATIONAL STANDARDS IN RISK MANAGEMENT IN AZERBAIJANI COMMERCIAL BANKS

Summary

In the modern era, the effective management of risks in the banking sector is considered one of the key factors in ensuring financial stability. Fluctuations in global financial markets have made it necessary for banks to analyze and manage risks more accurately in their operations. For this reason, the application of risk management standards formed in international practice is of particular importance for commercial banks in Azerbaijan.

In the Azerbaijani banking sector, important steps have been taken towards the implementation of international standards, especially the Basel principles. However, this process is accompanied by a number of challenges. Among the major problems are the limited availability of a reliable data base for risk assessment, insufficient development of modern information technologies, a shortage of qualified personnel, and the inadequate formation of corporate governance mechanisms in some banks. In addition, since the implementation of international standards requires additional financial costs, this process is particularly complex for small and medium-sized banks.

In order to eliminate existing problems, it is essential to strengthen the risk culture in banks, improve the professional training level of employees, and expand investments in digital technologies.

In conclusion, the implementation of international risk management standards contributes to increasing the stability of the banking sector in Azerbaijan, strengthening financial stability, and further accelerating the integration of banks into the international financial system. The systematic elimination of existing difficulties will contribute to the formation of a more reliable and competitive banking sector in the future.

Keywords*: Azerbaijani banking system,* International standards*, Basel principles.*

ПРОБЛЕМЫ ПРИМЕНЕНИЯ МЕЖДУНАРОДНЫХ СТАНДАРТОВ В УПРАВЛЕНИИ РИСКАМИ В КОММЕРЧЕСКИХ БАНКАХ АЗЕРБАЙДЖАНА И ПУТИ ИХ РЕШЕНИЯ

Резюме

В современную эпоху эффективное управление рисками в банковском секторе считается одним из основных факторов обеспечения финансовой стабильности. Колебания на глобальных финансовых рынках обусловили необходимость более точного анализа и управления рисками в деятельности банков. По этой причине применение стандартов управления рисками, сформированных в международной практике, имеет особое значение для коммерческих банков в Азербайджане.

В банковском секторе Азербайджана уже предприняты важные шаги в направлении внедрения международных стандартов, особенно принципов

Базельского комитета. Вместе с тем данный процесс сопровождается рядом трудностей. Среди основных проблем можно выделить ограниченность надежной базы данных для оценки рисков, недостаточный уровень развития современных информационных технологий, нехватку квалифицированных кадров, а также недостаточную сформированность механизмов корпоративного управления в ряде банков. Кроме того, поскольку внедрение международных стандартов требует дополнительных финансовых затрат, данный процесс особенно сложен для банков малого и среднего размера.

В целях устранения существующих проблем необходимо усиление культуры управления рисками в банках, повышение уровня профессиональной подготовки сотрудников, а также расширение инвестиций в цифровые технологии.

В заключение следует отметить, что внедрение международных стандартов управления рисками способствует повышению устойчивости банковского сектора Азербайджана, укреплению финансовой стабильности и дальнейшему ускорению интеграции банков в международную финансовую систему. Системное устранение существующих трудностей будет способствовать формированию более надежного и конкурентоспособного банковского сектора в будущем.

Ключевые слова: *Азербайджанская банковская система, Международные стандарты, Базельские принципы.*

GİRİŞ

Qloballaşma, maliyyə bazarlarının inteqrasiyası və bank sektorunda artan rəqabət kommersiya banklarının risklərə qarşı daha həssas və eyni zamanda daha çevik olmasını zəruri edir. Xüsusilə 2008-ci il qlobal maliyyə böhranından sonra bank sektorunda risklərin idarə edilməsi məsələsi beynəlxalq səviyyədə prioritet sahələrdən birinə çevrilmişdir. Bu kontekstdə Bazel Komitəsinin tövsiyələri (Bazel I, II və III), COSO ERM, IFRS 9 və ISO 31000 kimi beynəlxalq standartlar bank risklərinin effektiv idarə olunmasında əsas çərçivə rolunu oynayır.

Bazel I əsasən sadə risk çəkilərindən istifadə etməklə kredit riskinə yönəlmişdir. Bazel II bu yanaşmanı genişləndirərək minimum kapital tələbləri, nəzarətçi baxışı və bazar intizamından ibarət üç sütunlu çərçivəni tətbiq etmiş, eyni zamanda əməliyyat riskini nəzərə almış və daxili risk modellərindən istifadəyə imkan yaratmışdır.

2008-ci il qlobal maliyyə böhranına cavab olaraq Bazel III tənzimləyici çərçivəni daha da gücləndirmiş, Ümumi Birinci Səviyyə Kapitalına (CET1) xüsusi diqqət yetirməklə kapitalın keyfiyyətini artırmış, Likvidlik Örtük Əmsalı (LCR), Xalis Sabit Maliyyələşmə Əmsalı (NSFR) və Leverage əmsalı kimi likvidlik və borclanma tələblərini tətbiq etmiş, Kapitalın Qorunması və Antitsiklik buferlər daxil olmaqla kapital buferlərini formalaşdırmış və bank sisteminin dayanıqlığını yüksəltmək məqsədilə riskə həssaslığı artırmışdır.

Hazırda dünya Bazel III çərçivəsini, daha dəqiq desək, böhrandan sonrakı

yekun islahatlarını tətbiq edir. Bu islahatlar əvvəlki Bazel III standartları üzərində qurularaq bank kapitalını, likvidliyi və risklərin idarə olunmasını daha da gücləndirməyi hədəfləyir və tam tətbiqi mərhələli şəkildə həyata keçirilir, bir çox hallarda 2028-ci ilə qədər uzadılır. Bəzi komponentlər bir çox ölkədə artıq tam tətbiq olunsa da, çıxış həddi və bazar riski qaydaları kimi digər elementlər hələ də tətbiq mərhələsindədir.

Azərbaycan hal-hazırda Bazel III standartlarını aktiv şəkildə tətbiq edir, əsas diqqəti kapital yetərliliyi, risk idarəçiliyi və xüsusilə likvidliyin gücləndirilməsinə yönəldir; Likvidlik Ödəniş Qabiliyyəti Nisbətinin (LCR) mərhələli tətbiqi 2025-ci ilin avqustunda başlayıb və tam uyğunluq 2027-ci ilin sonuna qədər nəzərdə tutulur, bu da maliyyə sabitliyini artırır. Azərbaycan Mərkəzi Bankı (AMB) həmçinin Bazel III prinsiplərinə uyğun yeni Riskə əsaslanan Nəzarət modelini hazırlayır.

Azərbaycan kommersiya bankları da bu standartların tətbiqinə mərhələli şəkildə başlamışdır. Lakin tətbiq prosesi bir sıra institusional, metodoloji və texnoloji problemlərlə müşayiət olunur. Məqalənin məqsədi Azərbaycan kommersiya banklarında risklərin idarə edilməsində beynəlxalq standartların tətbiqi zamanı qarşıya çıxan əsas problemləri təhlil etmək və onların aradan qaldırılması üçün mümkün həlli yollarını müəyyən etməkdir.

Bazel Bank Nəzarəti Komitəsi ardıcıl olaraq üç əsas çərçivə – Bazel I, Bazel II və Bazel III – vasitəsilə qlobal bank tənzimlənməsinin formalaşmasında mühüm rol oynamışdır. Bu razılaşmalar kapital adekvatlığı tələblərini təkmilləşdirmiş, risklərin ölçülməsi yanaşmalarını inkişaf etdirmiş və nəzarət və açıqlama standartlarını gücləndirmişdir.

Bazel I minimum kapital tələbləri üçün standartlaşdırılmış yanaşmanı tətbiq etmiş, Bazel II isə riskə həssas modelləri və üçsütunlu sistemini (minimum kapital tələbləri, nəzarət yoxlaması və bazar intizamı) təqdim etmişdir. Bazel III isə 2008-ci il böhranından sonra aşkar olunan zəifliklərə cavab olaraq kapital buferlərini, likvidlik tələblərini və leverec məhdudiyyətlərini daha da sərtləşdirmişdir.

ƏSAS HİSSƏ

Azərbaycanın bank sisteminin inkişaf istiqamətləri və banklarda risk menecmentinin praktik məsələləri

Yeni qlobal maliyyə sistemində kommersiya banklarının dayanıqlığı, etibarlılığı və uzunmüddətli inkişaf perspektivləri birbaşa risklərin səmərəli idarə olunması səviyyəsindən asılıdır. Bank fəaliyyəti təbiət etibarilə yüksək risk daşıdığı üçün kredit, bazar, likvidlik, əməliyyat və reputasiya risklərinin vaxtında müəyyən edilməsi və effektiv şəkildə idarə edilməsi maliyyə sabitliyinin əsas şərtlərindən biri hesab olunur. Ona görə risklərin idarəedilməsi kommersiya banklarının yalnız müdafiə mexanizmi deyil, həmçinin strateji idarəetmə aləti kimi fəaliyyət göstərir.

Beynəlxalq təcrübə göstərir ki, bank sektorunda risklərin idarəedilməsi yalnız ayrı-ayrı risklərin azaldılması ilə məhdudlaşmır, həmçinin institusional idarəetmənin gücləndirilməsi, korporativ nəzarət mexanizmlərinin

təkmilləşdirilməsi və prudensial tənzimləmə çərçivələrinin tətbiqi ilə sıx şəkildə əlaqəlidir. Yeni bankçılıq mühitində risklərin idarə olunması qərar qəbuletmə proseslərinə inteqrasiya edilir, risk iştahı və risk strategiyası bankın ümumi inkişaf strategiyası ilə uyğunlaşdırılır. Bu yanaşma bankların maliyyə nəticələrinin daha dayanıqlı olmasına və gözlənilməz şoklara qarşı müqavimətinin artmasına şərait yaradır.

Qlobal maliyyə böhranlarından sonra inkişaf etmiş ölkələrdə risklərin idarəedilməsi sistemləri daha kompleks, sistemli və qabaqlayıcı xarakter almışdır. Maliyyə böhranları bank nəzarətində mövcud boşluqları və risklərin gec aşkar edilməsinin yaratdığı ciddi nəticələri üzə çıxarmışdır. Son nöqtədə beynəlxalq maliyyə institutları və tənzimləyici orqanlar tərəfindən kapital adekvatlığı, likvidlik ehtiyatları, stress-testlər və şəffaf hesabatlılıq tələbləri sərtləşdirilmişdir. Bu dəyişikliklər risklərin yalnız baş verdikdən sonra deyil, potensial təhlükə mərhələsində idarə olunmasını zəruri etmiş və bank risklərinin idarəedilməsində qabaqlayıcı yanaşmanın əhəmiyyətini artırmışdır (Drehmann, M., & Nikolaou, K, 2021,s. 43).

Beynəlxalq səviyədə risklərin idarəedilməsinin əsas metodoloji bazası Bank for International Settlements tərəfindən hazırlanmış Basel standartlarına əsaslanır. Bu standartlar bank nəzarəti və prudensial tənzimləmə sahəsində qlobal miqyasda qəbul olunmuş çərçivə kimi çıxış edərək, kommersiya banklarında risklərin ölçülməsi, qiymətləndirilməsi və idarə olunması üçün vahid prinsiplər formalaşdırır. Basel yanaşması risklərin idarəedilməsini yalnız mikro səviyyədə deyil, həmçinin makroprudensial kontekstdə, yəni maliyyə sisteminin ümumi sabitliyi prizmasından nəzərdən keçirir.

Cədvəl 1. Bazel standartlarının müqayisəli təhlili

Müqayisə meyarı	Bazel I	Bazel II	Bazel III
Qəbul olunma dövrü	1988-ci ildə qəbul edilmişdir	2004-cü ildə qəbul edilmişdir	2010-cu ildən sonra mərhələli tətbiq edilməyə başlanmışdır
Əsas məqsəd	Bankların kapital adekvatlığını təmin etmək	Risklərin daha dəqiq ölçülməsi və idarə olunması	Bank sisteminin böhranlara qarşı dayanıqlığını artırmaq
Əsas diqqət sahəsi	Kredit riski	Kredit riski, bazar riski və əməliyyat riski	Kapital keyfiyyəti, likvidlik riski, sistem riskləri və maliyyə sabitliyi
Kapital adekvatlığı tələbi	Minimum kapital adekvatlığı 8% müəyyən edilmişdir	8% kapital tələbi saxlanılmış, lakin risklərin ölçülməsi daha təkmilləşdirilmişdir	Kapitalın keyfiyyətinə daha ciddi tələblər qoyulmuşdur

Risk yanaşması	Sadə və ümumi risk çəkiləri tətbiq olunur	Risklər daha geniş və fərqli metodlarla qiymətləndirilir	Risklərin kompleks idarə edilməsi və stress-testlər ön plana çıxır
Kredit riskinin qiymətləndirilməsi	Kreditlər standart risk çəkilərinə əsasən qiymətləndirilir	Reytinq əsaslı yanaşmalar tətbiq olunur	Kredit riski ilə yanaşı kapital buferləri də nəzərə alınır
Bazar riski	İlkin variantda tam əhatə olunmurdu	Daha geniş nəzərə alınır	Daha ciddi nəzarət və kapital tələbləri ilə tənzimlənir
Əməliyyat riski	Nəzərə alınmırdı	İlk dəfə ayrıca risk növü kimi daxil edilmişdir	Əməliyyat risklərinin idarə olunması daha da gücləndirilmişdir
Likvidlik tələbləri	Xüsusi likvidlik standartları yox idi	Likvidlik riski dolayı formada nəzərə alınırdı	Likvidlik Örtüyü Əmsalı və Sabit Maliyyələşmə Əmsalı tətbiq edilmişdir
Nəzarət mexanizmi	Əsasən kapital normasına nəzarət edilir	Üç sütun yanaşması tətbiq olunur: minimum kapital tələbi, nəzarət prosesi və bazar intizamı	Makroprudensial nəzarət və sistem əhəmiyyətli banklara əlavə tələblər tətbiq olunur
Şəffaflıq və hesabatlılıq	Məhdud səviyyədədir	Bazar intizamı və açıqlama tələbləri artırılmışdır	Şəffaflıq, stress-test və risk hesabatlığı daha da genişləndirilmişdir
Üstünlükləri	Sadə və tətbiqi asandır	Risklərin daha real qiymətləndirilməsinə imkan verir	Bankların maliyyə dayanıqlığını və böhrana davamlılığını artırır
Çatışmazlıqları	Riskləri tam və dəqiq əks etdirmir	Tətbiqi mürəkkəbdir və inkişaf etmiş risk modelləri tələb edir	Banklar üçün əlavə kapital və likvidlik yükü yaradır
Bank risklərinin idarə edilməsində rolu	Kapitalın minimum səviyyəsini qorumağa xidmət edir	Risk əsaslı idarəetmə sisteminin formalaşmasına imkan verir	Dayanıqlı, şəffaf və böhrana davamlı bank idarəetməsini təmin edir

Mənbə: müəllifin tərtibi

Cədvəldən göründüyü kimi, Bazel I daha çox kredit riskinə və minimum kapital tələbinə əsaslanırdı. Bazel II risklərin idarə edilməsini daha genişləndirərək əməliyyat riskini də sistemə daxil etdi və bank nəzarətində üç sütun yanaşmasını formalaşdırdı. Bazel III isə 2008-ci il qlobal maliyyə böhranından sonra hazırlanmış və bankların kapital keyfiyyətini, likvidlik imkanlarını və böhranlara qarşı davamlılığını artırmağa yönəlmişdir.

Əsasən Basel III çərçivəsində bank sektorunda risklərin idarəedilməsinə dair tələblər əhəmiyyətli dərəcədə sərtləşdirilmişdir. Basel standartları Bank for International Settlements nəzdində fəaliyyət göstərən Basel Bank Nəzarəti Komitəsi tərəfindən hazırlanmışdır və bank sektorunda risklərin idarəedilməsi üzrə qlobal miqyasda qəbul olunmuş əsas prudensial çərçivəni formalaşdırır. Bu standartların əsas məqsədi kommersiya banklarının maliyyə dayanıqlığını gücləndirmək, risklərin yığılmasının qarşısını almaq və bütövlükdə maliyyə sisteminin sabitliyini qorumaqdan ibarətdir. Basel yanaşması bank risklərinin idarəedilməsinə vahid metodoloji çərçivə təqdim etməklə, müxtəlif ölkələrin bank sistemləri arasında prudensial tənzimləmənin harmonizasiyasına xidmət edir.

Əsasən Basel III bankların fəaliyyətində mövcud olan əsas risk növlərini daha əhatəli və riskə həssas formada tənzimləyir. Bu çərçivədə kredit riski bankların borcalanlar üzrə mümkün defolt itkilərini, bazar riski faiz dərəcələri, valyuta məzənnələri və qiymətli kağızların qiymət dəyişmələrindən irəli gələn təhlükələri, əməliyyat riski isə daxili proseslərdə, insan amilində və informasiya sistemlərində yaranan nasazlıqları əhatə edir. Həmçinin Basel III likvidlik riskinə xüsusi diqqət yetirərək bankların qısamüddətli və uzunmüddətli öhdəliklərini vaxtında yerinə yetirmə qabiliyyətinin təmin olunmasını əsas prioritet kimi müəyyən edir. Sistemli risklərin tənzimlənməsi isə iri və sistem əhəmiyyətli bankların bütün maliyyə sisteminə potensial təsirinin azaldılmasına yönəlmişdir.

Basel III-ün əsas məqsədi bankların kapital dayanıqlığını artırmaq və onların maliyyə şoklarına qarşı davamlılığını gücləndirməkdir. Bu məqsədlə minimum kapital adekvatlığı tələbləri əvvəlki standartlarla müqayisədə sərtləşdirilmiş, kapitalın kəmiyyətindən daha çox onun keyfiyyətinə üstünlük verilmişdir. Əsasən yüksək keyfiyyətli əsas kapitalın Common Equity Tier 1 (CET1)-in bank kapitalında payı artırılmış və risk çəkili aktivlərə qarşı əsas müdafiə buferi kimi müəyyən edilmişdir. Bundan əlavə, likvidlik riskinin effektiv idarə olunması məqsədilə LCR (Liquidity Coverage Ratio) və NSFR (Net Stable Funding Ratio) göstəriciləri tətbiq edilmişdir ki, bu da bankların həm qısamüddətli stress ssenarilərinə, həm də uzunmüddətli maliyyələşmə risklərinə qarşı hazırlığını artırır.

Almaniyada Basel III tələbləri Avropa İttifaqının prudensial çərçivəsi çərçivəsində milli qanunvericiliyə inteqrasiya edilmişdir. Alman bankları, əsasən sistem əhəmiyyətli iri banklar, CET1 göstəricilərini minimum normadan xeyli yüksək səviyyədə saxlamağa, LCR və NSFR tələblərini isə gündəlik monitorinq altında idarə etməyə məcburdurlar. Bu yanaşma 2008-ci il qlobal maliyyə böhranından sonra Alman bank sektorunda risklərin daha ehtiyatlı idarə

olunmasına və maliyyə sabitliyinin qorunmasına vacib töhfə vermişdir (Hull, J. C, 2022,s.70).

Bu standart bankların kapital adekvatlığına dair minimal tələbləri artırmaqla, kapitalın keyfiyyətinə xüsusi önəm verir və əsas kapitalın (Common Equity Tier 1) risklərə qarşı bufer rolunu gücləndirir. Həmçinin likvidlik riskinin idarə olunması məqsədilə LCR (Liquidity Coverage Ratio) və NSFR (Net Stable Funding Ratio) kimi göstəricilər tətbiq edilmişdir ki, bu da bankların həm qısamüddətli, həm də uzunmüddətli likvidlik dayanıqlığını təmin etməyə yönəlmişdir (Resti, A., & Sironi, A,2022,s. 48).

Basel III kredit və bazar risklərinin ölçülməsi sahəsində də riskə həssas yanaşmaların tətbiqini təşviq edir. Banklardan risk çəkili aktivlərin daha dəqiq hesablanması, daxili reytinq modellərindən istifadə və stress-test mexanizmlərinin genişləndirilməsi tələb olunur.

Cədvəl 2. Basel III əsas prudensial göstəriciləri və onların mahiyyəti

Göstərici	Tam adı	Mahiyyəti	Hesablanma məntiqi (qısa)	Minimum tələb (Basel III)	İdarə olunan risk növü
LCR	Liquidity Coverage Ratio	Bankın qısamüddətli likvidlik şoklarına qarşı dayanıqlığını ölçür	Yüksək keyfiyyətli likvid aktivlər / 30 günlük xalis pul çıxışı	≥ 100%	Qısamüddətli likvidlik riski
NSFR	Net Stable Funding Ratio	Uzunmüddətli maliyyələşmənin dayanıqlığını qiymətləndirir	Mövcud stabil maliyyələşmə / tələb olunan stabil maliyyələşmə	≥ 100%	Uzunmüddətli likvidlik riski
CET1	Common Equity Tier 1 Capital Ratio	Bankın əsas kapitalının risklərə qarşı dayanıqlığını göstərir	Əsas kapital / risk çəkili aktivlər	≥ 4.5% (buferlərlə daha yüksək)	Kapital və kredit riski

Mənbə: Basel Committee on Banking Supervision. (2019). Minimum capital requirements for market risk. Bank for International Settlements.

Basel III çərçivəsində LCR və NSFR göstəriciləri bankların likvidlik risklərinin həm qısamüddətli, həm də uzunmüddətli perspektivdə idarə olunmasını təmin edir. CET1 əmsalı isə bankın əsas kapitalının keyfiyyətini və risk çəkili aktivlərə qarşı dayanıqlığını ölçməklə kredit və bazar risklərinin absorbsiya imkanlarını qiymətləndirir. Bu göstəricilərin paralel tətbiqi bank sektorunda

maliyyə sabitliyinin möhkəmləndirilməsinə və sistemli risklərin azalmasına kömək edir.

Digər bir maliyyə hesabatı standartı IFRS 9-dur. IFRS 9 beynəlxalq maliyyə hesabatı standartı olub, banklarda maliyyə alətlərinin uçotu və əsasən kredit riskinin maliyyə hesabatlarında əks etdirilməsini tənzimləyir. Bu standart əvvəlki IAS 39-u əvəz etməklə bank sektorunda risklərin tanınması və ölçülməsi yanaşmasında konseptual dəyişiklik yaratmışdır. IAS 39 çərçivəsində kredit zərərləri əsasən baş verdikdən sonra tanınırdısa, IFRS 9 risklərin daha erkən mərhələdə müəyyən olunmasını və maliyyə nəticələrinə daxil edilməsini tələb edir. Bu dəyişiklik beynəlxalq təcrübədə maliyyə hesabatlarının şəffaflığını və riskə həssaslığını əhəmiyyətli dərəcədə artırmışdır.

IFRS 9-un bank risklərinin idarəedilməsində əsas yeniliyi gözlənilən kredit zərərləri (Expected Credit Loss – ECL) modelinin tətbiqidir. Bu modelə əsasən banklar zərərləri yalnız borcalanın defolt vəziyyətinə düşdüyü anda deyil, kreditin verildiyi ilk gündən etibarən potensial riskləri nəzərə almalı və müvafiq ehtiyatlar formalaşdırmalıdırlar. ECL yanaşması makroiqtisadi göstəricilərin, borcalanın maliyyə vəziyyətinin və bazar şəraitinin gələcək inkişaf ehtimallarını nəzərə almaqla risklərin qabaqlayıcı şəkildə qiymətləndirilməsinə imkan verir. Son nöqtədə kredit portfelinin keyfiyyəti və risk səviyyəsi bankın maliyyə hesabatlarında daha real əks olunur.

IFRS 9 çərçivəsində maliyyə aktivlərinin üç mərhələli (three-stage approach) üzrə təsnifatı bank risklərinin dinamik şəkildə izlənilməsini təmin edir. Stage 1 mərhələsində kredit riski əhəmiyyətli dərəcədə artmamış aktivlər üzrə yalnız 12 aylıq gözlənilən kredit zərərləri hesablanır. Stage 2 mərhələsində kredit riskinin əhəmiyyətli artımı müşahidə olunduqda banklar artıq aktivin bütün müddəti üzrə gözlənilən zərərləri tanımalıdırlar. Stage 3 isə problemli və ya defolt vəziyyətində olan kreditləri əhatə edir və bu mərhələdə faiz gəlirləri və ehtiyatlar daha sərt qaydalarla uçota alınır. Bu mərhələləşmə banklara kredit portfelində risklərin necə və hansı sürətlə artdığını izləməyə imkan verir.

Böyük Britaniyada IFRS 9-un tətbiqi nəticəsində banklar kredit portfelləri üzrə makroiqtisadi ssenarilərə əsaslanan ECL modellərini geniş şəkildə istifadə etməyə başlamışdır. Brexit dövründə iqtisadi qeyri-müəyyənliklərin artması bankları Stage 2 kreditlərinin payını artırmağa və əlavə ehtiyatlar yaratmağa məcbur etmişdir. Bu, qısamüddətli dövrdə bankların mənfəətinə mənfi təsir göstərsə də, uzunmüddətli perspektivdə maliyyə dayanıqlığının və risklərin erkən idarə olunmasının gücləndirilməsinə şərait yaratmışdır.

COSO ERM korporativ və bank risklərinin strateji səviyyədə idarə olunmasına yönəlmiş beynəlxalq çərçivədir. Bu yanaşma riskləri yalnız maliyyə itkiləri yaradan təhlükə kimi deyil, bankın strateji məqsədlərinə, biznes modelinə və uzunmüddətli inkişaf perspektivlərinə təsir edən əsas faktor kimi qiymətləndirir. COSO ERM çərçivəsində risklərin idarəedilməsi strateji planlaşdırma, performansın qiymətləndirilməsi və korporativ idarəetmə mexanizmləri ilə ölçülür.

ABŞ-da iri kommersiya və investisiya bankları risk iştahını (risk appetite) direktorlar şurası səviyyəsində müəyyən edir və bu göstəricini bankın strateji məqsədləri ilə uyğunlaşdırır. Risk komitələri, daxili nəzarət və daxili audit strukturları COSO ERM prinsiplərinə əsaslanaraq fəaliyyət göstərir. Bu yanaşma bank rəhbərliyinə riskləri qabaqlayıcı şəkildə qiymətləndirməyə və strateji qərarların risk–gəlir balansını daha effektiv idarə etməyə imkan verir.

ISO 31000 risklərin idarəedilməsi üzrə universal beynəlxalq standart olub, banklar da daxil olmaqla bütün təşkilatlar üçün tətbiq edilir. Bu standart risklərin identifikasiyası, təhlili və qiymətləndirilməsi, habelə risklərə cavab tədbirlərinin seçilməsi mərhələlərini sistemləşdirərək vahid metodoloji çərçivə yaradır. ISO 31000 risklərin idarə olunmasında ardıcıllığı və şəffaflığı təmin etməklə təşkilat daxilində risk mədəniyyətinin formalaşmasına xidmət edir.

ISO 31000-un tətbiqinə Australia bank sektoru nümunə ola bilər. Avstraliyada banklar risklərin idarəedilməsində ISO 31000 prinsiplərini daxili siyasət və prosedurlara inteqrasiya edərək kredit, bazar və əməliyyat risklərini vahid metodologiya əsasında qiymətləndirirlər. Bu yanaşma bank bölmələri arasında koordinasiyanı gücləndirir və risklərin fragmentar deyil, sistemli şəkildə idarə olunmasına imkan yaradır (Crouhy, M., Galai, D., & Mark, R, 2019,s.80).

ISO 22301 banklarda əməliyyat risklərinin və fövqəladə hallar zamanı fəaliyyətin davamlılığının təmin olunmasını tənzimləyən beynəlxalq standartdır. Bu standart çərçivəsində banklardan potensial böhran ssenarilərinin hazırlanması, alternativ əməliyyat və bərpa planlarının formalaşdırılması, maliyyə və informasiya sistemlərinin fasiləsizliyinin təmin edilməsi tələb olunur. ISO 22301 əsasən təbii fəlakətlər, pandemiyalar və kibertəhlükələr fonunda bank sektorunda strateji əhəmiyyət kəsb edir.

Yaponiyada tez-tez baş verən təbii fəlakətlər bankları biznesin davamlılığı məsələsinə xüsusi diqqət yetirməyə məcbur etmişdir. Yaponiya bankları ISO 22301 tələblərinə uyğun olaraq fövqəladə hallar üçün detallı fəaliyyət planları hazırlamış, məlumat mərkəzlərinin ehtiyat nüsxələnməsini və uzaqdan əməliyyat imkanlarını genişləndirmişdir.

Cədvəl 3. Risk idarəetmə standartları

Standart	Ölkə nümunəsi	Standartın banklarda tətbiq sahəsi	İdarə olunan əsas risklər
Basel III	Almaniya	Prudensial tənzimləmə, kapital və likvidlik tələbləri, makroprudensial nəzarət	Kredit riski, bazar riski, likvidlik riski, sistemli risk
IFRS 9	Böyük Britaniya	Kredit riskinin maliyyə hesabatlarında əksi, ECL modeli, ehtiyatların formalaşdırılması	Kredit riski, maliyyə hesabatı riski
COSO ERM	ABŞ	Strateji risk idarəetməsi, korporativ idarəetmə, risk iştahının müəyyən edilməsi	Strateji risk, reputasiya riski, idarəetmə riskləri

ISO 31000	Avstraliya	Risklərin identifikasiyası və qiymətləndirilməsi üzrə vahid metodologiya	Kredit riski, əməliyyat riski, bazar riski
ISO 22301	Yaponiya	Biznesin davamlılığı, fövqəladə hallar və bərpa planları	Əməliyyat riski, texnoloji risk, fövqəladə hallar riski

Mənbə: Saunders, A., & Cornett, M. M. (2019). Financial institutions management: A risk management approach (10th ed.). McGraw-Hill Education tədqiqat materialları əsasında müəllifin tərtibi

Beynəlxalq təcrübədə kredit riskinin idarəedilməsində statistik və ekonometrik modellər vacib rol oynayır. Banklar borcalanların kredit qabiliyyətini obyektiv şəkildə qiymətləndirmək məqsədilə daxili və xarici reytinq modellərindən, habelə PD (Probability of Default – defolt ehtimalı), LGD (Loss Given Default – defolt zamanı zərərin payı) və EAD (Exposure at Default – risk altında olan məbləğ) kimi əsas risk parametrlərindən geniş istifadə edirlər. Bu göstəricilər kredit portfelinin risk səviyyəsinin ölçülməsinə və ehtiyatların formalaşdırılmasına imkan verir. Məsələn, Almaniya bank sektorunda iri kommersiya bankları daxili reytinq əsaslı (IRB) modellərdən istifadə edərək kredit risklərini daha dəqiq qiymətləndirir və risk çəkili aktivlərin hesablanmasını bu modellər əsasında aparırlar. Bu yanaşma bankların kapital tələblərini risk səviyyəsinə uyğunlaşdırmağa imkan verir.

Kredit riskinin idarəedilməsində stress-testlər və ssenari analizləri də vacib əhəmiyyət kəsb edir. Bu alətlər makroiqtisadi dəyişikliklərin iqtisadi tənəzzül, faiz dərəcələrinin artması, valyuta məzənnələrinin kəskin dəyişməsi kimi şokların bank kredit portfellərinə mümkün təsirlərini qabaqcadan qiymətləndirməyə şərait yaradır. ABŞ bank təcrübəsində mütəmadi olaraq aparılan stress-testlər kredit portfelinin dayanıqlığının qiymətləndirilməsində əsas mexanizm kimi fəaliyyət göstərir. Əsasən maliyyə böhranları dövründə bu yanaşma bankların potensial itkilərini öncədən müəyyən etməyə və preventiv tədbirlər görməyə imkan vermişdir (Hull, J. C, 2022,s 79).

Likvidlik riskinin idarəedilməsi sahəsində beynəlxalq banklar aktiv–passivlərin idarə edilməsi (ALM) sistemlərindən geniş istifadə edirlər. ALM çərçivəsində banklar aktiv və passivlərin müddət strukturlarını təhlil edir, qısa və uzunmüddətli likvidlik boşluqlarını müəyyən edir və yüksək likvid aktivlərin minimal səviyyədə saxlanılmasını təmin edirlər. Maliyyələşmə mənbələrinin diversifikasiyası – yəni depozitlər, interbank kreditləri və bazar maliyyələşməsi arasında balansın qorunması – likvidlik riskinin azaldılmasında əsas vasitələrdən biridir. European Union ölkələrində fəaliyyət göstərən banklarda gündəlik likvidlik monitorinqi və fövqəladə likvidlik planlarının mövcudluğu prudensial tələblərin ayrılmaz hissəsi kimi qəbul olunur. Bu planlar gözlənilməz likvidlik şokları zamanı bankların fəaliyyətinin fasiləsizliyini təmin etməyə yönəlmişdir.

Son illər beynəlxalq təcrübədə əməliyyat və texnoloji risklərin idarəedilməsi xüsusi əhəmiyyət qazanıb. Rəqəmsallaşma və elektron bankçılığın sürətli inkişafı fonunda kibertəhlükəsizlik, məlumat sızması və informasiya sistemlərinin dayanıqlığı bank risklərinin yeni istiqamətləri kimi ön plana çıxmışdır. Bu səbəbdən aparıcı banklar risklərin idarəedilməsi prosesinə süni intellekt, böyük verilənlər (big data) və real vaxt monitorinq sistemlərini inteqrasiya edirlər. Məsələn, Sinqapur bank sektorunda əməliyyat risklərinin idarəedilməsində avtomatlaşdırılmış monitorinq və erkən xəbərdarlıq sistemləri geniş tətbiq olunur. Bu texnoloji yanaşma şübhəli əməliyyatların vaxtında aşkar edilməsinə və əməliyyat risklərindən irəli gələn itkilərin minimuma endirilməsinə imkan yaradır.

Bazel III çərçivəsi kapitalın keyfiyyətinin artırılması, likvidlik riskinin (LCR, NSFR göstəriciləri) idarə olunması və stress-test mexanizmlərinin tətbiqini nəzərdə tutur.

IFRS 9 standartı kredit risklərinin qiymətləndirilməsində gözlənilən kredit zərərləri (Expected Credit Loss – ECL) modelinin tətbiqini tələb edir ki, bu da risklərin proaktiv şəkildə tanınmasına imkan yaradır. COSO ERM və ISO 31000 isə risklərin strateji, əməliyyat, maliyyə və uyğunluq aspektləri üzrə inteqrasiya olunmuş idarəetmə modelini formalaşdırır.

Dünyada bank sektorunun tənzimlənməsində hazırda ən geniş tətbiq olunan standart Basel Committee on Banking Supervision tərəfindən hazırlanmış Basel III çərçivəsidir. Bu standart əvvəlki Basel I və Basel II razılaşmalarının davamı kimi formalaşmış və xüsusilə 2008 Global Financial Crisis-dən sonra maliyyə sistemində yaranan zəifliklər aradan qaldırmaq məqsədilə daha da təkmilləşdirilmişdir. Basel I əsasən bankların minimum kapital tələblərini müəyyənləşdirirdisə, Basel II risklərin daha geniş və dəqiq qiymətləndirilməsini nəzərdə tuturdu. Lakin qlobal maliyyə böhranı göstərdi ki, bu tədbirlər kifayət etmir və bank sisteminin dayanıqlığını artırmaq üçün daha sərt və kompleks yanaşmaya ehtiyac var.

Bazel standartlarının tətbiqi bankların maliyyə sağlamlığını gücləndirərək, xüsusilə Ümumi Kapital Tier 1 (CET1) üzrə daha yüksək kapital ehtiyatları, yaxşılaşdırılmış likvidlik və borc yükünün məhdudlaşdırılması vasitəsilə onlara müsbət təsir göstərir. Bu, şoklara qarşı dayanıqlılığı artırır, defolt riskini azaldır, investorların inamını yüksəldir və daha stabil maliyyə vasitəçiliyini dəstəkləyir, nəticədə daha proqnozlaşdırıla bilən və dayanıqlı qlobal bank sistemini təşviq edir.

Əsas üstünlüklər arasında daha yaxşı risk idarəçiliyi, sistem riskinin azaldılması, açıqlamalar vasitəsilə şəffaflığın artırılması və bazar intizamının gücləndirilməsi yer alır. Daha güclü kapital ehtiyatları bankların zərərləri udmasına imkan verir, borc yükünün məhdudlaşdırılması isə həddindən artıq borclanmanın qarşısını alaraq destabilizəedici maliyyə problemlərinin yaranmasının qarşısını tutur.

Likvidlik tələbləri, məsələn Likvidlik Ödəniş Qabiliyyəti Nisbəti (LCR), bankların qısa müddətli gərginlikləri qarşılayacaq qədər yüksək keyfiyyətli likvid

aktivlər saxlamasını təmin edir. Empirik tədqiqatlar göstərir ki, Basel III standartları bankların defolt ehtimalını əhəmiyyətli dərəcədə azaldır.

Maliyyə dayanıqlığının gücləndirilməsi bankların maliyyə böhranları və xarici şoklara qarşı daha yaxşı müqavimət göstərməsinə və kredit funksiyalarını qoruyub saxlamasına imkan verir. Bazel standartları həmçinin sistemik sabitliyin artmasına töhfə verir, yoluxma və yayılma risklərini azaldaraq daha geniş maliyyə sistemi və iqtisadiyyatı qoruyur.

Bazar intizamının gücləndirilməsi, açıqlama tələblərinin artırılması vasitəsilə təmin olunur ki, bu da bazarların bankların sağlamlığını daha yaxşı qiymətləndirməsinə və düzgün praktikaların təşviq olunmasına imkan yaradır. Daha yaxşı risk idarəçiliyi isə Pillar 2 vasitəsilə təmin olunur, çünki o, Pillar 1-də tam əhatə olunmayan risklər üçün güclü daxili kapital yetərliliyi qiymətləndirmələrini dəstəkləyir. Bundan əlavə, Bazel standartları qlobal fəaliyyət göstərən banklar üçün beynəlxalq meyarlarla proqnozlaşdırıla bilən bir mühit təmin edir və ardıcıllığı təşviq edir. Əslində, bu standartlar bankları daha dayanıqlı, şəffaf və etibarlı institutlara çevirir, həm bankların özlərinə, həm də bütün maliyyə ekosisteminə fayda verir.

AZƏRBAYCAN KOMMERSİYA BANKLARINDA BEYNƏLXALQ STANDARTLARIN TƏTBİQİ PROBLEMLƏRİ

Azərbaycan bank sektorunda beynəlxalq risk idarəetmə standartlarının tətbiqi bir sıra obyektiv və subyektiv amillərlə çətinləşir.

İlk növbədə, institusional və kadr çatışmazlığı əsas problemlərdən biridir. Bir çox banklarda risklərin idarə edilməsi üzrə yüksək ixtisaslı mütəxəssislərin sayı məhduddur. Beynəlxalq standartların metodologiyası isə yüksək analitik bilik, statistik modelləşdirmə və maliyyə mühəndisliyi bacarıqları tələb edir.

İkinci mühüm problem məlumat bazasının qeyri-kafiliyi və keyfiyyət məsələləridir. IFRS 9 və stress-test modellərinin effektiv tətbiqi üçün uzunmüddətli, etibarlı və strukturlaşdırılmış statistik məlumatlara ehtiyac vardır. Azərbaycan banklarında tarixi məlumat bazasının məhdudluğu risk modellərinin düzgün qurulmasına mane olur.

Üçüncü problem texnoloji infrastrukturun zəifliyi ilə bağlıdır. Risklərin avtomatlaşdırılmış monitorinqi, real vaxt rejimində hesabatların hazırlanması və ssenari analizləri üçün müasir İT sistemləri tələb olunur. Bir çox kommersiya banklarında mövcud proqram təminatı beynəlxalq standartların tələblərinə tam cavab vermir.

Digər bir problem tənzimləyici və praktiki uyğunsuzluqların mövcudluğudur. Bəzi hallarda beynəlxalq standartların tələbləri ilə yerli normativ-hüquqi aktlar arasında uyğunsuzluq yaranır ki, bu da bankların ikili hesabat və idarəetmə mexanizmlərindən istifadə etməsinə səbəb olur.

Azərbaycanın müasir bank sistemi iki pilləli struktur əsasında fəaliyyət göstərir. Birinci pillədə Azərbaycan Mərkəzi Bankı, ikinci pillədə isə kommersiya bankları və qeyri-bank kredit təşkilatları yer alır. Son illərdə bank sektorunda

kapitallaşmanın gücləndirilməsi, bankların konsolidasiyası, prudensial nəzarətin sərtləşdirilməsi və maliyyə inklüzivliyinin artırılması istiqamətində mühüm addımlar atılmışdır.

2015-ci il devalvasiyalarından sonra bank sektorunda sağlamlaşdırma tədbirləri həyata keçirilmiş, risklərin daha effektiv idarə olunması prioritet məsələyə çevrilmişdir. Bu proses banklarda korporativ idarəetmənin və risk menecmenti sistemlərinin təkmilləşdirilməsini zəruri etmişdir.

Beynəlxalq standartların tətbiqi üzrə həlli yolları

Qeyd olunan problemlərin aradan qaldırılması üçün kompleks və mərhələli yanaşma zəruridir.

İlk növbədə, insan kapitalının inkişafı prioritet istiqamət olmalıdır. Banklarda risk menecmenti üzrə ixtisaslaşmış təlim proqramlarının təşkili, beynəlxalq sertifikatların (FRM, PRM və s.) təşviqi və xarici təcrübənin transferi mühüm əhəmiyyət daşıyır.

İkinci olaraq, məlumat idarəetmə sistemlərinin gücləndirilməsi tələb olunur. Banklar vahid məlumat anbarlarının yaradılmasına, məlumatların keyfiyyətinə nəzarət mexanizmlərinin formalaşdırılmasına və analitik modellərin təkmilləşdirilməsinə investisiya etməlidir.

Üçüncü istiqamət rəqəmsallaşma və İT infrastrukturunun modernləşdirilməsidir. Risklərin erkən xəbərdarlıq sistemləri, avtomatlaşdırılmış scoring modelləri və stress-test platformalarının tətbiqi bank risklərinin operativ idarə olunmasına imkan verər.

Eyni zamanda, tənzimləyici orqanlarla koordinasiyanın gücləndirilməsi vacibdir. Azərbaycan Mərkəzi Bankı tərəfindən beynəlxalq standartların lokal bazarın xüsusiyyətlərinə uyğunlaşdırılması, metodoloji təlimatların hazırlanması və banklara konsultativ dəstəyin göstərilməsi tətbiq prosesini sürətləndirə bilər.

NƏTİCƏ

Nəticə etibarilə, qlobal maliyyə bazarlarında baş verən qeyri-sabitliklər, iqtisadi böhranlar, pandemiya sonrası dəyişikliklər və geosiyasi risklər bank sektorunda risklərin idarə olunmasının daha sistemli və kompleks yanaşma tələb etdiyini bir daha sübut edir. Bu baxımdan risk menecmenti yalnız əməliyyat səviyyəsində deyil, strateji idarəetmə səviyyəsində də mühüm rol oynayır.

Tədqiqat nəticəsində həmçinin müəyyən edilmişdir ki, beynəlxalq təcrübədə tətbiq olunan müasir risk idarəetmə modelləri, xüsusilə Basel standartları, bankların dayanıqlılığının artırılmasında mühüm rol oynayır. Bu standartların tətbiqi banklardan daha yüksək kapital adekvatlığı, risklərin şəffaf idarə olunması və effektiv nəzarət mexanizmlərinin qurulmasını tələb edir. Azərbaycanın bank sektoru üçün də bu təcrübənin öyrənilməsi və milli xüsusiyyətlərə uyğun şəkildə tətbiqi mühüm əhəmiyyət daşıyır.

Azərbaycanda kommersiya banklarında risk menecment sistemləri müəyyən inkişaf mərhələsindən keçmiş olsa da, bu sahədə hələ də təkmilləşdirilməli məqamlar mövcuddur. Xüsusilə risklərin qiymətləndirilməsində

istifadə olunan metodların bəzən qeyri-kafi olması, məlumat bazasının tam inteqrasiya olunmaması və qərarvermə prosesində analitik yanaşmaların zəif tətbiqi kimi problemlər müşahidə olunur. Bundan əlavə, risk menecmentində insan faktorunun təsiri, kadrların peşəkarlıq səviyyəsi və institusional yanaşmanın tam formalaşmaması da diqqət çəkən məqamlar sırasındadır.

Mövcud problemlər əsasən kadr potensialı, məlumat bazası, texnoloji infrastruktur və normativ uyğunluq sahələrində cəmləşir. Lakin bu problemlər sistemli yanaşma, dövlət–bank əməkdaşlığı və uzunmüddətli inkişaf strategiyası vasitəsilə aradan qaldırıla bilər. Beynəlxalq standartların effektiv tətbiqi Azərbaycan bank sektorunun regional və qlobal maliyyə bazarlarına inteqrasiyasını daha da gücləndirəcəkdir.

TƏKLİFLƏR

1. Banklarda kredit risklərinin idarə olunması sistemi təkmilləşdirilməli, kredit portfelinin valyuta strukturu daimi monitorinq edilməlidir. Kredit portfelində xarici valyutada olan kreditlərin payı, borcalanların ödəmə qabiliyyəti, sektorlar üzrə risk bölgüsü və problemli kreditlərin dinamikası müntəzəm olaraq təhlil edilməlidir.
2. Kapital adekvatlığı və likvidlik göstəricilərinin qorunması bankların risklərə qarşı dayanıqlılığını artıran əsas amillərdəndir. Buna görə banklar kapital ehtiyatlarını gücləndirməli, likvid aktivlərin həcmini optimal səviyyədə saxlamalı və qısamüddətli öhdəliklərin icrası üçün kifayət qədər likvidlik buferi yaratmalıdırlar.
3. Rəqəmsal risk menecmenti alətlərindən istifadə genişləndirilməlidir. Süni intellekt, böyük verilənlər bazası, avtomatlaşdırılmış skoring sistemləri və analitik platformalar kredit risklərinin daha dəqiq qiymətləndirilməsinə imkan verir. Bu alətlər banklara həm kredit qərarlarının keyfiyyətini artırmağa, həm də risklərin erkən mərhələdə müəyyən edilməsinə kömək edə bilər.
4. Banklarda korporativ idarəetmə və daxili nəzarət mexanizmləri gücləndirilməlidir. Risklərin idarə olunması yalnız kredit şöbəsinin deyil, bütün bank strukturlarının birgə fəaliyyəti kimi təşkil edilməlidir. Risk komitələri, daxili audit, komplayens və maliyyə monitorinqi bölmələri arasında koordinasiya artırılmalıdır.
5. Azərbaycan Mərkəzi Bankının risklərin idarə edilməsi ilə bağlı normativ tələblərinə uyğun olaraq banklar öz daxili risk siyasətlərini mütəmadi yeniləməlidirlər. Xüsusilə kredit riski, valyuta riski, likvidlik riski və əməliyyat riskləri üzrə daxili limitlər müəyyən edilməli və bu limitlərə riayət olunmasına nəzarət gücləndirilməlidir.

ƏDƏBİYYAT

1. Drehmann, M., & Nikolaou, K. (2021). Funding liquidity risk: Definition and measurement. Journal of Banking & Finance, 122, 105985. https://doi.org/10.1016/j.jbankfin.2020.105985
2. Hull, J. C. (2022). Risk management and financial institutions (6th ed.). Wiley.
3. Resti, A., & Sironi, A. (2022). Risk management and shareholders' value in banking. Wiley.
4. Basel Committee on Banking Supervision. (2019). Minimum capital requirements for market risk. Bank for International Settlements.
5. Crouhy, M., Galai, D., & Mark, R. (2019). The essentials of risk management (2nd ed.). McGraw-Hill Education.
6. Saunders, A., & Cornett, M. M. (2019). Financial institutions management: A risk management approach (10th ed.). McGraw-Hill Education.
7. Azərbaycan Respublikası Mərkəzi Bankı. Risk əsaslı nəzarət konsepsiyası (ARAS), 2024.
8. Bağırov M.M. Bank və bank əməliyyatları. Bakı (Ali məktəblər üçün dərslik), Bakı, 2003
9. Basel Committee on Banking Supervision. (2011). Basel III: A global regulatory framework for more resilient banks and banking systems. Bank for International Settlements.
10. Basel Committee on Banking Supervision. (2019). Minimum capital requirements for market risk. Bank for International Settlements.
11. Basel Committee on Banking Supervision. (2021). Principles for the management of credit risk. Bank for International Settlements.
12. Basel Committee on Banking Supervision. Basel III: A global regulatory framework for more resilient banks and banking systems. Bank for International Settlements, 2011.

Məqalənin redaksiyaya daxilolma tarixi: 30.06.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 02.06.2026
Məqalənin çapa daxil olunma tarixi: 20.07.2026

UOT: 94
DOI: doi.org/10.61226/12.2.2023/20262.4
Bəhman KƏRİMOV
Azərbaycan Universitetinin "Siyasi və ictimai elmlər kafedrasının" dosenti, tarix elmləri doktoru
E-mail: behmen_76@mail.ru
https://orcid.org/0000-0003-1058-4399

AKADEMİK ƏBDÜLKƏRİM ƏLİZADƏNİN MUZEY KOLLEKSİYASINDA QORUNAN BİR MƏKTUBUN İZİ İLƏ

Xülasə. Muzeylər insan cəmiyyətinin tarixi keçmişini, mədəniyyətini, elmini və incəsənətini qoruyub saxlayan, araşdıran və gələcək nəsillərə ötürən mühüm mədəni-tarixi müəssisələrdir. Onlar yalnız eksponatların sərgiləndiyi məkan deyil, həm də milli yaddaşın daşıyıcısı, elmi tədqiqatların mənbəyi və ictimai maarifləndirmə vasitəsidir. Muzeylər keçmişlə bu gün arasında körpü rolunu oynayaraq, tarixi hadisələri və şəxsiyyətləri canlı və əlçatan formada təqdim edir, tədqiqatçılar üçün isə ilkin mənbə funksiyasını yerinə yetirir.

Bu missiyanı 105 ildən artıq müddətdə uğurla həyata keçirən Milli Azərbaycan Tarixi Muzeyi Vətən tarixinin tədqiqi və təbliği istiqamətində əvəzsiz xidmətlər göstərmişdir. Məqalədə akademik Ə. Əlizadənin elmi fəaliyyəti – onun təhsil yolu, şərqşünaslıq elminin inkişafında rolu, Nizami irsinin tədqiqi və XIII–XIV əsrlərin sosial-iqtisadi tarixi üzrə fundamental tədqiqatları işıqlandırılır.

Tədqiqata cəlb edilmiş sovet dövrünün tanınmış şərqşünası, arxeoloq, akademik Boris Borisoviç Piotrovskinin məktubunda, Ermənistan SSR-də elmi tədqiqatların qeyri-ciddi olduğunu bildirərək, S.Ayvazyanın və digər erməni tarixçilərinin Metsamor heroqliflərinin və qədim erməni mədəniyyətinin mənşəyinə dair irəli sürdüyü qondarma iddialara qarşı ciddi etirazını bildirmişdir.

Beləliklə, akademik Əbdülkərim Əlizadənin muzeydə mühafizə edilən kolleksiyaları onun elmi və ictimai fəaliyyətini işıqlandırmaqla yanaşı, Vətən tarixinin tədqiqində də böyük əhəmiyyətə malikdir.

Açar sözlər: *Azərbaycan, akademik Əbdülkərim Əlizadə, akademik Boris Piotrovski, məktub.*

Bahman Karimov

TRACING A LETTER PRESERVED IN THE MUSEUM COLLECTION OF ACADEMICIAN ABDULKARIM ALIZADE

Abstract. Museums are important cultural and historical institutions that preserve, study, and transmit to future generations the historical heritage, culture, science, and art of human society. They are not merely spaces where exhibits are

displayed but also carriers of national memory, sources of scientific research, and instruments of public enlightenment. Acting as a bridge between the past and the present, museums vividly and accessibly present historical events and figures, while serving as primary sources for researchers.

For more than 105 years, the National Museum of History of Azerbaijan has successfully fulfilled this mission, providing invaluable services in the study and promotion of the history of the Motherland. This article highlights the scholarly activity of academician Abdulkərim Alizade - his educational background, his role in the development of Oriental studies, his research on the heritage of Nizami Ganjavi, and his fundamental studies on the socio-economic history of the 13th-14th centuries.

The research draws on the article of the renowned Soviet Orientalist and archaeologist, academician Boris Borisovich Piotrovsky, who criticized the lack of academic rigor in scientific studies conducted in the Armenian SSR, strongly opposing the fabricated claims of S.Ayvazyan and other Armenian historians regarding the origin of Metsamor hieroglyphs and the so-called ancient Armenian culture.

Thus, the collections preserved in the museum related to academician Abdulkərim Alizade not only illuminate his scholarly and public activity but also hold great importance for the study of the history of the Motherland.

Keywords: Azerbaijan, academician Abdulkarim Alizade, academician Boris Piotrovsky, letter.

Бахман Керимов

ПО СЛЕДАМ ПИСЬМА ИЗ МУЗЕЙНОЙ КОЛЛЕКЦИИ АКАДЕМИКА АБДУЛКЕРИМА АЛИЗАДЕ

Резюме. Музеи представляют собой важнейшие культурно-исторические учреждения, которые сохраняют, исследуют и передают будущим поколениям историческое прошлое, культуру, науку и искусство человеческого общества. Они являются не только пространством для экспонирования предметов, но и носителями национальной памяти, источниками научных исследований и средствами общественного просвещения. Исполняя роль моста между прошлым и настоящим, музеи живо и наглядно представляют исторические события и личности, выполняя при этом функцию первоисточников для исследователей.

На протяжении более чем 105 лет Национальный музей истории Азербайджана успешно выполняет эту миссию, оказывая неоценимые услуги в изучении и популяризации истории Родины. В статье освещается научная деятельность академика Абдулкерима Ализаде - его образовательный путь, роль в развитии востоковедения, исследования наследия Низами и

фундаментальные труды по социально-экономической истории XIII-XIV веков.

В исследовании использована статья известного советского востоковеда и археолога, академика Бориса Борисовича Пиотровского, который указывал на несерьёзность научных исследований в Армянской ССР, выражая решительный протест против сфальсифицированных утверждений С.Айвазяна и других армянских историков относительно происхождения метсаморских иероглифов и так называемой древнеармянской культуры.

Таким образом, коллекции, хранящиеся в музее и связанные с именем академика Абдулкерима Ализаде, не только освещают его научную и общественную деятельность, но и имеют большое значение для изучения истории Родины.

Ключевые слова: Азербайджан, академик Абдулкерим Али-заде, академик Борис Пиотровский, письмо.

GİRİŞ

Muzeylər insan cəmiyyətinin tarixi keçmişini, mədəniyyətini, elmini və incəsənətini qoruyub saxlayan, araşdıran və gələcək nəsillərə ötürən mühüm mədəni-tarixi müəssisələrdir. Onlar yalnız eksponatların sərgiləndiyi məkanlar deyil, eyni zamanda milli yaddaşın daşıyıcısı, elmi tədqiqatların mənbəyi və ictimai maarifləndirmə vasitəsidir. Tarixi hadisələrin, şəxsiyyətlərin və mədəni irsin öyrənilməsi və təbliği sahəsində muzeylərin rolu danılmazdır. Bu müəssisələr keçmişlə bu gün arasında körpü yaradaraq, tarixi hadisələri canlı və əlçatan formada cəmiyyətə təqdim edir. Muzeylər həm də tədqiqatçılar üçün ilkin mənbə funksiyasını yerinə yetirir, eksponatlar əsasında elmi nəticələrə gəlmək imkanı yaradır. Beləliklə, muzeylər tarix elminin inkişafında və tarixi yaddaşın qorunub saxlanmasında əvəzolunmaz rol oynayır, ictimaiyyətin tarixi dəyərlərə münasibətinin formalaşmasına mühüm töhfə verir.

Bu missiyanı 105 ildir ki, uğurla həyata keçirən Milli Azərbaycan Tarixi Muzeyi Vətən tarixinin tədqiqi və təbliği istiqamətində böyük işlər görür. Məqalənin yazılması üçün əsas mənbə Milli Azərbaycan Tarixi Muzeydə qorunan akademik Əbdülkərim Əlizadənin kolleksiyasında olan çoxsaylı məktublardan biridir. Bununla yanaşı problemi dərindən araşdırmaq üçün mövcud ədəbiyyatlardan da istifadə edilmişdi.

Akademik Əbdülkərim Əlizadə. Azərbaycanda şərqşünaslıq elminin təşəkkülündə və inkişafında əvəzsiz xidmətləri olan görkəmli akademik Əbdülkərim Şeyx Rüstəməli oğlu Əlizadə, özünün zəngin mənbə bazası əsasında yazdığı əsərləri ilə Vətən və dünya şərqşünaslıq elminə böyük töhfə vermişdi. O, 1906-cı il yanvarın 11-də Bakının Bilgəh kəndində anadan olub və 1979-cu il dekabrın 3-də başa çatan bütünlüklə şərqşünaslığa həsr olunmuş bir ömür yaşayıb. Atası Şeyx Rüstəməli ruhani olmuş, uzun müddət İranda yaşamış, Tehranda dini

təhsil almışdı. 1918-ci ildə Bakıya qayıdan Şeyx Rüstəməli ömrünün sonuna qədər Bilgəh kəndinin axundu olmuşdur. Gənc Əbdülkərim Bakıya qayıtdıqdan sonra İttihad məktəbə daxil olaraq oranı müvəffəqiyyətlə bitirmişdir. O, 1922-ci ildə Bakıda fəhlə sinfinin gənc nümayəndələri arasında savadsızlığı ləğv etmək üçün açılan və "Rabfak" adlanan fəhlə fakültəsində dörd il ərzində öz təhsilin davam etdirir.

Azərbaycanda qədim və orta əsrlər tarixi üzrə kadrlar çatışmazlığını nəzərə alınaraq 1926-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən Ə.Əlizadə Leninqrad Şərq İnstitutuna göndərilir. *O, 1927-ci ildə qəbul imtahanlarını verərək, Xalq Komissarları Sovetinin 7 sentyabr 1920-ci il tarixli və SSRİ Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 18 aprel 1926-ci il tarixli fərmanları ilə Leninqrad Şərq İnstitutunun nəzdində yaradılmış Türkoloji Seminariyaya daxil olur. İnstitutun rektorluğu tərəfindən 12 noyabr 1930-cu il 12№-li Şəhadətnaməyə əsasən, Əbdülkərim Əlizadə 1930-cu tədris ilində Leninqrad Şərq İnstitutunun Türkoloji seminariyasının tarix-ədəbiyyat şöbəsini bitirmişdir (1, s. 25-26).* İnstitutu müvəffəqiyyətlə başa vuran Ə.Əlizadə hərbi xidmətə yollamışdı.

Hərbi xidmətdə tərxis olunduqdan sonra o, Leninqrad Maddi-Mədəniyyət Tarixi Akademiyasının aspiranturasına daxil olmuşdur. SSRİ EA-nın müxbir üzvü Aleksandr Yuryeviç Yaqubovskinin elmi rəhbərli ilə "XIII-XIV əsrlərdə Azərbaycanda torpaq mülkiyyəti formaları və vergi sistemi" dissertasiya mövzusu üzərində tədqiqatlara başlamışdır.

O, 1935-ci ildə "XIII-XIV əsrlərdə Azərbaycanda torpaq mülkiyyəti formaları və vergi sistemi" mövzusunda namizədlik dissertasiyasını bitirdikdən sonra RSFSR Xalq Maarif Komissarlığının qərarı ilə SSRİ EA Leninqrad Şərqşünaslıq İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayır. Eyni zamanda Leninqrad Şərq İnstitutunda İran şöbəsində fars dilindən dərs deməyə başlayır. 1938-ci ildə çalışdığı İnstitut bağlandıqdan sonra Leninqrad Dövlət Universitetin İran kafedrasına müəllim təyin edilmişdir.

1937-ci ildən dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi ilə əlaqədar şairin irsinin araşdırılması və əsərlərinin çapa hazırlanması məqsədilə Leninqraddan professor Y.E.Bertels və Əbdülkərim Əlizadə Bakıya dəvət edilir. Bakıda Nizami "Xəmsə"sinin elmi-tənqidi mətninin hazırlanması məqsədilə mətnşünaslar heyətində iştirak edən Ə.Əlizadə. "Xəmsə"yə daxil olan məsnəvilərin elmi-tənqidi mətninin hazırlanması ilə yanaşı "Sirlər xəzinəsi" ("Məxzənül-əsrar") və "Şərəfnamə"ni ("İsgəndərnamə"nin bir hissəsi"ni) tərcümə edir (1, s. 7-8).

1941-ci il iyunun 22-də Almaniyanın SSRİ-yə hücumundan sonra başlayan müharibə bütün ölkədə olduğu kimi, onun alimlərinin həyatında da bir dönüş nöqtəsi yaratdı. Moskva, Leninqrad, Kiyev kimi böyük şəhərlərdə mövcud olan elmi institutların tanınmış alimləri də SSRİ-nin cəbhə bölgəsindən uzaq olan respublikalarına köçürüldü. İ.P.Petruşevski ilə yanaşı, Ə.Əlizadə öz ailəsi ilə birlikdə Azərbaycana qayıtmış və ömrünün qalan hissəsini Azərbaycan Elmlər Akademiyasına bağlamışdır.

Əbdülkərim müəllim 1942-ci ildə "Azərbaycanda Elxanilər dövründə (XIII-XIV əsrlər) torpaq mülkiyyəti formaları və vergi sistemi" mövzusunda tarix elmləri namizədi elmi adını almaq üçün təqdim etdiyi dissertasiyasını Azərbaycan Dövlət Universitetində müvəffəqiyyətlə müdafiə edir.

Ə.Əlizadə 1954-cü ildə "XIII-XIV əsrlərdə Azərbaycanın sosial-iqtisadi və siyasi tarixi" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək tarix elmləri doktoru fəxri adını almış və növbəti 1955-ci ildə elm üçün böyük töhfə olmuş bu əsərə görə, 49 yaşında Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir. Ə.Ə.Əlizadə 1955-57-ci illərdə EA-nın İctimai-Elmlər bölməsinin akademik-katibi vəzifəsini icra edir. Bu böyük alim 1956-cı il dekabrın 22-də professor elmi adını alır. Daha sonra, 1957-1958-ci illərdə Əbdülkərim müəllim Azərbaycan Elmlər Akademiyası Dil və Ədəbiyyat İnstitutunun Şərqşünaslıq şöbəsinə rəhbərlik etmişdir.

Müasir Azərbaycanın şərqşünaslıq elminin yaradıcısı dünyada tanınan alim, akademik Əbdülkərim Əlizadə Yaxın və Orta Şərqin orta əsrlər tarixinin görkəmli tədqiqatçısı idi. O, Şərqin ayrılmaz hissəsi olan Azərbaycan öyrənilməsi ilə yanaşı, orta əsr Azərbaycan alimləri tərəfindən qonşu Şərq ölkələrinin elm və mədəniyyətinin tədqiqi istiqamətindəki fəaliyyətini araşdıraraq böyük bir xəzinə qoyub getmişdir. Bu baxımdan onun tədqiq etdiyi mənbələr dünya şərqşünaslıq elmində xüsusi rola malikdir. Ə.Əlizadənin elmi yaradıcılığı əsasən XIII-XIV əsr Azərbaycanın tarixinin və mədəniyyətinin tədqiqinə yönəlmişdir. İlkin mənbələr əsasında tədqiqatlara cəlb edilmiş sənədlər təkcə Azərbaycanda deyil dünya şərqşünaslıq elmində tez-tez müraciət edilən əsas dəyərli faktlardır. O, Yaxın və Orta Şərqin, Mərkəzi Asiyanın tarixinə dair fars, dilində olan onlarla mənbəni ilk dəfə tərcümə və şərhlərlə nəşr etdirmiş, Azərbaycan monqol və ya Elxanilər dövləti tarixinin ilk tədqiqatçısıdır. Onun əmanət qoyduğu zəngin elmi irs dünya elm ictimaiyyətinin qəlbində yaşamaqdadır.

Azərbaycanda şərqşünaslıq elminin bünövrəsini qoyan görkəmli alimin məhsuldar fəaliyyəti sayəsində o, dövlət tərəfindən yüksək qiymətləndirilərək respublikada elmi kadrların hazırlanması və mədəni irsin öyrənilməsi məsələsində göstərdiyi yardımlar ona Azərbaycan SSR-nin əməkdar elm xadimi (1960) fəxri adlarının verilmişdir.

Ə.Əlizadə 1963-cü ildən ömrünün sonuna kimi Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun Mətnşünaslıq və məxəzləri çapa hazırlama şöbəsinə rəhbərlik edir.


Akademik Ə.Əlizadə təravətli, yaradıcı düşüncə ilə hopmuş və yüksək peşəkarlıq səviyyəsində apardığı tədqiqatları ona dünya elmi ictimaiyyəti tərəfindən tanınınmışdır. Bütün bunları onun muzeydə qorunan kolleksiyalarda arasında dünyanın görkəmli şərqşünasları tərəfindən göndərilən məktublarda sübut edir. Akademik İqnati Kraçkovskinin Əbu Dulaf və Yakutun qeydi ilə bağlı hesabatının Bakıda nəşri ilə bağlı "qeyd və yoxlanışın onu ixtiyarına buraxması" (3) , rus və ingilis şərqşünaslığın görkəmli nümayəndəsi V.Minorski (1877-1966) öz məktublarında hər şeydən əvvəl əsas əsəri olan "Şirvan və Dərbənd tarixi"

kitabının respublikanın elmi ictimaiyyəti arasında yayılmasını akademik A.Əlizadədən təkidlə xahiş etməsi və "Müqəddimə" hissəsini yazılmasından şad olduğunu bildirərək onu yüksək səviyyədə qiymətləndirmisi" kimi dəyərli faktlar onun dünya elmində yüksək səviyyədə qəbul edildiyi göstəricisi idi. 1963-cü ildə akademik Ə.Əlizadənin redaktorluğu ilə V.F.Minorskinin "X-XI əsrlərdə Şirvan və Dərbənd tarixi" əsərini rus dilində nəşr olunmasında müstəsna xidmətləri vardır (5).

Tədqiqat əsərin məsul redaktoru akademik A.Əlizadə "X-XI əsrlərdə Şirvan və Dərbənd tarixi" kitabına yazdığı ön sözdə V.Minorskinin əsərlərinin Azərbaycan tarixinin tədqiqi üçün əhəmiyyətindən bəhs edərək yazırdı: "İndiyə qədər etibarlı materiallar olmadığından tam tədqiq edilməmiş, tarixi hadisələrlə zəngin olan Azərbaycan və Dağıstan tarixinin tədqiqi üçün böyük əhəmiyyət kəsb edən. Nadir mənbələrə əsaslanan professor V.F.Minorskinin səyləri sayəsində bu dövrün tarixi geniş şəkildə araşdırılır. Professor V.Minorski uzun illər səmərəli elmi fəaliyyəti nəticəsində Yaxın və Orta Şərq ölkələrinin, o cümlədən Azərbaycanın bir çox az öyrənilmiş problemlərinin və sosial-iqtisadi inkişafı məsələlərinin işlənib hazırlanmasına dəyərli töhfələr vermişdir. V.Minorski çox nadir və əlçatmaz olan ilkin mənbələrin tədqiqi və nəşri sahəsində böyük iş görmüşdür" (5, s. 3).

Akademiki Boris Piotrovski "Redaksiyaya məktubu". Akademik Ə.Əlizadənin muzeydə mühafizə edilən kolleksiyası içərisində (inv. 3150) SSRİ EA akademiki B.Piotrovskinin 1971-ci ildə *"Handes Amsorya". 1971-ci il. Redaksiyaya məktub (erməni dilindən tərcümə)*" başlığı ilə verilmiş məktub tarixşünaslıq üçün çox dəyərlidir. Məktubda akademik qondarma erməni tarixini ifşa etməklə, mövcud tarixi saxtakarlığını açıq şəkildə göstərmişdir. Məktub Ermənistan SSR Elmlər Akademiyasının "Tarix-filologiya" jurnalının 1971-ci il 3 (54) №-də "Redaksiyaya məktub" başlığı ilə nəşr olunmuşdur (4, s. 1-4).

Tədqiqata cəlb edilmiş sovet dövrünün tanınmış şərqşünası, arxeoloq, akademik Boris Borisoviç Piotrovskinin məqaləsində, Ermənistan SSR-də elmi tədqiqatların qeyri-ciddi olduğunu bildirərək, S.Ayvazyanın və digər erməni tarixçilərinin Metsamor (keçmiş, Qəmərli nahiyəsi) heroqliflərinin və qədim erməni mədəniyyətinin mənşəyinə dair irəli sürdüyü qondarma iddialara qarşı ciddi etirazını bildirmişdir.



ВЕСТНИК ОБЩЕСТВ" ИЗ 1971 г.
Письмо в редакцию.
(Перевод с армянского).

Я имею уведомление 24 июня с.г. на заседании Президиума Академии Наук Армянской ССР и увидел из того, что в недавних Академии и в ряде журналов были напечатаны статьи о древних металлургических письмах Армении, в которых авторы древние письмена выдавали за хайасские иероглифы XIX-XVII в.в. до нашей эры.


Хотел я считал возможным ограничиться лишь устным сообщением, но письма направленные С.Айвазяном и разные инстанции, в том числе и в Президиум АН Арм.ССР показали, что он считает мое выступление на Президиуме несерьезным.

Поэтому я и прошу Вас опубликовать мои замечания. В ряде статей С.Айвазян особенно со открытия на иероглифическом письме XIX в. до н.э. и без раскрытия дает перевод этих надписей, сравнивая знаки на сосудах Мецамора со знаками, сохранившимися в армянских рукописях и имея время надписях Н.Марром ("Исследования и статьи Н.Я.Марра. М.,1936, стр.204).

В выпусках журн. Арм.ССР (Наука и жизнь, XVII,6, Ереван, 1964, стр.78-81) были опубликованы сообщения "Ключ дешифрации хайасской письменности" и заметка с хайасскими иероглифами, "предшественниками алфавита древнеармянского (урартского) иероглифического алфавита" (стр.78), которая С.Айвазяном почти переведена.

В статье Б.Пиотровского, напечатанной на английском языке ( ) в голландском журнале " " (VI,1967,№3,стр.76), время прорезанных "хайасских монет XIX в. до н.э." помещены также фотографии. Когда эти монеты были переданы на определение в отдел нумизматики Исторического музея Армении, то было получено следующее заключение: "Данные монеты, изображенные журнала " ", совершенно неправильно представлены как денежные единицы XIX в. до н.э. На самом деле эти монеты (со стертыми надписями) XII-XI в.в. нашей эры, выпущенные ахеменами Азербайджана из династии Кизилгишлаги (1193-1055гг.до н.э.). Также имеют широкое распространение в предгорьях Армении и в определенных областях Закавказья".

Оказалось, что предметы, опубликованные С.Айвазяном и напечатанные в статье Б.Пиотровского, фантастические и ничего общего не имеют с реальностью; нужно лишь удивляться тому, как




реакцию автор публикует заведомо искаженное прочтение.

Не лучше обстоит дело и с хайасскими надписями" (XVII в. до н.э.) на иных и своих монетах. Так в интересующей нас статье (Изв.АН Арм.ССР, Науки о Земле, XVII, 6,стр.80) приведен "металлургический петроглиф", сопровожден переводом текста: "Далее дом отца /богатое помещение/. Двадцать баранов Ахап, /которому/ принадлежит родовитая земля навечно". В действительности по заключению арабистов Института истории АН Арм.ССР, камень представляет собой надгробие с арабской надписью (плохо скопированной): "Али Хасан-ван". Конечно эти надписи читаются не слева направо, как полагает С.Айвазян, а наоборот, справа налево.

Также на хайасские иероглифы С.Айвазян прочел вышеприведенные куфическим письмом имена: Мухаммед, Хасан и Али, имеется на многообразных монетах, куфических надписей и петроглифов (изображение рогатого животного) он включил одну надпись, читая ее сперва направо и первый следующим образом: "Полное хранение... сред радостью переполнений, (что) основное питомство (богатительное!) приношение .. Рогатый скот (принесен в жертву)... Путь (к) богатое помещение всех (воспрянул)... Ад... (см. Известия АН Арм. ССР, Науки о Земле, №2, 1964, стр.73, С.Айвазян. К некоторым вопросам истории и металлургии древней Армении. Ереван-Москва, 1967, производственно-издательский комбинат ВЦСПС, Люберцы, стр.84-86). Причем арабские имя Али ознакомляется со знаком "богатый". Каждый, кто хоть немного знает арабское письмо, узнает написание имен куфическим шрифтом и тем удивительное упоминание в приведенной статье имени о том, что "некоторые археологи надписи каламарского типа считали арабскими (стр.71), неудачи нельзя было проверить это мнение у арабистов (!).


Конец С.Айвазяна не точнее и конец начала судить о характере и времени арабских надписей, но во основании фотографии одной из них, приведенной в английской статье Б.Пиотровского, проф. В.А.Пращевская сделала следующее заключение: в надписях Каламора явно видны знаки арабского куфического письма, выполненные неуверенной рукой, читаемые справа налево, как имена Али и Хасан.



Но бирке знаков они могут быть отождествлены, в отношении их к КЛЮЧ.М возможно. Известно сомнение, что у князя Мецамор находилось азербайджанское захвата Ахаме.

Так появился миф о хайасских иероглифических письменах Мецамора первой дешифрованных, сведения о которых, к сожалению, попали и в авторитетные научные журналы (,XVI,1968,стр. 203-202). А ведь по основании "дешифровки" иероглифов Мецамора делались ответственные выводы о происхождении всех алфавитов мира от мецаморского-хайасского-древнеармянского алфавита(XVII в.до н.э.(см.Айвазян, К некоторым вопросам истории и металлургии древней Армении,стр. 102). В этой тайнице от мецаморского алфавита прямо выводили:древнегреческий алфавит финикян (Ук.), (финикийский (XI-VII вв.д.н.э.), клинописный алфавит (IV в.д.н.э.) и далее палеографически, греческий, все алфавиты Азии, Европы, даже упоминался не только евреи типовых Айвазяна, но и тому, что эти сообщения по интересности подобны сами вероятностью основывают работой "Библиотека" (5 веков 1960г.), а теории найденного письма подтвердил журналом "Труд" (5000 лет). С.Айвазян писал:"Выводы обнаруженной нами нашли о группах геологов хайасский археологический объект мецамор с его развитой горнометаллургической производственной, керамической системой полны не остался никакого сомнения относительно основания нашли в предгор Араратской области Арм тик. Следовательно того, что Мецамор является именно Хайасами (т.е. древнеармянами),а не какими-либо иными носителями культуры, служит сохранившиеся здесь первые в Армении иероглифические письмена. Их расшифровка выполнена автором на основании корреляции с армянским языком, письменностью, сохранившимся в некоторых средневековых рукописях Матенадарана. Так прочтение свое существенное состояние непосредственное конденции географического Урарту. С.Айвазян считает эту "основания" исторической на основании того, что 1.Моисес Хоренаци писал на говорит об Урарту; 2.Страбон Хайасе, на основных мецаморских иероглифах, сохранилась его тестограф, которая относилась урартам и 3.Клинообразные письма из Вана сперва хует читать по армянски. Последнему вопросу посвящена книга С.Н.Айвазяна "Расшифровка армянской клинописи" (Ереван,1963г.), где приводятся в большинстве случаев, очень отдаленные и натянутые сопоставления урартских и армянских слов, без учета фонетических соответствий этих языков и их норм. (Заимствование урартских слов армянским языком было сами время доказано Г.А.Капланяном и Гр.(Марром).

Подобная армяно-урартские соответствия для доказательства того, что урартская клинопись является шумерским языком, С.Ай-



назад не знал, что он повторяет мысли А.Фортиша, переведшего Ко-ранинска не только Урартские, но иероглифы клинописные надписи ( ) имеющие, появившиеся 150 лет назад к какой отсутствует науки.

Таковы были мои замечания, посланные на заседании Президиума АН Арм.ССР с целью остановить поток безответственных "теорий" надеяться перед армянской исторической наукой и, к сожалению, проникших в популярную литературу.

Академик Б.Пиотровский . /Петербург/.

SSRİ EA-nın akademiki B.Piatrovskinin "Handes Amsor" 1971-ci il. Redaksiyaya məktub" (Erməni dilindən tərcümə) başlığı ilə verilmiş məktub Rus dilində. 1971-ci il. SMF inv. 3150.

Məktubda akademik B.Piotrovski Ermənistan SSR-də bir sıra müəlliflər, xüsusən də S.Ayvazyanın, Metsamor arxeoloji kompleksində aşkar edilən guya "hayas yazısı" adlandırdıqları heroqliflə bağlı iddiyalarına qarşı kəskin etirazını

bildirərək yazırdı: "*Cari ilin (1971-ci ilin nəzərdə tutur – B.Kərimov) 24 mart tarixində Ermənistan SSR Elmlər Akademiyası Rəyasət Heyətinin iclasında çıxış edərkən mən Akademiya nəşrlərində və bir sıra jurnallarda qədim Ermənistan heroqlif yazısı barədə dərc olunmuş məqalələrə toxundum. Həmin məqalələrdə müəlliflər ərəb əlifbasını eramızdan əvvəl XIX–XVII əsrlərə aid Hayas heroqlifləri kimi təqdim etmişdilər".* Ermənilərin məkrli niyyətlərini aydın şəkildə göstərməyə çalışan müəllif - "*O vaxt mən məsələnin yalnız şifahi şəkildə bildiriləcəyi ilə kifayətlənməyin mümkün olduğunu düşünürdüm. Lakin S.Ayvazyan tərəfindən müxtəlif dövlət müəssisələrinə, o cümlədən Ermənistan SSR Elmlər Akademiyasının Rəyasət Heyətinə göndərilmiş məktublar göstərdi ki, o, mənim Rəyasət Heyətindəki çıxışımı yanlış hesab etdiyindən"* bu qeydlərimi dərc olunmasını xahiş etmişdir. Müəllif aydın şəkildə sovet dövründə erməni tarixşünaslığının necə qədimləşdirilmə siyasəti apardığını göstərir. Burada işlədilən "məkrli niyyət" ifadəsinə gəldikdə isə bu elmi səhvin təsadüfi deyil, məqsədli saxtakarlıq olduğunu göstərir.

Ta qədim dövrdən əhalisinin Azərbaycan türklərindən ibarət olan, keçmiş Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının Qafan rayonunun Zeyvə kəndi yaxınlığında yerləşən Metsamor adlı ərazidə aşkar edilmiş ərəb dilində qəbirüstü yazıları və digər arxeoloji tapıntıları özünküləşməyə çalışan ermənilərin məkrli niyyəti haqqında Akademik daha sonra yazırdı: "*S.Ayvazyan bir sıra məqalələrində özü tərəfindən "kəşf edilmiş" eramızdan əvvəl XIX əsrə aid heroqlif yazısından bəhs edir və bu yazıların tərcüməsini heç bir çətinlik çəkmədən verir. O, Metsamor ərazisində aşkarlanan işarələrini vaxtilə N.Emin tərəfindən nəşr edilmiş erməni əlyazmalarında rast gəlinən yazı ilə müqayisə edir (s. 204)*[1].

Ermənistan SSR EA-nın "Xəbərləri" (Yer elmlər seriyası, cild XVII, № 6, İrəvan, 1964, s. 78–81) jurnalında "şəxsi etimad nişanı" adlandırılan bir tunc əşya və "qədim erməni (hiksoslara aid) heroqlif əlifbasının işarələrindən əvvəlki dövrə aid" hayas heroqlifləri olan sikkələr dərc edilmişdi (s. 78). S.Ayvazyan bu işarələrin tərcüməsini böyük cəldliklə verir". Bu sətirlərdə hiksosların erməni kimi göstərilməsi tarixi neçə saxtalaşdırdığının bariz nümunəsidir.

S.Ayvazyan kimi erməni tədqiqatçıların "özləri tərəfindən kəşf edilmiş" heroqlif yazılarını heç bir ciddi elmi əsas olmadan tərcümə etməsi və onların mənşəyini guya erməni yazılarına bağlaması, klassik tarixi saxtalaşdırma nümunəsidir. Akademikin də ironik şəkildə qeyd etdiyi kimi, belə mürəkkəb heroqlif yazıların "heç bir çətinlik çəkmədən" tərcümə olunması, elmi ciddiyyət baxımından olduqca şübhəlidir. Burada əsas məqsəd, Azərbaycan türklərinə və ümumilikdə Qafqazın türk-müsəlman mədəniyyətinə məxsus olan maddi mədəniyyət nümunələrinin ermənileşdirilməsi, regionda süni şəkildə "əvvəlcədən mövcud erməni mədəniyyəti" obrazı yaratmaq idi.

[1] Mkrtiç (Nikita Osipoviç) Emin (1815-1890) Rusiya İmperiyasının ermənişünas və tərcüməçisi, Lazarev İnstitutunun direktoru və şəxsi müşaviri olmuşdur. Qundarma erməni tarixi haqqında yazdığı əsəri - Исследования и статьи Н. О.Эмина. По армянской мифологии, археологии, истории и истории литературы (за 1858-1884 гг.) Москва: 1896, 434 с. стр.204

Müəllifin fikirlərinə əsaslanaraq bildirmək istəyirəm ki, hələ bu azmış kimi, heç bir obyektiv elmi ictimaiyyətə tərəfindən qəbul edilməyən "nəzəriyyələrini" dünya mətbuatında da nəşr etdirməyə çalışmışdılar. Bu baxımdan məktubda yazılırdı: *"Bundan əlavə, B. Mkrtçyanın ingilis dilində nəşr olunmuş məqaləsində, (Çexoslovakiya jurnalı "Metsamorun sirri" "New Orient", cild VI, 1967, № 3, s. 76) "eramızdan əvvəl XIX əsrə aid hayas sikkələri"nin çertyojları ilə yanaşı onların fotoları da təqdim edilmişdir. Bu sikkələr Ermənistan Tarix Muzeyinin numizmatika şöbəsinə ekspertiza üçün verildikdə, aşağıdakı rəy alınmışdır:*

"«New Orient» jurnalında təsvir olunan mis sikkələr eramızdan əvvəl XIX əsrə aid pul vahidləri kimi tamamilə səhv təqdim edilmişdir. Əslində bu sikkələr (yazıları silinmiş halda) bizim eramızın XII–XIII əsrlərinə aiddir və Azərbaycanda hakimiyyət sürmüş Eldəgizlər sülaləsinin atabəyləri (1133–1225-ci illər) tərəfindən buraxılmışdır. Belə sikkələr orta əsrlər dövründə Ermənistan və Zaqafqaziyanın müəyyən bölgələrində geniş yayılmışdır".

Nəticə etibarilə, S.Ayvazyan tərəfindən tərtib edilmiş və B.Mkrtçyanın məqaləsində nəşr olunmuş çertyojların uydurma olduğu və reallıqla heç bir əlaqəsinin olmadığı ortaya çıxmışdır. Müəllifin bilərəkdən saxta çertyojları dərc etməyə necə cəsarət etdiyinə yalnız heyrətlənmək olar".

Bu yüksək kəlmələr akademikin, müasir erməni elmi dairələrində tarixin saxtalaşdırmalarına qarşı ciddi etirazı idi. Məktubdan da göstərilir ki, "qədim erməni yazısı" kimi təqdim edilən nümunələrin əslində orta əsr islam dünyasına, xüsusilə də Azərbaycan Atabəylərinə məxsus sikkələr olduğu sübuta yetirilmişdir. Bu cür saxtalaşdırmaların əsas məqsədi Ermənistan tarixinin süni şəkildə daha qədim dövrlərə bağlamaq kimi qiymətləndirilə bilər.

Müəllif məktubda daha sonra yazırdı: *"Metsamor qayalarında və daşlarında yerləşən, guya eramızdan əvvəl XVII əsrə aid olan hayas yazıları ilə bağlı vəziyyət də fərqli deyil. ... Ermənistan SSR Elmlər Akademiyasının Tarix İnstitutunun ərəbşünaslarının gəldiyi nəticəyə görə, bu daş əslində üzərində ərəb dilində yazı (lakin qeyri-dəqiq köçürülmüş) olan qəbirdaşının üzərində - "Əli Qasım-xan" yazısı yazılmışdır. Təbii ki, bu yazılar S.Ayvazyanın güman etdiyi kimi soldan sağa deyil, ərəb yazısına uyğun olaraq sağdan sola oxunur.*

S.Ayvazyan həmçinin "hayas heroqlifləri" kimi kufi yazı ilə yazılmış "Məhəmməd", "Həsən" və "Əli" adlarını təqdim edir. O, tamğaşəkilli işarələrdən, kufi yazıdan və buynuzlu heyvanın (ehtimal ki, buğa) təsvirindən ibarət kompozisiyanı bütöv bir yazıya çevirərək tərcüməsini vermişdir".

Ermənilərin əsrlər boyu qədim türk yurdu olan Qərbi Azərbaycanın bütün ərazilərində aşkar edilən - "Tamğaşəkilli işarələr", "buynuzlu heyvan təsviri"ni və müsəlman "küfi yazı" bir kompozisiyada birləşdirmək cəhdi, elmi yox, mifoloji və ideoloji yönümlü bir konstruksiyadır. Bu faktları məktubun hər kəlməsində akademik B. Piotrovski aydın şəkildə göstərir. Hətta bu yazıların bizim eranın XIX əsrə aid olduğunu vurğulamaqla ermənilərin göstərilən dövrdə bu torpaqlara gəldiyinin sübutu idi. Tarixi hadisələrə obyektiv yanaşan müəllim bu ərazinin yaxınlığında Zeyvə adlı azərbaycanlı kəndinin olduğunu göstərməklə bu qəbir

abidələrin azərbaycanlılara məxsus olmasını diqqətə çatdırır.

Bütün bunları göstərməyə çalışan müəllif yazırdı: *Burada "Əli" ərəb adının "zəngin" anlayışı ilə eyniləşdirilməsi xüsusi qeyd olunmalıdır. Halbuki ərəb əlifbasını az da olsa bilən hər kəs kufi şriftlə yazılmış bu adları dərhal tanıya bilər. Buna görə də həmin məqalədə "Metsamor daşındakı yazıları bəzi arxeoloqlar ərəb yazısı hesab ediblər" fikrinin (s. 71) səsləndirilməsi heyrətlə qarşılanmalıdır. Axı ərəbşünaslardan bunu yoxlatmaq çox asan idi (!).*

S. Ayvazyanın təqdim etdiyi surətlər qeyri-dəqiqdir və onların əsasında nə yazının xarakteri, nə də dövrü barədə düzgün fikir yürütmək mümkündür. Lakin B. Mkrtçyanın ingilis dilində yazılmış məqaləsində yerləşdirilən fotoşəkil əsasında professor V.A.Krackovskaya aşağıdakı elmi nəticəyə gəlmişdir:

Metsamor yazılarında kufi ərəb əlifbasının işarələri aydın görünür. Yazılar qeyri-müəyyən (təcrübəsiz) əllə həkk olunub, sağdan sola doğru oxunur və orada "Əli" və "Həsən" adları seçilir. İşarələrin formalarına əsasən, onlar orta əsrlərə aid ola bilər, hətta bu yazıların bəziləri miladın XIX əsrinə də aid edilə bilər.

Burada bir mühüm faktı da xatırlamaq yerinə düşərdi: Metsamor təpəsinin yaxınlığında "Zeyvə" adlı Azərbaycan kəndi yerləşmişdir".

Beləliklə akademik B.B.Piotrovski erməni müəlliflərinin elmi əsası olmayan və saxta iddialara söykənən fikirləri qəti şəkildə rədd edərək, Metsamor tapıntılarını dünyanın bütün əlifbalarının "mənbəyi" kimi təqdim edilməsini elmi ictimaiyyət tərəfindən qəbul edilən faktlara tamamilə zidd olan faktları "savadsızlıq" adlandırır.

Müəllifi bu uydurma nəzəriyyələrin yayılmasının qarşısını almaq məqsədi özünün də qeyd etdiyi kimi, - *Bunlar mənim Ermənistan SSR Elmlər Akademiyası Rəyasət Heyətinin iclasında erməni tarix elminə zərərli olan və təəssüf ki, xalq ədəbiyyatına nüfuz etmiş savadsız "nəzəriyyələr" axınının qarşısını almaq məqsədi ilə yazdığım iradlarım idi"* deyə bildirir. Bu fikirlər müəllifin elmi ictimai məsuliyyətin və epistemoloji etik dəyərlərin qorunması baxımından önəmli idi.

Nəticə. Məktubda Metsamor yazısına dair mifin elmi əsaslardan uzaq olması, bu mifin ideoloji motivlərlə formalaşdırılması, arxeoloji və filoloji faktların yanlış təfsiri ilə müşayiət olunmasını ifşa etməklə, tarixi faktların milliyyətçi təbliğata alət edilməsinin elmi ictimaiyyət üçün yaratdığı təhlükələri aydın şəkildə göstərmişdir. O, Ayvazyanın nəzəriyyələrinin tamamilə əsassız antielmi, erməni tarixşünaslığına ciddi zərər vurduğunu qeyd etmişdir.

Beləliklə, akademik Əbdülkərim Əlizadənin muzeyin Sənədli mənbələr elmi fondunda qorunan bu qiymətli sənədlər, görkəmli alimin çox şaxəli elmi fəaliyyətini özündə əks etdirən unikal materialdır. Bu məqalə akademik Ə.Əlizadənin Milli Azərbaycan Tarixi Muzeyində qorunan irsinin tanıdılması istiqamətində atılmış ilk addımdır. Bu Milli Azərbaycan Tarixi Muzeyinin 105 il ərzində Vətən tarixinin, mədəniyyətinin və xalqımızın görkəmli şəxsiyyətlərinin həyat yaradıcılığının tanıdılması istiqamətində apardığı elmi tədqiqat və maarifçilik missiyasına sadiqliyin təcəssümüdür.

ƏDƏBİYYAT

1. Azərbaycan Şərqşünaslıq elminin banisi akademik Əbdülhəmid Əlizadə (sənədlər, məktublar, xatirələr) red. Prof. Y.M.Yaqubov, tərtibçi Z.Ə.Əlizadə. - Bakı: Təhsil, - 2005. - 196 s.
2. SSRİ EA-nın akademiki B.Piatrovskinin 1887-ci ildən bəri Vyanada nəşr olunan "Handes Amsor" adlı erməni araşdırmaları jurnalına yazdığı məktub. Rus dilində. 1971-ci il. Milli Azərbaycan Tarixi Muzeyi, SMF inv. - 3150.
3. Şərqşünas İ.Kraçkovskinin Ə.Əlizadəyə yazdığı məktub. Milli Azərbaycan Tarixi Muzeyi SMF inv. - 3192.
4. Академик Б.Риотровский /Ленинград/. Письмо в редакцию // Академия Наук Армянской ССР, «Историко-филологический» журнал № 3(54), - Ериван: 1971, - с. 1-4.
5. Минорский В.Ф. История Ширвана и Дербенда X-XI вв. / От ответственного редактора А.А. Али-заде. Москва: Изд-во восточной литры. 1963. - 266 с.

Məqalənin redaksiyaya daxilolma tarixi: 01.06.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 04.06.2026
Məqalənin çapa daxil olunma tarixi: 20.07.2026

UOT-6303.01
DOI: doi.org/10.61226/12.2.2023/20262.5
Bünyadov Zahid Vahab oğlu
Sumqayıt Dövlət Universiteti,
"Fəlsəfə, sosiologiya və politologiya"kafedrasının baş müəllimi
https://orcid.org/0009-0007-6733-8363
bunyadov82@mail.ru

Qasımova Nailə Zaman qızı
Sumqayıt Dövlət Universiteti,
"Fəlsəfə, sosiologiya və politologiya" kafedrasının baş müəllimi https://orcid.org/0009-0004-7816-0263
kulturoloq1@gmail.com

İQTİSADİ MODERNLƏŞMƏ VƏ SOSİAL İNKİŞAFIN ƏSAS İSTİQAMƏTLƏRİ

Xülasə: Müasir dövr informasiya əsri olmaqla bərabər eyni zamanda sürətli qloballaşma prosesi ilə xarakterizə olunur. Belə bir dövrdə iqtisadi əlaqələrin beynəlxalq səviyyədə genişlənməsi, beynəlxalq bazara çıxış kontekstində milli iqtisadiyyatımızın maraqlarını daha da artırır. XXI əsrdə dünyanın intensiv inkişaf mərhələsinə daxil olması sosial-iqtisadi münasibətlərin təkmilləşməsinə səbəb oldu. Dünya iqtisadiyyatında baş verən geosiyasi və sosial-iqtisadi dəyişikliklər Azərbaycan iqtisadiyyatının da inkişaf modelinə təsir etdi. Ölkəmizin milli iqtisadi inkişaf modeli sosialyönümlüdür. Son illər ərzində Azərbaycanda bir çox sosial-iqtisadi əhəmiyyətli dövlət proqramları reallaşdırılmışdır.

Açar sözlər: Sosial siyasət, modernləşmə, yaşıl keçid, ekologiya, resurs, innovasiya, dövlət proqramı, davamlı inkişaf.

Захид Буньядов
Наилья Гасимова

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ МОДЕРНИЗАЦИИ ЭКОНОМИКИ И СОЦИАЛЬНОГО РАЗВИТИЯ

Резюме: Современная эпоха, характеризующаяся информационным веком, характеризуется также стремительным процессом глобализации. В эту эпоху расширение экономических связей на международном уровне еще больше повышает интерес нашей национальной экономики к выходу на международные рынки. Вступление мира в фазу интенсивного развития в XXI веке привело к совершенствованию социально-экономических отношений. Геополитические и социально-экономические изменения, происходящие в мировой экономике, оказали влияние и на модель развития экономики Азербайджана. Модель развития национальной экономики нашей страны социально ориентирована. За последние годы в Азербайджане реализовано множество государственных программ социально-экономического значения.

Ключевые слова: Социальная политика, модернизация, зеленый пропуск, екология, ресурс, инновации, государственная программа, устойчивое развитие.

Zahid Bunyadov
Naila Gasimova

MAIN DIRECTIONS OF EKONOMIC MODERNIZATION AND SOCIAL DEVELOPMENT

Abstract: The modern era, which is characterized by the information age, is also characterized by a rapid globalization process. In such an era, the expansion of economic relations at the international level further increases the interests of our national economy in the context of access to international markets. The world's entry into a phase of intensive development in the 21st century led to the improvement of socio-economic relations. The geopolitical and socio-economic changes taking place in the wold economy also affected the development model of the Azerbaijan economy. Our country's national economic development model is socially oriented. In recent years, many state programs of socio-economic importance have been implemented in Azerbaijan.

Keywords: Social policy, modernization, green pass, ecology, resource, innovation, state program, sustainable development.

GİRİŞ

Tarixən istiqlalını və milli dəyərlərini hər şeydən üstün tutaraq mübarizə aparan dövlət tarix səhnəsində öz əzəmətliliyi ilə seçilir. XX əsrin sonları və XXI əsrin əvvəllərində yeni dünya düzənində dövlətlərin ictimai-siyasi həyatında yeni bir dövr başladı. Bu ümümbəşəri xarakter daşıdı. Bu baxımdan dünya siyasi sistemində və iqtisadiyyatında böyük dəyişikliklərə yol açıldı. Azərbaycan məhz o mübarizələrdən qəhrəmanlıqla çıxaraq bu gün öz milli dəyərlərini dünya səviyyəsinə çıxarmağa nail olmuşdur. Demək olar ki, son beş il ərzində iqtisadiyyatın bütün sahələrində yeni modernləşmə siyasəti aparır. Eyni zamanda dayanıqlı inkişaf məqsədlərini inkişaf etdirərək yaşıl transformasiya istiqamətində irəliləyişlərə nail oldu.

Müasir dünyada qloballaşma və inteqrasiya rəqabət mübarizəsini kəskinləşdirərək milli təsərrüfat qarşısında müəyyən vəzifələr qoyur. İnteqrasiya prosesində səmərəli iştirak etmək, həmçinin rəqabət mübarizəsində davam gətirmək milli və dövlətçilik maraqlarını təmin etmək modern milli iqtisadiyyatın formalaşmasını tələb edir. Artıq XX əsrin 80-cı illərinin sonlarından başlayaraq davamlı inkişaf konsepsiyası 1992-ci ildən sonra milli inkişaf strategiyasının hazırlanmasına gətirdi. Əlbətdə inkişaf səviyyəsindən asılı olmayaraq, hər bir milli iqtisadiyyatın əsas şərtlərindən biri də rəqabət qabilliyətinin olmasıdır. Sözsüz ki, bu da ancaq modernləşdirmə vasitəsilə mümkün ola bilir. Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli dəyərlər qarşısında Şərqlə Qərbin qovşağı olan ölkəmizin qüdrətinin daha da artacağına böyük əminlik yaradır. Bu gün Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsi gələcək üçün geniş istiqamətlər açır. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, vətəndaş və dövlət üçlüyünün uğurlu əlaqəsi yaradılır. Sosial-iqtisadi yönümdə artım sağlam və tarazlı olmalıdır. İqtisadi artım vətəndaşların həyatına təsir göstərən başlıca amillərdən biridir. Təbii ki, inkişaf səviyyəsindən asılı olmayaraq, hər bir milli iqtisadiyyatın başlıca şərtlərindən biri də rəqabət qabiliyyətliliyin təmin

edilməsidir ki, bu da yalnız modernləşmə vasitəsilə mümkündür. İqtisadi modernləşmə effektiv özəl təşəbbüslərə söykənməlidir. Bu baxımdan iqtisadiyyatımızda uzunmüddətli investisiya resurslarının əsas mənbəyi olan kapitlal sığorta bazarının inkişafı da sürətləndirilməlidir. Bu səbəbdən, ölkə iqtisadiyyatına birbaşa xarici investisiyaların, o cümlədən də infarstruktur sahələrinə strateji investorların cəlb edilməsi təmin edilir. Milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan, xarici mühitdən mütləq şəkildə təsirlənə bilir. Sosial-iqtisadi inkişafda modernləşmə xətti son illərdə ölkədə həyata keçirilən sosialyönümlü olaraq vətəndaşların rifah səviyyəsini yüksətmişdir. [1, s. 176]

Ölkəmizin iqtisadi inkişafı və modernləşməsinin əsaas istiqamətləri dövlətimiz tərəfindən müəyyənləşdirilmişdir. Cəmiyyət həyatının bütün sahələrində dərin dəyişikliklərin baş verməsi iqtisadiyyatın da modernləşməsinə imkanlar açır. Bu məsələyə bir qədər fərqli formada yanaşsaq ölkənin inkişafı sənayenin xüsusən kənd təsərrüfatı və aqrar sahəyə yeni mərhələ açmış olar. Dövlət proqrmı çərçivəsində aqrar sahənin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər də prioritet istiqamətlərdəndir. Xüsusən aqrar sahənin daha da inkişaf etdirilməsi istiqamətində infrasturukturun yaxşılaşdırılmasına diqqət artırılmışdır. Regionların inkişafında sosial məsələlərin həlli ilə bağlı işlər daima diqqət mərkəzindədir. İqtisadi modernləşdirilmə təhsil, səhiyyə və mədəniyyət üzrə layihələrin reallaşdırılmasında yeni imkqanlar açır. Təbii ki, inkişaf səviyyəsindən asılı olmayaraq hər bir iqtisadiyyatın inkişafına güclü təsir edəcək texnoloji imkanlar mövcuddur. Belə ki, İKT əsaslı texnoloji innovasiya iqatisadiyyatı sektorlarının formalaşması, idarə olunması problemləri üzrə təqiqatlar genişləndirilir. İqtisadiyyatın formalaşması bir başa olaraq müasir sənaye texnologiyalarının surətinə bağlıdır. Son dövrlərdə dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklər şəraitində ölkələrarası rəqabət daha da artmışdır. Dünyada artan rəqabətə davam gətirə bilmək üçün müasir güclü təhsilə arxalanılmalıdır. Yüksək keyfiyyətli təhsil almaq kadr hazırlığına və əmək bazarının tələblərinə uyğunlaşdırılmalıdır. Hazırda ölkəmizdə dayanıqlı inkişafın sosial, iqtisadi və ekoloji ehtiyacları gələcək üçün də hədəflənir. [2, s. 64]

Müasir qloballaşma və inteqrasiya şəraitində milli iqtisadiyyatın əlaqələrinin genişləndirilməsi dünya bazarına çıxışa zəmin yaradır. Beynəlxalq bazarlara çıxışın təmin olunması milli iqtisadiyyatımızın əsas məqsədlərindəndir. Xarici iqtisadi əlaqələrin genişləndirilməsi, beynəlxalq iqtisadi məkana inteqrasiya milli iqtisadiyyatın inkişafı üçün zəruridir. Azərbaycanda 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası geniş strateji xətlə davam etdirilir. Həmçinin 2030-cu ilə qədər olan sosial-iqtisadi inkişafa dair milli prioritetlər itiqamətində qüdrətli dövlət və yüksək rifah cəmiyyətinə nail olmaq hədəflənib. Müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilir. Uğurlu sosial –iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər ölkəmizi beynəlxalq müstəvidə tanıdır. Aparılan uğurlu sosial-iqtisadi islahatlar ölkəmizin hərtərəfli inkişafına və qabaqcıl dünya ölkələri sırasına qoşulmasına geniş imkanlar yaradır. İqtisadiyyatımızın imkanı düşünülmüş siyasətin və məntiqi idarəetmənin nəticəsidir. Xatırlatmaq yerinə düşər ki, 2010-cu ildən sonrakı iqtisadi artımın və

əhalinin sosial rifah halının yaxşılaşdırılması sahəsində xeyli səmərəli işlər görülüb. Təbii ki, bu tanınma 2030-cu ilə qədər olan dövrdə Azərbaycanın təkcə iqtisadiyatını deyil, müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə də sahib olan bir dövlət kimi tanınması deməkdir. Ölkəmizin davamlı və sürətli inkişafı həm cəmiyyətin həm də biznes, dövlət üçlüyünün uğurlu əlaqəsini gücləndidrir. Son beş ildə Azərbaycan 2030 -cu ilə olan dayanılqlı inkişaf mexanizmliyinin sadiqliyini nümayiş etdirib. [3, s. 89]

Milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan xarici mühitdən çox asılıdır. Belə ki, davamlı və yüksək iqtisadi artım dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət etməlidir. Bütün təbəqələr cəmiyyətin ayrılmaz hissəsidir. Azərbaycan dövləti bütün təbəqələrin qayğısına qalaraq əhatə dairəsini genişləndirir. Ərazi bütövlüyümüzün təmin olunması xalqımızın çoxəsirlik tarixində silinməz iz qoydu. Böyük qayıdış xalqımızın işğaldan azad edilmiş ərazilərində dayanıqlı inkişaf və ölkəmizin iqtisadi fəalliyətinə qoşulmasını təmin etmiş oldu. Bu gün iqtisadi artımın və inkişafın davamlı olması üçün diğər iqtisadi sahə yaşıl iqtisadiyyatın qəbul edilməsi vacibdir. Yaşıl iqtisadiyyatın perspektivlərini qiymətləndirmək qarşıda duran əsas məsələlərdən biridir. Ətraf mühitin monitorinq sistemlələri çərçivəsində iqtisadi fəaliyyətin xüsusən hava və suyun keyfiyyətinə təsirini qiymətləndirmək vacibdir. Ətraf mühitin davamlılığı üzərində sosial sahələrin ekoloji cəhətdən iştirakını təmin etmək məqsədyönlüdür. Ölkəmizin hərtərəfli inkişafı və modernləşməsinin əsas istiqamətləri prezident İlham Əliyev tərəfindən müəyyən edilmişdir. Azərbaycan iqtisadiyyatının modernləşməsi güclü dövlət idarəçiliyinə söykənir. Qeyd etmək istərdik ki, modernləşmə iqtisadiyyatımızda yeni bir inkişaf mərhələsinə yol açır. Bu gün modernləşmə siyasətinin səciyyəvi xüsusiyyətini ölkənin uzunmüddətli dayanıqlı inkişafının və innovasiya fəallığının yüksəldilməsi yolu ilə rəqabətqabiliyyətli məhsulların istehsalının sürətləndirilməsinə təkan verir. Bu gün modernləşmə Azərbaycan cəmiyyəti üçün iqtisadi və sosial hədəflərə ünvanlanmış müasir inkişaf formasıdır. Ümumiyyətlə sosial rifaha xidmət edən çoxşaxəli səmərəli siyasət yürüdən və iqtisadi gücünü səfərbər edən dövlətlər milli tərəqqiyə nail olur. Sosial-iqtisadi inkişaf strategiyasını müəyyən edərək yeni iqtisadi strategiyalar reallaşdırılır. [4, s. 102]

Artıq qloballaşmanın, informasiya-kommunikasiya texnalogiyalarının tələbləri və təsiri altında inkişaf etmiş cəmiyyətlərin bütün sahələrdə modernləşməsi dövrüdür. Belə ki, daha yüksək səviyyədə inkişafı açıq olan qlobal informasiya cəmiyyətinin formalaşması dövrüdür desək, yanılmarıq. Cəmiyyətin inkişaf dövrlərinin iqtisadiyyatın istənilən sahəsinin aparıcı rol oynaması birtərəfli xarakter daşıyır. İqtisadiyyatın dəyişməzliyi və modernləşməsi inkişaf və demokratikləşməyə əsaslanır. Demokratik inkişaf isə təkamülə arxalanmalıdır. Azərbaycan iqtisadiyyatı bir sıra inkişaf mərhələsindən keçmişdir. Müstəqilliyimizin əldə edildiyi zamandan başlayaraq milli iqtisadiyyatımızın artımı ilbəil irəliləyir. İqtisadiyyatımızın inkişafı bərabər və tarazlı sosial inkişaf strategiyasına dayanır. Düşünülmüş iqtisadi siyasət nəticəsində beynəlxalq korporasiyalarla səmərəli əlaqələr quruldu və inkişafı üçün ciddi addımlar atıldı. Eyni zamanda davamlı iqtisadi artımın əsası qoyuldu. Bu istiqamətdə bir neçə

sektorlar yeni başlanğıc dövrünə qədəm qoydu. Belə ki, ölkəmizə gəlir gətirın sahələr fonunda turizm sektorunun iqtisadi inkişafı bu sahənin geniş fəaliyyətinə imkanlar açdı. Demək olar ki, turizmin sosial-iqtisadi inkişafa təsiri ölkəmizdə bu sahəyə maraqların artmasına səbəb oldu. Demək olar ki, müsbət sosial-mədəni və iqtisadi təsirlərə əsasən turizmin daha çox sosial səviyyədə mədəniyyətlərarası qarşılıqlı əlaqələrə yol açmasını, beynəlxalq əlaqələri gücləndirməsini qeyd edə bilərik. Bütün yuxarıda qeyd etdiklərimizə rəğmən gələcək iqtisadi uğurların möhkəm təməli qoyulmuş oldu. [5, s. 32] Bu gün möhtərəm Prezidentin bu siyasi proqramı davam etdirdiyinin və iqtisadiyyatın yeni üsullarla inkişaf etdirilməsi, milli məhsul istehsalının artırılması istiqamətində aparılan mübarizəsinin şahidiyik. Ölkəmizdə rəqəmsal iqtisadiyyat dayanıqlı inkişafı şərtləndirir. Bu da iqtisadiyyatın modernləşdirilməsində başlıca rol oynayır. Modernləşmə istiqamətində davamlı infrastrukturların həyata keçirildiyi hazırkı mərhələdə sənayeləşmə, elmi-texniki sahənin bütün istiqamətləri XXI əsrdə əhəmiyyətli dərəcədə yüksəlmişdir. Hazırda cəmiyyətdə iqtisadi səmərəliliyin artmasına və vətəndaş məmnunluğuna xidmət edən islahatlar aparılmaqdadır. Artıq iqtisadiyyatın modernləşdirilməsi və davamlı inkişafı ölkəmizdə sürətlə inkişaf edir. Davamlı inkişaf və iqtisadi təhlükəsizlik məsələləri kompleks şəkildə təhlil edilmiş kənd təsərüfatı, nəqliyyat, turizm və s. istiqamətlərdə yeni proqramlar həyata keçirir. Sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində demokratik transformasiyanın milli xüsusiyyətlərinin modernləşmə prosesinin əhəmiyyəti böyükdür. Ümumilikdə ölkənin bugünkü və gələcək inkişaf prioritetlərinin, iqtisadi modernləşməsinin elmi-nəzəri cəhətdən əsaslandırılması aktuallıq kəsb edir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

1. A.Ş.Şəkərəliyev. “Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi” Bakı-2011-ci il, “İqtisad Universiteti”, 530 səh.
2. A.Ş.Şəkərəliyev, Q. Şəkərəliyev. Azərbaycan iqtisadiyyatı: Reallıqlar və perspektivlər. Bakı- 2016- cı il, “Turxan” NPB, 536 səh.
3. AMEA- Fəlsəvə İnstitutu (İ.Rüstəmov, Ə.Tağıyev, A.Mustafayev), DAVAMLI İNKİŞAFIN SOSİAL VƏ FƏLSƏFİ PROBLEMLƏRİ. Bakı-2020-ci il, “Elm və təhsil”, nəşriyyat, 300 səh.
4. E.M. Hacızadə. SOSİALLAŞAN İQTİSADİYYAT , “Elm” nəşriyyatı: Bakı-2006, 509 səh.
5. Ə.X.Nuriyev. DAVAMLI VƏ TARAZLI REGİONAL İNKİŞAF. Bakı-2017-ci il, “Avropa” nəşriyyatı, 242 səh.

Məqalənin redaksiyaya daxilolma tarixi: 03.06.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.06.2026
Məqalənin çapa daxil olunma tarixi: 20.07.2026

UOT: 330.15
DOI: doi.org/10.61226/12.2.2023/20262.6
Emil BAĞIRLI
Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant
emilbagirli@gmail.com
https://orcid.org/0009-0009-8303-6239

RESURS BOLLUĞU PARADOKSU: TƏBİİ RESURS ASILILIĞI ÖLKƏLƏRARASI İNKİŞAF FƏRQLƏRİNİ NECƏ DƏRİNLƏŞDİRİR?

Xülasə: Təbii resursların bolluğu iqtisadi inkişaf üçün mühüm üstünlük kimi qəbul edilsə də, bir çox resurs zəngin ölkələr resurs kasıb ölkələrlə müqayisədə daha zəif iqtisadi göstəricilər nümayiş etdirir. Bu fenomen iqtisadi ədəbiyyatda "resurs lənəti" və ya "bolluq paradoksu" kimi tanınır. Məqalədə təbii resurs asılılığının ölkələrarası inkişaf fərqlərini dərinləşdirmə mexanizmləri hərtərəfli təhlil edilir. Tədqiqatda Hollandiya xəstəliyi, rentaçı dövlət davranışı, institusional keyfiyyətin zəifləməsi və insan kapitalına investisiyaların azalması kimi əsas ötürücü kanallar araşdırılır. Nigeriya, Venesuela, Norveç və Botsvana kimi ölkələrin təcrübələri müqayisəli şəkildə nəzərdən keçirilir. Təhlil göstərir ki, resurs bolluğunun inkişafa təsiri birmənalı deyil və institusional keyfiyyət, şəffaflıq, iqtisadi diversifikasiya siyasətləri kimi amillərdən əhəmiyyətli dərəcədə asılıdır. Məqalə resurs zəngin ölkələrin bu lənətdən xilas olmaq üçün həyata keçirə biləcəyi siyasət tədbirlərini müzakirə edir.

Açar sözlər: resurs lənəti, Hollandiya xəstəliyi, təbii resurs asılılığı, iqtisadi inkişaf, institusional keyfiyyət, bolluq paradoksu, iqtisadi diversifikasiya.

THE PARADOX OF RESOURCE ABUNDANCE: HOW NATURAL RESOURCE DEPENDENCE DEEPENS CROSS-COUNTRY DEVELOPMENT DISPARITIES?

Abstract: Although the abundance of natural resources is widely regarded as a significant advantage for economic development, many resource-rich countries demonstrate weaker economic performance compared to resource-poor nations. This phenomenon is known in the economic literature as the "resource curse" or the "paradox of plenty." The article comprehensively analyzes the mechanisms through which natural resource dependence deepens cross-country development disparities. The study investigates key transmission channels such as Dutch disease, rentier state behavior, weakening of institutional quality, and declining investments in human capital. The experiences of countries such as Nigeria, Venezuela, Norway, and Botswana are comparatively examined. The analysis demonstrates that the impact of resource abundance on development is not

unambiguous and depends significantly on factors such as institutional quality, transparency, and economic diversification policies. The article discusses policy measures that resource-rich countries can implement to escape this curse.

Keywords: resource curse, Dutch disease, natural resource dependence, economic development, institutional quality, paradox of plenty, economic diversification.

ПАРАДОКС ИЗОБИЛИЯ РЕСУРСОВ: КАК ЗАВИСИМОСТЬ ОТ ПРИРОДНЫХ РЕСУРСОВ УГЛУБЛЯЕТ РАЗЛИЧИЯ В РАЗВИТИИ МЕЖДУ СТРАНАМИ?

Абстракт: Хотя изобилие природных ресурсов широко рассматривается как существенное преимущество для экономического развития, многие богатые ресурсами страны демонстрируют более слабые экономические показатели по сравнению с бедными ресурсами странами. Этот феномен известен в экономической литературе как «ресурсное проклятие» или «парадокс изобилия». В статье всесторонне анализируются механизмы, посредством которых зависимость от природных ресурсов углубляет различия в развитии между странами. В исследовании рассматриваются ключевые каналы передачи, такие как голландская болезнь, поведение рентного государства, ослабление институционального качества и снижение инвестиций в человеческий капитал. Сравнительно анализируется опыт таких стран, как Нигерия, Венесуэла, Норвегия и Ботсвана. Анализ показывает, что влияние изобилия ресурсов на развитие неоднозначно и в значительной степени зависит от институционального качества, прозрачности и политики экономической диверсификации.

Ключевые слова: ресурсное проклятие, голландская болезнь, зависимость от природных ресурсов, экономическое развитие, институциональное качество, парадокс изобилия, экономическая диверсификация.

GİRİŞ

Təbii resurslar tarixən ölkələrin iqtisadi inkişafında mühüm rol oynamış və resurs zənginliyi çox vaxt rifah və tərəqqinin rəmzi kimi qəbul edilmişdir. Lakin XX əsrin ikinci yarısından etibarən iqtisadçılar paradoksal bir fenomenlə üzləşdilər: neft, qaz və mineral resurslarla zəngin olan bir çox ölkə bu sərvətlərindən bəhrələnmək əvəzinə, iqtisadi durğunluq, siyasi qeyri-sabitlik və inkişaf geriliyi ilə qarşılaşdı. Bu fenomen iqtisadi ədəbiyyatda "resurs lənəti" (resource curse) və ya "bolluq paradoksu" (paradox of plenty) kimi tanınır.

Resurs lənəti hipotezinin əsasını Sachs və Warner (1995, 2001) qoymuşdur. Onların araşdırmaları göstərdi ki, təbii resurs ixracından yüksək gəlir əldə edən ölkələr 1970-ci illərdən sonra resurs kasıb ölkələrlə müqayisədə daha aşağı iqtisadi artım templəri nümayiş etdirmişlər [1]. Bu tapıntı ənənəvi iqtisadi

düşüncəyə zidd olsa da, çoxsaylı empirik tədqiqatlarla təsdiqlənmişdir. Beynəlxalq Valyuta Fondu (BVF) 51 ölkəni "resurs zəngin" kimi təsnif edir və bu ölkələrdən 29-u aşağı və orta gəlirli ölkələrdir [2]. Bu ölkələrin ümumi xüsusiyyətləri arasında resurs gəlirlərinə həddindən artıq asılılıq, aşağı yığım dərəcələri, zəif artım göstəriciləri və yüksək gəlir dəyişkənliyi yer alır.

İsveçrə və Yaponiya kimi təbii resursları məhdud olan ölkələr dünyanın ən inkişaf etmiş iqtisadiyyatları sırasındadır. Eyni zamanda, Nigeriya, Venesuela, Konqo Demokratik Respublikası kimi resurs zəngin ölkələr isə iqtisadi geriliklə, yüksək yoxsulluq səviyyəsi ilə mübarizə aparır. Bu ziddiyyət resurs bolluğunun iqtisadi inkişafa necə mane ola biləcəyi sualını gündəmə gətirir. 2022-ci ildə nəşr olunan tədqiqatda Zhan qeyd edir ki, müxtəlif empirik sübutlarla dəstəklənən araşdırmalar resurs bolluğunun iqtisadi inkişafa təsiri barədə ziddiyyətli nəticələr ortaya qoyur [3].

Resurs bolluğu paradoksu yalnız nəzəri maraq doğuran fenomen deyil, həm də mühüm siyasət implikasiyalarına malikdir. Bir çox inkişaf etməkdə olan ölkələr hələ də təbii resurs gəlirlərinə əhəmiyyətli dərəcədə asılıdır və bu asılılıq onların iqtisadi diversifikasiya, sosial inkişaf və demokratikləşmə proseslərini ciddi şəkildə çətinləşdirir. COVID-19 pandemiyası bu zəiflikləri daha da kəskinləşdirmiş, resurs asılı iqtisadiyyatların xarici şoklara qarşı nə qədər həssas olduğunu bir daha göstərmişdir.

Bu məqalədə resurs bolluğu paradoksunun əsas mexanizmləri, ötürücü kanalları və ölkələrarası inkişaf fərqlərinə təsiri hərtərəfli təhlil edilir. Tədqiqatın məqsədi Hollandiya xəstəliyi, rentaçı dövlət davranışı, institusional zəiflik və insan kapitalına investisiyaların azalması kimi kanallar vasitəsilə resurs asılılığının inkişaf fərqlərini necə dərinləşdirdiyini müəyyən etməkdir. Eyni zamanda, Norveç və Botsvana kimi ölkələrin bu lənətdən xilas olma təcrübələri nəzərdən keçirilir. Məqalə resurs zəngin ölkələrin qarşılaşdığı çağırışları dərindən anlamağa və bu ölkələr üçün effektiv siyasət tövsiyələri formalaşdırmağa xidmət edir.

ƏDƏBİYYAT İCMALI

Resurs lənəti anlayışı ilk dəfə Auty (1993) tərəfindən irəli sürülmüş və sonradan Sachs və Warner tərəfindən geniş şəkildə empirik olaraq sınanmışdır. Sachs və Warner (2001) 1970-1990-cı illər üzrə çoxölkəli məlumatları təhlil edərək təbii resurs ixracının iqtisadi artımla mənfi əlaqədə olduğunu müəyyən etmişlər [1]. Bu nəticə coğrafi, iqlim və ya digər gizli dəyişənlərlə izah olunmamış, resurs zəngin ölkələrin yüksək qiymət iqtisadiyyatları olduğu və ixracata əsaslanan artım modelindən faydalana bilmədikləri aşkar edilmişdir.

Ross (2012) neft lənəti üzərində apardığı fundamental tədqiqatda göstərmişdir ki, inkişaf etməkdə olan ölkələrdə neft sərvəti daha az demokratiya, daha az iqtisadi sabitlik və daha tez-tez vətəndaş müharibələri ilə nəticələnir [4]. Onun təhlili göstərir ki, 1970-ci illərdə neft qiymətlərinin kəskin artmasından və hökumətlərin neft sənayesini milliləşdirməsindən əvvəl neft zəngin ölkələr dünyanın qalan hissəsinə bənzər görünürdü; lakin milliləşdirmədən sonra bu

ölkələrdə avtoritarizm, korrupsiya və iqtisadi qeyri-sabitlik artdı.

Lashitew və Werker (2020) resurs lənəti ədəbiyyatındakı ziddiyyətli tapıntıları barışdırmağa cəhd etmişlər. 100-dən çox ölkəni əhatə edən tədqiqatlarında onlar iki mühüm kanal müəyyən etmişlər: birbaşa iqtisadi effekt və dolayı institusional effekt. Birbaşa effektə görə, təbii resurslar iqtisadi rentalar yaradır ki, bunlar ictimai xidmətlər və digər məhsuldar məqsədlər üçün istifadə oluna bilər. Lakin dolayı effekt göstərir ki, uzunmüddətli perspektivdə təbii resurslar institutların inkişafına mane olur. Bu iki effektin cəmi ümumiyyətlə sıfıra bərabər olur, yəni müsbət iqtisadi effekt mənfi institusional effektlə kompensasiya edilir [5].

Kirat (2024) 125 ölkəni əhatə edən panel məlumatlar (1988-2020) əsasında apardığı tədqiqatda resurs lənəti paradoksunu yenidən nəzərdən keçirmişdir. O, təbii resurs bolluğunun iqtisadi artımı stimullaşdırdığını müəyyən etmiş, lakin artım təsirinin qeyri-xətti olduğunu və təbii resurs dəyişkənliyindən asılı olduğunu göstərmişdir. Yüksək dəyişkənliyə məruz qalan ölkələr aşağı dəyişkənlikli ölkələrlə müqayisədə illik ÜDM artımında 22 faiz bəndinə qədər itki yaşayır [6]. Bu nəticə göstərir ki, resurs lənəti paradoksunu resursların bolluğu deyil, dəyişkənlik və hökumətlərin zəif reaksiyaları idarə edir.

Hollandiya xəstəliyi mexanizmi resurs lənətinin əsas ötürücü kanallarından biri kimi geniş şəkildə araşdırılmışdır. Alberola və Benigno (2017) və Lama və Medina (2019) öz tədqiqatlarında göstərmişlər ki, resurs bumu nəticəsində artan xarici valyuta axını milli valyutanın real məzənnəsinin bahalaşmasına səbəb olur, bu da istehsal sənayesinin və kənd təsərrüfatının beynəlxalq rəqabət qabiliyyətini azaldır [7]. De Medeiros Costa və Samanez (2022) Sub-Sahara Afrika ölkələri üzrə apardıqları tədqiqatda Hollandiya xəstəliyi və cəlbetmə effekti mexanizmlərinin fəaliyyətini empirik olaraq təsdiqləmişlər. Onların nəticələri göstərir ki, təbii resurs asılılığı qeyri-resurs sektorlarının və ümumi iqtisadiyyatın artımına zərərli təsir göstərir [8].

Mahdavi (2020) resurs lənətinin siyasi dimensiyasını araşdıraraq neft ilə bağlı rüşvət hallarını 59 neft istehsalçısı ölkədə tədqiq etmişdir. O, neft hasilatının idarə edilmə strukturunun korrupsiya ilə güclü əlaqədə olduğunu müəyyən etmişdir: dövlət müəssisələrinə tender keçirmə səlahiyyəti verildiyi hallarda rüşvət halları daha çox müşahidə olunur [9]. Bu tapıntı institusional seçimlərin resurs lənətini dərinləşdirmə və ya yüngülləşdirmədəki rolunu vurğulayır.

Huang və başqaları (2024) resurs asılılığının azaldılmasının gəlir bərabərsizliyinə təsirini araşdırmışlar. Çinin resurs əsaslı şəhərlər üçün davamlı inkişaf proqramını təbii eksperiment kimi istifadə edən tədqiqat göstərmişdir ki, resurs asılılığının azaldılması şəhər-kənd gəlir fərqini orta hesabla 4,11% azaldır [10]. Bu effekt əmək tutumlu sənayələrin artması və kənd investisiyalarının genişlənməsi vasitəsilə baş verir.

Nəhayət, Fagbemi və Adeoye (2020) resurs zəngin ölkələrdə idarəetmə çatışmazlıqları ilə resurs lənəti arasındakı qarşılıqlı əlaqəni təhlil edərək göstərmişlər ki, zəif idarəetmə keyfiyyəti və təbii resurs rentalarının birləşməsi

uzunmüddətli perspektivdə iqtisadi artım üzərində əhəmiyyətsiz, bəzən isə geriləməyə səbəb olan təsir göstərir [11]. Bu nəticə resurs lənətinin birmənalı olmadığını və institusional kontekstin həlledici rol oynadığını bir daha təsdiqləyir.

TƏHLİL

RESURS LƏNƏTİNİN ƏSAS ÖTÜRÜCÜ KANALLARI

Resurs lənətinin ölkələrarası inkişaf fərqlərini dərinləşdirmə mexanizmləri bir neçə əsas kanal vasitəsilə fəaliyyət göstərir. Bu kanalların hər biri ayrılıqda və birgə təsir göstərərək resurs zəngin ölkələrin iqtisadi potensialını məhdudlaşdırır.

Cədvəl 1. Resurs lənətinin əsas ötürücü kanalları və təsir mexanizmləri

Ötürücü kanal	Mexanizm	Nəticə	Nümunə ölkələr
Hollandiya xəstəliyi	Resurs ixracı real məzənnəni bahalaşdırır, qeyri-resurs sektorları rəqabət qabiliyyətini itirir	Sənayesizləşmə, ixrac bazasının daralması	Nigeriya, Venesuela, Qana
Rentaçı dövlət davranışı	Resurs gəlirləri vergi yığma ehtiyacını azaldır, hesabatlılıq zəifləyir	Korrupsiya, patronaj, avtoritarizm	Konqo DR, Əlcəzair, Angola
İnstitusional zəiflik	Resurs gəlirləri güclü institutların formalaşmasına mane olur	Hüquqi dövlətin zəifləməsi, mülkiyyət hüquqlarının qorunmaması	Nigeriya, İraq, Liviya
İnsan kapitalının geriləməsi	Təhsil və innovasiyaya ayrılan resurslar azalır	Aşağı innovasiya, məhdud diversifikasiya potensialı	Səudiyyə Ərəbistanı, Qvineya, Çad

Mənbə: Ədəbiyyat icmalı əsasında müəllif tərəfindən tərtib edilmişdir [1, 4, 5, 7, 8]

1. Hollandiya xəstəliyi. Resurs lənətinin ən çox araşdırılan mexanizmlərindən biri olan Hollandiya xəstəliyi 1960-cı illərdə Niderlandda kəşf edilən təbii qaz yataqlarının ölkə iqtisadiyyatına mənfi təsirlərindən sonra adlandırılmışdır. Bu fenomen resurs ixracından əldə edilən xarici valyuta axınının milli valyutanın real məzənnəsini bahalaşdırması nəticəsində digər ixrac sektorlarının rəqabət qabiliyyətinin azalması ilə xarakterizə olunur. Hurtado (2022) müəyyən etmişdir ki, resurs bumundan yaranan real məzənnə bahalaşması resurs

kasıb ölkələrdə daha kəskin olur, resurs zəngin ölkələrdə isə istehsal sektorunun artım tempi xidmət sektorundan daha çox azalır [7]. Bu proses sənayesizləşməyə, iqtisadi diversifikasiyanın zəifləməsinə və ixrac bazasının daralmasına gətirib çıxarır.

Hollandiya xəstəliyinin mexanizmi iki əsas kanaldan ibarətdir: xərcləmə kanalı və resurs hərəkəti kanalı. Xərcləmə kanalında resurs gəlirləri daxili tələbi artırır, bu da qeyri-ticarət sektorunda qiymətlərin yüksəlməsinə və real məzənnənin bahalaşmasına gətirib çıxarır. Resurs hərəkəti kanalında isə resurs sektorundakı yüksək maaşlar digər sektorlardan işçi qüvvəsini cəlb edir, nəticədə istehsal və kənd təsərrüfatı sektorlarında əmək qıtlığı yaranır. Sub-Sahara Afrikasında bu mexanizmlər xüsusilə kəskin şəkildə müşahidə olunur: De Medeiros Costa və Samanez (2022) göstərmişlər ki, regionda təbii resurs asılılığı istehsal sektorunun artımını ciddi şəkildə əngəlləyir və ümumi iqtisadi artımı zəiflədir [8].

2. Rentaçı dövlət davranışı. Təbii resurs gəlirləri hökumətlərin vergi yığma ehtiyacını azaldır ki, bu da dövlət-vətəndaş münasibətlərini əsaslı şəkildə dəyişdirir. Resurs gəlirləri ilə maliyyələşən dövlətlər vətəndaşlardan vergi yığmaq əvəzinə, resurs rentalarına güvənir, bu isə idarəetmə hesabatlılığını zəiflədir. Karl (1997) "bolluğun paradoksu" əsərində göstərmişdir ki, neft bumları zamanı hökumətlər qısamüddətli populist xərclərə meyllədir və uzunmüddətli struktural islahatları gecikdirir. Ross (2015) müəyyən etmişdir ki, neft sərvəti avtoritar rejimləri daha davamlı edir, müəyyən korrupsiya növlərini artırır və aşağı-orta gəlirli ölkələrdə silahlı münaqişələri qızışdırır [12].

3. İnstitusional keyfiyyətin zəifləməsi. Resurs bolluğu institutların inkişafına mənfi təsir göstərə bilər. Mehlum, Moene və Torvik (2006) göstərmişlər ki, resurs lənətinin reallaşıb-reallaşmaması əsasən mövcud institusional keyfiyyətdən asılıdır: güclü institutlara malik ölkələr resurs sərvətindən faydalanarkən, zəif institutlara malik ölkələrdə resurs gəlirləri rentaçı davranışı, korrupsiyanı və iqtisadi qeyri-səmərəliliyi artırır. Lashitew və Werker (2020) bu məsələni daha da dərinləşdirərək göstərmişlər ki, resursların institusional keyfiyyətə dolayı mənfi təsiri birbaşa müsbət iqtisadi təsiri kompensasiya edir [5].

4. İnsan kapitalına investisiyaların azalması. Gylfason (2001) göstərmişdir ki, təbii resurs gəlirlərinə güvənən ölkələrdə təhsilə ayrılan milli gəlir payı azalır, orta məktəb qeydiyyatı düşür və qızlar üçün gözlənilən təhsil müddəti qısalır. Resurs zəngin ölkələrdə hökumətlər diversifikasiya olunmuş və ixtisaslı işçi qüvvəsinin formalaşmasına ehtiyac duymur, çünki iqtisadiyyat əsasən kapital tutumlu çıxarış sənayesinə əsaslanır. Bu yanaşma uzunmüddətli perspektivdə innovasiya potensialını məhdudlaşdırır və resurs tükəndikdən sonra iqtisadi tənəzzülü qaçılmaz edir.

MÜQAYİSƏLİ ÖLKƏ TƏHLİLİ

Resurs lənətinin təsirini daha yaxşı anlamaq üçün müxtəlif ölkə təcrübələrinin müqayisəli təhlili mühüm əhəmiyyət kəsb edir. Aşağıdakı cədvəl resurs zəngin ölkələrin əsas sosial-iqtisadi göstəricilərini müqayisə edir.

Cədvəl 2. Seçilmiş resurs zəngin ölkələrin əsas sosial-iqtisadi göstəriciləri (2023)

Ölkə	Adambaşı ÜDM (ABŞ $)	İnsan inkişafı indeksi	Resurs rentası (ÜDM-in %)	Korrupsiya indeksi (TI)	İqtisadi azadlıq indeksi	Resurs lənəti statusu
Norveç	87 962	0,966	8,3	84	76,9	Xilas olub
Botsvana	7 738	0,693	2,4	60	69,5	Xilas olub
Nigeriya	1 621	0,548	5,1	25	53,9	Lənət altında
Venesuela	3 740*	0,691	3,8*	13	25,8	Lənət altında
Konqo DR	654	0,479	16,8	20	48,7	Lənət altında
Çili	16 265	0,860	7,2	67	72,3	Xilas olub

*Mənbə: Dünya Bankı (2024), UNDP İnsan İnkişafı Hesabatı (2024), Transparency International (2024), Heritage Foundation (2024). *Venesuela üçün məlumatlar qeyri-dəqiq ola bilər.*

Nigeriya: resurs lənətinin tipik nümunəsi. Nigeriya Afrikanın ən böyük neft istehsalçısı olmasına baxmayaraq, əhalisinin böyük hissəsi yoxsulluq içində yaşayır. 1970-ci illərdən başlayaraq neft gəlirləri ölkənin iqtisadi strukturunu əsaslı şəkildə dəyişdirmişdir. Neft bumundan əvvəl Nigeriya əhəmiyyətli kənd təsərrüfatı ixracatçısı idi, lakin neft gəlirlərinin artması ilə kənd təsərrüfatı və istehsal sektorları tədricən geriləmişdir. Fagbemi və Adeoye (2020) göstərmişlər ki, zəif idarəetmə keyfiyyəti və təbii resurs rentalarının birləşməsi ölkədə uzunmüddətli iqtisadi artımı əhəmiyyətsiz dərəcəyə endirmişdir [11]. Nigeriyada neft gəlirlərinin böyük hissəsi korrupsiya, patronaj xərcləri və qeyri-səmərəli dövlət layihələrinə yönəldilmiş, təhsil və sağlamlıq infrastrukturuna isə kifayət qədər investisiya edilməmişdir.

Venesuela: neft asılılığının fəlakətli nəticələri. Venesuela dünyanın ən böyük sübut edilmiş neft ehtiyatlarına malik olmasına baxmayaraq, son onillikdə dərin iqtisadi böhran yaşayır. Stan (2024) Venesuelanın resurs lənəti çərçivəsində təhlilində göstərmişdir ki, ölkə neft gəlirlərinə həddindən artıq asılılıq nəticəsində iqtisadi diversifikasiyanı həyata keçirə bilməmişdir [13]. Neft qiymətləri yüksək olduqda iqtisadiyyat sürətlə böyüyür, lakin qiymətlər düşdükdə ciddi geriləmə baş verir. Digər məhsuldar sektorlara investisiya edilməməsi ölkəni beynəlxalq neft qiymətlərindəki dalğalanmalara qarşı son dərəcə həssas etmişdir.

Norveç: resurs lənətindən uğurla xilas olan ölkə. Norveç neft zənginliyini uzunmüddətli iqtisadi rifahla birləşdirən nadir ölkələrdən biridir. Norveçin uğuru bir neçə amillə izah olunur: birincisi, ölkədə güclü demokratik institutlar və şəffaf idarəetmə sistemi mövcuddur; ikincisi, 1990-cı ildə yaradılmış

Dövlət Pensiya Fondu (indiki Qlobal Fond) neft gəlirlərinin böyük hissəsini gələcək nəsillər üçün saxlayır; üçüncüsü, Norveç neft sənayesinin idarə edilməsində dövlət nəzarətini güclü saxlayaraq, eyni zamanda özəl sektoru da cəlb etmişdir.

Botsvana: Afrikanın inkişaf möcüzəsi. Botsvana və Konqo Demokratik Respublikası hər ikisi almaz ehtiyatları ilə zəngindir, lakin onların inkişaf trajektoriyaları kəskin şəkildə fərqlənir. Botsvana Afrika qitəsində demokratiya, sabitlik və gəlir artımı baxımından ən yaxşı göstəricilərə malikdir. Botsvanın uğuru güclü mülkiyyət hüquqları, şəffaf büdcə idarəetməsi və almaz gəlirlərinin təhsil, infrastruktur və sağlamlıq xidmətlərinə yönəldilməsi ilə izah olunur. Robinson, Torvik və Verdier (2006) göstərmişlər ki, zəif institutlara malik ölkələrdə resurs bumları həddindən artıq dövlət məşğulluğu və patronaj vasitəsilə israf edilir, güclü institutlara malik ölkələrdə isə resurs bumları iqtisadi artımı dəstəkləyir.

RESURS ASILILIĞI VƏ ÖLKƏLƏRARASI İNKİŞAF FƏRQLƏRİ: EMPİRİK SÜBUTLAR

Beynəlxalq müqayisəli məlumatlar resurs asılılığının ölkələrarası inkişaf fərqlərini dərinləşdirdiyini açıq şəkildə göstərir. BVF-nin təsnifatına görə, 29 resurs zəngin aşağı və orta gəlirli ölkə ümumiyyətlə resurs gəlirlərinə həddindən artıq asılılıq, aşağı yığım dərəcələri və zəif artım göstəriciləri ilə xarakterizə olunur [2]. Bu ölkələrdə resurs gəlir dəyişkənliyi yüksəkdir ki, bu da uzunmüddətli planlaşdırmanı çətinləşdirir və iqtisadi dayanıqlılığı zəiflədir.

Empirik məlumatlar göstərir ki, resurs kasıb ölkələr çox vaxt resurs zəngin ölkələrdən daha yaxşı iqtisadi nəticələr əldə edir. Sub-Sahara Afrikasında Ruanda və Efiopiya kimi resurs kasıb ölkələr Nigeriya və Konqo Demokratik Respublikası kimi resurs zəngin ölkələrdən daha sürətli iqtisadi artım nümayiş etdirmişdir [8]. Eynilə, Şərqi Asiyada Cənubi Koreya, Tayvan və Sinqapur kimi təbii resursları məhdud olan ölkələr ixracata əsaslanan diversifikasiya strategiyaları vasitəsilə qısa müddətdə yüksək inkişaf səviyyəsinə çatmışlar.

Huang və başqaları (2024) Çinin resurs əsaslı şəhərləri üzrə apardıqları tədqiqatda göstərmişlər ki, resurs asılılığının azaldılması gəlir bərabərsizliyini əhəmiyyətli dərəcədə azaldır [10]. 2013-cü ildən 2020-ci ilə qədər resurs əsaslı regionlarda resurs asılılığı göstəricisi 10,26%-dən 6,07%-ə düşmüş, yəni təxminən 41% azalmışdır. Bu azalma əmək tutumlu sənayələrin artması və kənd investisiyalarının genişlənməsi ilə müşayiət olunmuş, nəticədə kasıb təbəqələrin vəziyyəti yaxşılaşmışdır.

RESURS LƏNƏTİNDƏN XİLAS OLMAQ ÜÇÜN SİYASƏT YANAŞMALARI

Resurs lənəti qaçılmaz və universal deyil. Norveç, Botsvana, Çili və Malaziya kimi ölkələrin təcrübəsi göstərir ki, düzgün siyasət çərçivəsi ilə resurs sərvəti davamlı inkişafın təməlinə çevrilə bilər. Aşağıdakı cədvəl əsas siyasət yanaşmalarını, onların məqsədlərini və uğurlu tətbiq nümunələrini ümumiləşdirir.

Cədvəl 3. Resurs lənətindən xilas olmaq üçün siyasət yanaşmaları

Siyasət yanaşması	Məqsəd və mexanizm	Uğurlu nümunə	Əldə olunan nəticə
Suveren sərvət fondu	Resurs gəlirlərini xarici aktivlərə investisiya edərək Hollandiya xəstəliyini yumşaltmaq	Norveç (Qlobal Fond, 1,7 trilyon $)	Valyuta sabitliyi, nəsillər arası ədalət
İqtisadi diversifikasiya	İstehsal, xidmət və texnologiya sektorlarının inkişafı ilə resurs asılılığını azaltmaq	Malaziya, İndoneziya, Çili	İxrac bazasının genişlənməsi, məşğulluğun artması
İnstitusional islahatlar	Şəffaflıq, hesabatlılıq və hüquqi dövlət prinsiplərini gücləndir-mək	Botsvana, Norveç	Korrupsiyanın azalması, effektiv resurs idarəetməsi
İnsan kapitalına investisiya	Təhsil, STEM və peşə hazırlığına resursların yönəldilməsi	Botsvana (ÜDM-in 8%-i təhsilə), Norveç	İnnovasiya potensialı, uzunmüddətli rəqabət qabiliyyəti
Fiskal qaydalar və sabitlik mexanizmləri	Büdcə xərclərini resurs gəlir tsiklindən ayırmaq, prosiklik siyasətdən qaçınmaq	Çili (struktur balans qaydası)	Makroiqtisadi sabitlik, gəlir dəyişkənliyinin idarə edilməsi

Mənbə: Ədəbiyyat icmalı əsasında müəllif tərəfindən tərtib edilmişdir [4, 5, 6, 10, 12]

Birincisi, suveren sərvət fondlarının yaradılması resurs gəlirlərinin idarə edilməsində mühüm rol oynayır. Norveçin Qlobal Fondu bu sahədə ən uğurlu nümunədir. Fond neft gəlirlərinin əhəmiyyətli hissəsini beynəlxalq maliyyə bazarlarında investisiya edir, nəticədə resurs gəlirlərinin daxili iqtisadiyyata birbaşa təsiri azaldılır və Hollandiya xəstəliyinin təsirləri yumşaldılır. Qatarın COVID-19 pandemiyası zamanı 300 milyard dollarlıq suveren sərvət fondundan 7,6 milyard dollar istifadə etməsi bu fondların böhran dövrlərində iqtisadi sabitliyi qorumadakı rolunu nümayiş etdirir.

İkincisi, iqtisadi diversifikasiya resurs asılılığının azaldılmasının ən vacib strategiyasıdır. İndoneziya, Tayland və Malaziya kimi ölkələr resurs gəlirlərini istehsal sənayesinin inkişafına, xarici birbaşa investisiyaların cəlb edilməsinə və ixrac bazasının genişləndirilməsinə yönəldməklə uğurlu nəticələr əldə etmişlər. Bu ölkələrin təcrübəsi göstərir ki, iqtisadi diversifikasiya yalnız alternativ sektorlara investisiya ilə məhdudlaşmır, eyni zamanda təhsil sisteminin modernləşdirilməsi, texnoloji innovasiyanın təşviqi və sahibkarlıq mühitinin yaradılmasını da əhatə edir.

Üçüncüsü, institusional islahatlar və şəffaflığın artırılması resurs lənətinin aradan qaldırılmasında həlledici əhəmiyyət daşıyır. Mahdavi (2020) neft sənayesinin idarəetmə strukturunun korrupsiya ilə birbaşa əlaqəli olduğunu müəyyən etmiş, dövlət nəzarəti ilə şəffaflığın birləşdirilməsinin vacibliyini

vurğulamışdır [9]. Dördüncüsü, insan kapitalına investisiya resurs tükənmə riskini azaltmaq üçün kritik əhəmiyyət daşıyır. Norveçin STEM təhsilini prioritetləşdirməsi, Botsvanın ÜDM-in əhəmiyyətli hissəsini təhsilə ayırması bu sahədə uğurlu nümunələr kimi göstərilə bilər.

NƏTİCƏ

Resurs bolluğu paradoksu iqtisad elminin ən maraqlı və eyni zamanda ən mürəkkəb fenomenlərindən biridir. Bu məqalədə apardığımız təhlil göstərir ki, təbii resurs bolluğu iqtisadi inkişaf üçün nə birmənalı lənət, nə də birmənalı nemətdir. Resursların inkişafa təsiri böyük ölçüdə institusional keyfiyyət, idarəetmə şəffaflığı, iqtisadi diversifikasiya siyasətləri və insan kapitalına investisiya kimi amillərdən asılıdır.

Tədqiqat göstərir ki, resurs lənəti dörd əsas kanal vasitəsilə fəaliyyət göstərir: Hollandiya xəstəliyi milli valyutanın bahalaşması ilə qeyri-resurs sektorlarının rəqabət qabiliyyətini azaldır; rentaçı dövlət davranışı hökumətlərin hesabatlılığını zəiflədir və korrupsiyanı artırır; institusional keyfiyyətin zəifləməsi uzunmüddətli iqtisadi inkişafın əsaslarını sarsıdır; insan kapitalına investisiyaların azalması isə innovasiya potensialını və gələcək artım perspektivlərini məhdudlaşdırır.

Nigeriya və Venesuela təcrübələri resurs lənətinin fəlakətli nəticələrini nümayiş etdirirsə, Norveç və Botsvana nümunələri göstərir ki, düzgün siyasət çərçivəsi ilə resurs sərvəti davamlı inkişafın təməlinə çevrilə bilər. Cədvəl 2-dən aydın görünür ki, bu iki qrup ölkə arasındakı əsas fərq resursların özündə deyil, onların idarə edilmə keyfiyyətindədir: korrupsiya indeksi, iqtisadi azadlıq və insan inkişafı göstəriciləri arasında kəskin fərqlər mövcuddur.

Kirat (2024) tərəfindən 125 ölkəni əhatə edən tədqiqatın nəticələri vurğulayır ki, resurs lənəti paradoksunu resursların bolluğu deyil, resurs gəlirlərinin dəyişkənliyi və hökumətlərin bu dəyişkənliyə zəif reaksiyaları idarə edir [6]. Bu tapıntı resurs zəngin ölkələr üçün mühüm siyasət mesajı daşıyır: resurs gəlir dəyişkənliyinin idarə edilməsi, suveren sərvət fondlarının yaradılması, iqtisadi diversifikasiyanın həyata keçirilməsi və institusional islahatların aparılması resurs lənətindən xilas olmağın əsas yollarıdır.

Nəhayət, Huang və başqalarının (2024) Çin təcrübəsinə əsaslanan tədqiqatı göstərir ki, resurs asılılığının azaldılması yalnız makroiqtisadi göstəriciləri yaxşılaşdırmır, eyni zamanda gəlir bərabərsizliyini azaldır və sosial ədaləti gücləndirir [10]. Bu nəticə resurs asılılığının azaldılmasının inkişaf etməkdə olan ölkələr üçün həm iqtisadi, həm də sosial faydalar gətirdiyini göstərir.

Beləliklə, resurs bolluğu paradoksu ölkələr üçün həm xəbərdarlıq, həm də imkandır. Düzgün institusional mühit, şəffaf idarəetmə və uzaqgörən iqtisadi siyasətlər resurs bolluğunu inkişaf üçün güclü bir vasitəyə çevirə bilər. Əksinə, bu amillərin olmaması ən zəngin resurs ehtiyatlarını belə iqtisadi gerilik və sosial qeyri-sabitlik mənbəyinə çevirə bilər.

Müasir qlobal iqtisadi mühitdə resurs lənəti problemi yeni ölçülər qazanır. İqlim dəyişikliyi ilə mübarizə çərçivəsində karbonsuzlaşdırma prosesi neft və qaz ixracatçısı ölkələr üçün əlavə risklər yaradır. Bu ölkələr nəinki resurs lənətinin

ənənəvi təsirləri ilə mübarizə aparmalı, eyni zamanda qlobal enerji keçidinin yaratdığı yeni çağırışlara da hazırlaşmalıdırlar. Bu kontekstdə iqtisadi diversifikasiya, yaşıl texnologiyalara investisiya və insan kapitalının inkişafı daha da böyük əhəmiyyət kəsb edir. Gələcək tədqiqatlar resurs lənətinin bu yeni formalarını, xüsusilə yaşıl enerji keçidinin resurs zəngin ölkələrə potensial təsirini dərinliklə araşdırmalıdır.

ƏDƏBİYYAT

1. Sachs, J. D., Warner, A. M. The curse of natural resources // European Economic Review, -2001. №45, -p. 827-838.
2. International Monetary Fund. Guide on Resource Revenue Transparency // Washington, DC: IMF, -2018. -p. 72.
3. Zhan, J. V. The Politics of the Resource Curse: A Review // The China Review, -2022. №22(1), -p. 1-30.
4. Ross, M. L. The Oil Curse: How Petroleum Wealth Shapes the Development of Nations // Princeton: Princeton University Press, -2012. -p. 296.
5. Lashitew, A., Werker, E. Are Natural Resources a Curse, a Blessing, or a Double-Edged Sword? // World Development, -2020. №128, -p. 1-16.
6. Kirat, Y. Revisiting the resource curse: Does volatility matter? // Kyklos, -2024. №77(2), -p. 354-381.
7. Hurtado, S. The Dutch disease revisited: Consistency of theory and evidence // Environmental and Resource Economics, -2022. №85, -p. 305-332.
8. De Medeiros Costa, H. K., Samanez, C. P. Natural resource dependence and the Dutch disease: Evidence from Sub-Saharan Africa // Resources Policy, -2022. №79, -p. 1-15.
9. Mahdavi, P. Institutions and the Resource Curse: Evidence from Cases of Oil-Related Bribery // Comparative Political Studies, -2020. №53(1), -p. 3-39.
10. Huang, X., Li, S., Wang, Q. Escaping the resource curse: Does resource dependence reduction mitigate income inequality? // Humanities and Social Sciences Communications, -2024. №11, Article 1697, -p. 1-14.
11. Fagbemi, F., Adeoye, B. Interconnections between governance shortcomings and resource curse in a resource-dependent economy // PSU Research Review, -2020. №8(2), -p. 297-315.
12. Ross, M. L. What Have We Learned about the Resource Curse? // Annual Review of Political Science, -2015. №18, -p. 239-259.
13. Stan, S. The Curse of Natural Resources. Paradox of Abundance: the Case of Venezuela // Logos Universality Mentality Education Novelty: Law, -2024. №12(1), -p. 14-22.

Məqalənin redaksiyaya daxilolma tarixi: 05.06.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.06.2026
Məqalənin çapa daxil olunma tarixi: 20.07.2026

Fərid CABBARLI
DOI: doi.org/10.61226/12.2.2023/20262.7
Azərbaycan Turizm və Menecment Universiteti
f.cabbarli@atmu.edu.az
ORCID ID:0000-0001-5578-5894
Brilyant ƏLİYEVA
Azərbaycan Turizm və Menecment Universiteti
aliyeva.brilyant.2401@atmu.edu.az
ORCID ID:0009-0003-7904-6123

TURİZM MÜƏSSİSƏLƏRİNDƏ İŞÇİ MƏMNUNİYYƏTİNİN SİRRİ: MÜHİTLƏ UYĞUNLUQ

XÜLASƏ

Turizm müəssisələrinin uğuru birbaşa insan resurslarının effektiv idarə olunmasından və işçi məmnuniyyətindən asılıdır. Məqalədə turizm sektorunda "İşçi-Mühit Uyğunluğu"(Person-Environment Fit) nəzəriyyəsi işçi məmnuniyyətinin əsas amili kimi təhlil edilir. Araşdırma çərçivəsində işçinin şəxsi dəyərləri, bacarıqları və ehtiyacları ilə müəssisənin korporativ mühiti arasındakı harmoniyanın iş məmnuniyyətinə təsiri beynəlxalq və yerli mənbələr əsasında araşdırılmışdır. Nəticələrə görə, işçi məmnuniyyətini artıran əsas faktorlara, maddi stimullarla bərabər, milli mədəni mühit, etik liderlik və düzgün təşkil edilmiş təhsil-təcrübə prosesi də daxildir. Məqalədə Azərbaycanın turizm sektorunda milli mədəniyyətin işçi motivasiyasına təsiri və kadr hazırlığının mühitlə uyğunluqdakı rolu xüsusi vurğulanır.

Açar sözlər: Turizm, İşçi-mühit uyğunluğu, işçi məmnuniyyəti, milli mədəniyyət, P-E Fit, kadr hazırlığı.

THE SECRET OF EMPLOYEE SATISFACTION IN TOURISM ENTERPRISES: ENVIRONMENTAL COMPATIBILITY

ABSTRACT

The success of tourism enterprises directly depends on the effective management of human resources and employee satisfaction. The article analyzes the theory of "Person-Environment Fit" as a key factor of employee satisfaction in the tourism sector. Within the framework of the study, the impact of the harmony between the employee's personal values, skills and needs and the corporate environment of the enterprise on job satisfaction was investigated based on international and local sources. According to the results, the main factors that increase employee satisfaction, along with material incentives, include the national cultural environment, ethical leadership and a properly organized education and training process. The article specifically emphasizes the impact of national culture on employee motivation in the tourism sector of Azerbaijan and the role of personnel training in compatibility with the environment.

Keywords: Tourism, Worker-environment fit, employee satisfaction, national culture, P-E Fit, personnel training

СЕКРЕТ УДОВЛЕТВОРЕННОСТИ СОТРУДНИКОВ В ТУРИСТИЧЕСКИХ ПРЕДПРИЯТИЯХ: СООТВЕТСТВИЕ СРЕДЕ

АННОТАЦИЯ

Успех туристических предприятий напрямую зависит от эффективного управления человеческими ресурсами и удовлетворенности сотрудников. В статье анализируется теория «соответствия личности и окружающей среды» как ключевой фактор удовлетворенности сотрудников в туристическом секторе. В рамках исследования на основе международных и местных источников изучалось влияние гармонии между личными ценностями, навыками и потребностями сотрудника и корпоративной средой предприятия на удовлетворенность работой. По результатам, к основным факторам, повышающим удовлетворенность сотрудников, наряду с материальными стимулами, относятся национальная культурная среда, этическое лидерство и правильно организованный процесс обучения и повышения квалификации. В статье особо подчеркивается влияние национальной культуры на мотивацию сотрудников в туристическом секторе Азербайджана и роль подготовки персонала в обеспечении совместимости с окружающей средой.

Ключевые слова: Туризм, Соответствие между работником и рабочей средой, Удовлетворенность сотрудников, Национальная культура, Соответствие между работником и рабочей средой, Обучение персонала

GİRİŞ

Hal hazırda dünya iqtisadiyyatının ən hərəkətli və sürətlə inkişaf edən sahələrindən biri turizm sektoru hesab olunur. Bu sahənin əsas xüsusiyyəti onun birbaşa insan əməyinə və xidmət keyfiyyətinə əsaslanmasıdır. Turizm müəssisələrinin uğuru yalnız təqdim olunan maddi imkanlarla deyil, həm də orada işləyən heyətin peşəkarlığı və iş məmnuniyyəti ilə ölçülür. Belə ki, turizm sahəsində işçi, müəssisənin simasıdır və onun göstərdiyi müsbət xidmət birbaşa müştəri məmnuniyyətinə çevrilir. Müştəri məmnuniyyətinin sirri işçinin əlindədir. Çünki müştəri şirkəti deyil, ordakı işçini görür. İşçi xoşbəxtdirsə, xidmət də keyfiyyətli olur. Polychronidou və Chapsa [9] tərəfindən qeyd olunduğu kimi, işçi məmnuniyyəti turizm biznesinin maliyyə göstəricilərinə və müştəri loyallığına təsir edən strateji bir amildir.

Lakin , işçi məmnuniyyətini təmin etmək üçün təkcə maddi stimulların kifayət olmadığını son illərin tədqiqatlarından görə bilərik . Ən vacib məqamlardan biri, burada "Mühitlə Uyğunluq" (Person-Environment Fit) faktoru hesab edilir ki, bu anlayış da işçinin daxili dünyası, dəyərləri və bacarıqları ilə işlədiyi iş mühitinin nə dərəcədə harmoniyada olduğunu ifadə edir. Van Vianen [11] vurğulayır ki, fərd və mühit arasındakı uyğunluq işçinin psixoloji sağlamlığı və işdə qalma istəyi üçün təməl şərtdir. Xüsusilə pandemiya kimi böhranlı dövrlərdən sonra turizm işçilərinin iş mühitindən gözləntiləri daha da dəyişmişdir [10].

Bu məqalənin məqsədi turizm müəssisələrində işçi məmnuniyyətinin əsas sirri hesab olunan mühitlə uyğunluq məsələsini araşdırmaqdır. Bu yazıda

işçilərin iş mühitinə uyğunlaşması, təlimlərin bu prosesdəki rolu və Azərbaycanda işçi motivasiyası milli mədəniyyət kontekstində təhlil ediləcək.

METODOLOGİYA

Bu tədqiqatın aparılması zamanı keyfiyyət analizi metodundan istifadə edilib. Araşdırma prosesi əsasən mövzu ilə bağlı yerli və xarici elmi ədəbiyyatlar, son illərdə dərc olunmuş məqalələr və beynəlxalq turizm hesabatları nəzərə alınaraq həyata keçirilib. Belə ki, təhlil zamanı müxtəlif ölkələrin (xüsusilə Türkiyə və Azərbaycan) turizm müəssisələrində aparılmış empirik tədqiqatların nəticələri müqayisəli şəkildə analiz olunub. "İşçi-Mühit Uyğunluğu" (P-E Fit) nəzəriyyəsini əsas götürərək və bu nəzəriyyənin turizm sektorundakı real nəticələri ümumiləşdirilərək, işçi məmnuniyyətinə təsir edən amilləri müəyyən edilmişdir.

ƏSAS HİSSƏ

İşçi-Mühit Uyğunluğu və İş Məmnuniyyətinin Nəzəri Əsasları İşçi məmnuniyyəti turizm müəssisələrinin rəqabət qabiliyyətini artıran ən mühüm daxili faktorlardan biridir. Akademik ədəbiyyatda bu məmnuniyyətin təməli "İşçi-Mühit Uyğunluğu" (P-E Fit) nəzəriyyəsi ilə izah olunur. Van Vianen [11] qeyd edir ki, P-E Fit fərdin xüsusiyyətləri ilə onun iş mühitinin atributları arasındakı harmoniyadır. Turizm sektoru yüksək emosional bağlılıq tələb etdiyi üçün, işçinin şəxsi dəyərləri ilə çalışdığı otel və ya restoranın korporativ mədəniyyəti üst-üstə düşməlidir. Bednarskanın [1] apardığı tədqiqatlara görə , xidmət sahəsində işçilər o halda özlərini daha xoşbəxt hiss edir və işdən ayrılmağa daha az meyilli olurlar ki, uyğunluq səviyyəsi yüksək olsun . Polychronidou və Chapsa [9]isə bildirirdilər ki, əgər işçi mühitlə tam uyğunlaşıbsa, hətta bəzi maddi çatışmazlıqlar (məsələn, aşağı əmək haqqı) olsa belə bu onun ümumi iş məmnuniyyətinə kəskin mənfi təsir göstərməyəcək. Buna səbəb isə işçinin özünü mühitə aid hiss etməsi, işini sadəcə bir vəzifə deyil, öz şəxsiyyətinin bir parçası kimi görməsidir. Beləliklə, turizm müəssisələrində mühitlə uyğunluq işçi məmnuniyyətinin gizli və ən güclü sirri hesab olunur.

İdarəetmə Üslubu və Demoqrafik Faktorların Uyğunluğa Təsiri Turizm müəssisələrində işçi məmnuniyyətini formalaşdıran mühit təkcə fiziki şəraitdən deyil, həm də idarəetmənin keyfiyyətindən asılıdır. Çelik və digərləri [3] tərəfindən aparılan araşdırmalar göstərir ki, otellərdə işçilərin təşkilata sadiqliyi və işindən razılığı o halda daha yüksək səviyyədə olur ki, idarəetmədə etik liderlik prinsipləri gözlənilsin. Yəni, işçinin mühitlə mənəvi uyğunluğunu gücləndirirməsi üçün, rəhbərlik ədalətli davranış sərgiləməlidir. Bununla yanaşı, demoqrafik faktorlar da mühitlə uyğunluq prosesində önəmli rol oynayır. Gürkan və həmkarları [5] , eləcə də Öztürk və Alkış [8] tərəfindən aparılan təhlillər sübut edir ki, işçilərin yaşı, cinsi və təcrübə səviyyəsi onların iş mühitindən gözləntilərini fərqləndirir. Məsələn, gənc işçilər daha çox inkişaf və təlim imkanları olan mühitləri üstün tutduqları halda, təcrübəli işçilər sabitlik və iş təhlükəsizliyinə önəm verirlər. Kıngır və digərlərinin [7] qeyd etdiyi kimi, xüsusilə kiçik və orta ölçülü otel müəssisələrində menecerlərin işçilərlə qurduğu fərdi münasibətlər işçinin özünü həmin mühitə aid hiss etməsinə birbaşa təsir göstərir. Stamolampros və Dousios [10] isə vurğulayır ki, xüsusilə böhran dövrlərində işçilərin psixoloji

mühitlə uyğunluğu onların ümumi iş məmnuniyyətinin əsas dayağına çevrilir. Beləliklə, idarəetmənin düzgün qurulması işçi və mühit arasındakı uyğunsuzluqları aradan qaldıran ən vacib mexanizmdir.

Azərbaycan Turizm Sektorunda Kadr Hazırlığı və Milli Mədəni Mühit Uyğunluğu İşçi məmnuniyyətinin mühitlə uyğunluğu prosesi hələ iş fəaliyyətinə başlamazdan əvvəl, təhsil və hazırlıq mərhələsində formalaşmağa başlayır. Cəfərova [2] qeyd edir ki, turizm sahəsində tədris proseslərinin düzgün idarə olunması tələbələrdə təkcə nəzəri bilikləri deyil, həm də iş mühitinin etik və peşəkar tələblərinə uyğunlaşma bacarıqlarını inkişaf etdirir. Bu baxımdan işçinin gələcəkdə qarşılaşacağı mühiti əvvəlcədən tanımasına və beləliklə, "bacarıq-iş uyğunsuzluğu" (skill-job mismatch) riskinin azalmasına Təhsil müəssisələri ilə turizm müəssisələri arasındakı əməkdaşlıq mühüm təsir göstərir. Digər tərəfdən, Azərbaycan turizmində mühitlə uyğunluğun ən spesifik tərəfi milli mədəni dəyərlərlə bağlıdır. Əsgərova [4] vurğulayır ki, Azərbaycanın zəngin mədəni irsi, qonaqpərvərlik ənənələri və milli dəyərləri turizm müəssisələrinin daxili mühitini zənginləşdirən əsas resursdur. İşçi özünü sadəcə xidmət göstərən şəxs kimi deyil, həm də milli mədəniyyətin təbliğatçısı kimi hiss etdikdə, onun mühitlə emosional bağı və işindən aldığı mənəvi zövq artır. Iskandar və həmkarları [6] tərəfindən vurğulanan təlimin effektivliyi faktoru yerli mühitdə milli koloritlə birləşdikdə işçi məmnuniyyəti maksimum səviyyəyə çatır. Beləliklə, Azərbaycanda bizim milli qonaqpərvərliyimiz, turizm işçiləri üçün ən vacib nüanslardan biridir. Bizim mədəniyyətimizdə qonağa yaxşı baxmaq adəti var. Nə vaxt ki, işçi öz işini sadəcə "pul qazanmaq" üçün deyil, həm də qonağa xidmət etməyi milli dəyər kimi görəndə daha məmnun olacaq. Bunun üçün də universitetlərdə tələbələrə bu sahəni həm peşəkar, həm də sevilən bir iş kimi öyrətmək lazımdır. Azərbaycanın turizm müəssisələrində işçi məmnuniyyətinin sirri peşəkar təhsilin verdiyi hazırlıqla milli mədəni mühitin yaratdığı aidiyyət hissinin harmoniyasındadır.

NƏTİCƏ

Aparılan araşdırmaların nəticəsi göstərir ki, turizm müəssisələrində işçi məmnuniyyəti sadəcə yüksək əmək haqqı və ya fiziki iş şəraiti ilə deyil, fərdin öz mühiti ilə olan harmoniyası, yəni "Mühitlə Uyğunluq" faktoru ilə birbaşa bağlıdır. Digər tərəfdən P-E Fit nəzəriyyəsi çərçivəsində təhlil edilən bu uyğunluq, işçinin həm peşəkar bacarıqlarının işin tələblərinə cavab verməsini, həm də şəxsi dəyərlərinin təşkilati mühitlə səsləşməsini təmin edir. Türkiyə və digər beynəlxalq təcrübələrdən aydın olur ki, etik liderlik və ədalətli idarəetmə üslubu işçi məmnuniyyətini artıran əsas daxili mexanizmdir. Azərbaycan nümunəsində isə bu prosesin həm peşəkar təhsil mərhələsində düzgün təməllər üzərində qurulması, həm də milli mədəniyyətin iş mühitinə uğurlu inteqrasiyası böyük əhəmiyyət kəsb edir. Nəticə etibarilə, düşünürəm ki, turizm müəssisələri işçi məmnuniyyətini qalıcı etmək üçün təkcə maddi stimullara deyil, işçinin özünü müəssisəyə və milli mədəni mühitə aid hiss etməsini təmin edən "uyğunluq sirri"nə fokuslanmalıdırlar. Yalnız mühitlə tam uyğunlaşmış bir işçi turizm sektorunun tələb etdiyi yüksək xidmət keyfiyyətini və müştəri loyallığını təmin edə bilər.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Bednarska, Marlena A. (2016) : Complementary person-environment fit as a predictor of job pursuit intentions in the service industry, Contemporary Economics, ISSN 2084-0845, Vizja Press & IT, Warsaw, Vol. 10, Iss. 1, pp. 27-38, https://doi.org/10.5709/ce.1897-9254.196
2. Sevda Cəfərova. (2025).Turizm Sahəsində Tədris Proseslərinin İdarə Olunmas. Turizm Və Qonaqpərvərlik Tədqiqatları, Issn 2409-6032 "Birol Group" Mmc, Bakı, 2025, 228 səh., s. 9–19. Https://Doi.Org/10.61226/12.2.2023/20252
3. Çelik, S., Dedeoğlu, B. B., & İnanır, A. (2015). Relationship Between Ethical Leadership, Organizational Commitment and Job Satisfaction at Hotel Organizations. Ege Academic Review, 15(1), 53–64. https://izlik.org/JA42LF58EE
4. Əsgərova, S. (2025). Turizm və milli mədəniyyətimiz. Turizm Və Qonaqpərvərlik Tədqiqatları, Issn 2409-6032 "Birol Group" Mmc, Bakı, 2025, 228 səh., s. 20–30. Https://Doi.Org/10.61226/12.2.2023/20252
5. Gürkan, H., Barut, C., Ünsel, O., & Aybay, E. (2017). Demografik Değişkenler ile İş Tatmini Arasındaki İlişkinin İncelenmesi: Bitlis İli Turizm Sektörü Çalışanları Uygulaması. Bitlis Eren Üniversitesi Sosyal Bilimler Dergisi, 6(2), 130-157. https://izlik.org/JA69MD93PJ
6. Merissa Fermica Iskandar, Ratnasari, A., Rika Nurhidayah, Dede Saparudin, & Rifki Maulidani. (2024). Analysis Of The Influence Of Training Effectiveness, Work Environment And Job Satisfaction On Employee Performance In The Tourism Industry. JEMSI (Jurnal Ekonomi, Manajemen, Dan Akuntansi), 10(2), 1155-1160. https://doi.org/10.35870/jemsi.v10i2.2292
7. Kıngır, S., Yılmazer, A., & Şahin, N. (2018). KÜÇÜK VE ORTA ÖLÇEKLİ OTEL İŞLETMELERİNDE YÖNETSEL ETKİNLİĞİN İŞ DOYUMUNA ETKİSİNİN İNCELENMESİ. Avrasya Sosyal ve Ekonomi Araştırmaları Dergisi, 5(7), 33-45. https://izlik.org/JA74LC96YH
8. Öztürk, Y., & Alkış, H. (2011). KONAKLAMA İŞLETMELERİNDE ÇALIŞANLARIN İŞ TATMİNİNİN ÖLÇÜLMESİ ÜZERİNE BİR ARAŞTIRMA. Uluslararası Yönetim İktisat Ve İşletme Dergisi, 7(14), 437-460. https://izlik.org/JA25FF48BZ
9. Polychronidou, P., & Chapsa, X. (2022). EMPLOYEE SATISFACTION IN TOURISM BUSINESSES – AN EMPIRICAL ANALYSIS. GeoJournal of Tourism and Geosites, 42(2spl), 693–699. https://doi.org/10.30892/gtg.422spl07-878
10. Panagiotis Stamolampros & Dimitrios Dousios (2024) Employee satisfaction during the pandemic in the tourism and hospitality industries, Current Issues in Tourism, 27:22, 3643-3657, https://doi.org/10.1080/13683500.2023.2268798
11. Annelies E.M. van Vianen (2018). Person–Environment Fit: A Review of Its Basic Tenets *Annual Review of Organizational Psychology and Organizational Behavior Volume 5, 2018*, 75–101. https://doi.org/10.1146/annurev-orgpsych-032117-104702

Məqalənin redaksiyaya daxilolma tarixi: 09.06.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11.06.2026
Məqalənin çapa daxil olunma tarixi: 20.07.2026

UOT: 33
DOI: doi.org/10.61226/12.2.2023/20262.8
Fərid AĞABABAZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti, doktorant
Ferid.agababazade99@gmail.com
https://orcid.org/0009-0004-3370-9486

AZƏRBAYCANDA KORPORATİV STRUKTURLU MÜƏSSİSƏLƏRDƏ İŞÇİ DÖVRİYYƏSİNİN İQTİSADİ TƏSİRLƏRİNİN TƏHLİLİ

Xülasə: Məqalədə Azərbaycan Respublikasının korporativ strukturlu müəssisələrində insan resurslarının idarə edilməsində rəqəmsal transformasiya proseslərinin iqtisadi və təşkilati elementləri hərtərəfli araşdırılır. Tədqiqatın əsas məqsədi rəqəmsal insan resursları (e-İRİ) texnologiyalarının insan kapitalının səmərəliliyinə təsir yollarını həm nəzəri, həm də empirik olaraq qiymətləndirmək olub. Tədqiqat çərçivəsində rəqəmsal təlim platformalarının, e-İRİ sistemlərinin və insan resursları (İR) analitikasının biznes performansına təsiri həm milli, həm də beynəlxalq strategiyalar işığında araşdırılıb. Sistemli metodologiya, müqayisəli təhlil, hüquqi və normativ sənədlərin təhlili və ikinci dərəcəli statistik məlumatların təhlili tədqiqatın metodoloji əsasını yaratmışdır. İnsan kapitalının səmərəliliyi və insan resurslarının rəqəmsal transformasiya dərəcəsinin qurulmuş ekonometrik modellə müsbət və statistik əhəmiyyətli korrelyasiya olduğu müəyyən edilmişdir. Təşkilati çevikliyi təkmilləşdirməklə yanaşı, rəqəmsal İR texnologiyasından istifadə əmək məhsuldarlığının artımına təkan verir və strateji İR idarəçiliyini gücləndirir. Məqalənin nəticələrinin Azərbaycanın korporativ strukturlu müəssisələrində insan resurslarının idarə edilməsinin təkmilləşdirilməsi üçün elmə əsaslanan təkliflərin işlənib hazırlanması üçün praktiki əhəmiyyət kəsb etməsi nəzərdə tutulur.

Açar sözlər: *Rəqəmsallaşma, korporasiya, insan resursları, idarəetmə, səmərəlilik*

Farid AGHABABAZADE

ANALYSIS OF THE ECONOMIC IMPACTS OF EMPLOYEE TURNOVER IN CORPORATE STRUCTURED ENTERPRISES IN AZERBAIJAN

Abstract: The economic and organizational elements of digital transformation processes in human resource management in the Republic of Azerbaijan's corporative sector are thoroughly examined in this paper. The study's primary goal was to assess, both theoretically and empirically, the ways in which digital human resources (e-HR) technologies impact human capital efficiency. Within the study's framework, the effects of digital training platforms, e-HR systems, and HR analytics on business performance were examined in light of both national and international strategies. A systematic methodology, comparative

analysis, legal and regulatory document analysis, and secondary statistical data analysis created the study's methodological foundation. The efficiency of human capital and the degree of digital transformation of human resources were found to be positively and statistically significantly correlated by the constructed econometric model. In addition to improving organizational flexibility, the use of digital HR technology fosters labor productivity growth and strengthens strategic HR management. The article's findings are meant to have practical implications for developing suggestions based on science for enhancing human resources management in Azerbaijan's corporative sector.

Keywords: Digitalization, corporation, human resources, management, efficiency

Фарид АГАБАБАЗАДЕ

АНАЛИЗ ЭКОНОМИЧЕСКИХ ПОСЛЕДСТВИЙ ТЕКУЧЕСТИ КАДРОВ НА ПРЕДПРИЯТИЯХ КОРПОРАТИВНОЙ СТРУКТУРЫ В АЗЕРБАЙДЖАНЕ

Абстракт: В статье всесторонне исследуются экономические и организационные аспекты процессов цифровой трансформации в управлении человеческими ресурсами на предприятиях корпоративной структуры Азербайджанской Республики. Основной целью исследования являлась теоретическая и эмпирическая оценка механизмов воздействия технологий цифрового управления человеческими ресурсами (e-HRM) на эффективность человеческого капитала. В рамках исследования было рассмотрено влияние цифровых обучающих платформ, систем e-HRM и HR-аналитики на показатели эффективности бизнеса в контексте национальных и международных стратегий. Методологическую основу исследования составили системный подход, сравнительный анализ, анализ правовых и нормативных документов, а также анализ вторичных статистических данных. Установлено наличие положительной и статистически значимой корреляции между эффективностью человеческого капитала и уровнем цифровой трансформации управления человеческими ресурсами, выявленной посредством построенной эконометрической модели. Наряду с совершенствованием организационной гибкости использование цифровых HR-технологий способствует росту производительности труда и укрепляет стратегическое управление человеческими ресурсами. Предполагается, что результаты статьи будут иметь практическое значение для разработки научно обоснованных предложений по совершенствованию управления человеческими ресурсами на предприятиях корпоративной структуры Азербайджана.

Ключевые слова: цифровизация, корпорация, человеческие ресурсы, управление, эффективность

GİRİŞ

İnsan kapitalı qlobal iqtisadi mühitdə təşkilatın rəqabət üstünlüyünü müəyyən edən əsas elementlərdən biridir. İşçilərin dövriyyəsi təşkilatın iqtisadi səmərəliliyinə birbaşa təsir göstərən mürəkkəb göstərici kimi qiymətləndirilir. Bank və maliyyə sənayesində yüksək kadr dəyişikliyi daha yüksək əməliyyat xərcləri, institusional biliklərin itirilməsi və xidmət keyfiyyətinin aşağı düşməsi ilə nəticələnir. Son on il ərzində qlobal əmək bazarında baş verən dəyişikliklər, rəqəmsallaşma proseslərinin sürətlənməsi və işçilərin gözləntilərinin təkamülü işçi dövriyyəsinin miqdarına və strukturuna əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Bizim kimi inkişaf etməkdə olan dövlətlərdə həmin nümunələr daha çox nəzərə çarpır. Bank sənayesinin yüksək işçi dövriyyəsi əmsalı mövcud institusional insan resurslarının idarə edilməsi sistemlərinin effektivliyi ilə bağlı narahatlıqları artırır. İşçilərin dövriyyəsi iqtisadiyyata həm birbaşa, həm də dolayı təsir göstərir. İşə qəbul, təlim və uyğunlaşma xərcləri birbaşa təsirlər arasındadır. Məhsuldarlığın azalması, işçilərin motivasiyasının azalması və təşkilati sabitliyin pozulması dolayı təsirlər arasındadır. Hazırda idarəetmə elminin müvafiq sahələrindən biri işçi dövriyyəsinin empirik tədqiqi və onun iqtisadi təsirlərinin qiymətləndirilməsidir. Tədqiqatın əsas məqsədləri cari tendensiyaları müəyyən etmək, insan resurslarının idarə edilməsi üçün ən yaxşı təcrübələri təqdim etmək, ölkəmizdə və dünyada işçi dövriyyəsinin iqtisadi təsirlərinin empirik təhlilini aparmaqdır.

1. İşçi dövriyyəsinin nəzəri əsasları

İnsan resurslarının idarə edilməsində əsas göstəricilərdən biri işçi dövriyyəsidir. İşçi dövriyyəsi işçilərin şirkət daxilində öz vəzifələrini sərbəst və ya qeyri-ixtiyari tərk etməsi prosesi olaraq müəyyən edilir. Klassik perspektivlər bildirir ki, işçi dövriyyəsi əmək bazarı dinamikası, təşkilati davranış və motivasiyanın qarşılıqlı təsiri nəticəsində yaranan mürəkkəb bir hadisədir. İşçilərin dövriyyəsi təşkilatın daxili institusional strukturunun və idarəetmə qabiliyyətinin ölçüsü kimi müasir nəzəri çərçivələrlə qiymətləndirilir. "iş öhdəliyi" anlayışı işçinin sosial əlaqələri, uyğunluğu və itki risklərinin onun şirkətdə qalma şansını necə təsir etdiyini xüsusi olaraq təsvir edir [13]. Təşkilati davranışda işçilərin niyə işlərinə sadiq qalmalarını izah edən əsas fikirlərdən biri "iş öhdəliyi" fərziyyəsidir. Terens Mitçell başda olmaqla Bruks Holtom, V. Tomas, Kris Sablynski və Miriam Erez ilk dəfə 2001-ci ildə həmin nəzəriyyəni ortaya atmışdılar. Alimlərin idarəetmə və təşkilati davranış sahələrində araşdırmalarının məqsədi işçilərin iş yerində necə davrandıqlarına dair daha yaxşı bilik əldə etməkdir. Nəzəriyyənin əsas müəlliflərindən biri olan Terens Mitçel, işçilərin dəyişməsi, motivasiyası və təşkilati davranışı ilə bağlı işi ilə məşhur olan amerikalı alimdir. Keçmiş metodlardan fərqli olaraq işə bağlılıq nəzəriyyəsinin inkişafının əsas məqsədi "işçilər niyə işdən çıxırlar?" sualını həll etmək idi. Daha çox isə "işçilər niyə işdə qalır?" sualı maraqlandırırdı. Əvvəlki araşdırmalar işdən ayrılma səbəbi olaraq pis idarəetmə, qeyri-adekvat maaş və ya işdən narazılıq kimi amillər üzərində cəmləşmişdi. Bir çox fərziyyələr göstərdi ki, yuxarıda qeyd olunan xüsusiyyətlər təkcə işçinin saxlanmasını təmin edə bilməz. İnsanın iş yerində və yaşadığı

mühitdə "kök salması", yəni ona sosial, psixoloji və maddi bağlılığı daha mühüm rol oynayır. İşçi orada qurduğu əlaqələrə, şirkətin öz dəyərlərini qoruyub saxlamamasına və ayrılacağı təqdirdə əldən verəcəyi imkanlara görə işdə qalır. İşə bağlılıq anlayışı yarandığı gündən geniş şəkildə qəbul edilmiş və bir çox xalqlarda istifadə olunmağa başlamışdır. ABŞ, Böyük Britaniya, Kanada, Avstraliya, Çin və Türkiyədə həm praktiki idarəetmədə, həm də akademik tədqiqatlarda geniş şəkildə istifadə olunur.

Amerika alimləri Qreqori Q. Des və Ceyson D. Şou işçi dövriyyəsinin iqtisadi təsirlərinin hərtərəfli təsnifatı üçün əsas elmi metodlardan birini təklif etmişlər. Qregory G. Dess nüfuzlu Amerika kolleclərində dərs demiş, təşkilati davranış və strateji idarəetmə sahəsində təcrübəsi olan alimdir. Tanınmış əmək münasibətləri və insan resurslarının idarəedilməsi üzrə ekspert Ceyson D. Şou işçilərin dövriyyəsi və təşkilati effektivlik arasında əlaqəyə dair empirik tədqiqatları ilə daha çox tanınır. Birbaşa və dolayı xərclər kontekstində işçi dövriyyəsinin maliyyə təsirlərini metodik olaraq araşdırmaq üçün ilk araşdırma onların 2001-ci ildəki "könüllü dövriyyə, sosial kapital və təşkilati performans" adlı işi olmuşdur və nüfuzlu "Academy of Management Review" jurnalında [4] dərc edilmişdir. Qeyd olunan metod kadr dövriyyəsinin birbaşa xərclərini şirkətin dərhal müşahidə edə və pulla ölçülə bildiyi xərcləri müəyyənləşdirir. Xərclərə işə qəbul prosesinin qurulması (iş yerlərinin elan edilməsi, işə qəbul platformalarından istifadə), müraciət edənləri seçmək üçün müsahibə və testlərin keçirilməsi, yeni işə qəbul olunanların ilkin təlimlə təmin edilməsi və uyğunlaşma müddətinin ödənilməsi daxildir. Məsələn bank sektorunda mütəxəssisin işə götürülməsi yalnız əmək müqaviləsi imzalamaqdan daha çox şey tələb edir və o, həmçinin risklərin idarə edilməsi, müştəri xidməti və daxili proseslər üzrə xüsusi təlim tələb edir Nəticə isə xərcləri artırır.

Birbaşa xərclərlə müqayisədə dolayı məsrəflər daha mürəkkəbdir, çoxsəviyyəlidir və kəmiyyətini müəyyən etmək çətindir. Əmək məhsuldarlığının azalması, işçilərin məmnuniyyətinin aşağı olması, təşkilati bilik və təcrübənin itirilməsi və sosial kapitalın pisləşməsi bu xərclərin əsas səbəbləridir. Biznes daxilində işçilər arasında formalaşan qarşılıqlı inam, əməkdaşlıq və qeyri-rəsmi münasibətlər sistemi sosial kapital adlanır.İşçilərin yerdəyişməsi bu əlaqələri pozur və informasiya axınını zəiflədir, qərarların qəbulunu ləngidir və ümumi təşkilati koordinasiyanı azaldır [6].

Amerikalı tədqiqatçılar Kudit İ. Henkok, Devid Q. Allen, Fredrik L. Bosko, Karen R. MakDaniel və Çarlz A. Pirs tərəfindən aparılan meta-analiz, işçi dövriyyəsinin təşkilati fəaliyyətə təsiri haqqında daha dolğun empirik məlumatlar təqdim olunmuşdir. Onlar biznes idarəçiliyi, təşkilati psixologiya və insan resurslarının idarə edilməsi sahələrində tanınmış akademiklərdir. 300-dən çox empirik tədqiqatın nəticələri 2013-cü ildə "Journal of Management" jurnalında dərc olunan "işçilərin dövriyyəsinin firma performansının proqnozlaşdırıcısı kimi meta-analitik icmalı" adlı araşdırmasında tərtib edilmişdir. Onlar işçilərin dövriyyəsi ilə təşkilati performans arasında statistik cəhətdən əhəmiyyətli tərs

əlaqəni aşkar etdilər [5]. Tədqiqatın nəticələri göstərir ki, kadr dəyişikliyi bank sənayesi kimi xidmət yönümlü bizneslərə daha çox zərərli təsir göstərir. İlk növbədə ona görədir ki, korporativ strukturlu müəssisələrdəki insan kapitalı təcrübə, bacarıq və müştəri əlaqələri kimi qeyri-maddi aktivlər vasitəsilə dəyər yaradır. Məsələn bank sənayesində müştərilərlə uzunmüddətli əlaqələri olan bir işçinin işdən çıxması həmin işçinin dəyişdirilməsini tələb etməklə yanaşı, müştəri etibarının azalması və mümkün gəlir itkisi ilə nəticələnir. Təşkilatın maliyyə göstəriciləri dolayı yolla olsa da olduqca təsirlənir. Komanda birliyinə yüksək kadr dəyişikliyi də mənfi təsir göstərir. Sosial psixologiyada "komanda birliyi" termini komanda üzvlərinin şirkətə, bir-birinə və paylaşılan məqsədlərə necə bağlı olduqlarını təsvir etmək üçün tez-tez istifadə olunur. Çox dövriyyə olduqda, komandanın öhdəlikləri azalır və qarşılıqlı inam azalır və komanda əsaslı fəaliyyətlərin effektivliyini aşağı salır. Biliyin ötürülməsi və kollektiv təcrübənin yaradılması davamlılıqdan asılı olduğundan təşkilati öyrənmə prosesləri də pozulur. Son elmi araşdırmalara görə kadr dəyişikliyi bəzi hallarda həm faydalı, həm də pis təsirlərə malik ola bilər.

Amerika alimləri Con P. Hausknekt və Çarlz O. Trevor metodologiyanın aparıcı tərəfdarlarıdır. Çarlz O. Trevor əmək bazarı dinamikası və strateji idarəetmə üzrə tanınmış tədqiqatçı, Con P. Hausknekt isə insan resurslarının idarə edilməsi və işçilərin davranışı sahəsində təcrübəyə malik alimdir. Onlar 2011-ci ildə "Journal of Applied Psychology"də dərc olunan "Qrup, bölmə və təşkilat səviyyələrində kollektiv dövriyyə: Sübutlar, məsələlər və təsirlər" adlı məqalələrində işçi dövriyyəsinin funksional və disfunksional növlərini fərqləndirdilər. [8]. Tədqiqatın nəticələri göstərir ki, bəzi hallarda ümumi məhsuldarlığın yaxşılaşması aşağı nəticə göstərən işçilərin şirkətdən getməsi nəticəsində yarana bilər. İnsan resurslarını strateji cəhətdən idarə edən və fəaliyyəti obyektiv təhlil edən şirkətlərdə daha çox rast gəlinir. Kadr dövriyyəsinin idarə olunduğu və qəsdən məhdudlaşdırıldığı hallarda qeyd olunan faydalı təsir baş verə bilər. Əks halda təşkilatın uzunmüddətli inkişaf potensialı zəifləyir və nəzarətsiz və həddindən artıq dövriyyə səbəbindən əhəmiyyətli maliyyə itkilərinə məruz qalır.

2. Qlobal miqyasda işçi dövriyyəsi

İşçilərin dövriyyəsi hazırkı qlobal iqtisadi şəraitdə institusional və makroiqtisadi dəyişənlərin təsiri altında olan mürəkkəb əmək bazarı problemi olaraq qəbul edilir. Beynəlxalq təşkilatlar və aparıcı elmi-tədqiqat institutları tərəfindən son illərdə aparılan sistemli araşdırmalarda işçi dövriyyəsinin səviyyəsi və strukturu ölkənin iqtisadi inkişaf mərhələsi, əmək bazarının institusional strukturu, hüquqi tənzimləmə mexanizmləri və korporativ idarəetmə mədəniyyəti ilə sıx bağlı olduğu qeyd olunur. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının 2025-ci il hesabatı həmin sahədə əsas analitik resurslardan biridir. 1961-ci ildə yaradılan və hazırda əsasən sənayeləşmiş ölkələri birləşdirən İƏİT əmək bazarları, insan kapitalının inkişafı və beynəlxalq iqtisadi siyasət sahələrində fəaliyyət göstərən mühüm təşkilatdır. Təşkilatın "Əmək bazarının dinamikası və işçi mobilliyi" analitik araşdırmasına görə əmək dövriyyəsi sənayeləşmiş ölkələrdə əsasən

könüllü xarakter daşıyır və karyera yüksəlişi, daha yaxşı iş şəraiti və daha yüksək maaşlar üçün imkanlar axtaran işçilərlə əlaqələndirilir [7].

İnkişaf etmiş ölkələrdə əmək bazarının çevikliyi səbəbindən işçilər geniş çeşiddə alternativ məşğulluq seçimlərinə çıxış əldə edirlər. Hətta işçilərə şirkətlər arasında keçid etmək üçün daha çox sərbəstlik verir. Məsələn işçi dövriyyəsi əmək bazarının sağlam işləməsinin əlaməti olaraq qəbul edilir və hətta ABŞ, Böyük Britaniya və Almaniyada bir qədər müsbət qiymətləndirilir. Qeyd olunan ölkələrdə işçi qüvvəsinin hərəkətliliyini artıran əsas elementlər sosial təminat sisteminin artım dərəcəsi, əmək müqavilələrinin çevikliyi və nisbətən asan işə qəbul və işdən çıxarılma proseslərdir. Struktur məsələlər inkişaf etməkdə olan ölkələrdə daha çox işçi dövriyyəsi ilə əlaqələndirilir. Həmin ölkələrdə qeyri-ixtiyari işçi dövriyyəsi iqtisadi qeyri-sabitliyin, geniş qeyri-rəsmi məşğulluğun, əmək hüquqlarının kifayət qədər müdafiə olunmamasının və əmək bazarındakı institusional qüsurların nəticəsidir. Aşağı maaş, qeyri-sabit məşğulluq və qeyri-adekvat sosial təminat tez-tez işçi dövriyyəsi ilə əlaqələndirilir [11].

COVID-19 pandemiyası zamanı müəyyən edilən və iqtisadi ədəbiyyatda "böyük istefa dalğası" adlandırılan "böyük istefa" prosesi son illərdə işçi dövriyyəsi ilə bağlı dünya miqyasında ən diqqət çəkən hadisələrdəndir. İqtisadçı Antoni Klotz 2021-ci ildə epidemiya zamanı işçilərin geniş şəkildə könüllü getməsini xarakterizə etmək üçün bu ifadədən istifadə etdi. Dünya Bankının 2022-ci il üçün "işin gələcəyi və əmək bazarlarının transformasiyası" araşdırmasına əsasən epidemiyadan sonra işçilərin məqsədləri kəskin şəkildə dəyişib [12]. Pandemiyadan sonra iş-həyat balansı, uzaqdan işləmə variantları, psixoloji rifah və korporativ mədəniyyət elementləri işçilər üçün getdikcə daha çox əhəmiyyət kəsb edir, halbuki keçmişdə təzminat və iş təhlükəsizliyi məşğulluq seçiminin əsas müəyyənediciləri idi. Nəticədə isə işçi dövriyyəsi və işçi qüvvəsində mobil davranış artıb. İşçilərin dövriyyəsi ilə birbaşa əlaqəli olan əmək bazarı statistikası (məşğulluq, işsizlik və iştirak nisbətləri) aşağıdakı cədvəl üçün əsasdır.:

***Cədvəl 1**. İƏİT ölkələri üzrə əmək bazarı göstəricilərinin dinamikası*

İl	Məşğulluq səviyyəsi (%)	İşsizlik səviyyəsi (%)	Əmək bazarında iştirak səviyyəsi (%)
2015	66,7	6.8	72.0
2016	67.2	6.6	72.6
2017	66,5	6,9	72.3
2018	68,1	6,4	73,1
2019	68,4	5,6	72,9
2020	66,1	7,4	72.5
2021	67,8	6,3	73,5
2022	69,1	5,8	73,7
2023	68,6	5,5	73,2
2024	70.2	5,2	74,1
2025	69,8	5,6	73,9

***Mənbə:** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının əmək bazarı statistikası*

Cədvəlin göstəriciləri son on ildə qlobal əmək bazarının necə inkişaf etdiyini və bunun işçi dəyişikliyi prosedurlarına necə təsir etdiyini metodik şəkildə göstərir. Məlumata görə 2015-2019-cu illər arasında məşğulluq səviyyəsi 66,7%-dən 68,4%-ə yüksəlib, eyni dövrdə işsizlik nisbəti isə 6,8%-dən 5,6%-ə düşüb. İqtisadi genişlənmə kontekstində əmək bazarının nisbətən sabit olduğunu və işçi qüvvəsinin hərəkətliliyinin daha könüllü xarakter aldığını göstərir. COVID-19 epidemiyası 2020-ci ildə işsizlik səviyyəsinin 7,4%-ə yüksəlməsi və məşğulluq səviyyəsinin 66,1%-ə düşməsi ilə əmək bazarında böyük enişə səbəb oldu. Əmək dövriyyəsi daha struktur və qeyri-ixtiyari artıb, əsas səbəblər iş yerlərinin itirilməsi, fəaliyyət məhdudiyyətləri və çoxsaylı sənayelərdə iqtisadi qeyri-sabitlikdir. Göstəricilər əmək bazarının canlanmaya başladığı 2021-ci ildən bəri davamlı olaraq yaxşılaşıb. 2025-ci ildə işsizlik nisbəti 5,6%-ə düşərkən, məşğulluq səviyyəsi 69,8%-ə çatması dövrün ən yüksək göstəricilərindən biridir. Yəni əmək dövriyyəsi yenidən bazar əsaslı və könüllü xarakter alır və əmək bazarında tələb və təklif balansı möhkəmlənir. Həmçinin əmək bazarında iştirak nisbəti 2015-ci ildəki 72,0%-dən 2025-ci ildə 73,9%-ə ümumilikdə yüksəlir. Artım daha çox fərdlərin işçi qüvvəsinə qoşulmasının, yəni işçi qüvvəsi strukturunun genişlənməsinin və iqtisadi fəallığın artmasının nəticəsidir. Yəni artım əmək bazarına daha çox insanın daxil olduğunu və xüsusilə qadınların, yaşlı işçilərin və yüksək ixtisaslı kadrların iştirakının genişləndiyini göstərir.

"Böyük istefa dalğası" fenomenindən ən çox ABŞ və Avropa dövlətləri təsirlənir. Məsələn 2021-2022-ci illərdə milyonlarla amerikalı işçi öz işlərini tərk etdi və əmək bazarında güclü struktur dəyişiklikləri ilə nəticələndi. Təşkilatlar bu inkişaflar nəticəsində işçilərin işə götürülməsi və saxlanması ilə bağlı yanaşmalarını yenidən nəzərdən keçirmək məcburiyyətində qaldılar və bir çoxları daha çevik iş tənzimləmələri və rəqabətli ödəniş təcrübələrini qəbul etməyə başladılar. Avtomatlaşdırma və rəqəmsallaşdırma prosesləri kadr dəyişikliyinə də təsir göstərir. Mövcud iqtisadiyyatın texnoloji tərəqqiləri əmək bazarının strukturunu kəskin şəkildə dəyişdirir və işçilərin dövriyyəsinə dərhal təsir göstərir. Dünya Bankının 2019-cu ildə yayımlanan "işin dəyişən təbiəti" adlı əsas araşdırmasına görə avtomatlaşdırma və süni intellekt texnologiyaları bəzi köhnə peşələrin yox olmasına səbəb olur, yeniləri isə yaranır [10]. Qeyd olunan proseslə əmək bazarının "yaradıcı məhvetmə" mexanizmi güclənir. Avstriyalı iqtisadçı Cozef Şumpeter tərəfindən irəli sürülmüş həmin yanaşmaya görə iqtisadi tərəqqi qurulmuş qurumlar dağıldıqda və yeniləri yarandıqda baş verir. Rəqəmsallaşma nəticəsində aşağı ixtisaslı peşələr azalır, yüksək texnologiyalı bacarıqlar tələb edən yeni peşələr isə artır. Nəticə əmək bazarının struktur tənzimlənməsi ilə bağlı problemlər yaradır və işçilərin dövriyyəsini artırır. Rəqəmsallaşma firmaların yeni idarəetmə modelləri hazırlamasına səbəb olur. Məsələn işçilərin şirkətə bağlılığı uzaqdan iş, hibrid iş modelləri və rəqəmsal əmək platformaları ilə dəyişdirilir və onlar əmək bazarında daha mobil olurlar. Nəticədə isə işçilərin dövriyyəsi daha dinamik və gözlənilməz olur.

3. Azərbaycanda işçi dövriyyəsi və onun xüsusiyyətləri

Korporativ idarəetmə sistemlərinin böyüməsi, əmək bazarında baş verən dəyişikliklər, iqtisadiyyatda struktur dəyişiklikləri nəticəsində son illər ölkəmizdə kadr dəyişikliyi məsələsinə daha çox diqqət yetirilir. Digər ölkələrlə müqayisədə ölkə daxilində qeyd etdiyimiz sahədə sistematik, geniş empirik tədqiqat aparılmamışdır. Cari elmi araşdırmaların əksəriyyəti geniş tendensiyaları tapmaq məqsədi ilə bank və xidmət sektorları kimi konkret sənayelər üzrə aparılmışdır. Ölkəmizin insan resurslarının idarə edilməsi sistemi hələ də əsasən inzibati və ənənəvi metodlardan asılıdır [3]. Strateji planlaşdırma və insan kapitalının inkişafı ümumi strategiyada ikinci dərəcəli məsələlərdir. İnsan resursları funksiyasını ilk növbədə kadrların uçotu, əmək müqaviləsinin qeydiyyatı və inzibati prosesin həyata keçirilməsi ilə məhdudlaşdırır. Kadr dəyişikliyinin dərəcəsi strategiyanın istifadəsi ilə birbaşa təsirlənir. Yəni işçilərin daxili inkişaf imkanlarının məhdud olması, qərarların qəbulu proseslərində iştirak etməməsi, motivasiya mexanizmlərinin yetərincə inkişaf etməməsi nəticəsində işçilərin şirkətə bağlılığı azalır və işçi dövriyyəsi yüksəlir. Kadrların həm icraçı resurs, həm də strateji aktiv kimi qiymətləndirilməsi müasir insan resurslarının idarə edilməsi nəzəriyyəsində əsas müddəa olaraq qəbul edilir. Onun isə həyata keçirilməsi işçi dövriyyəsinin azaldılmasında mühümdür.

Bank sektorunda aparılmış empirik tədqiqatlar sayəsində işçi dövriyyəsinin səbəblərini daha dəqiq müəyyən edə bilərik. Əmək haqqı səviyyəsində rəqabətin olmaması, peşəkar yüksəliş üçün perspektivlərin olmaması və fəaliyyətin qiymətləndirilməsi sistemlərinin qərəzsizliyi ölkəmizin bank sektorunda kadr dəyişikliyinin əsas səbəblərindəndir [2]. Bank sənayesində yüksək ixtisaslı mütəxəssislər üçün əmək bazarında gərgin rəqabəti nəzərə alaraq, kompensasiya elementi xüsusilə önəmlidir. İşçilərin rəqabətqabiliyyətli maaş və sosial təminat paketi təqdim etməyən işəgötürəndən ayrılması ehtimalı daha yüksəkdir. Nəticədə təşkilatın insan kapitalı zəifləyir və işçi dövriyyəsi yüksəlir. İşçilərin dövriyyəsinə təsir edən əsas elementlərdən biri peşəkar inkişaf imkanlarının olmamasıdır. Əgər şirkətdə aydın və şəffaf karyera inkişafı metodları yoxdursa, işçilər uzunmüddətli böyümələrini təmin etmək üçün başqa imkanlar axtarmağa başlayırlar. Gənc, yüksək potensiallı işçilər arasında üstünlük təşkil edən həmin xüsusiyyət nəticəsində şirkət ən perspektivli heyətini itirə bilər. Performans qiymətləndirmə sistemlərinin işçilərin motivasiyasına mənfi təsir göstərməsinin əsas səbəblərindən biri onların obyektiv olmamasıdır. Qiymətləndirmə prosesi qeyri-şəffaf olarsa və özbaşına mühakimələrə əsaslanarsa, işçilər özlərini ədalətsiz hiss edəcək və şirkətə daha az inamlı olacaqlar.

İşçilərin dövriyyəsinə ölkəmizin əmək bazarının struktur aspektləri də olduqca təsir göstərir. Ölkədə əhəmiyyətli miqdarda qeyri-rəsmi məşğulluq olduqda əmək münasibətləri qeyri-sabit olur. Qeyri-rəsmi məşğulluqda olan işçilərin formal əmək müqavilələri olmadığından, onların sosial müdafiəsi qeyri-adekvatdır. O isə işin davamlılığını aşağı salır. İşçilərin dövriyyəsi də daha yüksək səviyyədə görünür. İşçi-müəssisə qarşılıqlı əlaqələrinin aşağı səviyyədə

Məqalənin məqsədi 1988–1993-cü illərdə Sumqayıt şəhərinin ictimai-siyasi həyatında baş verən əsas hadisələri araşdırmaq, həmin dövrdə şəhərin siyasi proseslərdə iştirakını, milli azadlıq hərəkatındakı rolunu və hakimiyyət dəyişikliklərinin yerli idarəetməyə təsirini təhlil etməkdir. Tədqiqat zamanı əsasən dövrün mətbuat materiallarından, arxiv sənədlərindən, elmi ədəbiyyatdan və tarixi mənbələrdən istifadə edilmişdir. Bu baxımdan araşdırma Azərbaycanın müstəqilliyinin bərpası ərəfəsində və sonrakı ilk illərdə Sumqayıt şəhərinin ictimai-siyasi tarixinin öyrənilməsinə müəyyən töhfə verməyi hədəfləyir.

Əsas hissə. Azərbaycan Republikasının digər sənaye mərkəzləri kimi, 1949-cu ildə şəhər statusu almış Sumqayıtın da ən yeni tarixinin obyektiv tədqiqi aktuallığına görə diqqəti cəlb edir. XX əsrin 80-ci illərin axırlarında 83 millət və xalqın nümayəndələrinin yaşadığı bu şəhərdə iqtisadi - sosial problemlər həddindən artıq çox olduğundan ictimai-siyasi vəziyyət günü-gündən ağırlaşıdrdı. Məhz buna görə çağdaş Azərbaycan milli-azadlıq hərəkatının ən fəal inkişaf etdiyi şəhərlərindən biri məhz Sumqayıt idi. Sumqayıtın 1988-1993-cü illər ictimai-siyasi tarixinin öyrənmək üçün ən etibarlı mənbələrdən biri həmin dövrdə şəhərdə Azərbaycan dilndə nəşr olunan "Sumqayıt", " Haray", rus dilində nəşr olunan "Exo Sumqait" qəzetlərinin materiallarıdır.

Sov.İKP MK-nın 1985-ci il mart plenumunda M.S.Qorbaçovun Baş katib seçilməsi və həmin ilin aprelində keçirilmiş Sov.İKP MK Plenumunda irəli sürülmüş yenidənqurma konsepsiyası ölkədə yeni münasibətlərin formalaşmasına şərait yaratmaqla yanaşı, seperatizmin və milli münasibətlərin kəskinləşməsinə səbəb oldu.

Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) Soveti deputatlarının 20 fevral 1988-ci il tarixdə DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxaraq Ermənistan SSR-in tərkibinə birləşməsi haqqında müraciət qəbul etməsi ilə XX əsrin əvvəl-lərindən qızışdırılan erməni-müsəlman, erməni-türk münaqişəsinin yeni mərhələsinin əsası qoyuldu.

1988-ci ilin fevralından Azərbaycanda baş verən proseslər respublika rəhbərliyini bir sıra tədbirlər görməyə məcbur etmişdir. Məsələn, əvvəlki illərdə "Azərbaycan tarixi" nin tədrisinə bəslənən ögey münasibəti müəyyən qədər aradan qaldırmaq məqsədi ilə orta məktəblərdə tədris saatları artırılmış, ixtisasından asılı olmayaraq bütün ali məktəblərdə "Azərbaycan tarixi" tədris olunmağa başlanmışdır. Dərsliklərin olmaması bir çox çətinliklər yaratdığına görə bu dövrdə bir sıra kitablar da nəşr olunmuşdur.

Sov.İKP MK və SSRİ Nazirlər Soveti "1988-1995-ci illərdə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında" qərar qəbul etməklə erməni separatçılarının guya sosial-iqtisadi cəhətdən DQMV-nin Azərbaycanın digər regionlarından geri qalması haqqında uydurmalarını təsdiq etmiş və onların daha çox əl-qol açmasına imkan yaratmışdı.

Azərbaycanda ilk dəfə tələbələrin 1988-ci il 19 fevral mitinqi keçirildi. Azərbaycan Dövlət Universiteti (hazırda BDU), Politexnik və İnşaat Mühəndisləri İnstitutları tələbələrinin kommunist rejimi dövründə görünməmiş 3-4 minlik izdihamı ―Azadlıq‖ meydanından Azərbaycan KP MK-nın qarşısına kimi daha da genişlənərək 10-15 min adamın iştirak etdiyi böyük mitinqə çevrildi. Azərbaycan rəhbərliyinin göstərişi ilə müxtəlif əmək kollektivlərinin, "Qayğı", "Vətən", "Qarabağa Xalq Yardımı Komitəsi" və s. təşkilatların SSRİ xalq deputatlarına, SSRİ prezidenti M.S.Qorbaçova müraciətləri [3,- 28,29 mart, 27 may 1990] təşkil olunsa da, bunaların heç bir müsbət nəticəsi olmadı və vəziyət gərginləşməkdə davam etdi.

Qarabağ ərazisində iki azərbaycanlı gənc qətlə yetirildikdən sonra ermənilər yeni cinayətkar planlarını həyata keçirməyə başladılar. Hadisələrin əvvələrində çoxlu sayda erməni millətindən olan insanlar erməni quldurlarının təxribatına uymur, onların yaratdıqları fondlara vəsait köçürmür, azərbaycanlılara xoş münasibət bəsləyirdilər. Erməni mərkəzləri bu insanları fakt qarşısında qoymaq, Ermənistan və Dağlıq Qarabağ ərazisindən azərbaycanlıların öz ata-baba torpaqlarından qovulmasını sürətləndirmək üçün bir qırğın törətməyi planlaşdırıdılar. Onlar bunun üçün ictimai-siyasi və ekoloji problemlərin kəskin olduğu, 83 millət və xalqın nümayəndələrindən ibarət 230 mindən artıq əhalinin yaşadığı Sumqayıt şəhərini seçdilər. 1988-ci ilin 27-29 fevral tarixində erməni təxribatçıları xarici havadarlarının köməkliyi ilə Sumqayıt hadisəsini törədərək bundan öz məkirli niyyətlərini həyata keçirmək üçün beynəlxalq aləmdə Azərbaycanın əleyhinə istifadə etməyə çalışdılar.



Sumqayıtda mövcud olan problemlər başqa şəhərlərə nisbətən faciənin təşkilatçılarının planlarına daha çox uyğun gəlirdi. Hadisənin təşkilatçıları hədəf kimi məhz onların təxribatına uymmayan, azərbaycanlılara xoş münasibət bəsləyən şəhər sakinlərini seçərək öz qara siyahılarına salmışdılar.

Akademik Z.Bünyadov Sumqayıt hadisəsinin erməni mərkəzləri tərəfindən törədildiyini faktlarla sübut edərək yazırdı: "Sumqayıt faciəsi erməni millətçiləri tərəfindən şüurlu şəkildə qabaqcadan planlaşdırılmışdı. Faciənin baş verməsinə bir neçə saat qalmış şəhərə erməni tele və foto müxbirlər gizli surətdə gələrək,

hadisənin baş verməsini gözləmişlər. Azərbaycanlı sifətində ilk cinayətkar aksiyanı erməni Qriqoryan törədərək beş Sumqayıt ermənisini qətlə yetirmişdi... Bu dövrdə milislərə nəinki silah, hətta adi dəyənək gəzdirmək qadağan olunmuşdu. Ertəsi gün Stepanakertdə "Sumqayıt soyqırım qurbanlarına" tökmə abidə ucaldılmışdır"[9, №2, 1989, s.120-121]

Hadisənin qabaqcadan xüsusi təxribatçı mərkəzlər tərəfindən təşkil olunduğunu sübut edən çoxlu sayda faktlar mövcuddur. Məsələn, Stepanakertdə (Hazırda Xankənd) Sumqayıt hadisəsinə aid tökmə abidənin qabaqcadan hazırlanması, hadisədən qabaq şəhərdə nömrəsiz maşınlarda qara gödəkçəli adamların peyda olması və hadisədən sonra onların yoxa çıxması, hadisə ərəfəsi şəhər hüquq-mühafizə orqanlarının fəaliyyətinin dayandırılması, tabel silahlarının yığılması, erməni millətindən olan imkanlı şəxslərin əksəriyyətinin əmanət banklarında olan pullarını götürərək, hadisədən iki gün əvvəl şəhərdən çıxması və s. faktlar bunu sübut edir. Bu cinayətin icrasında müxtəlif ölkələrdə fəaliyyət göstərən erməni təşkilatlarının rolu böyük olmuşdur. Ümumiyyətlə Sumqayıt hadisəsəinə aid yazılmış məqalə və kitablarda əsasən "Sumqayıt hadisəsi erməni mərkəzləri tərəfindən planlaĢdırılmış cinayətdir", "Bu hadisə SSRİ-nin dağılmasının və respublikaların suverenlik uğrunda mübarizəsinin qarşısının alınması üçün Moskva tərəfindən hazırlanmış qəsd idi" kimi fikirlər müdafiə olunur. Fikrimizcə, bunlar cinayətin təşkilatçılarının bir hissəsidir. Əgər cinyətin təşkilatçılarının bir hissəsi SSRİ daxilində idisə, digər bir hissəsinin qərb ölkələrində olması haqqında kifayət qədər faktlar mövcuddur. Sumqayıt faciəsində imperiyanı qoruyub saxlamaq istəyən qüvvələrlə yanaşı, onun dağılmasını istəyən həm daxili, həm də xarici qüvvələrin əli vardı. Cinayətin icraçıları isə xüsusi mərkəzlər tərəfindən hadisə ərəfəsində şəhərə göndərilmiş casuslar və onların təxribatına uyan səbatsız ünsürlər olmuşdu. Belə casuslardan biri "Qlasnost" jurnalının müxbiri Qriqoryantsın nümayəndəsi A.Şelkov qabaqcadan Sumqayıta gələrək, hadisələri lentə almış və artıq hadisələrin səhərisi günü qərbdəki himayədarları vasitəsi ilə müxtəlif ölkələrdə nümayiş etdirmişdi.

Faciənin əsas təşkilatçılarının hadisə baş verdiyi vaxt müəyyən edilməməsində Azərbaycan KP MK birinci katibi K.Bağırovla Sumqayıt şəhər partiya komitəsinin birinci katibi C.Müslümzadə arasında münasibətlərin kəskinləşərək, düşmənçilik həddinə çatmasının da müəyyən rolu olmuşdu. Məhz bunun nəticəsində, hadisələrin əsl səbəblərini araşdırıb, düzgün nəticə çıxarmaq əvəzinə, Azərbaycan KP MK "Sumqayıt şəhər Partiya Komitəsi Bürosunun əhali arasında təşkilatçılıq işində böyük nöqsanları, siyasi naşılığı və şəhərdə faciəli hadisələrin qarşısını almaqda fəaliyyətsizliyi haqqında"(16 mart 1988-ci il) qərar qəbul etməklə öz səbatsızlığını nümayiş etdirmişdi. Bu qərarla Azərbaycan KP rəhbərliyi faciənin əsas təşkilatçılarını deyil, şəhər rəhbərliyini günahkar hesab etməsi həmin dövrdə cinayətin əsil təşkilatçılarının ifşa edilməsinə mane oldu.

Sumqayıt hadisəsi haqqında məqalə və kitab yazan bəzi müəlliflər bu hadisənin əsas səbəblərindən biri kimi şəhərdə əvvəlki illərdə millətlərarası münasibətlərin kəskin olduğunu qeyd edirlər. Lakin faktlar bunun əksini sübut

edir. Millətlərarası münasibətlər sahəsində şəhərdə əvvəlki illərdə nöqsanlar, formalizm halları olsa da, bu münasibətlər düşmənçilik həddində deyildi. Məsələn, Sumqayıtda çap olunan şəhər qəzetlərində 1987-ci ilin noyabrında Böyük Oktyabr inqilabının 70 illiyi ilə əlaqədar, yəni hadisələrdən 3 ay qabaq Sumqayıtla qardaşlaşmış Ermənistanın Kirovakan şəhər nümayəndə heyətinin şəhər əhalisi tərəfindən hörmətlə qarşılanması haqqında yazılar, erməni artistlərinin çıxışlarından geniş foto-reportajlar verilmişdi ki, bu da şəhərdə millətlərarası münasibətlər sahəsində ciddi problemlərin olmadığını sübut edir. [5, 9 noyabr 1988-ci il]

Bundan başqa faktlar sübut edr ki, Sumqayıtda yaşayan ermənilərin 65%-i, rusların 72%-i, azərbaycanlıların 63%-i, tatarların 84%-i üçün rəhbər işçinin hansı millət və xalqın nümayəndəsi olması heç bir əhəmiyyət kəsb etmirdi. Həmçinin aparılmış sosioloji sorğuların nəticəsində məlum olmuşdur ki, şəhərdə yaşayan rusların 68%-i, ermənilərin isə 67%-i müxtəlif millətlərin nümayəndələrindən ibarət qarışıq nikahlara müsbət yanaşırlar. Sumqayıtda soruğuda iştirak edənlərin 83%-i digər millət və xalqlar arasında yaxın dostlarının olduqlarını bildirmişlər. [8]



Bu kimi faktlar bir daha sübut edir ki, hadisənin əsl təşkilatçıları və icraçıları şəhər əhalisi deyil, kənar qüvvələr olmuşdur. Sumqayıt hadisəsinin baş verməsini qısa olaraq belə şərh etmək olar: Xüsusi hazırlanmış bir qrup təxribatçı Ermənistanda azərbaycanlılara qarşı törədilən vəhşiliklər barədə şayiələr yayaraq, hətta Qafandan yaralıların gətirildiyini bildirmiş, onların başına toplaşmış məlumatsız və səbatsız ünsürlərdə qisasçılıq hissələrini qızışdıraraq, qabaqcadan əldə etdlikləri ünvanlara basqınlar təşkil edərək qətllər, qarətlər və yanğınlar

törətmişlər. Moskva rəhbərliyi 3 gün gecikdikdən sonra şəhərə qoşun yeritmişdir. Burada 6-9 fevral 1905-ci il Bakıda törədilmiş erməni-müsəlman qırğını ilə müəyyən bir oxşarlıq özünü büruzə verir. Ordunun şəhərə işğalçı kimi girərək özbaşınalıq etməsi, milli təəssüb hissini boğa bilməyən şəxslərin etirazına və müqavimətinə səbəb olmuş, nəticədə, hərbçilər bir neçə texnika itirmişlər. Bu qeyri-bərabər, kortəbii müqavimətdə 6 nəfər azərbaycanlı həlak olmuş, general Krayevin əmri ilə yüzlərlə şəhər sakini həbs olunmuş, 94 nəfər haqqında cinayət işi qaldırılmışdı. Bunların arasında Ermənistan qaçqınlarından bir nəfərin də olmaması bir daha sübut edir ki, onların adlarının bu hadisələrdə hallandırılması məqsədli xarakter daşımışdı. Moskvadan Sumqayıta ezam edilmiş müstəntiqlər ordusu şəhər sakinləri haqqında uydurma ittihamlar hazırlayıb Rusiyanın müxtəlif şəhərlərinin məhkəmələrinə göndərmişlər. İstintaq nəticə sində məlum olmuşdur ki, ilk cinayəti özünü azərbaycanlı kimi qələmə vermiş E.Qriqoryan törədərək, 5 nəfəri qətlə yetirib. Azərbaycanlılar müxtəlif müddətlərə azadlıqdan məhrum edilsələr də, məhkəmədə E.Qriqoryanın üzərindən ittihamın götürülməsi cinayəti təş- kilatçılarının erməni mərkəzləri olması faktını bir daha təsdiq edir. Ən ağır cəzanı 1988-ci ilin noyabrında SSRİ Ali Məhkəməsi çıxardı. Məhkəmə Ə.Əhmədovu güllələnməyə məhkum etdi və minlərlə Azərbaycan vətəndaşının etirazına baxmayaraq 1990-cı ilin aprelində hökm icra olundu. [2,s.387-389; 10]

Xocalı faciəsindən sonra xalqın tələbi ilə A.Mütəllibov Ali Sovetin sessiyasında 6 mart 1992-ci il tarixdə istefa verməyə məcbur oldu. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrası Parlamentin sədri Yaqub Məmmədova həvalə edildi. O, bu səlahiyyətləri 73 gün həyata keçirdi.

Azərbaycanda prezident seçkilərinə hazırlıq işləri başladı. 1992-ci ilin 8 mayında Şuşanın ermənilər tərəfindən işğalı vəziyyəti daha da gərginləşdidi. Belə bir şəraitdə Ali Sovetin 14 may 1992-ci il tarixdə fövqəladə sessiyasında A.Mütəllibov iştirak edərək hakimiyyətə qayıtdığını bildirdi. Lakin bir gün sonra yenidən AXC tərəfindən hakimiyyətfən devrilərək Moskvaya qaçdı. [1, s.78-80]

17 mayda Laçının işğalından sonra, 1992-ci ilin 18 mayında Yaqub Məmmədov istefa verdi. Onun yerinə İsa Qəmbər Ali Sovetin sədri seçildi və prezident səlahiyyətlərini 20 gün icra etdi. 1992-ci il 7 iyun seçkilərində Əbülfəz Elçibəy prezident seçidi.

Onun hakimiyyəti dövründə (7 iyun 1992-23 iyun, 30 avqust 1993) SSRİ-nin hərbi əmlakının bölüşdürülməsinə dair 15 may 1992-ci il tarixli Daşkənd müqaviləsinə əsasən Azərbaycana silah və hərbi sursat, Xəzər donanmasının 25 faizi Azərbaycana verildi. Sərhəd qoşunları təşkil olundu. 1993-cü il mayın 26-da 200 ilə yaxın Azərbaycanda hökmranlıq etmiş rus ordusu ölkədən çıxarıldı. Dağlıq Qarabağ probleminin siyasi cəhətdən həlli istiqamətində beynəlxalq təşkilatlarla, o cümlədən ATƏM-lə (hazırda ATƏT) əməkdaşlığa başlanıldı, Azərbaycan büdcəsinin həcmi artırıldı, Rusiyanın tabeçiliyində olan müəssisələrin hamısı Azərbaycanın tabeliyinə verildi. Azad sahibkarlığın inkişafı üçün fərman verildi. 1992-ci il mayın 28-də Naxçıvan MR-i blokadadan çıxarmaq üçün Türkiyə ilə Azərbaycan arasında "Ümid" körpüsü adlandırılan Sədərək-Dilucu körpüsü açıldı.

Ali və orta ixtisas məktəblərinə qəbul zamanı test sistemi tətbiq olundu. Əlifba islahatı keçirildi. Azərbaycan dilinin hüquqi statusu bərpa edildi. Milli azlıqların hüquqlarının qorunması və sosial-mədəni inkişafı üçün imkanlar yaradan fərman verildi. Dini etiqad haqqında qanun qəbul edildi.

Lakin bu işlərlə yanaşı idarəçilikdə yol verilmiş bir sıra səhvlər müsbət işlərin davam etdirilməsinə imkan vermədi. 1992-ci ilin oktyabrında ABŞ Konqresinin "Azadlığı müdafiə akt"na etdiyi 907 sayli düzəliş Azərbaycan Respublikasına ABŞ-ın dövlət səviyyəsində yardımını qadağan etdi ki, bu da Ə. Elçibəy iqtidarının beynəlxalq imicinə böyük zərbə vurdu.2 aprel 1992-ci il tarixdə Kəlbəcər ermənilər tərəfindən işğal olundu. 4 iyun 1993-cü ildə Sürət Hüseynovun rəhbərlik etdiyi Gəncədəki 709 saylı hərbi hissədə qiyam baş verdi. [1,s. 134]

Əvvəlki illərdə olduğu kimi AXC hakimiyyəti dövründə də Sumqayıt əhalisi siyasi proseslərdə fəal iştirak edirdi. Prezident seçkilərindən sonra şəhər icra hakimiyyəti başçısı dəyişdirildi.



1992-1993-cü illərdə Sumqayıt şəhərinin rəhbər şəxsləri

Bu dövrdə əhalinin Azərbaycan tarixi haqqında obyektiv məlumatı az olduğundan AXC Sumqayıt şöbəsinin 1990-cı ilin mayında nəşr olunan "Haray" qəzetində mütəmadi olaraq tarixi məqalələr nəşr olunurdu. Qəzetin fəaliyyəti istedadlı jurnalistlər Yadigar Məmmədli və Sevda Məmmədli tərəfindən yüksək səviyyədə təşkil olunmuşdu. Müəliflər məqalələri əlyazma şəklində axşam qəzetin baş redaktoruna təqdim edir, səhəri məqalələr qəzetdə çap olunaraq, oxucuların ixtiyarına verilirdi. Belə məqalələrə misal kimi "Rus işğalı tarixindən" [6, qəzeti. 8

aprel 1992], "Laçınlı Sultan bəyin silahdaşı" [6, 29 iyul-11 avqust 1992], "Milli məsələnin düzgün həlli tapılmışdı" [6, 2 mart 1994] və başqalarını göstərmək olar.

Hakimiyyət dəyişikliyi baş verməsinə baxmayaraq gözləndiyinin əksinə olaraq şəhərdə köklü kadr islahatlarının baş verməsi, bu sahə yol verilmiş nöqsanlar yeni hakimiyyətə olan ümidləri doğrultmadı. Bu dövrdə görülən müsbət işlərlə yanaşı, bir sıra sahələrdə, xüsusilə də kadr siyasətində yol verilmiş nöqsanlar sonrakı proseslərdə öz mənfi təsirini göstərdi. Sənaye şəhəri olan Sumqayıtdakı fabrik və zavodların direktorlarının mütləq əksəriyyəti sovet dövründə təyin olmalarına baxmayaraq öz vəzifələrində qaldılar. Halbuki onların əksəriyyəti yeni hakimiyyət dövründə vəzifələrBu dövrün müsbət cəhətlərindən biri o idi ki, nöqsanlar gislədilmir, şəhər mətbuatında açıq tənqid olunurdu.

AXC Sumqayıt təşkilatının orqanı olan "Haray" qəzetinin 26 avqust-8 sentyabr 1992-ci il tarixli sayında "AXC-nin kadr siyasəti: AKP-yə oxşarlıq" adlı məqalədə yeni hakimiyyətin kadr siyasəti kəskin tənqid olunmuşdu. Məqalədə qeyd olunurdu ki, "Sumqayıt İcra Hakimiyyəti və şəhər Soveti Aparatında 70-dən artıq işçinin yalnız 8 nəfəri Xalq Cəbhəsi üzvləridir... Qələbəni əldə saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Uzun illər rüşvətxorluğu və digər neqativ hərəkətləri ilə şəhər əhalisinin nifrətini qazanmış şəxslərin yenə də rəhbər kürsülərində oturması təəccüb doğurur. AXC Sumqayıt şöbəsi öz intellektual səviyyəsi ilə, demokratizmi ilə həmişə fərqlənib. Əgər əhali bu gün də bütün məsələlər barədə şəhərin dövlət orqanlarına deyil, AXC Sumqayıt şöbəsinə şikayətə gəlirsə, 8 nəfərin dövlət aparatına vəzifəyə getməsinə nə ehtiyac var idi?"

Məqalədə kadr siyasətində xüsusi canfəşanlıqla milli azlıqların nümayəndələrinə üstünlük verilməsi tənqid olunaraq yazılmışdı: "Hərdən bu elə canfəşanlıqla edilir ki, gülünc də olsa adamda etnik qrupun üzvü olmadığı üçün peşmançılıq hissi baş qaldırır".

Mili azlıqlara, azsaylı xalqlara kadr siyasətində xüsusi diqqət və qayğı Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında" fərmanından (16 sentyabr 1992-ci il) sonra daha da güclənmişdir. Fərmanda deyilirdi: "Milli azlıq, azsaylı xalq və etnik qrupların nümayəndələrinin peşə hazırlığına uyğun olaraq və heç bir ayrı-seçkiliyə məruz qalmadan bərabər hüquqlara malik olmasını nəzərə alaraq həmin hüquqların həyata keçirilməsi üçün hərtərəfli şərait yaradılsın, onların pozulmasına yönəldilmiş hər hansı bir hərəkətin, yaxud hərəkətsizliyin qarşısı alınsın, ərizə və şikayətlərə, baxılmasında və vətəndaşların qəbulunda həmin məsələlərin həllinə diqqət artırılsın."[7]

Qərb standartlarına uyğun olan bu qanun keçid dövrünü yaşayan, müharibə vəziyyətində olan olkədə gözlənildiyinin əksinə olaraq demokratiyanın inkişafına deyil, Dağlıq Qarabağla yanaşı bir neçə bölgədə separatizmin inkişafına səbəb olmuşdu. Bu da hakimiyyətin qısa müddətdə itirilməsində mühüm rol oynamışdı.

Bundan başqa həmin məqalədə 20 Yanvar faciəsinin ildönümündə şəhidlərin institutun foyesində asılmış şəkillərini öz əli ilə cırıb atan, Azərbaycan mili-azadlıq hərəkatına qatı düşmən olan, Azərbaycan dilində danışa bilməyən Azərbaycan Sənaye İnstitutunun rektorunun vəzifədə qalması da tənqid olunmuşdu: " Rektorun şəxsi keyfiyyəti, intellektual səviyyəsi demokratik qüvvələrin respublikadakı qələbəsindən sonra bu vəzifədə qalmasını qeyri-mümkün edirdi. Lakin onun keçmiş kommunist rejimi metodları ilə AXC rəhbər strukturlarında özünə himayədar axtararaq və AXC institut dayaq dəstəsi üzvlərinə qarşı əvvəlki nifrətini daha da artıraraq, rəhbər vəzifədə qalması AXC-nin kadr siyasətinə ləkə gətirir"

Bu məqalə işıq üzü görən kimi Azərbaycan Sənaye İnstitutunun rektoru yeni hakimiyyətin yeritdiyi yumşaq siyasətdən sui-istifadə edərək əvvəlki metodlarla özünü müdafiə etməyə başlamışdı. O, təzyiq göstərərək kollektivin adından prorektorlar başda olmaqla 96 nəfərin imzası ilə məqaləyə etiraz məktubu yazdıraraq çap üçün "Haray" qəzeti redaksiyasına göndərmişdi. Bu məktub AXC hakimiyyətinə düşmən rəhbər işçi tərəfindən təşkil olunmasına baxmayaraq "Haray" qəzetdə dərc olundu. Nəzərə almaq lazımdır ki, bütün bunlar AXC hakimiyyətə gələndən 3 ay sonra baş verirdi. Qəzetin 9-22 sentyabr 1992-ci il sayında dərc olunmuş etirazın məktubunun altında "Rektor mövqeyini dəyişmir" başlıqlı daha kəskin məqalə dərc olundu.

Bu məqalədə institutda demokratik qüvvələrə qarşı rektorun bilavasitə tapşırığı ilə 20 yanvardan sonra güclənən təzyiqlər barədə aşağıdakı faktlar qeyd olunuşdu: "Daha ağır günlər 20 Yanvar faciəsi ilə başlandı. İmperiya siyasətinin, inzibati-amirlik rejiminin qatı tərəfdarı, demokratik qüvvələrə qarşı təzyiq prosesində institutun tərbiyə işləri üzrə prorektoru xüsusi canfəşanlıq göstərdi. 1988-ci il mitinqlərində iştirak edən tələbələri institutdan qovmaqla hədələyən, gecə ikən yataqxanada qızların üstündən yorğanı ataraq onları qovan bu adam sonradan daha da azğınlaşdı. 20 Yanvar faciəsindən sonra qışqıra-qışqıra "deyirsiniz içi benzinlə dolu butulkanı rus əsgərinə atsınlar, o da vurmasın, əcəb edib vurublar..." – deyərək AXC üzvlərinə qarşı təzyiqləri artırdı".

Bu cür antimilli qüvələrin şəhərin yeganə ali məktəbində rəhbərlikdə qalması ciddi səhv idi. Kadr siyasətindəki bu cür səhvlər AXC hakimiyyətinin süqutunda mühüm rol oynamışdı.

1992-ci ilin dekabrında Sumqayıt şəhərindən bir neçə yük maşın humanitar yardım Ağdərə-Kəlbəcər istiqamətində göndərilmişdi. Humanitar yardımın göndərilməsi müsbət hal olsa da, lakin bu səfərdə bəzi nöqsanlara yol verilmişdi. Bu nöqsanlar Sumqayıt şəhər İcra Hakimiyyətinin orqanı olan "Sumqayıt" qəzetində dərc olunmuş "Humanitar yardım lazımdır, lakin reklam üçün yox" başlıqlı geniş müsahibədə kəskin tənqid olunmuşdu. [4,10 dekabr 1992] Müsahibədə Sumqayıtdan bir vəzifəli şəxsin əsgərlərə apardığı dərman ləvazimatları ilə bağlı saxtakarlığı ifşa olunmuşdu. Yazıda qeyd olunurdu ki, dərman ləvazimatları əsgərlərə təqdim edilməmişdən əvvəl yoxlanılarkən məlum olmuşdu ki, dərmanların əksəriyyətinin vaxtı keçib. Bir də dərmanlar həm yük

maşınında, həm də avtobusun yük yerində, yəni iki yerdə qeydə alınıb. Həmin vəzifəli şəxs əsgərlərə vaxtı keçmiş dərmanlar gətirməklə günah, yükü iki yerdə qeyd etməklə oğurluq etmişdi. Qeyd olunan faktları araşdırmaq əvəzinə, icra başçısı bu tənqiddən narazı qalmış və həmin saxtakar vəzifəli şəxsə qarşı heç bir tədbir görməmişdi".

1993-cü ilin mayında Sumqayıtda hansı rəhbər işçini vəzifədən azad etmək istəyirdilərsə, bir ay vaxt istəyirdi. Sanki bir ay qabaqcadan hansısa hadisənin, dövlət əleyhinə qiyamın baş verəcəyini bilirdilər. Belə də oldu. 1993 cü ilin 4 iyununda Gəncə qiyam baş verdi. Qiyamçıların bir qrupu 1993-cü ilin iyununda Sumqayıt İcra Hakimiyyətinin binasına daxil olaraq, respublika prezidenti tərəfindən təyin olunan icra başçısını vəzifədən kənarlaşdırıb, işi şəhər sovetinin sədrinə tapşırımışdılar. Həmin şəxs qeyri-qanuni rəhbər olduğundan sənədlərə özü yox, əvvəlki başçının müavini imza atırdı. Bu antikonstitusion çevrilişdən sonra icra başçısı vəzifəsini icra edən şəhər soveti sədrinin səlahiyyəti olmadığından AXC kadrlarını işdən çıxara bilmirdi. Buna görə də həmin kadrlar sentyabrın 22-nə qədər öz vəzifələrində qala bildilər.

Bu dövrdə qiyam yolu ilə ha kimiyyətə gələnlərə qarşı mübarizə "Haray" qəzeti vasitəsilə davam etdirirlirdi. "Xalqımızın böyüklüyünə inanıram" [6, 28 iyul 1993] başlıqlı geniş müsahibədə 4 iyun qiyamından sonra yaranmış vəziyyətə siyasi qiymət öz əksini belə tapnışdı: "180 ildən artıq rus və sovet müstəmləkə zülmü altında inləmiş, son beş ildə siyasi mübarizə dərsi keçərək azadlığın nə olduğunu bütün varlığı ilə dərk etmiş, bu yolda qeyrətli oğul və qızları şəhidlik zirvəsinə yüksəlmiş xalqımız bir daha heç bir dövlətin boyunduruğu altına düşməyəcək. Buna cəhd edən qüvvələr isə öz şərəfsiz əməllərinə görə ümumxalq nifrətini qazanacaqlar".

İcra Hakimiyyəti başçısı vəzifəsini iyun ayında icra edən şəxs prezidentin fərmanı ilə 1993-cü ilin sentyabrında bu vəzifəyə təsdiq olundu. Bundan sonra 1993-cü il sentyabrın 22-də keçirilən iclasda AXC kadrlarının hamısı İcra hakimiyyətində tutduqları vəzifələrindən azad olundular.

Gəncədə baş vermiş 1993-cü ilin iyun qiyamı ilə AXC hakimiyyətdən getsə də qiyamçılar öz məqsədlərinə nail ola bilmədilər. Onların məqsədi Moskvaya qaçmış eks prezident A. Mütəllibovu yenidən hakimiyyətə və 1993-cü ilin may ayında Azərbaycandan çıxarılmış rus qoşularını geriyə qaytarmaq idi. Lakin AXC hakimiyyətinin Naxçıvandan Ali Məclisin sədri H. Əliyevi Bakıya dəvət etməklə onların planını pozdu. Bununla da Azərbaycan Respublikasının müstəqilliyini qoruyub saxlamaq mümkün oldu.

NƏTİCƏ

Aparılmış tədqiqat göstərir ki, 1988–1993-cü illər Sumqayıt şəhərinin tarixində mürəkkəb və ziddiyyətli ictimai-siyasi proseslərlə səciyyələnən mühüm mərhələ olmuşdur. SSRİ-nin süqutu, Ermənistanın Azərbaycana qarşı təcavüzü, Dağlıq Qarabağ münaqişəsinin genişlənməsi və ölkədə baş verən siyasi dəyişikliklər şəhərin ictimai həyatına bilavasitə təsir göstərmişdir.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, 1988-ci ilin fevralında baş vermiş Sumqayıt hadisələri şəhərin daxili ictimai münasibətlərindən daha çox xarici və daxili siyasi maraqların təsiri altında formalaşmış təxribat xarakterli hadisə olmuşdur. Mövcud mənbələr və dövrün mətbuat materialları şəhərdə hadisələrdən əvvəl millətlərarası münasibətlərin ümumilikdə sabit olduğunu göstərir. Bununla yanaşı, Sumqayıt əhalisi Azərbaycanın milli azadlıq hərəkatında və dövlət müstəqilliyinin qorunması uğrunda mübarizədə fəal iştirak etmişdir.

1992–1993-cü illərdə ölkədə baş verən hakimiyyət dəyişiklikləri şəhərin idarəetmə sisteminə də təsir göstərmiş, kadr siyasətində yol verilən nöqsanlar və siyasi qarşıdurmalar yerli idarəetmədə müəyyən problemlər yaratmışdır. Buna baxmayaraq, şəhər mətbuatı və ictimai təşkilatlar demokratik proseslərin inkişafında, ictimai nəzarətin təmin edilməsində və milli şüurun formalaşmasında mühüm rol oynamışdır.

Beləliklə, Sumqayıt şəhərinin 1988–1993-cü illər ictimai-siyasi tarixi Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizəsinin, milli özünüdərkin güclənməsinin və post-sovet transformasiya proseslərinin ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilməlidir. Bu dövrün obyektiv şəkildə araşdırılması Azərbaycanın müasir tarixinin daha dolğun öyrənilməsi baxımından mühüm elmi əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi. (n.d.). Azərbaycan Respublikasının qanunvericilik sistemi. https://e-qanun.az/framework/7762
2. Haray qəzeti. (n.d.). Sumqayıt.
3. Kommunist qəzeti. (n.d.). Bakı.
4. Sosialist Sumqayıtı qəzeti. (n.d.).
5. Sumqayıt qəzeti. (n.d.).
6. Zulfugarlı, M. P. (2013). Sumgait disturbances in historiography of Azerbaijan (27–29 February 1988). Kültür Evreni: Uluslararası Hakemli Sosyal Bilimler Dergisi, 18, 47–52.
7. Zülfüqarlı, M. P. (2006). Azərbaycanı kimlər idarə edib? (May 1918–Oktyabr 2003). Qanun Nəşriyyatı.
8. Zülfüqarlı, M. P. (2017). Tarixşünaslıq (1920–1991-ci illər) Azərbaycan tarixi: Dərslik. MEKAN SERVES NN.
9. Идеологические проблемы совершенствования социалистического образа жизни: Материалы научно-практической конференции (27–28 июня 1983 г.). (1986). Баку.
10. Известия АН Азербайджанской ССР. Серия истории, философии и права. (n.d.). Баку.

Məqalənin redaksiyaya daxilolma tarixi: 16.06.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 19.06.2026
Məqalənin çapa daxil olunma tarixi: 20.07.2026

UOT 338.48:330.34(479.24)
DOI: doi.org/10.61226/12.2.2023/20262.11
Məmmədrəhim NƏCƏFOV
Azərbaycan Dövlət İqtisad Universiteti
doktorant
Najafov.Mammadrahim.Tahir@unec.edu.az
https://orcid.org/0009-0000-5207-1992

AZƏRBAYCANDA NEFT ASILILIĞI VƏ İXRACIN ŞAXƏLƏNDİRİLMƏSİ PROBLEMLƏRİ

Xülasə: Bu məqalədə Azərbaycanda neft asılılığının iqtisadi inkişaf və ixrac strukturu üzərində yaratdığı təsirlər, həmçinin ixracın şaxələndirilməsi istiqamətində mövcud problemlər və perspektivlər təhlil edilir. Tədqiqatın əsas məqsədi ölkə iqtisadiyyatında neft sektorunun dominant mövqeyinin qeyri-neft sahələrinin inkişafına təsirini qiymətləndirmək və ixracın diversifikasiyası imkanlarını araşdırmaqdır. Məqalədə müqayisəli, analitik və təsviri metodlardan istifadə edilmiş, milli və beynəlxalq statistik mənbələrə əsaslanan iqtisadi göstəricilər təhlil olunmuşdur. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanın iqtisadi artımı uzun illər ərzində əsasən neft və qaz sektorunun hesabına formalaşmışdır. Bu vəziyyət ölkənin xarici ticarət strukturunda yüksək konsentrasiya yaratmış və iqtisadiyyatı qlobal enerji bazarındakı dəyişikliklərə qarşı həssas etmişdir. Eyni zamanda son illərdə qeyri-neft ixracının artırılması istiqamətində həyata keçirilən dövlət proqramları və institusional islahatlar müəyyən müsbət nəticələr vermişdir. Tədqiqat göstərir ki, ixracın şaxələndirilməsi üçün sənayenin modernləşdirilməsi, innovasiya imkanlarının genişləndirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi və beynəlxalq bazarlara inteqrasiyanın gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Məqalənin elmi yeniliyi neft asılılığının ixrac strukturuna təsirlərinin sistemli şəkildə qiymətləndirilməsi və Azərbaycan üçün praktik iqtisadi siyasət istiqamətlərinin müəyyən edilməsidir.

Açar sözlər: neft asılılığı; ixracın şaxələndirilməsi; qeyri-neft sektoru; iqtisadi inkişaf; Azərbaycan

Mammadrahim NAJAFOV

OIL DEPENDENCY AND EXPORT DIVERSIFICATION CHALLENGES IN AZERBAIJAN

Abstract: This article analyzes the impact of oil dependency on economic development and export structure in Azerbaijan, as well as the challenges and prospects of export diversification. The main objective of the study is to evaluate how the dominant position of the oil sector affects the development of non-oil industries and to examine opportunities for expanding diversified exports. The research is based on comparative, analytical, and descriptive methods, utilizing macroeconomic indicators and statistical data from both national and international sources. The findings indicate that Azerbaijan's economic growth has largely been

driven by the oil and gas sector for many years. This has created a highly concentrated export structure and increased the economy's vulnerability to fluctuations in global energy markets. At the same time, state programs and institutional reforms implemented in recent years to stimulate non-oil exports have produced certain positive outcomes. The study demonstrates that industrial modernization, technological innovation, support for small and medium-sized enterprises, and stronger integration into international markets are essential for successful export diversification. The scientific contribution of the article lies in its systematic evaluation of the effects of oil dependency on export patterns and in the formulation of practical policy recommendations for Azerbaijan's long-term economic sustainability.

Keywords: oil dependency; export diversification; non-oil sector; economic development; Azerbaijan

Маммадрагим НАДЖАФОВ

ПРОБЛЕМЫ НЕФТЯНОЙ ЗАВИСИМОСТИ И ДИВЕРСИФИКАЦИИ ЭКСПОРТА В АЗЕРБАЙДЖАНЕ

Резюме: В данной статье анализируется влияние нефтяной зависимости на экономическое развитие и структуру экспорта Азербайджана, а также рассматриваются проблемы и перспективы диверсификации экспорта. Основной целью исследования является оценка влияния доминирующего положения нефтяного сектора на развитие ненефтяных отраслей экономики и выявление возможностей расширения диверсифицированного экспорта. В работе использованы сравнительные, аналитические и описательные методы исследования, основанные на макроэкономических показателях и статистических данных национальных и международных источников. Результаты исследования показывают, что экономический рост Азербайджана на протяжении многих лет в значительной степени обеспечивался нефтегазовым сектором. Это привело к высокой концентрации экспортной структуры и сделало экономику чувствительной к колебаниям мировых энергетических рынков. Вместе с тем государственные программы и институциональные реформы, направленные на развитие ненефтяного экспорта, уже дали определенные положительные результаты. Исследование показывает, что для успешной диверсификации экспорта особое значение имеют модернизация промышленности, развитие инноваций, поддержка малого и среднего бизнеса и углубление интеграции в международные рынки. Научная новизна статьи заключается в системной оценке влияния нефтяной зависимости на экспортную структуру и разработке практических рекомендаций для обеспечения долгосрочной устойчивости экономики Азербайджана.

Ключевые слова: нефтяная зависимость; диверсификация экспорта; ненефтяной сектор; экономическое развитие; Азербайджан.

GİRİŞ

Müasir iqtisadi şəraitdə ixracın şaxələndirilməsi dayanıqlı və davamlı iqtisadi inkişafı təmin etməyə çalışan ölkələr üçün ən mühüm prioritetlərdən birinə çevrilmişdir. İqtisadiyyatı əsasən bir məhsul və ya bir sektor üzərində qurulan ölkələr adətən xarici şoklara, qlobal qiymət dəyişikliklərinə və makroiqtisadi qeyri-sabitliyə qarşı daha həssas olurlar. Bu səbəbdən bir çox inkişaf etməkdə olan və təbii resurslarla zəngin ölkələr ənənəvi ixrac məhsullarından asılılığı azaltmağa və milli iqtisadiyyatda qeyri-resurs sektorlarının rolunu genişləndirməyə çalışırlar [1, s.23-35].

Azərbaycan iqtisadiyyatı iqtisadi artım, ixrac gəlirləri və fiskal sabitlik baxımından neft və qaz sektorunun tarixən dominant rol oynadığı ölkələrdən biri hesab olunur. 2000-ci illərin əvvəllərindən etibarən neft qiymətlərinin artması və enerji resurslarının geniş miqyasda ixracı ölkəyə əhəmiyyətli maliyyə resursları qazandırmışdır. Bu gəlirlər infrastrukturun inkişafına, sosial rifah göstəricilərinin yaxşılaşdırılmasına və müxtəlif sahələr üzrə modernləşmə layihələrinin həyata keçirilməsinə mühüm töhfə vermişdir. Bununla belə, bu müsbət nəticələrə baxmayaraq, ixracın əsasən karbohidrogen məhsullarında cəmləşməsi iqtisadiyyat daxilində müəyyən struktur disbalanslarının yaranmasına səbəb olmuşdur [4, s.85].

Neft ixracından yüksək asılılıq Azərbaycan iqtisadiyyatının xarici iqtisadi şoklara, xüsusilə qlobal enerji qiymətlərində baş verən dəyişikliklərə qarşı həssaslığını artırmışdır. Neft qiymətlərinin aşağı düşdüyü dövrlərdə ölkə fiskal gəlirlər, valyuta məzənnəsinin sabitliyi və ümumi iqtisadi artım baxımından müəyyən təzyiqlərlə üzləşmişdir. Məhz, bu cür proseslər iqtisadi şaxələndirmənin sürətləndirilməsinin və qeyri-neft sektorunun gücləndirilməsinin vacibliyini bir daha sübut etmişdir.

Bu çağırışlara cavab olaraq Azərbaycan hökuməti qeyri-neft ixracının dəstəklənməsi və iqtisadiyyatın karbohidrogenlərdən asılılığının azaldılması məqsədilə bir sıra strateji proqramlar və islahatlar həyata keçirmişdir. Xüsusilə kənd təsərrüfatı, qida sənayesi, nəqliyyat və logistika, turizm və yüngül sənaye sahələrinə xüsusi diqqət ayrılmışdır. Bundan əlavə, sənaye parklarına, azad iqtisadi zonalara və beynəlxalq nəqliyyat dəhlizlərinə yönəldilmiş investisiyalar ixracyönümlü inkişafın təşviq edilməsində mühüm vasitələrdən biri hesab olunur [10, s.156].

Bununla belə, ixracın şaxələndirilməsi prosesi mürəkkəb olaraq qalır. Qeyri-neft sənayesi hələ də məhdud istehsal imkanları, texnoloji gerilik, institusional qeyri-səmərəlilik, zəif innovasiya sistemləri və beynəlxalq bazarlarda kifayət qədər rəqabət qabiliyyətinin olmaması kimi problemlərlə qarşılaşır. Kiçik və orta sahibkarlıq subyektləri də maliyyə resurslarına, ixrac məlumatlarına və qlobal təchizat zəncirlərinə çıxış baxımından müəyyən çətinliklərlə üzləşirlər.

Eyni zamanda qlobal iqtisadi transformasiyalar, dəyişən ticarət dinamikası, rəqəmsallaşma və geosiyasi dəyişikliklər Azərbaycanda ixracın gələcək inkişafı üçün həm risklər, həm də imkanlar yaradır. Ölkənin Avropa və Asiyanın kəsişməsində yerləşən strateji mövqeyi, həmçinin Orta Dəhliz kimi regional

nəqliyyat təşəbbüslərində iştirakı onun beynəlxalq ticarət şəbəkələrinə inteqrasiyasını daha da gücləndirə bilər [8, s.198].

Bu məqalənin məqsədi Azərbaycanda neft asılılığı ilə ixracın şaxələndirilməsi arasındakı əlaqəni araşdırmaq, qeyri-neft məhsullarının ixracının inkişafını məhdudlaşdıran struktur problemləri təhlil etmək və ixracın rəqabət qabiliyyətinin artırılması ilə davamlı iqtisadi artımın təmin edilməsi üçün mümkün istiqamətləri müəyyən etməkdir.

NEFT ASILILIĞI VƏ MAKROİQTİSADİ STRUKTUR

Azərbaycan iqtisadiyyatının strukturu uzun illər ərzində neft və qaz sənayesi tərəfindən formalaşdırılmışdır. Enerji ixracı ümumi ixrac gəlirlərinin əsas hissəsini təşkil edir və dövlət büdcəsi gəlirlərinin, eləcə də xarici valyuta daxilolmalarının başlıca mənbələrindən biri olaraq qalır. Nəticə etibarilə, ÜDM artımı, fiskal balans, valyuta məzənnəsinin sabitliyi və investisiya fəaliyyəti kimi makroiqtisadi göstəricilər beynəlxalq enerji bazarlarındakı dəyişikliklərlə sıx bağlıdır [4, s.87].

Azərbaycanda neft bumu dövründə müşahidə olunan sürətli iqtisadi artım milli gəlirin əhəmiyyətli dərəcədə yüksəlməsinə və ölkənin maliyyə mövqeyinin güclənməsinə səbəb olmuşdur. Neft gəlirləri infrastruktur, nəqliyyat, sosial layihələr və şəhərsalma istiqamətlərində genişmiqyaslı dövlət investisiyalarını zəmin yaratmışdır. Bununla belə, iqtisadi resursların hasilat sektorunda cəmlənməsi digər istehsal sahələrinin inkişafını məhdudlaşdırmışdır [11, s.45-59].

Resurs asılılığının əsas nəticələrindən biri əsasən "Hollandiya xəstəliyi" ilə əlaqəli struktur disbalansının yaranmasıdır. Belə şəraitdə milli valyutanın möhkəmlənməsi və kapitalın resurs sektorunda cəmlənməsi emal sənayesinin və kənd təsərrüfatı sahələrinin rəqabət qabiliyyətini zəiflədir. Azərbaycanda da bu hadisə ixracyönümlü qeyri-neft sənayesinin genişlənməsinə mane olmuşdur [6, s.241].

Digər mühüm məsələlərdən biri sektorlar üzrə əmək bölgüsü və məhsuldarlıqla bağlı fərqlərdir. Neft sektorunun ÜDM-in böyük hissəsini təşkil etməsinə baxmayaraq, bu sahədə çalışan işçi qüvvəsinin sayı nisbətən azdır. Əksinə, kənd təsərrüfatı və kiçik istehsal müəssisələri daha çox işçi qüvvəsi cəlb etsələr də, ixrac gəlirlərinə və məhsuldarlıq artımına daha az töhfə verirlər [7, s.756].

Karbohidrogen ixracından asılılıq iqtisadiyyatın xarici şoklara qarşı həssaslığını da artırır. Müxtəlif dövrlərdə qlobal neft qiymətlərinin azalması iqtisadi strukturun zəif tərəflərini üzə çıxarmış və fiskal dayanıqlılıqla yanaşı valyuta sabitliyi ilə bağlı problemlər yaratmışdır. Bu gedişat ixrac gəlirlərinin şaxələndirilməsinin və iqtisadi artımda qeyri-neft sektorunun rolunun gücləndirilməsinin vacibliyini nümayiş etdirmişdir.

İXRACIN ŞAXƏLƏNDİRİLMƏSİ VƏ QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFI

İxracın şaxələndirilməsi iqtisadi həssaslığın azaldılması və davamlı iqtisadi artımın təşviq edilməsi üçün ən mühüm mexanizmlərdən biri hesab edilir. Şaxələndirilmiş ixrac strukturları ölkələrə məhdud məhsul qrupundan asılılığı azaltmağa və qlobal bazarlardakı dəyişikliklərə qarşı dayanıqlılığı artırmağa imkan verir.

Azərbaycanda qeyri-neft ixracının inkişafı milli iqtisadi siyasətin strateji prioritet istiqamətlərindən birinə çevrilmişdir. Sahibkarlığın, kənd təsərrüfatının, sənaye istehsalının və logistika infrastrukturunun dəstəklənməsinə yönəlmiş dövlət proqramları qeyri-neft ixrac göstəricilərində tədrici irəliləyişlərə səbəb olmuşdur [9, s.214].

Kənd təsərrüfatı ixracın şaxələndirilməsi üçün yüksək potensiala malik aparıcı sahələrdən biri olaraq qalır. Meyvə, tərəvəz, fındıq, pambıq, çay və emal olunmuş ərzaq məhsulları qeyri-neft ixracının strukturunda getdikcə daha mühüm yer tutmağa başlamışdır. Əlverişli iqlim şəraiti və regional bazarlara coğrafi yaxınlıq kənd təsərrüfatı məhsullarının ixracı üçün əlavə imkanlar yaradır.

Sənayenin şaxələndirilməsinə də son illərdə xüsusi diqqət ayrılmışdır. Ölkənin müxtəlif bölgələrində yaradılmış sənaye parkları və iqtisadi zonalar istehsal fəaliyyətini təşviq etməyə, yerli və xarici investisiyaları cəlb etməyə yönəlmişdir. Xüsusilə kimya sənayesi, metallurgiya, tekstil, tikinti materialları və qida emalı sahələrinə diqqət artırılmışdır [10, s.156].

Bununla belə, Azərbaycanın ixrac səbətində yüksək əlavə dəyərə malik və texnoloji cəhətdən inkişaf etmiş məhsulların payı hələ də məhduddur. Qeyri-neft ixracının böyük hissəsi ilkin kənd təsərrüfatı məhsullarından və nisbətən aşağı əlavə dəyərə malik sənaye məhsullarından ibarət olaraq qalır. Bu isə sənayenin modernləşdirilməsi və innovasiya potensialının daha da gücləndirilməsinə ehtiyac olduğunu göstərir.

Digər problem daxili istehsalçıların beynəlxalq bazarlarda rəqabət qabiliyyəti ilə bağlıdır. Bir çox Azərbaycan şirkətləri keyfiyyət standartları, sertifikatlaşdırma prosedurları, texnoloji avadanlıqlar və logistika xərcləri ilə bağlı çətinliklərlə qarşılaşırlar. Nəticə etibarilə, qlobal dəyər zəncirlərinə inteqrasiya nisbətən zəif olaraq qalır [5, s.176].

Kiçik və orta sahibkarlıq subyektlərinin rolu ixracın şaxələndirilməsində xüsusi əhəmiyyət daşıyır. Uğurlu ixracyönümlü iqtisadiyyatlarda KOB-lar məşğulluğun yaradılmasına, innovasiyalara və sənaye çevikliyinə mühüm töhfə verirlər. Lakin, Azərbaycanda KOB-ların maliyyələşmə, institusional dəstək, ixracın təşviqi və xarici bazarlara çıxış sahələrində qarşılaşdığı problemlər hələ də davam edir [12, s.63-78].

QLOBAL TİCARƏT DİNAMİKASI VƏ AZƏRBAYCANIN İXRAC İMKANLARI

Qlobal iqtisadiyyatın dəyişən strukturu Azərbaycanın ixracın şaxələndirilməsi strategiyası üçün həm imkanlar, həm də problemlər yaradır. Regional inteqrasiyanın güclənməsi, rəqəmsal ticarət, texnoloji transformasiya və qlobal təchizat zəncirlərinin yenidən təşkil olunması beynəlxalq ticarətin strukturunda əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur [8, s.198].

Azərbaycan üçün ən mühüm hadisələrdən biri Asiya ilə Avropanı birləşdirən regional nəqliyyat dəhlizlərinin əhəmiyyətinin artmasıdır. Azərbaycanın Şərq ilə Qərb arasında strateji mövqedə yerləşməsi ölkəni Avrasiya ticarət şəbəkələri daxilində əsas tranzit və logistika mərkəzlərindən birinə çevirir.

Orta Dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu son illərdə daha böyük əhəmiyyət qazanmışdır. Bu marşrut Çini Mərkəzi Asiya, Xəzər regionu, Cənubi Qafqaz və Türkiyə vasitəsilə Avropa bazarları ilə əlaqələndirir. Azərbaycanın limanlara, dəmir yollarına, avtomobil yollarına və logistika infrastrukturuna yatırdığı investisiyalar onun bu nəqliyyat sistemi daxilində rolunu gücləndirir.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı–Tbilisi–Qars dəmir yolu ticarət əlaqələrinin genişləndirilməsini dəstəkləyən ən mühüm infrastruktur layihələri sırasındadır. Bu layihələr yalnız nəqliyyatın səmərəliliyini artırmır, həm də sənayenin inkişafı, ticarət xidmətləri və ixracın genişləndirilməsi üçün yeni imkanlar yaradır.

Eyni zamanda, geosiyasi gərginliklər və ənənəvi təchizat zəncirlərində baş verən pozuntular alternativ ticarət marşrutlarına marağı artırmışdır. Bu isə Azərbaycanın tranzit potensialını artırması və regional ticarət dövriyyəsində daha böyük pay əldə etməsi üçün əlverişli şərait yaradır [5, s.176].

Rəqəmsallaşma və texnoloji transformasiya da beynəlxalq ticarətin formasını dəyişdirir. İnkişaf etmiş rəqəmsal infrastruktur və innovasiya imkanlarına malik ölkələr qlobal bazarlarda daha yüksək rəqabət üstünlüyü əldə edə bilirlər. Azərbaycan üçün rəqəmsal imkanların genişləndirilməsi və texnologiyaya əsaslanan sənaye sahələrinin dəstəklənməsi uzunmüddətli perspektivdə ixracın şaxələndirilməsinə töhfə verə bilər.

Lakin qlobal ticarət şəbəkələrində iştirak yalnız infrastruktur investisiyaları ilə məhdudlaşmır. Bu proses eyni zamanda institusional islahatları, şəffaf tənzimləmə mexanizmləri, səmərəli gömrük prosedurları və rəqabətli biznes mühiti tələb edir. Bu şərtlər təmin edilmədiyi halda ölkə coğrafi və iqtisadi üstünlüklərindən tam istifadə etməkdə çətinliklərlə qarşılaşa bilər [4, s.87].

İNSTİTUSİONAL MƏHDUDİYYƏTLƏR VƏ STRUKTUR PROBLEMLƏRİ

İnstitusional keyfiyyət ixracyönümlü iqtisadi siyasətlərin uğurunun müəyyən edilməsində mühüm rol oynayır. Səmərəli institutlar investisiya mühitini yaxşılaşdırır, biznes etimadını gücləndirir və məhsuldarlığın artımını dəstəkləyir.

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması və inzibati prosedurların sadələşdirilməsi məqsədilə bir sıra islahatlar həyata keçirilmişdir. Bununla belə, institusional maneələr rəqabətqabiliyyətli ixrac sektorlarının inkişafına təsir göstərməkdə davam edir.

Əsas problemlərdən biri innovasiya və elmi-tədqiqat potensialının məhdud olması ilə bağlıdır. Universitetlər, elmi-tədqiqat müəssisələri və özəl sektor arasında əməkdaşlıq nisbətən zəif səviyyədə qalır. Nəticədə yerli şirkətlər qabaqcıl texnologiyaların tətbiqində və məhsuldarlığın artırılmasında müəyyən çətinliklərlə üzləşirlər [2, s.142].

Maliyyə resurslarına çıxış da xüsusilə kiçik və orta sahibkarlıq subyektləri və innovativ müəssisələr üçün mühüm problemlərdən biri olaraq qalır. Maliyyələşdirmə xərclərinin yüksək olması və uzunmüddətli kredit imkanlarının məhdudluğu ixracyönümlü istehsala yönələn investisiyaları məhdudlaşdırır.

Daha bir struktur problem regional iqtisadi fərqlərlə bağlıdır. İqtisadi fəaliyyət əsasən Bakı və ətraf regionlarda cəmləşmişdir, digər bölgələrdə isə infrastruktur çatışmazlıqları və sənaye inkişafının aşağı səviyyəsi müşahidə olunur. Buna görə də ölkə üzrə ixrac potensialının genişləndirilməsi üçün balanslı regional inkişaf mühüm əhəmiyyət daşıyır.

İnsan kapitalı və əmək bazarı bacarıqları da ixracın rəqabət qabiliyyətinə təsir edən mühüm amillərdəndir. Bilik əsaslı sənaye sahələrinin inkişafı ixtisaslı mütəxəssislərin, peşə təhsili sistemlərinin və əmək bazarının tələblərinə uyğun müasir təhsil proqramlarının mövcudluğunu tələb edir.

Bundan əlavə, bürokratik qeyri-səmərəlilik və inzibati maneələr investorlar və ixracatçılar üçün biznes mühitinin cəlbediciliyini azalda bilər. İxracın davamlı artımını dəstəkləmək üçün şəffaf tənzimləmə sistemləri və effektiv idarəetmə mexanizmlərinin mövcudluğu vacib hesab olunur [4, s.87].

NƏTİCƏ

Bu tədqiqat çərçivəsində aparılmış təhlillər göstərir ki, Azərbaycan iqtisadiyyatının strukturu hələ də neft və qaz sektorundan əhəmiyyətli dərəcədə asılıdır və bu sektor ixrac gəlirlərinə, makroiqtisadi sabitliyə və ümumi iqtisadi fəaliyyətə ciddi təsir göstərməkdə davam edir. Neft sektoru maliyyə resurslarının formalaşdırılmasında və iqtisadi modernləşmənin dəstəklənməsində mühüm rol oynasa da, karbohidrogen ixracından həddindən artıq asılılıq xarici iqtisadi şoklara həssaslığı artırmışdır.

Tədqiqat nəticələri göstərir ki, ixracın şaxələndirilməsi uzunmüddətli iqtisadi dayanıqlılığın təmin edilməsi və qlobal enerji bazarlarındakı dəyişikliklərə həssaslığın azaldılması üçün vacibdir. Son illərdə Azərbaycan institusional

islahatlar, infrastruktur investisiyaları və dövlətin dəstək proqramları vasitəsilə qeyri-neft ixracının inkişafında müəyyən irəliləyişlər əldə etmişdir.

Lakin sənaye istehsalının məhdudluğu, texnoloji innovasiyaların zəifliyi, yerli istehsalçıların rəqabət qabiliyyətinin aşağı səviyyədə olması, institusional problemlər və kiçik və orta sahibkarlıq subyektlərinin beynəlxalq bazarlarda üzləşdikləri çətinliklər ixracın şaxələndirilməsi siyasətinin effektivliyini məhdudlaşdırmağa davam edir.

Tədqiqat göstərir ki, ixracın uğurlu şaxələndirilməsi sənayenin modernləşdirilməsi, texnoloji inkişaf, innovasiyaların dəstəklənməsi və qlobal dəyər zəncirlərinə daha güclü inteqrasiyanı nəzərdə tutan uzunmüddətli inkişaf strategiyası tələb edir.

Ümumilikdə, resurslardan asılı iqtisadiyyatdan şaxələndirilmiş və ixracyönümlü iqtisadi modelə keçid Azərbaycan üçün ən mühüm strateji çağırışlardan biridir. Bu transformasiyanın uğurla həyata keçirilməsi ardıcıl iqtisadi islahatlar, effektiv dövlət siyasəti və dövlət–özəl sektor əməkdaşlığının həyata keçirilməsini tələb edir.

ƏDƏBİYYAT

1. Balassa B., 1985. *Exports, policy choices, and economic growth in developing countries*. Journal of Development Economics. – Vol.18, No.1. – pp.23–35.
2. Georgiev P., Plekhanov A., 2017. *Structural Reforms and Productivity Growth in Central Asia*. Asian Development Bank, Manila. – 142 p.
3. Grossman G., Helpman E., 1991. *Innovation and Growth in the Global Economy*. MIT Press, Cambridge. – 359 p.
4. International Monetary Fund, 2024. *Republic of Azerbaijan: Country Report*. Washington DC. – 87 p.
5. OECD, 2022. *Global Value Chains and International Trade*. Paris. – 176 p.
6. Rodrik D., 2018. *New Growth Strategies for Developing Economies*. Harvard University Press, Cambridge. – 241 p.
7. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024. *Azərbaycanın statistik məcmuəsi*. Bakı. – 756 s.
8. UNCTAD, 2023. *Trade and Development Report*. Geneva. – 198 p.
9. World Bank, 2023. *Azerbaijan Country Climate and Development Report*. Washington DC. – 214 p.
10. Asian Development Bank, 2022. *Transport and Trade Logistics in the South Caucasus*. Manila. – 156 p.
11. Əliyev F., 2022. *Azərbaycan iqtisadiyyatında diversifikasiya və qeyri-neft sektorunun inkişafı*. *Bakı İqtisadi Araşdırmalar Jurnalı*. – cild 7, №2. – s.45–59.
12. Hümbətov S., 2021. *Azərbaycanda ixrac rəqabətliliyi və sənaye siyasəti*. *İqtisadi Tədqiqatlar İcmalı*. – cild 5, №3. – s.63–78.

Məqalənin redaksiyaya daxilolma tarixi: 20.06.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 22.06.2026
Məqalənin çapa daxil olunma tarixi: 20.07.2026

UOT 903.27(479.24)
DOI: doi.org/10.61226/12.2.2023/20262.12
Orxan ƏLİYEV
tarix üzrə fəlsəfə doktoru,
AMEA Arxeologiya və Antropologiya İnstitutunda
"Arxeoloji abidələrin qeydiyyatı və pasportlaşdırılması"
şöbəsinin elmi işçisi;
orxanaliyev288@yahoo.com
https://orcid.org/0009-0009-0344-9894

AZƏRBAYCANIN ARXEOLOJİ VƏ MƏDƏNİ İRSİNDƏ GƏMİQAYA PETROQLİFLƏRİ

XülasəBu məqalədə Naxçıvan Muxtar Respublikası ərazisində, Kiçik Qafqazın ən yüksək zirvələrindən biri olan Qapıcıq dağının ətrafında yerləşən Gəmiqaya petroqlifləri kompleks şəkildə araşdırılmışdır. Tədqiqatın əsas obyekti tunc dövrünə aid qayaüstü təsvirlərin tarixçəsi, mənşəyi və regional mədəniyyətlərlə əlaqəsidir. İşin məqsədi petroqliflərin təsvir etdiyi çoxşaxəli motivləri, onların semantik və simvolik mənalarını, habelə qədim insanların dini-mifik inancları ilə funksional bağlılığını müəyyən etməkdir. Tədqiqat prosesində arxeoloji materialların müqayisəli təhlili, deskriptiv metod və sahə tədqiqatları zamanı əldə edilmiş vizual faktlar əsas götürülmüşdür. Məqalədə vurğulanır ki, Gəmiqaya petroqlifləri e.ə. IV–I minilliklərdə Azərbaycan ərazisində yaşamış qədim tayfaların mənəvi dünyasını, onların kosmoqonik görüşlərini və təsərrüfat həyatını əks etdirən mühüm mədəni irs nümunəsidir. Araşdırma zamanı aşkar edilmişdir ki, bu təsvirlər təkcə bədii ifadə vasitəsi deyil, həm də qədim türkdilli xalqların birgə fəaliyyətini göstərən "halay" tipli rəqs səhnələri, astral rəmzlər və totemizm izləri ilə zəngindir. Tədqiqatın nəticələri göstərir ki, Gəmiqaya abidəsi Qafqaz və Yaxın Şərqin digər qədim mədəniyyət mərkəzləri ilə sıx iqtisadi-mədəni əlaqədə olmuş və bu əlaqələr qaya rəsmlərinin üslub xüsusiyyətlərində özünü büruzə vermişdir. Məqalənin elmi əhəmiyyəti, Gəmiqaya petroqliflərinin Azərbaycanın qədim dövlətçilik və mədəniyyət tarixinin ayrılmaz hissəsi kimi əsaslandırılması, habelə onların beynəlxalq elmi dövriyyəyə daxil edilməsi baxımından yüksəkdir. Bu qayaüstü təsvirlərin daha dərindən öyrənilməsi həm də bölgənin tarixi turizm potensialının elmi fundamentini təşkil edir.

Açar sözlər: Qayaüstü təsvirlər, petroqliflər, Gəmiqaya, tunc dövrü, inanclar, qədim mədəniyyətlər, Naxçıvan arxeologiyası, mədəni irs.

Орхан АЛИЕВ

ПЕТРОГЛИФЫ ГЯМИГАЯ В АРХЕОЛОГИЧЕСКОМ И КУЛЬТУРНОМ НАСЛЕДИИ АЗЕРБАЙДЖАНА

Аннотация: В данной статье комплексно исследуются петроглифы Гямигая, расположенные в окрестностях горы Гапыджик — одной из самых высоких вершин Малого Кавказа на территории Нахчыванской Автономной Республики. Основным объектом исследования являются история изучения, происхождение и связь с региональными культурами наскальных изображений, относящихся к эпохе бронзы. Цель работы заключается в определении многогранных мотивов, изображенных в петроглифах, их семантических и символических значений, а также функциональной связи с религиозно-мифологическими верованиями древних людей. В процессе исследования за основу были взяты сравнительный анализ археологических материалов, дескриптивный метод и визуальные факты, полученные в ходе полевых исследований. В статье подчеркивается, что петроглифы Гямигая являются важными образцами культурного наследия, отражающими духовный мир, космогонические взгляды и хозяйственную жизнь древних племен, проживавших на территории Азербайджана в IV–I тысячелетиях до н.э. В ходе исследования было выявлено, что эти изображения являются не только средством художественного выражения, но и богаты сценами танцев типа «халай», указывающими на совместную деятельность древних тюркоязычных народов, а также астральными символами и следами тотемизма. Результаты исследования показывают, что памятник Гямигая находился в тесных экономико-культурных связях с другими древними культурными центрами Кавказа и Ближнего Востока, что проявилось в стилистических особенностях наскальных рисунков. Научная значимость статьи заключается в обосновании петроглифов Гямигая как неотъемлемой части истории древней государственности и культуры Азербайджана, а также в их включении в международный научный оборот. Глубокое изучение этих наскальных изображений также составляет научный фундамент исторического туристического потенциала региона.

Ключевые слова: наскальные изображения, петроглифы, Гямигая, бронзовый век, верования, древние культуры, археология Нахчывана, культурное наследие.

Orkhan ALIYEV

GEMIQAYA PETROGLYPHS IN AZERBAIJAN'S ARCHAEOLOGICAL AND CULTURAL HERITAGE

Summary: This article provides a comprehensive analysis of the Gamigaya petroglyphs, located around Mount Gapijik, one of the highest peaks of the Lesser Caucasus in the Nakhchivan Autonomous Republic. The primary focus of the research is the history, origin, and regional cultural connections of these rock carvings dating back to the Bronze Age. The study aims to identify the

multifaceted motifs depicted in the petroglyphs, interpret their semantic and symbolic meanings, and establish their functional relationship with the religious and mythical beliefs of ancient populations. The research methodology is based on a comparative analysis of archaeological materials, descriptive methods, and visual evidence obtained during field studies. The article emphasizes that the Gamigaya petroglyphs are significant cultural heritage elements reflecting the spiritual world, cosmological perspectives, and economic activities of the ancient tribes that inhabited Azerbaijan between the 4th and 1st millennia BCE. The study reveals that these depictions are not merely artistic expressions but are also rich in scenes of "halay" type collective dances—indicating social cohesion among ancient Turkic-speaking peoples—as well as astral symbols and traces of totemism. The findings suggest that the Gamigaya monument maintained close economic and cultural ties with other ancient civilization centers in the Caucasus and the Near East, which is reflected in the stylistic characteristics of the rock art. The scientific significance of the study lies in establishing the Gamigaya petroglyphs as an integral part of Azerbaijan's ancient statehood and cultural history, contributing to their inclusion in international academic discourse. Furthermore, the in-depth study of these carvings forms the scientific foundation for the historical tourism potential of the region.

Keywords: Rock art, petroglyphs, Gamigaya, Bronze Age, beliefs, ancient cultures, archaeology of Nakhchivan, cultural heritage.

GİRİŞ

Qədim insanlar dünya haqqında təsəvvürlərini genişləndirərək, təbiət hadisələrini və gündəlik həyat səhnələrini qaya üzərində təsvir etməklə öz inanclarını və dünyagörüşlərini ifadə etmişlər. Onlar kainatı hissi şüurla qavrayaraq, təbiətə, kosmosa və insan həyatına dair anlayışlarını simvolik təsvirlərlə əks etdirmişlər. Xüsusilə, qayaüstü rəsmlərin əsasən yüksək dağ massivlərində yerləşməsi diqqətçəkicidir. Mümkündür ki, qədim insanlar bu massivləri ilahi güclərlə əlaqələndirərək, onları tanrıya yaxınlaşma vasitəsi kimi qəbul etmişlər. Bu təsvirlər, qədim insanların ümumi şüurunun bir elementi olmaqla yanaşı, həm də onların özünüifadə və mənəvi irsinin mühüm hissəsini təşkil edir.

Azərbaycan ərazisində qədim insanların dünyagörüşünü əks etdirən bir neçə qayaüstü təsvirlər məkanı mövcuddur ki, onlardan biri də Naxçıvan Muxtar Respublikasında yerləşən Gəmiqaya petroqlifləridir (şək.1).

Naxçıvan tarixi baxımdan Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri olmuş və müxtəlif dövrlərdə bu bölgə geniş iqtisadi və mədəni əlaqələrə malik olmuşdur. Bu əlaqələrin izləri bölgədə aşkarlanmış yaşayış yerlərində, qəbir abidələrində, dini ayinlərdə və incəsənət nümunələrində öz əksini tapmışdır.

Gəmiqaya petroqlifləri, xüsusilə tunc dövrünə aid təsvirlər, qədim insan icmalarının dini inanc sistemləri, sosial həyatı və kosmoqonik təsəvvürləri

haqqında qiymətli məlumatlar təqdim edir. Bu məqalədə Gəmiqaya petroqliflərinin mənşəyi, onların semantik məzmunu və mədəni irs kontekstindəki rolu araşdırılır.

TƏDQİQAT METODOLOGİYASI VƏ TARİXİ-ARXEOLOJİ MƏNBƏLƏR

Gəmiqaya petroqliflərinin tədqiqi kompleks yanaşma tələb edən bir prosesdir. Bu araşdırmada əsasən müqayisəli-tarixi təhlil, tipoloji təsnifat və deskriptiv (təsviri) metodlardan istifadə edilmişdir. Tədqiqatın metodoloji əsasını Gəmiqaya petroqliflərinin həm Azərbaycanın digər qayaüstü abidələri (Qobustan, Kəlbəcər), həm də geniş Avrasiya arealı (Orta Asiya, Türkiyə, Skandinaviya) ilə tipoloji müqayisəsi təşkil edir.

Abidənin öyrənilməsi tarixinə nəzər saldıqda görmək olar ki, Gəmiqaya petroqliflərinin ilk sistemli tədqiqi akademik İshaq Cəfərzadə tərəfindən 1970-ci illərdə aparılmışdır [5]. O, bu qədim qayaüstü rəsmlərin türkdilli xalqların mədəni irsi ilə genetik bağlılığını irəli sürmüşdür. Sonrakı onilliklərdə Vəli Əliyev, Nəcəf Müseyibli, Qiyasəddin Qeybullayev və Fərhad Quliyev kimi alimlər abidənin xronologiyasını, semantikasını və regionun digər arxeoloji mədəniyyətləri (məsələn, Kür-Araz və Boyalı qablar mədəniyyəti) ilə əlaqəsini dərindən araşdırmışlar [3; 5; 8; 10].

Tədqiqatın mənbə bazasını 1970–1987-ci illərdə aparılan qazıntılar, 2001–2003-cü illərdəki sahə tədqiqatları zamanı qeydə alınmış 1500-ə yaxın təsvir və son dövrlərdə aşkar edilən yeni petroqliflər (ümumi sayı 7000-dən çox) təşkil edir [1]. Həmçinin, Naxçıvanın tunc dövrü nekropollarından və yaşayış yerlərindən (Sarıdərə və s.) tapılan keramika nümunələri üzərindəki bəzəklər məqalədə yardımçı mənbə kimi istifadə olunmuşdur.

GƏMİQAYA PETROQLİFLƏRİNİN XRONOLOGİYASI VƏ TİPOLOGİYASI

Gəmiqaya petroqlifləri Azərbaycanın Kiçik Qafqaz silsiləsində yerləşən ən yüksək zirvəsi — Qapıcıq dağının (3906 m) cənub və şərq yamaclarında, dəniz səviyyəsindən 3000-3500 metr yüksəklikdə geniş bir arealı əhatə edir. Abidənin yerləşdiyi yüksək dağlıq landşaft onun həm strateji, həm də sakral (müqəddəs) əhəmiyyətini artırmışdır. Yerli əhali tərəfindən bu əraziyə "Gəmiqaya" adının verilməsi, zirvənin morfoloji quruluşunun uzaqdan nəhəng bir gəmini xatırlatması və bəşəriyyətin xilası simvolu olan “Nuhun gəmisi” əfsanəsi ilə birbaşa bağlıdır. Arxeoloji kontekstdə isə bu ərazi qədim insanların minilliklər boyu istifadə etdiyi mövsümi yaşayış və ibadət mərkəzi olmuşdur [4; 15].

Xronoloji Çərçivə və Tarixi Mərhələlər: Gəmiqaya rəsmlərinin tarixləndirilməsi bölgənin arxeoloji mədəniyyətləri ilə sinxron şəkildə aparılır. Abidədəki ən qədim təsvirlər eramızdan əvvəl IV minilliyin sonu – III minilliyin əvvəllərinə, yəni Erkən Tunc dövrünə (Kür-Araz mədəniyyəti) aid edilir. Bu dövrdə Naxçıvanda oturaq-maldarlıq təsərrüfatının formalaşması və kiçikbuynuzlu heyvanların sayının artması, insanların alp çəmənliklərinə — yaylaqlara köç

etməsini zəruri etmişdir. Elmi araşdırmalar göstərir ki, bölgədə Neolit və Eneolit dövrlərinə aid yüksək dağ məskunlaşması izləri aşkar edilmədiyindən, petroqliflərin yaranma tarixi birbaşa Tunc dövrünün iqtisadi sıçrayışı ilə əlaqədardır [10, s.202-215]. Abidənin ən aktiv istifadə dövrü e.ə. III–II minillikləri əhatə edir, lakin bəzi rəsmlərin Orta Çağ dövrünə qədər davam etdiyi müşahidə olunur.

Texniki Tipologiya və İcra Üsulları: Gəmiqaya petroqlifləri özünəməxsus texniki icra üslubu ilə fərqlənir. Rəsmlər əsasən vulkanik mənşəli sərt qaya cinsləri — porfir-qranosiyenit, kvars-siyenit-diorit və qabro-diorit blokları üzərində həkk olunmuşdur. Qayaların səthi min illər ərzində atmosfer təsirləri nəticəsində tünd qəhvəyi və ya qara rəngli təbii oksidləşmə qatı (patina/çöl qaralması) ilə örtülmüşdür. Qədim sənətkarlar bu tünd səthi metal və ya bərk daş alətlərlə döymə (piketaj), cızma (qraffiti) və qazma üsulları ilə zədələyərək altdakı nisbətən açıq rəngli qatı üzə çıxarmış, beləliklə yüksək kontrastlı təsvirlər yaratmışlar.

Kəmiyyət və Morfoloji Quruluş: Hazırda Gəmiqaya kompleksində 1500-dən çox daş blok üzərində 7000-ə yaxın fərdi təsvir və kompozisiya qeydə alınmışdır. Bu təsvirlər ölçülərinə görə kiçik (5-10 sm) və orta (20-50 sm) ölçülərə bölünür. Tipoloji baxımdan rəsmlər kontur (yalnız kənarları cızılmış) və siluet (daxili tamamilə oyulmuş) üslubunda icra edilmişdir. Təsvirlərin bir hissəsi statik (hərəkətsiz), bir hissəsi isə dinamik (hərəkətdə olan heyvanlar, rəqs edən insanlar) xarakter daşıyır ki, bu da dövrün bədii təfəkküründə təkamülünü izləməyə imkan verir [11, s.81].

GƏMİQAYA ABİDƏSİNİN MƏDƏNİ-TARİXİ ƏHƏMİYYƏTİ

Gəmiqaya abidəsinin əhəmiyyəti, onun həm yerləşdiyi regionda, həm də digər bölgələrdə tapılan oxşar arxeoloji materiallarla müqayisəsində özünü daha qabarıq şəkildə büruzə verir. Abidənin təqdim etdiyi zəngin vizual irs, qədim dövr insanlarının estetik zövqü ilə yanaşı, onların mürəkkəb sosial iyerarxiyasını da izləməyə imkan yaradır. Bu kontekstdə Gəmiqaya petroqlifləri arasında rast gəlinən qadın fiqurları xüsusi elmi maraq doğurur. Eramızdan əvvəl I minilliyin sonu – eramızın əvvəllərinə aid edilən və Azərbaycanın müxtəlif bölgələrində küp qəbirləri mədəniyyəti daxilində aşkarlanan 5–20 sm hündürlüyündəki qırmızı gil fiqurlar bu təsvirlərlə ideoloji bir vəhdət təşkil edir. Həm qrafik təsvirlər, həm də kiçik plastika nümunələri şəklində təzahür edən bu qadın fiqurları Orta Şərqdən Mərkəzi Asiyaya qədər geniş bir coğrafiyada tanınan “Bərəkət İlahəsi” kultunun bir parçasıdır [4, s.67]. Antik dövr müəllifi Strabonun məlumatları da təsdiq edir ki, bu ilahənin şərəfinə məbədlər ucaldılır və xüsusi qurbanlar təqdim olunurdu. Gəmiqaya abidəsindəki qadın obrazları matriarxat (Ana xaqanlığı) dövrünün mənəvi qalıqlarını özündə yaşatmaqla, bolluq və nəslin davamlılığı simvolu kimi qəbul edilir [6, s. 11].

İnanc sistemlərinin bu cür ardıcıl təkamülü abidə ətrafında müşahidə olunan digər sakral elementlərlə — dağ kultu və onqon quş motivləri ilə daha da

zənginləşir. Qədim insanların yüksək zirvələri ilahi qüvvələrlə əlaqələndirməsi, Gəmiqaya təsvirlərində məhsuldarlıq və totemizmlə bağlı elementlərin sıx şəkildə işlənməsinə zəmin yaratmışdır. Bu mifik qat həm də real təsərrüfat həyatı ilə sıx bağlıdır; belə ki, Tunc dövründə Naxçıvanın dağətəyi və düzənlik zonalarında yaşayan maldarlıq tayfaları yay mövsümündə sürüləri ilə birlikdə zəngin otlaqlara malik olan Gəmiqaya yaylaqlarına köç edirdilər. Məhz bu mövsümi miqrasiya prosesləri zamanı yaradılan petroqliflər, bölgənin keramika nümunələri üzərindəki bəzəklərlə üslub yaxınlığı nümayiş etdirərək abidənin xronoloji çərçivəsini dəqiqləşdirmək üçün əsas meyara çevrilir. Gəmiqaya abidəsi və ətrafındakı təsvirlər qədim insanların mifik təfəkküründü, inanc sistemlərini və gündəlik həyat tərzini vahid bir kompozisiyada birləşdirərək, Azərbaycanın qədim tarixinin öyrənilməsi üçün əvəzsiz arxeoloji və etnoqrafik dəyər kəsb edir [12].

PETROQLİFLƏRİN YAYILMA AREALI VƏ REGİONAL PARALELLƏR

Azərbaycanda qayaüstü sənətin öyrənilməsi tarixi XX əsrin 30-cu illərində Qobustan petroqliflərinin kəşfi ilə başlasa da, sonrakı onilliklərdə aparılan tədqiqatlar bu irsin arealının daha geniş olduğunu sübut etmişdir. 1960–1970-ci illərdə Abşeron yarımadasında, Kəlbəcərdə və Naxçıvanda (Gəmiqaya), son illərdə isə Cənubi Azərbaycanın Qaradağ bölgəsində aşkar edilən yeni abidələr qədim insan icmalarının ortaq dünyagörüşünü və mənəvi dəyərlər sistemini əks etdirir [8; 14]. Azərbaycanın digər bölgələri ilə müqayisədə Gəmiqaya petroqlifləri özünəməxsus üslubu, xüsusilə yüksək dağlıq landşaftda yerləşməsi və mürəkkəb kompozisiya quruluşu ilə fərqlənərək qlobal miqyasda qayaüstü sənətin ən qiymətli nümunələri sırasına daxil olmuşdur.

Dünyanın 120-dən çox ölkəsində qeydə alınan və ümumi sayı 35 milyonu keçən petroqliflər bəşər mədəniyyətinin yazısız arxivini təşkil edir. Gəmiqaya abidəsinin bu qlobal sistemdəki mövqeyini müəyyən etmək üçün Avrasiyanın digər qədim mərkəzləri ilə tipoloji müqayisələr aparmaq zəruridir. Məsələn, Türkiyənin Guvaruk, Keyikli-təpə və Kemaliyə Dilli ərazilərindəki təsvirlər, eləcə də Qırğızıstanın Saymalıdaş və Ak Çunqur mağaralarındakı rəsmlər Gəmiqaya ilə oxşar mədəni-tarixi köklərə malikdir. Bu paralellər Bolqarıstanın Maqura, Özbəkistanın Xocikent və Dağıstanın qədim qayaüstü abidələrində də özünü göstərir. Kareliya və Oneqa gölü ətrafında, Ural dağlarındakı Kar mağarasında, eləcə də Zabaykalye və Aşağı Amur bölgələrində qeydə alınan təsvirlər qədim insanların təbiəti və kainatı qavrama üsullarının universallığını nümayiş etdirir [13, s. 25].

Xüsusilə Orta Asiyanın ən mühüm mərkəzlərindən hesab olunan Qazaxıstanın Manqistau vilayətindəki Kaskuduk komplekslərində və UNESCO-nun Dünya Mirası siyahısına daxil edilmiş Tamğalı abidəsində Gəmiqaya ilə birbaşa səsləşən motivlərə rast gəlinir. E.ə. IV minilliyə aid edilən ilan şəkilli təsvirlər və Orta Çağ dövrünə qədər uzanan atlı, bayraqdar döyüşçü fiqurları qayaüstü sənətin zaman daxilində necə təkamül etdiyini göstərir [7].

Skandinaviyadan Afrikaya, İtaliyadan Monqolustana qədər uzanan bu geniş coğrafi arealda Gəmiqaya petroqlifləri Azərbaycanın qədim mədəni əlaqələrini və Avrasiya sivilizasiyaları arasındakı körpü rolunu təsdiqləyən fundamental bir mənbədir.

NƏTİCƏ

Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Gəmiqaya petroqlifləri qədim insan icmalarının sosial strukturu, dini-mifik inancları və təsərrüfat fəaliyyəti haqqında məlumat verən unikal tarixi mənbədir. Abidədə qeydə alınan zoomorf, antropomorf və astral simvollar e.ə. IV–I minilliklərdə bu ərazidə məskunlaşmış tayfaların zəngin kosmoqonik təsəvvürlərə və dərin astronomik biliklərə malik olduğunu sübut edir. Xüsusilə Günəş, Ay və ulduz təsvirlərinin bolluğu qədim insanların göy cisimləri ilə bağlı inanclarının mərkəzi rol oynadığını göstərir.

Tədqiqatın elmi yeniliyi kimi, Gəmiqaya petroqliflərinin Avrasiya məkanındakı digər oxşar abidələrlə (Qobustan, Kəlbəcər, Saymalıdaş, Tamğalı və s.) müqayisəli təhlili onların yayılma arealını və mədəni paralellərini dəqiqləşdirməyə imkan vermişdir. Üslub və motiv baxımından Orta Asiya və Yaxın Şərq qayaüstü sənəti ilə aşkar olunan bənzərliklər, Azərbaycanın qədim sakinlərinin geniş coğrafi ərazidə mədəni-iqtisadi əlaqələr saxladığını təsdiqləyir.

Eyni zamanda, petroqliflərdəki "halay" tipli rəqs səhnələri və kollektiv ayin təsvirləri cəmiyyətin sosial bütövlüyünü və mənəvi həyatını əks etdirən mühüm etnoqrafik elementlərdir [12]. Beləliklə, Gəmiqaya abidəsi təkcə bədii incəsənət nümunəsi deyil, həm də qədim türkdilli xalqların və bütövlükdə bəşəriyyətin yazısız tarixi mənbəyi kimi yüksək elmi-mədəni əhəmiyyət kəsb edir. Bu tədqiqat, Gəmiqayanın beynəlxalq elmi dövriyyəyə daxil edilməsinə və bölgənin tarixi irsinin dünya miqyasında təbliğinə xidmət edir.

ƏDƏBİYYAT

1. Alıyev, N. Gəmiqaya qayaüstü rəsmləri (Azərbaycan, ingilis və rus dillərində) / N. Alıyev. – Naxçıvan: Əcəmi, – 2020. – 576 s.
2. Aşurbəyli, S.B. Şirvanşahlar dövləti / S.B. Aşurbəyli. – Bakı: Apostrof, – 2009. – 288 s.
3. Baxşəliyev, V. Qədim Ordubad / V. Baxşəliyev, A. Seyidov, Q. Qədirzadə [və b.]. – Naxçıvan: Əcəmi NPB, – 2014. – 312 s.
4. Baxşəliyev, V. Naxçıvanın tarixi abidələri / V. Baxşəliyev, F. Quliyeva. – Bakı: Nurlan, – 2017. – 212 s.
5. Cəfərzadə, İ.M. Qobustan: Qayaüstü təsvirlər. – Bakı: Elm, – 1973. – 347 s.
6. Əliyev, V. Gəmiqaya / V. Əliyev. – Bakı: Əbilov, Zeynalov və oğulları, – 2005. – 148 s.
7. Kutlu, M. Tamgalı'da Göktürk Dönemi ve Ortaçağ Petroglifleri // Stratejik ve Sosyal Araştırmalar Dergisi. – 2020. 4(3), – s. 503–527.

8. Qobustan Dövlət Tarixi-Bədii Qoruğu. [Электронный ресурс] / UNESCO Azərbaycan. – 2017. URL: https://unesco.preslib.az/az/page/UkYs26uE4T (Дата обращения: 10.04.2026).
9. Mahmudov, Y. Naxçıvan: tarixi və abidələri / Y. Mahmudov, K. Şükürov. – Bakı: Təhsil, – 2007. – 216 s.
10. Museibli, N.A. Petroglyphs of Gamigaya and their Analogies in the Cultures of the Ancient East // The Volga River Region Archaeology. – 2022. Vol. 3 (41), – p. 202-215.
11. Müseyibli, N. Gəmiqaya / N. Müseyibli. – Bakı: Çaşıoğlu, – 2004. – 131 s.
12. Nəbiyeva, F. Danışan daşların izi ilə // Mədəni həyat jurnalı. – 2013. № 7, – s. 95–97.
13. Дани, А.Х. История человечества: Доисторические времена и начала цивилизации / А.Х. Дани, Ж.Л. Лоренцо, Р.Б. Нуну [и др.]. – ЮНЕСКО, – 2003. – 642 с.
14. Мусейибли, Н. Параллели петроглифам Гямигая на керамике эпохи бронзы Азербайджана (вопросы хронологии) // Материалы международной научной конференции: Наскальное искусство в современном обществе. Том 2. – Кемерово: – 2011. – с. 81-86.
15. Фарзали, А. Ноев Ковчег и Гямигая-Гобустанский алфавит / А. Фарзали. – Баку: [б.и.], – 2014. – 376 с.



Şəkil 1. Gəmiqaya petroqliflərinin yerləşdiyi yüksək dağlıq landşaftın ümumi görünüşü.



Şəkil 2. Daş blok üzərində döymə üsulu ilə həkk olunmuş maral (sağda) və antropomorf (insanabənzər) fiqurların, habelə spiralvari həndəsi simvolun kompozisiyası.



Şəkil 3. Gəmiqaya üçün xarakterik olan "halay" tipli kollektiv rəqs səhnəsini və müxtəlif həndəsi-astral işarələri əks etdirən qayaüstü təsvirlər.



Şəkil 4. Qaya səthi üzərində tünd patina qatı fonunda aydın seçilən keçi (zoomorf) təsvirləri və mifik-dini inanclarla bağlı olan mürəkkəb simvolik nişan

Məqalənin redaksiyaya daxilolma tarixi: 21.06.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 23.06.2026
Məqalənin çapa daxil olunma tarixi: 20.07.2026

UOT 338.48:330.34(479.24)
DOI: doi.org/10.61226/12.2.2023/20262.13
Camal HACIYEV
Azərbaycan Turizm və Menecment Universiteti,
Menecment kafedrasının müdiri, i.ü.f.d.dos
jamal.hajiyev@atmu.edu.az
ORCID:0000-0002-6409-3010

Nabat BƏKİROVA
Azərbaycan Turizm və Menecment Universiteti,
Menecment kafedrasının doktorantı
bakirova.nabat@atmu.edu.az
ORCID:0009-0000-5862-819X

AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFININ ÖLKƏNİN MAKROİQTİSADİ SABİTLİYİNDƏ ROLU

Xülasə. Azərbaycanda turizmin inkişafı son illərdə ölkə iqtisadiyyatında mühüm rol oynamağa başlamışdır. Bu sahə həm qısa, həm də uzunmüddətli dövrdə iqtisadi artımı stimullaşdırmaqla yanaşı, ölkənin iqtisadi şaxələndirilməsinə də töhfə verir. Turizmin inkişafı, ilk növbədə, birbaşa iqtisadi faydalarla yanaşı, dolayısıyla da müxtəlif sahələrə müsbət təsir göstərir.

Xüsusilə xarici turistlərin sayı artdıqca, ölkəyə valyuta daxilolmalarını artır və bu, iqtisadi artımın sürətlənməsinə kömək edir. Dövlət büdcəsinə daxil olan vergi gəlirləri və turistlərin sərf etdiyi vəsaitlər iqtisadiyyata müsbət təsir göstərir.Turizm sektoru işsizlik səviyyəsinin azalmasına və məşğulluğun artırılmasına səbəb olur. Otelçilik, nəqliyyat, restoran və xidmət sahələrində yeni iş yerləri açılır ki, bu da əhalinin həyat şəraitinin yaxşılaşmasına və sosial stabilliyə gətirib çıxarır. Yeni otellərin, hava limanlarının, turizm mərkəzlərinin tikintisi, həmçinin digər əhəmiyyətli infrastrukturların inkişafı ölkə iqtisadiyyatına uzunmüddətli faydalar gətirir.

Bu sektor xarici investorları ölkəyə cəlb edir, bu da Azərbaycanın iqtisadi diversifikasiyasına və qeyri-neft sektorunun güclənməsinə yardım edir. Həmçinin, turistlər tərəfindən sərf olunan xarici valyutalar, Azərbaycanın valyuta ehtiyatlarını artırır.Turizm sektoru yalnız paytaxt Bakı ilə məhdudlaşmır. Bölgələrdə kənd turizmi və mədəni irsə əsaslanan fəaliyyətlər də iqtisadi artıma və regional inkişafın təşviqinə xidmət edir. Bu da yerli əhalinin gəlirlərini artırır və iqtisadi şaxələndirməyə kömək edir.Bu sahənin daha da inkişafı, Azərbaycanın iqtisadi artımının davamlılığını təmin edəcək və ölkənin beynəlxalq turizm bazarında mövqeyini gücləndirəcəkdir.

Məqalədə turizmin iqtisadiyyata təsiri, son 10 il ərzində ÜDM də turizmn xüsusi çəkisi ,yeni iş yerlərinin yaradılması,infrastrukturun inkişafı, işğaldan azad olunmuş ərazilərdə turizm ,xarici investisiyalar və valyuta axını,qeyri-neft sektorunun və regionların inkişafı məsələləri təhlil olunmuşdur.

Məqalədə müxtəlif tədqiqat metodlarından o cümlədən, statistik müqayisə,analiz,sintez, iqtisadi təhlil və s. metodlarından istifadə edilməsi nəzərdə tutulur.

Açar sözlər : *qeyri-neft sektoru, turizm sektoru, xarici investisiyalar, yeni iş yerləri, valyuta axını*

THE ROLE OF TOURISM DEVELOPMENT IN AZERBAIJAN IN THE COUNTRY'S MACROECONOMIC STABILITY

Summary. The development of tourism in Azerbaijan has begun to play an important role in the country's economy in recent years. This sector, in addition to stimulating economic growth in both the short and long term, also contributes to the country's economic diversification. The development of tourism, first of all, has a positive impact on various sectors, along with direct economic benefits.

In particular, as the number of foreign tourists increases, it increases foreign exchange inflows into the country, which helps accelerate economic growth. Tax revenues to the state budget and the funds spent by tourists have a positive impact on the economy. The tourism sector leads to a decrease in unemployment and an increase in employment. New jobs are created in the hotel, transport, restaurant and service sectors, which leads to an improvement in the living conditions of the population and social stability. The construction of new hotels, airports, tourism centers, as well as the development of other important infrastructures bring long-term benefits to the country's economy.

This sector attracts foreign investors to the country, which contributes to the economic diversification of Azerbaijan and the strengthening of the non-oil sector. Also, foreign currencies spent by tourists increase Azerbaijan's foreign exchange reserves. The tourism sector is not limited to the capital Baku. Rural tourism and cultural heritage-based activities in the regions also serve to promote economic growth and regional development. This also increases the income of the local population and contributes to economic diversification. Further development of this sector will ensure the sustainability of Azerbaijan's economic growth and strengthen the country's position in the international tourism market.

The article analyzes the impact of tourism on the economy, the share of tourism in GDP over the last 10 years, the creation of new jobs, the development of infrastructure, tourism in the liberated territories, foreign investments and currency flows, the development of the non-oil sector and regions.

The article involves the use of various research methods, including statistical comparison, analysis, synthesis, economic analysis, etc. methods.

Keywords: *non-oil sector, tourism sector, foreign investments, new jobs, currency flows*

РОЛЬ РАЗВИТИЯ ТУРИЗМА В ОБЕСПЕЧЕНИИ МАКРОЭКОНОМИЧЕСКОЙ СТАБИЛЬНОСТИ АЗЕРБАЙДЖАНА

Аннотация. В последние годы развитие туризма стало играть важную роль в экономике Азербайджана. Данная отрасль не только стимулирует экономический рост как в краткосрочной, так и в долгосрочной перспективе, но и способствует диверсификации национальной экономики. Развитие туризма оказывает как прямое экономическое воздействие, так и косвенно влияет на развитие различных отраслей хозяйства.

Рост числа иностранных туристов способствует увеличению притока иностранной валюты в страну, что положительно влияет на темпы

экономического роста. Налоговые поступления в государственный бюджет, а также расходы туристов оказывают благоприятное воздействие на экономику страны. Туристический сектор способствует снижению уровня безработицы и повышению занятости населения. Создаются новые рабочие места в гостиничном бизнесе, транспортной сфере, общественном питании и секторе услуг, что способствует повышению уровня жизни населения и укреплению социальной стабильности. Строительство новых гостиниц, аэропортов, туристических центров, а также развитие другой важной инфраструктуры обеспечивают долгосрочные экономические выгоды.
Данный сектор привлекает иностранных инвесторов, что способствует диверсификации экономики Азербайджана и укреплению ненефтяного сектора. Кроме того, иностранная валюта, расходуемая туристами, способствует увеличению валютных резервов страны.
Развитие туризма не ограничивается только столицей — городом Баку. В регионах активно развиваются сельский туризм и виды деятельности, основанные на культурно-историческом наследии, что способствует экономическому росту и стимулирует региональное развитие. Это, в свою очередь, повышает доходы местного населения и способствует дальнейшей диверсификации экономики. Дальнейшее развитие туристической отрасли обеспечит устойчивость экономического роста Азербайджана и укрепит позиции страны на международном туристическом рынке.
В статье проанализированы влияние туризма на экономику страны, удельный вес туризма в валовом внутреннем продукте за последние десять лет, создание новых рабочих мест, развитие инфраструктуры, туристический потенциал освобожденных территорий, приток иностранных инвестиций и валютных поступлений, а также развитие ненефтяного сектора и регионов.
В исследовании предполагается использование различных методов научного анализа, включая статистическое сравнение, анализ, синтез, экономический анализ и другие методы.
Ключевые слова: ненефтяной сектор, туристический сектор, иностранные инвестиции, создание новых рабочих мест, приток иностранной валюты.

GİRİŞ

Azərbaycan turizm baxımından zəngin potensiala malik ölkələrdən biridir. Ölkənin əlverişli coğrafi mövqeyi, müxtəlif iqlim xüsusiyyətləri, təbii landşaftları, tarixi-mədəni abidələri və milli-mənəvi dəyərləri turizm fəaliyyətinin genişlənməsi üçün mühüm imkanlar yaradır. Son illərdə dövlət tərəfindən həyata keçirilən tədbirlər nəticəsində turizm qeyri-neft sektorunun prioritet istiqamətlərindən birinə çevrilmişdir. Turizm sahəsinin inkişafı həm iqtisadi artımın dəstəklənməsi, həm də regionların sosial-iqtisadi inkişafı baxımından əhəmiyyət kəsb edir. Azərbaycanda turizm fəaliyyətinin hüquqi əsaslarının formalaşdırılması məqsədilə müstəqillik dövründən başlayaraq müxtəlif normativ-hüquqi sənədlər qəbul edilmişdir. Bu istiqamətdə əsas sənədlərdən biri 25 iyun 1999-cu ildə qəbul edilmiş "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunudur. [1."Turizm haqqında"

Qanun]. Lakin 2016-cı ildən başlayaraq ölkədə iqtisadi islahatlar yeni müstəvidə inkişaf etməyə başladı.2016-cı ilin aprel ayının 2-dən 5-dək Ermənistanla 4 günlük hərbi əməliyyatlar aparılmış və nəticədə Tərtər rayonu – Talış kəndi istiqamətində yüksəkliklər,Cəbrayıl rayonu – Lələtəpə yüksəkliyi,Füzuli rayonu istiqamətində bəzi strateji mövqelər azad edilmişdir. 2016-cı ildən etibarən ölkədə həyata keçirilən iqtisadi islahatlar çərçivəsində turizm sektorunun inkişafına xüsusi diqqət ayrılmışdır. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı əsasında iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən Strateji Yol Xəritələri təsdiqlənmiş, həmin sənədlər arasında turizm sənayesinin inkişafına dair ayrıca istiqamət də müəyyən edilmişdir [3. Strateji Yol Xəritəsi].

44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilər Azərbaycanın turizm potensialının genişlənməsində yeni imkanlar yaratmışdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mövcud olan təbii resurslar, tarixi-mədəni abidələr və rekreasiya imkanları gələcəkdə turizm fəaliyyətinin inkişafı üçün mühüm perspektiv hesab olunur.

2023-cü il sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror əməliyyatı cəmi 23 saat 43 dəqiqə davam etdi və ölkənin suverenliyi tam bərpa edildi.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 7 iyul 2021-ci il tarixli Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü təsdiqlənib. Yeni bölgüyə əsasən isə iqtisadi rayonların sayı 14-ə çatdırılıb.[2. İqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı]

İşğaldan azad olunan ərazilərin də turizm potensialı dəyərləndirilərək, 2021-ci il 27 dekabr tarixində Azərbaycan Respublikasının yeni "Turizm haqqında" Qanunu qəbul edilmişdir. Bu qanun müasir tələblərə uyğun olaraq turizm sahəsinin inkişafını dəstəkləmək məqsədini güdür.

ƏSAS HİSSƏ

Turizm sektorunun inkişafının sürətləndirilməsi məqsədilə dövlət tərəfindən müxtəlif normativ-hüquqi sənədlər qəbul edilmişdir. Bu istiqamətdə qəbul olunan əsas sənədlər sırasında "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 21 sentyabr 2018-ci il tarixli fərman xüsusi əhəmiyyət daşıyır və bu sənəd Agentliyin fəaliyyət mexanizmlərinin formalaşdırılmasına xidmət etmişdir. Bununla yanaşı, "Azərbaycan Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 27 dekabr 2016-cı il tarixli fərman turizm infrastrukturunun genişləndirilməsi və xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm tədbirləri özündə birləşdirir. Eyni zamanda, "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturunun təkmilləşdirilməsi haqqında" fərman idarəetmə sisteminin daha çevik təşkilinə yönəlmişdir. "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyində Turizm və Rekreasiya Zonalarının İdarə Edilməsi və İnkişafı Mərkəzinin yaradılması haqqında" fərman isə turizm və rekreasiya ərazilərinin idarə olunması üçün institusional mexanizmlərin formalaşdırılmasını nəzərdə tutur. [4,5. Azərbaycan Respublikası Prezidentinin fərmanları]

Bundan əlavə, Prezidentin 2024-cü il 2 avqust tarixli Fərmanı ilə təsdiq edilmiş "Turizm və rekreasiya zonalarının Nümunəvi Əsasnaməsi", bu zonaların yaradılması, idarə olunması, turizm mərkəzlərinin formalaşdırılması və sahibkarlıq fəaliyyətinin təşkili ilə bağlı hüquqi normaları müəyyən edir.

Respublikamızda həyata keçirilmiş tədbirlər nəticəsində ölkəyə gələn turistlərin sayında da artım olmuşdur.2019-cu ildə bu göstərici 2016-cı ildə hazırlanmış strateji yol xəritəsində qarşıya qoyulan 3 milyon nəfər turistin gəlməsi məqsədinə çatılmışdır. "COVID-19 pandemiyası qlobal turizm sektoruna ciddi mənfi təsir göstərmiş və bu təsir Azərbaycanda da müşahidə olunmuşdur. Xüsusilə 2020–2021-ci illərdə ölkəyə gələn turistlərin sayında azalma qeydə alınmış, pandemiyadan sonrakı mərhələdə isə turizm göstəricilərində tədricən bərpa prosesi başlamışdır..[7. B.Ə. Bilalov, Ç.G.Gülalıyev - Turizmin Əsasları]


Cədvəl 1.

	2010	2014	2015	2016	2017	2018	2019	2020	2021	2022	2023	2024
Qəbul edilmiş turistlərin sayı, nəfər	17641	10657	2009	8949	13455	12777	30950	2304	1848	9493	11232	11572
Qəbul edilmiş tur-günlərin sayı, adam-gün	111232	57931	8102	33054	65804	60645	99798	5197	5121	25845	37472	47497

Mənbə : [13.Dövlət Statistika Komitəsi] əsasında hazırlanmışdır.

Turizm sahəsində həyata keçirilən dövlət proqramları və inkişaf tədbirləri iqtisadi göstəricilərdə də öz əksini tapmışdır. Belə ki, turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda formalaşan əlavə dəyərin həcmi 2004-cü ildə 35 milyon manat səviyyəsində olduğu halda, 2024-cü ildə 2 milyard 684 milyon manata yüksəlmişdir. Bu göstərici sözügedən dövr ərzində sektor üzrə əhəmiyyətli artım dinamikasının müşahidə olunduğunu göstərir.

Qrafik 1.



Mənbə : [14. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi_] əsasında hazırlanmışdır.

Son 20 il ərzində turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsinə yönəldilən əsas kapital investisiyalarında davamlı artım müşahidə edilmişdir. Belə ki, həmin dövrdə investisiya qoyuluşlarının həcmi 51,7 dəfə yüksələrək 87,9 milyon manat təşkil etmişdir.

2004-2024-cü illərdə ölkədə mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 7,6 dəfə artaraq 727-yə çatıb, bu obyektlərin birdəfəlik tutumu isə 5,9 dəfə artıb.Bu illər ərzində Azərbaycanda turizm sektorunda məşğul olanların sayı 21 milyon 9 mindən 87 milyon 9 minə yüksəlib ki, bu da 4 dəfə artım deməkdir.

Qrafik 2.



Mənbə : [14. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi] əsasında hazırlanmışdır.

Aşağıdakı cədvəldə son 10 il ərzində turizmin Ümumi Daxili Məhsulda (ÜDM) payını və bu illər ərzində artım faizini görürük.

Cədvəl 2.

İllər	ÜDM	Turizmin payı (%)	Artım % -i
2014	58977,8	2,2	---
2015	54424,3	2,71	0,51
2016	59987,7	2,4	-0,31
2017	70135,1	2,3	-0,1
2018	79797,3	2,2	-0,1
2019	81681,1	2,4	0,2
2020	72432,2	1,2	-1,2
2021	92857,7	1,3	0,1
2022	133814,3	1,6	0,3
2023	123214,2	2,2	0,6
2024	126352,4	2,4	0,2

Mənbə : [15.Azərbaycan Respublikasının Mərkəzi Bankı - Ana səhifə] əsasında hazırlanmışdır.

Dünyanın inkişaf etmiş ölkələrində turizm sektorunun ÜDM -də payı 10-12% aralığında dəyişir.Fransada turizm sektorunun ÜDM-ə töhfəsi təxminən 8% təşkil edir.Pandemiyadan əvvəlki illərdə bu göstərici 9–10% arasında dəyişirdi. İspaniyada turizm sektoru ÜDM-in 12.3%-ni təşkil edir. Bu, pandemiyadan əvvəlki səviyyəyə yaxınlaşan bir göstəricidir .İtaliyada turizm sektoru 2024-cü ildə ÜDM-in təxminən 13%-ni təşkil edib.Azərbaycanda isə yuxarıdakı təhlillərdə göründüyü kimi 2,2-2,4% aralığında dəyişir. [16. https://ourworldindata.org/grapher/tourism-gdp-proportion-of-total-gdp]

Qarabağ Azərbaycanın bütün torpaqlarının mühüm hissəsini əhatə edir. Sənaye baxımından ölkənin ümumi sənayesinin 2,87%-i, kənd təsərrüfatının 3,2%-i Qarabağın payına düşür. Bölgəni vacib və əvəzolunmaz edən amillər, onun geosiyasi mövqeyi və əhəmiyyəti, tarixi, coğrafi, enerji ehtiyatları və yeraltı sərvətləri, multikulturalizmi, etnik və dil müxtəlifliyi Xəzər hövzəsi ilə Mərkəzi Asiyanın qovşağında yerləşən Azərbaycan yerləşdiyi yerə görə regionun ən mühüm ölkəsidir.

İşğaldan azad edilmiş ərazilərin ölkənin turizm sənayesinə inteqrasiyası yeni inkişaf istiqamətlərinin formalaşmasına səbəb olmuşdur. Qarabağ bölgəsinin zəngin təbii landşaftı, mineral ehtiyatları, tarixi abidələri və mədəni irsi həmin ərazilərin turizm baxımından cəlbediciliyini artırır. Hazırda bu ərazilərdə turizm infrastrukturunun qurulması, yeni marşrutların hazırlanması və beynəlxalq turizm potensialının genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilir.

Dövlət Turizm Agentliyi tərəfindən həyata keçirilən layihələr çərçivəsində Ağdərə rayonunun Suqovuşan qəsəbəsi, Xocavənd rayonunun Hadrut qəsəbəsi, Ağbulaq, Edilli, Tuğ, Azıx kəndləri, Zəngilan rayonunun Oxçuçay və Bəsitçay vadiləri, Şuşa şəhəri və Daşaltı kəndinin turizm potensialı qiymətləndirilmişdir.

Azad olunmuş ərazilərdə müasir hotellərin inşası davam edir. Məsələn, Xankəndidə "Bulud" oteli istifadəyə verilib, Ağdamda isə "Hilton Garden Inn" otelinin tikintisi həyata keçirilir. [8. F.İ.Qurbanov - "Azərbaycanda Turizmin inkişaf problemləri "]

Azərbaycan hökuməti xarici vətəndaşların işğaldan azad edilmiş ərazilərə turist kimi səfər etməsinə icazə verib. Bakı-Şuşa istiqamətinə qrup şəklində turist turlarında iştirak üçün xarici turistlər istənilən turizm şirkətinə müraciət edə bilərlər. Suqovuşan istiqamətinə isə qrup səfərlərini Dövlət Turizm Reyestrində qeydiyyatdan keçmiş turizm şirkətləri təşkil edəcəkdir.

Cədvəl 3. Turizm üçün xarakterik sahələr üzrə əsas göstəricilər

Mənbə : *[13.Dövlət Statistika Komitəsi] əsasında hazırlanmışdır.*

	2014	**2015**	**2016**	**2017**	**2018**	**2019**	**2020**	**2021**	**2022**	**2023**	**2024**
Turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərin həcmi, milyon manat	2404,2	2437,3	2746,1	3151,2	3405,5	3704,9	1386,7	1939,7	3878,8	5062,8	5973,8
Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi, faizlə	4,1	4,5	4,3	4,5	4,3	4,5	1,9	2,1	2,9	4,1	4,7
Turizm üçün xarakterik sahələr üzrə qoyulan investisiyaların həcmi, milyon manat	2204,0	1063,9	363,0	267,3	229,7	133,7	45,8	242,4	100,5	630,7	479,0

Hazırda turizm dünyada sürətlə inkişaf edən biznes sahələrindəndir. Dünya üzrə ümumi milli məhsulun 10 faizi, ixracatın 8 faizi beynəlxalq turizmin payına düşür, göstərilən xidmətlərin təqribən üçdə biri beynəlxalq turizm vasitəsilə həyata keçirilir. Dünyada əmək qabiliyyətli əhalinin 8,1 faizi turizm sektorunda və onunla bağlı iqtisadiyyat sahələrində məşğuldur. Azərbaycanda turizm sektorunda çoxsaylı tədbirlər görülsə də, dünyanın aparıcı ölkələrinin və eləcə də regionun turizm üçün əlverişli ölkələrinin səviyyəsinə çatmaq üçün görüləcək işlər çoxdur.

Nəticə və təkliflər

Dünya təcrübəsində olduğu kimi, Azərbaycanda da getdikcə iqtisadiyyatın əsas sahələrindən birinə çevrilən turizm bir çox xidmət sahələrini özünə cəlb edərək, bütövlükdə cəmiyyətin, demək olar ki, bütün təbəqələri üçün gəlir mənbəyi rolunu oynayır. Azərbaycanda turizmin inkişaf etdirilməsi ilə bağlı Gənclər, İdman və Turizm Nazirliyinin fəaliyyət planında məhz regionlarda yeni turizm infrastrukturunun qurulması, yerli və xarici sərmayəçilərin regionlara cəlb olunması və orada yeni turizm müəssisələrinin yaradılması ilə əhalinin məşğulluğunu təmin etmək öncül istiqamət təşkil edir.

Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün ilk növbədə sadalanan tədbirlərin həyata keçirilməsi planlaşdırılır:

- fəaliyyət göstərən turizm obyektlərinin müasir tələblərə uyğun qurulması;
- turizmin inkişafında kənd təsərrüfatı və kəndin inkişafına şərait yaratmaqla müasir dövrdə iqtisadiyyatın ərazi strukturunun təkmilləşməsinə nail olmaq ;
- beynəlxalq və daxili bazarda ölkənin rəqabət qabiliyyətini artıra bilən turizm infrastrukturu təkmilləşdirmək və turizm sənayesini inkişaf etdirmək;
- ölkə turizm-rekreasiya zonalarının hüquqi statusunu müəyyən etmək, ərazisində turizm zonalarının və turist marşrutlarının müəyyən olunmasını təmin etmək.

Azərbaycanda turizmin inkişafı üçün hələ görüləcək işlər çoxdur, bunun əsasında aşağıdakı təkliflər verilmişdir:

İnfrastrukturun inkişafı : Yollar, hava limanları, dəmiryolları və ictimai nəqliyyat sistemləri təkmilləşdirilməlidir.Regionlarda turizm mərkəzləri və marşrutlar yaradılmalı, kənd turizminə çıxış asanlaşdırılmalıdır.Rəqəmsal infrastruktur (məsələn, sürətli internet) bütün turizm zonalarında təmin olunmalıdır.

Mehmanxana və xidmət sektorunun inkişafı:Yerli və xarici investorlar üçün vergi güzəştləri və subsidiyalarla yeni otellərin tikintisi təşviq olunmalıdır.Turizm xidmətləri ilə məşğul olanlara peşə təlimləri və dil kursları təklif edilməlidir.Qiymət və xidmət keyfiyyəti beynəlxalq standartlara uyğunlaşdırılmalıdır.

Rəqəmsal və beynəlxalq marketinq:Azərbaycan müxtəlif platformalarda (Google, TripAdvisor, YouTube) hədəfli reklam kampaniyaları həyata keçirməlidir.Xarici ölkələrdə turizm sərgilərində aktiv iştirak artırılmalı, milli brend təqdim olunmalıdır.Sosial media vasitəsilə ölkənin təbiəti, mətbəxi və mədəniyyəti tanıdılmalıdır.

Mövsümi turizmin təşviqi:Qış, yay, payız festivalları, dağ turizmi, spa və sağlamlıq turizmi, eko və aqro-turizm genişləndirilməlidir.Qarabağ və Şərqi Zəngəzurda tarixi və mədəni turizm marşrutları yaradılmalıdır.

ƏDƏBİYYAT

1.”Turizm” Haqqında 2021-ci il 27 dekabr tarixli Azərbaycan Respublikasının Qanunu.
2.https://president.az/az/articles/view/52389 - Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
3. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair, 2016-cı il 6 dekabr tarixli Strateji Yol Xəritəsi.
4. Azərbaycan Respublikası Prezidentinin ”Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 21 sentyabr 2018-ci il tarixli fərmanı.
5. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 27 dekabr 2016-cı il tarixli fərmanı.

6. Ə.Q.Əlirzayev "Turizmin iqtisadiyyatı və idarə edilməsi"- Bakı-2010. İqtisad Universiteti" Nəşriyyatı.
7. B.Ə. Bilalov, Ç.G.Gülalıyev - "Turizmin Əsasları " –Bakı-2015.
8. F.İ.Qurbanov - "Azərbaycanda Turizmin inkişaf problemləri " . Bakı -2007 Adiloğlu nəşriyyatı.
9.Soltanova H.B. və Hüseynova - "Turizmin Əsasları " Ş.H. Bakı -2007 Mütərcim nəşriyyatı.
10.Bilalov B.Ə .- Turizmin Menecmenti. Bakı-2005.Mütərcim nəşriyyatı.
11. Hacıyev Camal. Azərbaycanda turizmin mövcüd vəziyyəti və inkişaf istiqamətləri.Elmi-praktik konfrans materialları. Azərbaycan İnşaat və Memarlıq universiteti "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi problemləri" 19 Dekabr 2018- ci ilElmi Praktik Konfransı.5 səh (108-112). azmiu.edu.az
12. Hacıyev Camal. Azərbaycanda turizmin inkişafının institusional aspektləri. Beynəlxalq Elmi-praktik konfrans materialları.International Congress of Social Sciences and Humanities , Tashkent , Uzbekistan. May 22-23,2023.7 səh (54-60). www.scıenceuzbekıstan.org
13.Hesabatların elektron təqdimatı | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
14.Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi .
15. Azərbaycan Respublikasının Mərkəzi Bankı - Ana səhifə
16.https://ourworldindata.org/grapher/tourism-gdp-proportion-of-total-gdp

Məqalənin redaksiyaya daxilolma tarixi: 24.06.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 26.06.2026
Məqalənin çapa daxil olunma tarixi: 20.07.2026

UOT 338.4:330.322:330.341.1
DOI: doi.org/10.61226/12.2.2023/20262.14
Nadir ƏLƏKBƏROV
Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant
nadir.alekberoff@gmail.com
https://orcid.org/0009-0005-9077-5671

AZƏRBAYCANDA İKT-NİN İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN ARTIRILMASI YOLLARI

Xülasə. Məqalədə Azərbaycan Respublikasında informasiya-kommunikasiya texnologiyalarının (İKT) mövcud iqtisadi vəziyyəti ətraflı təhlil olunur və onun investisiya cəlbediciliyinin artırılması yolları araşdırılır. Müasir dövrdə İKT qeyri-neft iqtisadiyyatının şaxələndirilməsində, ölkənin ixrac potensialının yüksəldilməsində və rəqəmsal cəmiyyətə keçiddə mühüm strateji əhəmiyyət kəsb edir. Tədqiqatın əsas məqsədi Azərbaycanda İKT-yə birbaşa xarici və yerli investisiyaların cəlb edilməsi mexanizmlərini təkmilləşdirmək, bu istiqamətdə mövcud olan institusional və iqtisadi maneələri müəyyənləşdirməkdir. İşdə ölkədə fəaliyyət göstərən texnoparkların rolu, tətbiq edilən vergi və gömrük güzəştləri, habelə rəqəmsal transformasiya çərçivəsində dövlət tərəfindən həyata keçirilən stimullaşdırıcı tədbirlər qiymətləndirilir. Bununla yanaşı, yerli startap ekosistemində vençur maliyyələşməsi institutlarının zəif inkişafı, hüquqi tənzimləmə mexanizmlərindəki bəzi boşluqlar və yüksək ixtisaslı İT mütəxəssislərinin çatışmazlığı kimi aktual problemlər işıqlandırılır. Tədqiqatın nəticəsi olaraq, ölkədə İKT-nin investisiya potensialını maksimal dərəcədə yüksəltmək üçün konkret strateji həll yolları və praktiki təkliflər irəli sürülmüşdür. Bura intellektual mülkiyyət hüquqlarının qorunmasının beynəlxalq standartlara uyğunlaşdırılması, dövlət-özəl tərəfdaşlığı modellərinin geniş tətbiqi, vençur kapitalı bazarı üçün əlverişli qanunvericilik bazasının formalaşdırılması və innovativ insan kapitalının inkişaf etdirilməsi daxildir. Eyni zamanda, innovativ sahibkarlıq mühitinin liberallaşdırılması və xarici investorlar üçün inzibati-bürokratik prosedurların sadələşdirilməsi zərurəti elmi cəhətdən əsaslandırılır. Təklif olunan bu kompleks mexanizmlərin tətbiqi Azərbaycanda İKT-nin qlobal və regional rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artırmağa, eləcə də ölkədə dayanıqlı innovasiya ekosisteminin formalaşdırılmasına birbaşa şərait yaradacaqdır.

Açar sözlər: İKT, investisiya cəlbediciliyi, innovasiya ekosistemi, dövlət-özəl tərəfdaşlığı, rəqəmsal iqtisadiyyat.

Nadir ALAKBAROV

WAYS TO IMPROVE THE INVESTMENT ATTRACTIVENESS OF ICT IN AZERBAIJAN

Abstract. The article provides a detailed economic analysis of the current state of information and communication technologies (ICT) in the Republic of

Azerbaijan and explores ways to increase its investment attractiveness. In the modern era, ICT is of great strategic importance in diversifying the non-oil economy, boosting the country's export potential, and transitioning to a digital society. The main objective of the research is to improve the mechanisms for attracting foreign and local investments into ICT in Azerbaijan, as well as to identify existing institutional and economic barriers. The paper evaluates the role of technology parks, applied tax and customs privileges, and stimulating measures implemented by the government for digital transformation. Along with this, current problems such as the weak development of venture financing institutions in the local startup ecosystem, certain gaps in legal regulation, and the shortage of highly qualified IT specialists are highlighted. As a result, concrete strategic solutions and practical proposals are put forward to maximize the investment potential of ICT in the country. These include aligning intellectual property protection with international standards, wide application of public-private partnership models, creating a favorable legislative framework for the venture capital market, and developing innovative human capital. At the same time, the necessity of liberalizing the innovative entrepreneurial environment and simplifying bureaucratic procedures for foreign investors is scientifically justified. The application of these comprehensive mechanisms will significantly increase the competitiveness of ICT in Azerbaijan, creating direct conditions for a sustainable innovation ecosystem.

Keywords: ICT, investment attractiveness, innovation ecosystem, public-private partnership, digital economy.

Надир АЛЕКБЕРОВ

ПУТИ ПОВЫШЕНИЯ ИНВЕСТИЦИОННОЙ ПРИВЛЕКАТЕЛЬНОСТИ ИКТ В АЗЕРБАЙДЖАНЕ

Абстракт. В статье представлен подробный экономический анализ текущего состояния информационно-коммуникационных технологий (ИКТ) в Азербайджанской Республике и исследуются пути повышения их инвестиционной привлекательности. В современную эпоху ИКТ имеют важное стратегическое значение для диверсификации ненефтяной экономики, повышения экспортного потенциала страны и перехода к цифровому обществу. Основная цель исследования — совершенствование механизмов привлечения прямых иностранных и внутренних инвестиций в ИКТ Азербайджана, а также выявление существующих институциональных и экономических барьеров. В работе оценивается роль технопарков, применяемые налоговые и таможенные льготы, а также стимулирующие меры, реализуемые государством в области цифровой трансформации. Наряду с этим освещаются такие актуальные проблемы, как слабое развитие институтов венчурного финансирования в местной стартап-экосистеме, определенные пробелы в механизмах правового регулирования и нехватка высококвалифицированных ИТ-специалистов. В результате проведенного исследования выдвинуты конкретные стратегические решения и

практические предложения по максимизации инвестиционного потенциала ИКТ страны. К ним относятся приведение защиты прав интеллектуальной собственности в соответствие с международными стандартами, широкое применение моделей государственно-частного партнерства, формирование благоприятной законодательной базы для рынка венчурного капитала и развитие инновационного человеческого капитала. В то же время научно обоснована необходимость либерализации инновационной предпринимательской среды и упрощения административно-бюрократических процедур для иностранных инвесторов. Применение этих комплексных механизмов позволит существенно повысить конкурентоспособность ИКТ Азербайджана, создав прямые условия для формирования устойчивой инновационной экосистемы в стране.

Ключевые слова: ИКТ, инвестиционная привлекательность, инновационная экосистема, государственно-частное партнерство, цифровая экономика.

GİRİŞ

Müasir dünya iqtisadiyyatının inkişaf paradiqması köklü və struktur xarakterli transformasiyalara uğramaqdadır. Ənənəvi maddi resurslara və ekstensiv sənaye istehsalına əsaslanan iqtisadi modellər müasir dövrdə öz yerini rəqəmsal verilənlərə, innovasiyalara və bilik tutumlu fəaliyyət sahələri tərəfindən idarə olunan yeni iqtisadi sistemə – rəqəmsal iqtisadiyyata buraxır [7, p. 79]. Bu qlobal çevrilmələrin mərkəzində isə informasiya-kommunikasiya texnologiyaları (İKT) dayanır. İKT subsektorları yalnız müstəqil bir sahə kimi yüksək iqtisadi dəyər yaratmır, eyni zamanda iqtisadiyyatın digər funksional sahələrində məhsuldarlığı sürətləndirən, tranzaksiya xərclərini minimuma endirən mühüm katalizator rolunu oynayır [6, p. 115].

Uzun illər boyu Azərbaycan iqtisadiyyatının drayveri rolunu karbohidrogen resurslarının hasilatı və ixracı oynamışdır. Lakin qlobal enerji bazarlarındakı yüksək volatillik və rəqəmsal transformasiya meyilləri milli iqtisadiyyatın neft amilindən asılılığının sürətlə azaldılmasını və qeyri-neft sahələrinin şaxələndirilməsini zəruri edir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatın və müasir innovasiyalar məkanının formalaşdırılması strateji hədəf kimi təsbit edilmişdir [2, s. 48]. Bu kontekstdə ölkədə İKT-nin investisiya cəlbediciliyinin artırılması, yerli və xarici kapital qoyuluşlarının stimullaşdırılması dayanıqlı qeyri-neft iqtisadiyyatının formalaşdırılması üçün fundamental prioritetə çevrilmişdir.

Qloballaşan dünya iqtisadiyyatında informasiya və kommunikasiya texnologiyaları (İKT) sadəcə informasiya mübadiləsi vasitəsi deyil, həm də ölkələrin qlobal rəqabət qabiliyyətini müəyyən edən strateji aktivə çevrilmişdir. Rəqəmsal iqtisadiyyata keçid fonunda investisiya axınlarının strukturu kəskin şəkildə dəyişmiş, ənənəvi sənaye sahələrindən daha çox yüksək texnologiyalar və

innovasiya ekosistemlərinə yönəlməyə başlamışdır. Bu baxımdan, inkişaf etməkdə olan ölkələr üçün beynəlxalq kapital bazarlarına inteqrasiyanın əsas şərti məhz cəlbedici rəqəmsal infrastrukturun qurulmasıdır [6, p. 85].

Azərbaycan Respublikasının müasir iqtisadi inkişaf mərhələsi resurs yönümlü modeldən biliklərə və innovasiyalara əsaslanan iqtisadi modelə keçidlə xarakterizə olunur. Xüsusilə dördüncü sənaye inqilabının (Sənaye 4.0) tələblərinə uyğunlaşma, ölkədə qeyri-neft sektorunun şaxələndirilməsi və makroiqtisadi dayanıqlığın təmin edilməsi birbaşa olaraq İKT sektoruna cəlb edilən daxili və xarici investisiyaların həcmindən asılıdır [2, s. 49].

Tədqiqatın aktuallığı onunla əsaslandırılır ki, mövcud institusional islahatlara və vergi güzəştlərinə baxmayaraq, İKT sektorunda investisiya cəlbediciliyinin istənilən səviyyəyə çatdırılması üçün hələ də bir sıra maneələr mövcuddur. Tədqiqat işinin əsas məqsədi Azərbaycanda rəqəmsal ekosistemin investisiya potensialını qiymətləndirmək, mövcud institusional və iqtisadi problemləri aşkar etmək və beynəlxalq təcrübəyə əsaslanaraq bu sahədə cəlbediciliyin artırılması üçün elmi cəhətdən əsaslandırılmış mexanizmlər təklif etməkdən ibarətdir.

İnvestisiya mühitinin cəlbediciliyini müəyyən edən əsas indikatorlardan biri də ölkənin beynəlxalq reytinqlərdəki mövqeyidir. Qlobal İnnovasiya İndeksi (GII) və Rəqəmsal Rəqabətqabiliyyətlilik kimi beynəlxalq hesabatlarda ölkənin mövqeyinin yüksəlməsi birbaşa xarici investisiyalar üçün güclü siqnal rolunu oynayır. Bu reytinqlərdə irəliləmək isə yalnız kompleks yanaşma, yəni eyni vaxtda həm infrastrukturun, həm də institusional mühitin inkişafı ilə mümkündür [7, p. 88].

Həmçinin, ekoloji, sosial və korporativ idarəetmə (ESG) standartlarının qlobal investisiya qərarlarında artan rolu İKT sektorunu daha da ön plana çıxarır. Yaşıl iqtisadiyyata keçid dövründə xarici investorlar ənənəvi, karbon tutumlu sənayelər əvəzinə, ekoloji cəhətdən təmiz rəqəmsal texnologiyalara sərmayə yatırmağa daha çox meyl edirlər. Azərbaycanın alternativ enerji layihələri də məhz bu rəqəmsal həllərlə inteqrasiya edildikdə maksimum iqtisadi səmərə verir [2, s. 55].

Beləliklə, tədqiqat işi həm nəzəri, həm də praktiki əhəmiyyətə malikdir. Məqalənin nəzəri çərçivəsi rəqəmsal investisiyaların multiplikativ təsirlərini öyrənən müasir iqtisadi paradiqmalara, praktiki hissəsi isə Azərbaycanın mövcud reallıqlarına əsaslanır. Bu məqsədlə, inkişaf etmiş ölkələrin və beynəlxalq maliyyə institutlarının təcrübəsi təhlil edilmiş, milli iqtisadiyyatın xüsusiyyətlərinə uyğunlaşdırılmış strateji fəaliyyət planı işlənib hazırlanmışdır [4, s. 120].

Rəqəmsal iqtisadiyyatın ən qiymətli aktivi məhz yüksək ixtisaslı insan kapitalıdır. Xarici transmilli texnologiya şirkətlərinin ölkəyə birbaşa investisiya yatırması və öz tədqiqat-inkişaf (R&D) mərkəzlərini burada qurması üçün beynəlxalq standartlara cavab verən proqramçı və mühəndis bazasının mövcudluğu həlledici şərtdir. Bu baxımdan, təhsil sisteminin müasir sənayenin tələblərinə uyğunlaşdırılması və ölkədə innovativ düşüncə tərzinin

formalaşdırılması qlobal investisiya xəritəsində dövlətin rəqabət mövqeyini müəyyən edən ən mühüm qeyri- maddi faktorlardan biri kimi çıxış edir.

Həmçinin, İKT-nin investisiya cəlbediciliyini şərtləndirən digər mühüm amil yerli rəqəmsal xidmətlərinin ixrac potensialıdır. İnvestorlar üçün məhdud daxili bazardan daha çox, qlobal miqyasda rəqabətə davamlılıq nümayiş etdirə bilən və ixrac yönümlü texnoloji həllər (IT outsourcing, cloud (bulud) texnologiyaları və kibertəhlükəsizlik xidmətləri kimi) xüsusi maraq kəsb edir. Yerli startapların və innovativ şirkətlərin beynəlxalq bazarlara çıxışının asanlaşdırılması ölkəyə valyuta axınını təmin etməklə yanaşı, xarici kapitalın bu sahəyə inamını olduqca artırır [5, s. 22].

Bununla paralel olaraq, intellektual mülkiyyət hüquqlarının qorunması və məlumatların məxfiliyi qanunvericiliyinin beynəlxalq standartlara tam inteqrasiyası xarici sərmayenin cəlbi üçün fundamental təməl sütunlarındandır. Texnoloji yeniliklərin əsas bazar dəyəri fiziki avadanlıqlarda deyil, məhz intellektual mülkiyyətdə cəmləndiyi üçün, qlobal vençur fondları və xarici investorlar yalnız hüquqi təminatın ən yüksək səviyyədə olduğu, mülkiyyət və kommersiya sirri risklərinin minimuma endirildiyi yuridiksiyalara sərmayə yatırmağa üstünlük verirlər [7, p. 88]

Məhz bu reallıqlar fonunda, ölkənin qlobal texnoloji dəyər zəncirinə uğurla inteqrasiya etməsi üçün vahid və çoxşaxəli yanaşma tələb olunur. Təqdim olunan tədqiqat işinin növbəti bölmələrində ölkəmizdə İKT-nin mövcud makroiqtisadi vəziyyəti ətraflı təhlil ediləcək və yerli bazara xas olan struktur problemləri müəyyənləşdiriləcəkdir. Sonda isə informasiya texnologiyaları sahəsində tam investisiya cəlbediliyinə nail olmaq, intellektual əmək miqrasiyasının ("beyin axınının") qarşısını almaq və sektorun beynəlxalq rəqabət qabiliyyətini maksimallaşdırmaq məqsədilə elmi əsaslara söykənən konkret və praktik təkliflər irəli sürüləcəkdir.

İKT-nin mövcud investisiya potensialı və dövlət təşviqi. Azərbaycanda İKT-nin makroiqtisadi göstəricilərinin təhlili göstərir ki, post-pandemiya dövründə sahəyə yönəldilən əsaslı investisiyalar iqtisadiyyatın ümumi dinamikasına ciddi şəkildə təsir etmişdir. Rəsmi statistik məlumatlara əsasən, 2020–2025-ci illər ərzində İKT-yə qoyulan investisiyalar 185.5 milyon manatdan 685.5 milyon manata qədər yüksələrək təxminən 3.7 dəfəlik rekord artım nümayiş etdirmişdir [1]. Kəmiyyət təhlilləri və Pirson korelyasiya matrisinin nəticələri sübut edir ki, İKT-yə yönəldilən kapital qoyuluşları ilə ölkənin qeyri-neft Ümumi Daxili Məhsulu (ÜDM) arasında çox güclü müsbət asılılıq mövcuddur [1]. Bu yüksək göstərici rəqəmsal infrastruktura və texnologiyalara ayrılan vəsaitlərin digər ənənəvi sektorlarda (maliyyə, logistika, ticarət) zəncirvari məhsuldarlıq artımı yaratdığını və güclü multiplikator effektinə malik olduğunu təsdiqləyir [4, s. 91].

İnvestisiya cəlbediciliyinin artırılmasında dövlətin institusional tənzimləmə və təşviq siyasəti xüsusi rol oynayır. Son illərdə Texnoparklar və İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin rezidentlik institutu vasitəsilə tətbiq edilən genişmiqyaslı vergi və gömrük güzəştləri (mənfəət, gəlir, əmlak və dividend

vergilərindən 10 il müddətinə azad edilmə) həm yerli İT şirkətlərinin rəqabətqabiliyyətliliyini artırmış, həm də birbaşa xarici investisiyaların (FDI) ölkəyə cəlb olunması üçün əlverişli zəmin yaratmışdır. Bunun nəticəsidir ki, yerli rəqəmsal platformaların, autsorsinq proqramlaşdırma və bulud həlləri xidmətlərinin ixrac potensialı əhəmiyyətli dərəcədə genişlənmişdir. Elektron ticarət infrastrukturunun təkmilləşdirilməsi də daxili bazarın cəlbediciliyini və dövriyyə səmərəliliyini yüksəldən amillərdəndir [5, s. 12].

Dövlət təşviq mexanizmlərindən danışarkən, regionlarda aqrar sektorun rəqəmsallaşdırılmasına yönəldilən investisiyaların əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Kənd təsərrüfatı Azərbaycanın qeyri-neft məşğulluğunda mühüm paya malik olduğundan, aqrotexnologiya (AgriTech) elementlərinin tətbiqi həm məhsuldarlığı artırır, həm də bu sahəni İKT investorları üçün yeni və nəhəng bir bazara çevirir [3, s. 122].

Bununla bərabər, Azərbaycanın coğrafi mövqeyi də rəqəmsal investisiyalar üçün strateji üstünlük yaradır. "Rəqəmsal İpək Yolu" layihəsi çərçivəsində ölkə ərazisindən keçən magistral fiber-optik kabel xətlərinin çəkilməsi və regional məlumat mərkəzlərinin inşası beynəlxalq tranzit informasiya axınını idarə etmək üçün böyük iqtisadi potensial vəd edir [1].

Bu transmilli infrastruktur layihələri qlobal bulud provayderlərinin (Cloud providers) diqqətini cəlb etməklə yanaşı, həm də kibertəhlükəsizlik sahəsinə xarici kapital qoyuluşlarını stimullaşdırır. Data tranzitində təhlükəsizliyin təmin edilməsi B2B (Biznesdən-Biznesə) xidmətlər bazarının sürətli inkişafını şərtləndirir [4, s. 92].

Bundan əlavə, elektron ticarət və rəqəmsal logistika platformalarının dövriyyəsinin kəskin artması daxili bazarda anbar idarəetməsi və çatdırılma xidmətlərinin tam avtomatlaşdırılmasına xidmət edən İKT həllərinə tələbatı artırıb. Təkcə onlayn ticarət dövriyyəsindəki illik artım rəqəmləri startaplar üçün ən cazibədar investisiya mühitinin formalaşdığını sübut edir [5, s. 15].İnvestisiya mühitini məhdudlaşdıran amillər və infrastruktur problemləri

Bununla belə, Azərbaycanda İKT-nin investisiya potensialının tam reallaşdırılması yolunda bir sıra struktur və iqtisadi problemlər qalmaqdadır. Beynəlxalq təcrübə göstərir ki, keçid iqtisadiyyatına malik ölkələrdə İKT-nin inkişafı təkcə dövlət investisiyalarından deyil, risk əsaslı özəl kapital bazarlarından asılıdır [7, p. 84]. Hazırda ölkəmizdə vençur (venture) maliyyələşmə institutlarının, investisiya fondlarının və "mələk investorlar" (angel investors) şəbəkəsinin hüquqi və praktiki mexanizmlərinin zəif inkişafı erkən mərhələdə olan texnoloji startapların maliyyəyə çıxışını məhdudlaşdırır. Ənənəvi bank-kredit sisteminin yüksək girov tələbləri İKT-nin spesifik xüsusiyyətlərinə (maddi aktivlərin deyil, intellektual mülkiyyətin üstünlük təşkil etməsinə) uyğun gəlmir.

Digər bir problem, ölkə daxilində rəqəmsal infrastrukturun və rəqəmsal savadlılığın regionlar üzrə qeyri-bərabər paylanmasıdır (rəqəmsal fərqlilik). Dövlət tərəfindən genişzolaqlı internet infrastrukturunun qurulması istiqamətində mühüm addımlar atılsa da, regionlardakı kiçik və orta biznes subyektlərinin modern

texnologiyaları mənimsəmə qabiliyyəti (absorptive capacity) paytaxtla müqayisədə hələ də aşağı səviyyədədir [3, s. 119]. Bu isə İKT sahəsinə yatırılacaq regional investisiyaların səmərəliliyini azaldır. Qlobal texnoloji tədqiqatların gəldiyi qənaətə görə, rəqəmsal infrastrukturun genişləndirilməsi yalnız o halda yüksək dividend gətirir ki, o, keyfiyyətli insan kapitalı və əlverişli biznes mühiti ilə dəstəklənsin [8, p. 25].

Bütün bu müsbət tendensiyalara rəğmən, dövlət satınalmalarında yerli texnoloji şirkətlərin iştirak payının hələ də nisbətən aşağı olması ciddi problemlərdən biridir. İrihəcmli dövlət sifarişlərinin adətən xarici vendorlara yönəldilməsi daxili bazarda fəaliyyət göstərən yerli innovativ müəssisələrin inkişaf sürətini və onların xarici investorlar üçün cəlbediciliyini müəyyən qədər məhdudlaşdırır [6, p. 160].

Həmçinin, ölkədə blokçeyn (Blockchain) texnologiyaları və kripto-aktivlərin tənzimlənməsi sahəsində qanunvericilik bazasının tam formalaşmaması bu inqilabi sahəyə axa biləcək beynəlxalq investisiyaların qarşısını alır. Dünyanın qabaqcıl texnologiya fondları qanuni çərçivənin qeyri-müəyyən olduğu bazarlara girməkdən haqlı olaraq çəkinirlər [7, p. 86].

Digər tərəfdən, rəqəmsal savadlılıq və kibertəhlükəsizlik mədəniyyətinin cəmiyyətin bütün təbəqələrində bərabər inkişaf etməməsi kibercinayətkarlıq risklərini artırır. Elektron xidmətlərə və rəqəmsal bankçılığa inamın tam formalaşmaması bəzi hallarda yeni texnoloji məhsulların kütləvi istifadəsini tormozlayır ki, bu da rəqəmsal layihələrin gəlirlilik səviyyəsinə mənfi təsir göstərir [5, s. 19].

Bundan əlavə, elmi-tədqiqat institutları ilə sənaye müəssisələri arasındakı zəif əlaqə kommersiyalaşdırıla bilən patentlərin sayının az olmasına gətirib çıxarır. Universitetlərdə yaranan elmi yeniliklərin biznes mühitinə inteqrasiyasını təmin edən "spin-off" müəssisələrinin və texnoloji transfer ofislərinin kifayət qədər fəal olmaması fundamental innovasiya ekosisteminin yaranmasını ləngidir [2, s. 60].

İnvestisiya cəlbediciliyinin artırılması üzrə strateji mexanizmlər. Qeyd olunan problemlərin həlli və İKT-nin investisiya cəlbediciliyinin qlobal standartlar səviyyəsinə çatdırılması üçün aşağıdakı istiqamətlərdə kompleks tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

1. Hüquqi bazanın və Vençur kapitalı qanunvericiliyinin formalaşdırılması: Ölkədə yüksək riskli innovativ layihələrin maliyyələşdirilməsini tənzimləyən xüsusi "Vençur kapitalı haqqında" qanun qəbul edilməli, xarici və yerli investorların hüquqi müdafiəsi gücləndirilməlidir. İntellektual mülkiyyət hüquqlarının qorunması mexanizmləri beynəlxalq patent hüququna tam inteqrasiya olunmalıdır.

2. Dövlət-Özəl Tərəfdaşlığı (PPP) modellərinin genişləndirilməsi: İrihəcmli rəqəmsal infrastruktur layihələrində, "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarında dövlət-özəl tərəfdaşlığı modellərindən aktiv istifadə edilməlidir [3, s. 122]. Bu, dövlətin maliyyə yükünü azaltmaqla yanaşı, özəl investorlar üçün riskləri minimuma endirəcəkdir.

3. İnnovativ insan kapitalının inkişafı: İKT-də artım trendinin qorunması birbaşa olaraq yüksək ixtisaslı kadr potensialından asılıdır [4, s. 92]. Ali təhsil proqramları qlobal sənayenin müasir tələblərinə (Süni intellekt, Böyük verilənlər, Kibertəhlükəsizlik) uyğun rəqəmsal bacarıqlar əsasında yenidən qurulmalıdır. Güclü kadr bazasının olması xarici texnoloji nəhənglərin Azərbaycana investisiya yatırmasını stimullaşdıran əsas amildir.

4. Rəqəmsal ixracın subsidiyalaşdırılması və vergi təşviqlərinin optimallaşdırılması: Yerli texnoloji şirkətlərin və startapların qlobal bazarlara çıxışını asanlaşdırmaq üçün ixrac yönümlü İKT məhsullarına (proqram təminatı yaradılması, bulud xidmətləri, kibertəhlükəsizlik) xüsusi dövlət subsidiyaları ayrılmalıdır. Eyni zamanda, mövcud vergi və gömrük güzəştlərinin əhatə dairəsi genişləndirilməli, şirkətlərin xarici bazarlarda patentləşdirmə, beynəlxalq marketinq və sertifikatlaşdırma xərclərinin bir hissəsi dövlət tərəfindən qarşılanmalıdır [8, s. 22]. Bu cür institusional təşviqlər xarici investorlar üçün yerli şirkətlərin qlobal dəyərini (valuation) artırır və ölkəni beynəlxalq texnologiya zəncirində əlverişli tərəfdaşa çevirir.

5. Regional rəqəmsal infrastrukturun inkişafı və ekosistemin qeyri-mərkəzləşdirilməsi: İnvestisiya axınlarının yalnız paytaxt və ətraf bölgələrdə cəmləşməsinin qarşısını almaq üçün regionlarda İKT klasterlərinin və texnoloji inkubatorların yaradılması sürətləndirilməlidir. Regionlarda fəaliyyət göstərən kiçik və orta biznes subyektlərinin rəqəmsallaşmasını dəstəkləmək məqsədilə genişzolaqlı internet infrastrukturuna sərmayə qoyuluşları daha da artırılmalıdır [7, p. 104]. Bölgələrdə mərkəzi texnoparkların filiallarının açılması yerli potensialın tam reallaşdırılmasına və xüsusilə aqrotexnologiya (AgriTech) kimi spesifik, yüksək gəlirli sahələrə xarici kapitalın cəlb olunmasına birbaşa xidmət edəcəkdir.

6. "Tənzimləyici Qum Qutusu" (Regulatory Sandbox) rejiminin və alternativ maliyyələşmənin tətbiqi: Maliyyə texnologiyaları (FinTex), blokçeyn, süni intellekt və digər qabaqcıl innovativ həllərin ölkədə sərbəst sınaqdan keçirilməsi üçün xüsusi və təhlükəsiz hüquqi mühit formalaşdırılmalıdır. Bu rejim qlobal startaplara öz yeni rəqəmsal məhsullarını bürokratik əngəllər və böyük maliyyə riskləri olmadan real daxili bazar şəraitində test etməyə imkan verəcəkdir [4, s. 95]. Bununla yanaşı, kütləvi maliyyələşdirmə (crowdfunding) və biznes-mələk (business angel) platformalarının qanuni tənzimlənməsi təmin edilməli, beləliklə xırda investorların da texnoloji layihələrə asanlıqla cəlb edilməsi üçün şəffaf investisiya kanalları yaradılmalıdır.

NƏTİCƏ

Aparılmış tədqiqat və makroiqtisadi təhlillər göstərir ki, İKT Azərbaycanın qeyri-neft iqtisadiyyatının şaxələndirilməsi və resurs asılılığının aradan qaldırılmasında strateji drayver rolunu oynayır. Son illərdə əsaslı kapital qoyuluşlarının kəskin artması və tətbiq edilən institusional vergi təşviqləri sahənin dinamik inkişaf trayektoriyasını təmin etmişdir. Lakin mövcud artım templərinin uzunmüddətli dövrdə dayanıqlı saxlanılması və sahənin regional rəqəmsal mərkəzə

(hub) çevrilməsi investisiya mühitinin daha da liberallaşdırılmasından asılıdır. Risk kapitallı maliyyə institutlarının yaradılması, dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin təkmilləşdirilməsi və innovativ insan kapitalının davamlı inkişafı vasitəsilə investisiya cəlbediciliyinin artırılması Azərbaycanın qlobal texnoloji dəyər zəncirində mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirəcəkdir.

Yekun olaraq qeyd etmək lazımdır ki, Azərbaycanda İKT sektorunun inkişafı sadəcə texnoloji yenilənmə prosesi deyil, milli iqtisadi təhlükəsizliyin və post-neft dövründə dayanıqlı iqtisadi artımın fundamental təminatçısıdır. Tədqiqat çərçivəsində aparılan təhlillər bir daha sübut etdi ki, rəqəmsal iqtisadiyyata yönəldilən hər bir manat investisiya digər ənənəvi sektorlarda çoxqatlı multiplikator effekti yaradaraq ümumi makroiqtisadi səmərəliliyi yüksəldir [5, s. 94].

Tədqiqat zamanı əldə edilən nəticələr göstərir ki, İKT-nin makroiqtisadi göstəricilərinin dinamikası sadəcə qısamüddətli tənzimləmələrlə deyil, uzaqgörən və çoxşaxəli dövlət proqramları ilə birbaşa bağlıdır. Azərbaycanın post-neft iqtisadiyyatının sütunu hesab edilən rəqəmsal xidmətlər sektorunun xarici investorlar üçün tam şəffaf və proqnozlaşdırıla bilən olması makroiqtisadi sabitliyin ən mühüm qarantıdır [1]. Müşahidə edilən tendensiyalar onu da deməyə əsas verir ki, ölkənin gələcək iqtisadi artım tempi bilavasitə innovasiyaların cəmiyyətin bütün sahələrinə nə dərəcədə sürətlə nüfuz etməsindən asılı olacaqdır [8, p. 104].

Gələcək illərdə həyata keçiriləcək məqsədyönlü təşviq siyasəti, rəqəmsal insan kapitalına edilən davamlı yatırımlar və regionların tam rəqəmsallaşdırılması Azərbaycanı təkcə Cənubi Qafqazın deyil, eyni zamanda geniş regionun əsas innovasiya və texnologiya mərkəzlərindən (hub) birinə çevirmək potensialına malikdir [4, p. 240].

Azərbaycanda İKT sektoruna birbaşa xarici və vençur investisiyalarının cəlb edilməsini sürətləndirmək məqsədilə ilk növbədə "Vençur Maliyyələşməsi və İnvestisiya Fondları haqqında" xüsusi qanunvericilik bazası qəbul edilməlidir. Bu hüquqi çərçivə investorların pay hüquqlarını qorumalı, onlara risklərin idarəolunması və gəlir vergisindən azadolmalar kimi uzunmüddətli vergi tətilləri təqdim etməlidir. Eyni zamanda, vençur fondlarının qeydiyyatı prosesi sadələşdirilməli və intellektual mülkiyyət hüquqlarının qorunması mexanizmləri beynəlxalq standartlara tam uyğunlaşdırılmalıdır [6, p. 145].

Regional rəqəmsal uçurumu aradan qaldırmaq və bölgələrə investisiya cəlb etmək üçün Dövlət-Özəl Tərəfdaşlığı (PPP) mexanizmləri İKT sektorunda aktivləşdirilməlidir. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə icra olunan "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrinə xarici texnologiya şirkətlərinin konsessiya müqavilələri əsasında cəlb edilməsi, həm dövlətin büdcə yükünü azaldacaq, həm də ən son texnoloji həllərin ölkəmizə sürətli transferini təmin edəcəkdir [3, s. 126].

İnnovativ insan kapitalının inkişafı və "beyin axınının" qarşısının alınması məqsədilə xarici ölkələrdən yüksək ixtisaslı mühəndislərin ölkəyə gəlişini asanlaşdırmaq üçün xüsusi "Tech Viza" (Texnologiya Vizası) sistemi tətbiq

olunmalıdır. Buna paralel olaraq, ali təhsil müəssisələrində qlobal sənayenin tələblərinə uyğun proqramlar tətbiq edilməli və universitetlərdə texnoloji transfer ofislərinin fəaliyyətini stimullaşdırmaq üçün dövlət qrantları ayrılmalıdır [2, s. 60].

Yerli rəqəmsal xidmətlərin və proqram təminatı məhsullarının ixracının genişləndirilməsi üçün dövlət tərəfindən "Rəqəmsal İxracın Subsidiyalaşdırılması" proqramı yaradılmalıdır. Bu proqram çərçivəsində, xarici bazarlara çıxış edən yerli İKT şirkətlərinin beynəlxalq marketinq, sertifikatlaşdırma və patentləşdirmə xərclərinin müəyyən bir hissəsi dövlət büdcəsi hesabına qarşılanmalıdır ki, bu da şirkətlərin qlobal miqyasda rəqabətədavamlılığını artıracaqdır [8, s. 22].

Nəhayət, innovativ və riskli maliyyə-texnologiya layihələrinin sınaqdan keçirilməsi üçün ölkədə genişmiqyaslı "Tənzimləyici Qum Qutusu" (Regulatory Sandbox) rejiminin fəaliyyəti tam təmin olunmalıdır. Bundan əlavə, beynəlxalq ESG (Ekoloji, Sosial və Korporativ İdarəetmə) standartlarına uyğun "Yaşıl Data Mərkəzləri"nin tikintisi üçün əcnəbi sərmayədarlara xüsusi imtiyazların verilməsi Azərbaycanı qlobal yaşıl texnologiyalar xəritəsində ən cəlbedici ünvanlardan birinə çevirəcəkdir [7, p. 89].

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Milli hesablar və makroiqtisadi göstəricilər: [Elektron resurs] / AR DSK. – Bakı, 2026. – Mənbə: https://www.stat.gov.az/source/system_nat_accounts
2. Əliyev, R.Ş., Məmmədov, E.T. Qeyri-neft sektorunun inkişafında innovasiyaların və rəqəmsal iqtisadiyyatın rolu // – Bakı: Azərbaycan İqtisadiyyatı Jurnalı, – 2021. №4, – s. 45-62.
3. Hüseynov, T., Məmmədova, S., Rəhimov, F. "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının makroiqtisadi təhlili // – Bakı: Rəqəmsal İnkişaf və İqtisadiyyat, – 2022. №2, – s. 112-128.
4. Qasımov, V. İnformasiya texnologiyalarının iqtisadi artıma multiplikator təsiri // Beynəlxalq İqtisadiyyat və Menecment Konfransının materialları. – Bakı, – 2021, – s. 88-94.
5. Zeynalova, A. Azərbaycanda elektron ticarətin iqtisadi effektivliyinin qiymətləndirilməsi: / iqtisad üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2023. – 24 s.
6. Mammadov, F. Economic diversification in oil-exporting countries: The case of Azerbaijan: / iqtisad elmləri doktoru dis. / – Bakı, 2021. – 248 p.
7. Smith, J., Khan, A. ICT infrastructure and economic growth in transition economies // – Journal of Technology Economics, – 2019. №1, – p. 78-95.

World Bank. Digital dividends: Understanding the economic impact of broadband: [Elektron resurs] / World Bank Group. – Washington D.C., 2020. – Mənbə: https://www.worldbank.org/en/publication/digital-divi

Məqalənin redaksiyaya daxilolma tarixi: 26.06.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 28.06.2026
Məqalənin çapa daxil olunma tarixi: 20.07.2026

Nərgiz AXUNDOVA
DOI: doi.org/10.61226/12.2.2023/20262.15
AMEA, Arxeologiya və Antropologiya İnstitutu
t.ü.f.d.
nargisaxundova80@gmail.com
https://orcid.org/0009-0002-4941-7731

ORTA VƏ SON TUNC DÖVRÜ ABİDƏLƏRİ, QƏDİM YAŞAYIŞ YERLƏRİ, KURQANLAR, DAŞ QUTU VƏ TORPAQ QƏBİRLƏRİ (E.Ə. II MİNİLLİK)

Xülasə.Məqalədə Azərbaycanın orta və son tunc dövrünə aid arxeoloji abidələri, qədim yaşayış yerləri, kurqanlar, daş qutu və torpaq qəbirləri elmi-tarixi aspektdən araşdırılmışdır. Tədqiqat zamanı Naxçıvan, Qarabağ, Gəncə-Qazax, Mil-Muğan və digər bölgələrdə aşkar edilmiş arxeoloji tapıntılar təhlil olunmuşdur. Məqalədə II Kültəpə, Üzərliktəpə, Xocalı-Gədəbəy mədəniyyəti, Şahtaxtı nekropolu və digər abidələrin maddi-mədəniyyət nümunələri əsasında orta və son tunc dövründə əhalinin yaşayış tərzi, təsərrüfat fəaliyyəti, metallurgiya ənənələri və dini inancları araşdırılmışdır. Kurqanlar, daş qutu və torpaq qəbirləri vasitəsilə qədim tayfaların dəfn adətləri, sosial təbəqələşmə prosesi və axirət dünyası ilə bağlı təsəvvürləri müəyyən edilmişdir. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, e.ə. II minillikdə Azərbaycan ərazisində yüksək inkişaf etmiş maddi və mənəvi mədəniyyət formalaşmış, bölgə Yaxın Şərq və Cənubi Qafqazın mühüm mədəni mərkəzlərindən biri olmuşdur.

Açar sözlər: *Orta tunc dövrü, son tunc dövrü, arxeoloji abidələr, qədim yaşayış yerləri, kurqanlar, daş qutu qəbirləri*

MIDDLE AND LATE BRONZE AGE MONUMENTS, ANCIENT SETTLEMENTS, KURGANS, STONE CIST AND EARTHEN GRAVES (2ND MILLENNIUM BC)

Abstract. This article examines the archaeological monuments, ancient settlements, kurgans, stone cist graves, and earthen burials of the Middle and Late Bronze Age in Azerbaijan from a historical and archaeological perspective. The study analyzes archaeological discoveries unearthed in Nakhchivan, Karabakh, Ganja-Gazakh, Mil-Mughan, and other regions. Based on the material culture remains of the II Kultepe, Uzarliktepe, the Khojaly-Gadabay culture, the Shahtakhti necropolis, and other archaeological sites, the article investigates the lifestyle of the population, economic activities, metallurgical traditions, and religious beliefs during the Middle and Late Bronze Age. The study of kurgans, stone cist graves, and earthen burials has made it possible to identify the burial customs of ancient tribes, the process of social stratification, and their beliefs concerning the afterlife. The research concludes that during the second millennium BC, a highly developed material and spiritual culture was formed in the territory of Azerbaijan, making the region one of the major cultural centers of the Near East and the South Caucasus.

Keywords: *Middle Bronze Age, Late Bronze Age, archaeological monuments, ancient settlements, kurgans, stone cist graves.*

ПАМЯТНИКИ СРЕДНЕГО И ПОЗДНЕГО БРОНЗОВОГО ВЕКА, ДРЕВНИЕ ПОСЕЛЕНИЯ, КУРГАНЫ, КАМЕННЫЕ ЯЩИКИ-ПОГРЕБЕНИЯ И ГРУНТОВЫЕ ЗАХОРОНЕНИЯ (II ТЫСЯЧЕЛЕТИЕ ДО Н. Э.)

Резюме. В статье с научно-исторической точки зрения исследуются археологические памятники, древние поселения, курганы, каменные ящики-погребения и грунтовые захоронения среднего и позднего бронзового века на территории Азербайджана. В ходе исследования проанализированы археологические находки, обнаруженные в Нахчыване, Карабахе, Гянджа-Газахском регионе, Миль-Муганской зоне и других районах страны. На основе памятников материальной культуры II Кюльтепе, Узарликтепе, Ходжалинско-Гедабекской культуры, некрополя Шахтахты и других археологических объектов изучены образ жизни населения, хозяйственная деятельность, металлургические традиции и религиозные представления эпохи среднего и позднего бронзового века. Исследование курганов, каменных ящиков-погребений и грунтовых захоронений позволило определить погребальные обряды древних племен, процесс социальной дифференциации и их представления о загробном мире. По результатам исследования установлено, что во II тысячелетии до н. э. на территории Азербайджана сформировалась высокоразвитая материальная и духовная культура, а регион являлся одним из важнейших культурных центров Ближнего Востока и Южного Кавказа.

Ключевые слова: *средний бронзовый век, поздний бронзовый век, археологические памятники, древние поселения, курганы, каменные ящики-погребения.*

GİRİŞ

Azərbaycan ərazisi qədim dövrlərdən etibarən Yaxın Şərq və Cənubi Qafqazın mühüm mədəniyyət mərkəzlərindən biri olmuşdur. Əlverişli təbii-coğrafi şərait, münbit torpaqlar, zəngin su ehtiyatları və faydalı qazıntılar burada ibtidai insan icmalarının erkən məskunlaşmasına şərait yaratmışdır. Xüsusilə orta və son tunc dövrü (təxminən e.ə. III minilliyin sonu – e.ə. I minilliyin əvvəlləri) Azərbaycan tarixində ictimai-iqtisadi münasibətlərin inkişaf etdiyi, tayfa birliklərinin formalaşdığı və maddi mədəniyyətin yüksəliş mərhələsinə qədəm qoyduğu mühüm tarixi dövr hesab olunur.

Bu dövrdə metallurgiyanın inkişafı qədim cəmiyyətlərin həyatında əsaslı dəyişikliklər yaratmışdır. Mis və qalayın əridilməsi yolu ilə əldə olunan tuncdan silahlar, əmək alətləri və məişət əşyalarının hazırlanması təsərrüfatın inkişafına, hərbi münasibətlərin güclənməsinə və sənətkarlığın geniş yayılmasına səbəb olmuşdur. Arxeoloji tədqiqatlar nəticəsində Gədəbəy, Daşkəsən, Naxçıvan və

Qarabağ bölgələrində aşkarlanmış metal emalı nümunələri Azərbaycan ərazisinin qədim metallurgiya mərkəzlərindən biri olduğunu sübut edir.
Orta və son tunc dövründə əhalinin böyük hissəsi oturaq həyat tərzinə keçmiş, iri yaşayış məskənləri və müdafiə tikililəri meydana gəlmişdir. II Kültəpə, Üzərliktəpə, Şomutəpə, Tavatəpə və Xocalı kimi yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar nəticəsində yaşayış evləri, təsərrüfat quyuları, ocaq yerləri, taxıl anbarları və müxtəlif maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Bu tapıntılar qədim insanların əkinçilik, maldarlıq və sənətkarlıqla sistemli şəkildə məşğul olduqlarını göstərir.
Həmin dövrdə dəfn adətləri və dini inanclar da mühüm inkişaf mərhələsi keçmişdir. Kurqanlar, daş qutu və torpaq qəbirləri qədim tayfaların dünyagörüşünü, axirət həyatı ilə bağlı təsəvvürlərini və sosial münasibətlərini öyrənmək baxımından mühüm əhəmiyyət daşıyır. Xocalı-Gədəbəy mədəniyyətinə aid kurqanlardan tapılmış silahlar, qızıl və tunc bəzək əşyaları, həmçinin at skeletləri cəmiyyət daxilində sosial təbəqələşmənin və hərbi aristokratiyanın formalaşdığını göstərir
Məqalənin əsas məqsədi Azərbaycan ərazisində orta və son tunc dövrünə aid arxeoloji abidələri, qədim yaşayış yerlərini, kurqanları, daş qutu və torpaq qəbirlərini tarixi-arxeoloji baxımdan araşdırmaq, onların maddi-mədəni xüsusiyyətlərini təhlil etmək və qədim tayfaların ictimai həyatı haqqında elmi nəticələr ortaya qoymaqdır. Bu abidələrin öyrənilməsi Azərbaycanın qədim tarixinin, etnomədəni inkişaf mərhələlərinin və regionun ümumi arxeoloji proseslərinin tədqiqi baxımından xüsusi əhəmiyyətə malikdir.

ORTA VƏ SON TUNC DÖVRÜNÜN ÜMUMİ XÜSUSİYYƏTLƏRİ

Orta və son tunc dövrü Azərbaycan tarixində ictimai, iqtisadi və mədəni inkişafın sürətləndiyi mühüm mərhələlərdən biri hesab olunur. Bu dövr təxminən e.ə. III minilliyin sonlarından başlayaraq e.ə. I minilliyin əvvəllərinə qədər davam etmişdir. Orta tunc dövründə tayfa birliklərinin formalaşması, əkinçilik və maldarlığın inkişafı, həmçinin metallurgiyanın geniş yayılması qədim insanların həyatında mühüm dəyişikliklər yaratmışdır. Xüsusilə Kür-Araz mədəniyyətindən sonra meydana gələn yeni mədəni ənənələr yaşayış məskənlərinin quruluşunda və maddi mədəniyyət nümunələrində aydın şəkildə hiss olunurdu [1].

Bu dövrdə Azərbaycanda tunc metallurgiyası yüksək inkişaf səviyyəsinə çatmışdır. Mis və qalayın əridilməsi nəticəsində əldə edilən tuncdan silahlar, əmək alətləri və bəzək əşyaları hazırlanırdı. Arxeoloji qazıntılar zamanı tapılan nizə ucluqları, xəncərlər, baltalar və müxtəlif metal bəzəklər göstərir ki, metallurgiya yalnız təsərrüfat sahəsində deyil, hərbi və sosial münasibətlərdə də mühüm rol oynayırdı. Gədəbəy, Daşkəsən və Naxçıvan bölgələrində aşkarlanan metal emalı nümunələri həmin dövrdə dağ-mədən sənətinin inkişaf etdiyini sübut edir.

Naxçıvan ərazisində yerləşən II Kültəpə, Şahtaxtı və Qızılburun abidələrində aparılan qazıntılar zamanı saxsı qablar, tunc xəncərlər, nizə ucluqları və müxtəlif bəzək əşyaları tapılmışdır. II Kültəpədən əldə edilən qara cilalı keramika

nümunələri son tunc dövrü mədəniyyətinin inkişaf etdiyini göstərmişdir. Şahtaxtı nekropolunda isə daş qutu qəbirləri və həmin qəbirlərdən tunc bilərziklər, muncuqlar və əmək alətləri aşkar edilmişdir .

Orta tunc dövründən etibarən yaşayış yerlərinin sayı artmış, insanlar daha çox oturaq həyata keçməyə başlamışdılar. Çay vadilərində və münbit torpaqlarda salınan yaşayış məskənlərində daş və çiy kərpicdən tikilmiş evlər üstünlük təşkil edirdi. Arxeoloqlar tərəfindən Şomutəpə, Üzərliktəpə, Qaraköpəktəpə və digər yaşayış yerlərində aşkar edilən ocaq yerləri, taxıl anbarları və təsərrüfat quyuları qədim insanların gündəlik həyatını əks etdirən mühüm maddi sübutlardır. Bu tapıntılar göstərir ki, əhali artıq yalnız ovçuluqla deyil, əkinçilik və maldarlıqla da sistemli şəkildə məşğul olurdu.



Xaçmazda erkən tunc dövrünə aid maddi mədəniyyət nümunələri aşkarlanıb



Tunc dövrü qadın bəzəkləri

Qarabağ ərazisində xüsusilə Xocalı-Gədəbəy mədəniyyətinə aid zəngin arxeoloji tapıntılar əldə olunmuşdur. Xocalı kurqanlarından insan skeletləri ilə

birlikdə qızıl və tunc bəzək əşyaları, qılınclar, nizələr və saxsı qablar aşkar edilmişdir. Buradan tapılan at skeletləri qədim tayfaların atçılıqla məşğul olduğunu sübut edir. Ağdam və Xankəndi yaxınlığında yerləşən kurqanlarda da ox ucluqları və müxtəlif metal məmulatları tapılmışdır.

Gədəbəy, Daşkəsən və Tovuz rayonlarında yerləşən arxeoloji abidələrdən metallurgiya ilə bağlı mühüm nümunələr əldə olunmuşdur. Gədəbəy kurqanlarından tunc baltalar, xəncərlər və bəzək əşyaları tapılmışdır. Daşkəsən ərazisində qədim filiz emalı izləri və metal əridilən ocaqlar aşkar edilmişdir. Tovuz rayonundakı yaşayış yerlərində isə taxıl üyüdən daşlar, saxsı qab qalıqları və təsərrüfat alətləri müəyyən olunmuşdur [2].

Son tunc dövründə isə ictimai münasibətlər daha da mürəkkəbləşmiş, tayfalar arasında siyasi və iqtisadi əlaqələr güclənmişdir. Bu dövrdə iri tayfa ittifaqları yaranmış, müdafiə məqsədilə möhkəmləndirilmiş yaşayış məskənləri tikilmişdir. Xocalı-Gədəbəy mədəniyyəti son tunc dövrünün ən mühüm arxeoloji mədəniyyətlərindən biri hesab olunur. Həmin mədəniyyətə aid kurqanlardan tapılmış silahlar, qızıl və tunc bəzək əşyaları cəmiyyət daxilində sosial təbəqələşmənin mövcudluğunu göstərir. Bəzi qəbir abidələrinin zəngin inventarla müşayiət olunması tayfa başçılarının və nüfuzlu şəxslərin xüsusi mövqeyə malik olduğunu sübut edir.

Abşeron yarımadası və Şirvan ərazisində tapılmış kurqan və torpaq qəbirlərindən muncuqlar, gil qablar və tunc bıçaqlar əldə edilmişdir. Bəzi qəbirlərdə insan skeletləri bükülü vəziyyətdə aşkar olunmuşdur ki, bu da həmin dövrün dəfn adətlərini əks etdirir.

Son tunc dövründə dini inanclar və dəfn adətləri də inkişaf etmişdir. İnsanlar ölüləri müxtəlif formalı qəbirlərdə — kurqanlarda, daş qutu və torpaq qəbirlərində dəfn edir, onların yanına saxsı qablar, silahlar, bəzək əşyaları və məişət alətləri qoyurdular. Bu ənənə qədim insanların axirət dünyasına inamını əks etdirirdi. Eyni zamanda, bəzi kurqanlarda at skeletlərinin aşkar edilməsi atçılığın və döyüş mədəniyyətinin cəmiyyət həyatında mühüm yer tutduğunu göstərir.

QƏDİM YAŞAYIŞ YERLƏRİ

Azərbaycan ərazisində orta və son tunc dövrünə aid yaşayış yerləri e.ə. III minilliyin sonu – e.ə. I minilliyin əvvəllərini əhatə edən mühüm arxeoloji mərhələni təşkil edir. Bu dövrdə yaşayış məskənlərinin formalaşması əhalinin oturaq həyat tərzinə keçməsi, istehsal təsərrüfatının inkişafı və sosial münasibətlərin mürəkkəbləşməsi ilə xarakterizə olunur. Arxeoloji tədqiqatlar göstərir ki, xüsusilə e.ə. XVIII–XII əsrlərdə Azərbaycanda iri yaşayış məntəqələri meydana gəlmiş, metallurgiya, əkinçilik və maldarlıq yüksək inkişaf səviyyəsinə çatmışdır [3].

Naxçıvan ərazisində yerləşən II Kültəpə abidəsi orta və son tunc dövrünün ən mühüm yaşayış yerlərindən biri hesab olunur. Abidədə ilk arxeoloji qazıntılar XX əsrin 1960-cı illərində aparılmışdır. Tədqiqatlar zamanı çoxqatlı yaşayış təbəqələri, daş bünövrəli tikili qalıqları, təsərrüfat quyuları və ocaq yerləri aşkar

edilmişdir. Buradan tapılmış qara cilalı keramika nümunələri, tunc xəncərlər və sümük alətlər e.ə. II minillikdə bölgədə inkişaf etmiş sənətkarlıq ənənələrinin mövcud olduğunu göstərir. Radiokarbon analizlərinə əsasən II Kültəpənin son tunc dövrünə aid təbəqələri təxminən e.ə. XIV–XII əsrlərə aid edilir.



Naxçıvan ərazisində yerləşən I Kültəpə abidəsi

Mil-Qarabağ düzündə yerləşən Üzərliktəpə yaşayış yeri Azərbaycan arxeologiyasında son tunc dövrünün mühüm mərkəzlərindən biri hesab olunur. Burada 1950–1960-cı illərdə aparılmış qazıntılar zamanı çiy kərpicdən tikilmiş yaşayış evləri, taxıl anbarları və istehsal sahələri aşkarlanmışdır. Abidədən əldə edilən boyalı keramika nümunələri və əmək alətləri göstərir ki, burada yaşayan tayfalar inkişaf etmiş əkinçilik təsərrüfatına malik olmuşlar. Arxeoloqlar yaşayış yerinin əsas inkişaf mərhələsini e.ə. XV–XIII əsrlərə aid etmişlər.



Mil-Qarabağ düzündə yerləşən Üzərliktəpə

Qazax-Ağstafa bölgəsində yerləşən Tavatəpə və Sarıtəpə abidələri də orta və son tunc dövrü yaşayış yerlərinin öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu abidələrdə aparılan arxeoloji qazıntılar zamanı saxsı qab fraqmentləri, dən daşları, obsidian və çaxmaqdaşından hazırlanmış əmək alətləri aşkar edilmişdir. Tədqiqatçılar bu yaşayış yerlərinin e.ə. II minilliyin ortalarından etibarən intensiv məskunlaşdığını qeyd edirlər. Buradan tapılmış heyvan sümükləri bölgədə maldarlığın əsas təsərrüfat sahələrindən biri olduğunu sübut edir.

Qarabağ bölgəsində yerləşən Xocalı yaşayış kompleksi və ona aid nekropollar son tunc – erkən dəmir dövrü mədəniyyətinin əsas arxeoloji nümunələrindən hesab olunur. XIX əsrin sonlarından başlayaraq burada aparılmış tədqiqatlar zamanı yaşayış tikililəri, müdafiə divarları və zəngin qəbir inventarları aşkar edilmişdir. Buradan tapılmış tunc qılınclar, nizə ucluqları, qızıl bəzək əşyaları və at skeletləri cəmiyyət daxilində sosial təbəqələşmənin formalaşdığını göstərir. Xocalı-Gədəbəy mədəniyyətinin əsas mərhələsi e.ə. XIII–VII əsrlərə aid edilir.

KURQANLAR

Kurqanlar orta və son tunc dövründə (təxminən e.ə. XVIII–VIII əsrlər) Azərbaycan ərazisində geniş yayılmış dəfn abidələrinin əsas formalarından biri olmuşdur. Kurqan termini torpaq və ya daş yığını altında yerləşən qəbir tikililərini ifadə edir. Bu abidələr qədim tayfaların dini inanclarını, sosial strukturunu və hərbi-siyasi münasibətlərini öyrənmək baxımından mühüm arxeoloji mənbə hesab olunur. Azərbaycan ərazisində kurqanlar əsasən Gəncə-Qazax, Qarabağ, Mil-Muğan, Şəmkir, Tovuz və Naxçıvan bölgələrində aşkar edilmişdir [4].

Azərbaycanda kurqanların sistemli şəkildə öyrənilməsi XIX əsrin sonu və XX əsrin əvvəllərindən başlamışdır. İlk arxeoloji tədqiqatlar zamanı Qarabağ və Gədəbəy bölgəsində yüzlərlə kurqan qeydə alınmışdır. Xüsusilə XX əsrin 1930–1980-ci illərində aparılan qazıntılar nəticəsində kurqan mədəniyyətinin müxtəlif mərhələləri müəyyən edilmişdir. Tədqiqatlar göstərmişdir ki, kurqanların əksəriyyəti e.ə. II minilliyin ortaları və sonlarına aiddir.

Qarabağ bölgəsində yerləşən Xocalı kurqanları son tunc dövrünün ən zəngin arxeoloji komplekslərindən hesab olunur. Burada aparılan qazıntılar zamanı insan skeletləri ilə birlikdə tunc qılınclar, nizə ucluqları, ox başlıqları, qızıl və pasta muncuqlar, həmçinin saxsı qablar aşkar edilmişdir. Bəzi kurqanlarda at skeletlərinin tapılması qədim tayfaların atçılıq və döyüş ənənələrinə malik olduğunu göstərir. Xocalı-Gədəbəy mədəniyyətinə aid kurqanların əsas hissəsi e.ə. XIII–VII əsrlərə aid edilir.



Xocalı kurqanından aşkarlanmış I Adadnirarinin adı yazılan aqat muncuq, Manna dövrü

Gədəbəy rayonunda yerləşən kurqanlardan tapılmış metal əşyalar qədim metallurgiyanın yüksək inkişaf etdiyini sübut edir. Burada aşkar olunan tunc baltalar, xəncərlər və bəzək nümunələri bölgənin metallurgiya mərkəzlərindən biri olduğunu göstərir. Arxeoloqlar müəyyən etmişlər ki, bəzi kurqanların diametri 20–30 metrə, hündürlüyü isə 2–3 metrə çatmışdır. Bu cür iri kurqanlar əsasən tayfa başçıları və nüfuzlu şəxslər üçün inşa edilirdi [6].

Tovuz, Şəmkir və Qazax rayonlarında aşkar edilmiş kurqanlarda isə əsasən kollektiv dəfn nümunələri qeydə alınmışdır. Bu qəbirlərdən müxtəlif keramika nümunələri, obsidian alətlər, heyvan sümükləri və ritual əşyalar tapılmışdır. Tədqiqatçılar bu tapıntıları qədim insanların axirət dünyasına inamı və dini mərasimləri ilə əlaqələndirirlər. Kurqanların bəzi hissələrində oddan istifadə izlərinin aşkarlanması isə dəfn mərasimlərində od kultunun müəyyən rol oynadığını göstərir.



Göygöl rayonunda son tunc-erkən dəmir dövrünə aid kurqanlar

Naxçıvan ərazisində yerləşən kurqanlar digər bölgələrdən memarlıq xüsusiyyətlərinə görə fərqlənir. Burada daş örtüklü və kromlex tipli kurqanlara rast gəlinmişdir. Şahtaxtı və Qızılburun ərazilərində aparılmış qazıntılar zamanı tunc silahlar, muncuqlar və qara cilalı saxsı qablar aşkar olunmuşdur. Bu tapıntılar Naxçıvanın Yaxın Şərq və Cənubi Qafqaz mədəni əlaqələrində mühüm rol oynadığını göstərir.

Kurqanlardan əldə edilmiş maddi-mədəniyyət nümunələri göstərir ki, orta və son tunc dövründə Azərbaycan ərazisində sosial təbəqələşmə prosesi sürətlənmişdir. Zəngin qəbir inventarına malik kurqanlar tayfa aristokratiyasının formalaşdığını, silahların çoxluğu isə hərbi münasibətlərin gücləndiyini sübut edir. Beləliklə, kurqanlar yalnız dəfn abidəsi deyil, həm də qədim tayfaların ictimai, iqtisadi və dini həyatını əks etdirən mühüm tarixi mənbədir.

DAŞ QUTU QƏBİRLƏRİ

Daş qutu qəbirləri orta və son tunc dövründə, xüsusilə e.ə. II minilliyin ikinci yarısı və e.ə. I minilliyin əvvəllərində Azərbaycan ərazisində geniş yayılmış dəfn abidələrindən biri olmuşdur. Bu tip qəbirlər əsasən iri daş lövhələrdən qurularaq qutu formasında hazırlanırdı. Qəbir kameralarının yan hissələri şaquli şəkildə yerləşdirilmiş daş plitələrlə əhatə olunur, üst hissəsi isə iri yastı daşlarla örtülürdü. Daş qutu qəbirləri daha çox dağlıq və dağətəyi ərazilərdə yayılmış və qədim tayfaların dəfn adətlərini öyrənmək baxımından mühüm arxeoloji mənbəyə çevrilmişdir.

Azərbaycan ərazisində daş qutu qəbirləri əsasən Naxçıvan, Qarabağ, Kəlbəcər, Gədəbəy, Daşkəsən, Şəmkir və Lerik bölgələrində aşkar edilmişdir. Bu

abidələrin sistemli şəkildə tədqiqi XX əsrin ortalarından etibarən genişlənmişdir. Arxeoloqlar müəyyən etmişlər ki, daş qutu qəbirlərinin böyük hissəsi son tunc – erkən dəmir dövrünə, yəni təxminən e.ə. XIII–VIII əsrlərə aiddir [7].

Naxçıvan bölgəsində yerləşən Şahtaxtı və Qızılburun nekropollarında aparılan qazıntılar zamanı çoxsaylı daş qutu qəbirləri aşkar edilmişdir. Bu qəbirlərdən qara cilalı saxsı qablar, tunc bilərziklər, muncuqlar və silah nümunələri tapılmışdır. Qəbir inventarının zənginliyi həmin dövrdə sosial fərqlərin formalaşdığını göstərir. Şahtaxtı abidəsində bəzi qəbirlərdən tapılmış tunc xəncərlər və ox ucluqları bölgədə hərbi ənənələrin inkişaf etdiyini sübut edir.

Kəlbəcər və Laçın rayonlarının dağlıq ərazilərində yerləşən daş qutu qəbirləri memarlıq xüsusiyyətlərinə görə diqqəti cəlb edir. Bu qəbirlərin bir hissəsi kromlex tipli daş dairələrlə əhatə olunmuşdur. Arxeoloji qazıntılar zamanı burada insan skeletləri ilə yanaşı keramika nümunələri, heyvan sümükləri və ritual əşyalar aşkar edilmişdir. Tədqiqatçılar hesab edirlər ki, bu qəbirlər qədim insanların dini inancları və axirət dünyası haqqında təsəvvürləri ilə sıx bağlı olmuşdur.

Gədəbəy və Daşkəsən bölgələrində aşkar edilmiş daş qutu qəbirlərindən metallurgiya ilə bağlı çoxsaylı tapıntılar əldə edilmişdir. Buradan tunc baltalar, xəncərlər, bıçaqlar və müxtəlif metal bəzək əşyaları tapılmışdır. Bu tapıntılar göstərir ki, bölgədə metal emalı yüksək inkişaf etmiş və tayfalararası mübadilə əlaqələri mövcud olmuşdur. Arxeoloqlar həmin qəbirlərin əksəriyyətini e.ə. XII–IX əsrlərə aid etmişlər.

Daş qutu qəbirlərində dəfn olunan şəxslər əsasən bükülü vəziyyətdə yerləşdirilirdi. Ölülərin yanında məişət əşyaları, silahlar və ərzaq qablarının qoyulması qədim insanların ölümdən sonrakı həyata inamını göstərir. Bəzi qəbirlərdə oddan istifadə izlərinin aşkarlanması isə dini mərasimlərdə od kultunun mühüm yer tutduğunu sübut edir.

TORPAQ QƏBİRLƏRİ

Torpaq qəbirləri orta və son tunc dövründə Azərbaycan ərazisində geniş yayılmış ən qədim və sadə dəfn formalarından biri hesab olunur. Bu tip qəbirlər əsasən torpaqda qazılmış oval, düzbucaqlı və ya dördbucaqlı formalı çalalardan ibarət idi. Arxeoloji tədqiqatlar göstərir ki, torpaq qəbirləri xüsusilə e.ə. II minilliyin ortalarından başlayaraq son tunc və erkən dəmir dövrünə qədər geniş istifadə edilmişdir. Bu qəbirlər qədim tayfaların dini inanclarını, sosial münasibətlərini və gündəlik məişət xüsusiyyətlərini öyrənmək baxımından mühüm elmi əhəmiyyət daşıyır.

Azərbaycan ərazisində torpaq qəbirləri əsasən Mil-Qarabağ düzənliyi, Muğan bölgəsi, Şirvan, Gəncə-Qazax və Naxçıvan ərazilərində aşkar edilmişdir. XX əsrin ikinci yarısından başlayaraq aparılan sistemli arxeoloji qazıntılar nəticəsində yüzlərlə torpaq qəbir tədqiq olunmuşdur. Tədqiqatçılar müəyyən etmişlər ki, bu qəbirlərin əksəriyyəti e.ə. XV–VIII əsrlərə aid edilir

Mil və Muğan düzənliyində yerləşən nekropollarda aşkar edilmiş torpaq

qəbirləri daha çox kollektiv dəfn xüsusiyyətləri ilə seçilir. Buradan tapılmış iri saxsı qablar, gil küplər, muncuqlar və sümük alətləri bölgədə inkişaf etmiş təsərrüfat və sənətkarlıq ənənələrinin mövcud olduğunu göstərir. Bəzi qəbirlərdə heyvan sümüklərinin tapılması isə qədim insanların qurbanvermə mərasimləri keçirdiyini ehtimal etməyə əsas verir [8].

Qarabağ bölgəsində, xüsusilə Xocalı-Gədəbəy mədəniyyətinə aid nekropollarda aşkar edilmiş torpaq qəbirləri zəngin qəbir inventarı ilə diqqəti cəlb edir. Burada aparılan qazıntılar zamanı tunc qılınclar, nizə ucluqları, qızıl və pasta muncuqlar, həmçinin keramika nümunələri əldə edilmişdir. Tədqiqatçılar bu tapıntıları bölgədə sosial təbəqələşmənin güclənməsi və tayfa aristokratiyasının formalaşması ilə əlaqələndirirlər. Xocalı nekropolundakı torpaq qəbirlərinin böyük hissəsi e.ə. XIII–VII əsrlərə aid edilir.

Gəncə-Qazax bölgəsində yerləşən torpaq qəbirlərində isə daha çox sadə dəfn adətləri müşahidə olunur. Buradan saxsı qablar, obsidian bıçaqlar, tunc bəzək əşyaları və əmək alətləri tapılmışdır. Şəmkir və Tovuz rayonlarında aparılmış qazıntılar zamanı bəzi qəbirlərdə skeletlərin bükülü vəziyyətdə yerləşdirildiyi müəyyən edilmişdir. Bu xüsusiyyət qədim insanların ölüm və yenidən doğuluş haqqında dini təsəvvürləri ilə əlaqələndirilir.

Naxçıvan bölgəsində aşkar edilmiş torpaq qəbirləri isə keramika nümunələrinin zənginliyi ilə seçilir. II Kültəpə və Şahtaxtı ərazilərində aparılmış qazıntılar zamanı qara cilalı qablar, tunc xəncərlər və müxtəlif bəzək əşyaları tapılmışdır. Burada bəzi qəbirlərin üzərinin daş örtüklərlə bağlanması keçid tipli dəfn ənənələrinin formalaşdığını göstərir.

Torpaq qəbirlərində ölülərin yanında müxtəlif məişət və ritual əşyalarının yerləşdirilməsi qədim insanların axirət dünyasına inamını əks etdirir. Qəbir inventarının müxtəlifliyi həmin dövrdə tayfalararası iqtisadi əlaqələrin və sənətkarlığın inkişaf etdiyini göstərir. Beləliklə, torpaq qəbirləri orta və son tunc dövrü Azərbaycan tayfalarının dini dünyagörüşünü, sosial strukturunu və maddi mədəniyyətini öyrənmək üçün mühüm arxeoloji mənbə hesab olunur.

Nəticə. Orta və son tunc dövrü abidələri Azərbaycan xalqının qədim tarixinin, maddi və mənəvi mədəniyyətinin öyrənilməsi baxımından mühüm elmi əhəmiyyət daşıyır. Aparılmış arxeoloji tədqiqatlar göstərir ki, e.ə. II minillikdə Azərbaycan ərazisində inkişaf etmiş yaşayış məskənləri formalaşmış, əkinçilik, maldarlıq və metallurgiya geniş yayılmışdır. II Kültəpə, Üzərliktəpə, Xocalı, Şahtaxtı və digər arxeoloji abidələrdən əldə olunmuş maddi-mədəniyyət nümunələri qədim tayfaların yüksək təsərrüfat və sənətkarlıq ənənələrinə malik olduqlarını sübut edir.

Kurqanlar, daş qutu və torpaq qəbirləri qədim insanların dini inanclarını, dəfn adətlərini və sosial münasibətlərini əks etdirən mühüm arxeoloji mənbələrdir. Xocalı-Gədəbəy mədəniyyətinə aid kurqanlardan tapılmış zəngin qəbir inventarları, silahlar və bəzək əşyaları cəmiyyət daxilində sosial təbəqələşmənin və tayfa aristokratiyasının formalaşdığını göstərir. Qəbir abidələrində aşkar edilmiş at skeletləri isə atçılığın və hərbi ənənələrin həmin dövrdə mühüm yer tutduğunu sübut edir.

Araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, orta və son tunc dövründə Azərbaycan ərazisi Yaxın Şərq və Cənubi Qafqaz arasında mühüm mədəni əlaqə mərkəzlərindən biri olmuşdur. Naxçıvan, Qarabağ, Gədəbəy və digər bölgələrdə aşkar edilmiş keramika nümunələri, metal məmulatları və memarlıq xüsusiyyətləri qədim tayfalar arasında iqtisadi və mədəni əlaqələrin mövcudluğunu təsdiq edir.

Beləliklə, orta və son tunc dövrünə aid yaşayış yerləri və qəbir abidələri Azərbaycanın qədim tarixinin öyrənilməsində mühüm mənbə rolunu oynayır. Bu abidələrin sistemli şəkildə tədqiqi qədim tayfaların həyat tərzi, dünyagörüşü və ictimai inkişaf mərhələləri haqqında daha dolğun elmi nəticələrin əldə olunmasına geniş imkan yaradır.

ƏDƏBİYYAT

1. Ağayev, F. M. Kurqan mədəniyyəti və qədim dəfn adətləri. Bakı: Şərq-Qərb, 2015.
2. Axundov, T. İ. Azərbaycan arxeologiyası. Bakı: Elm nəşriyyatı, 2006.
3. Babaev, İ. A. Azərbaycanın tunc dövrü abidələri. Bakı: Elm və Təhsil, 2012.
4. Cəfərov, Q. C. Xocalı-Gədəbəy mədəniyyəti. Bakı: Elm, 1999.
5. Əliyev, K. M. Azərbaycanın qədim nekropolları və dəfn abidələri. Bakı: Elm və Təhsil, 2018.
6. Əliyev, V. H. Qədim Azərbaycan tarixi. Bakı: Təhsil, 2007.
7. Həbibullayev, O. A. Naxçıvanın qədim yaşayış yerləri və kurqanları. Bakı: Elm, 1982.
8. İsmayılov, M. G. Naxçıvanın qədim arxeoloji abidələri. Bakı: Nafta-Press, 2005.
9. Kohl, P. L. The Making of Bronze Age Eurasia. Cambridge University Press, 2007.
10. Museyibli, N. A. Azərbaycanın son tunc və erkən dəmir dövrü arxeoloji mədəniyyətləri. Bakı: Elm və Təhsil, 2010.
11. Piotrovski, B. B. Археология Кавказа. Москва: Высшая школа, 1978.
12. Sagona, A., & Zimansky, P. Ancient Turkey and the Caucasus. Routledge, 2015.
13. Smith, A. T. The Archaeology of Ancient Azerbaijan. Oxford University Press, 2005.
14. Кушнарева, К. Х. Южный Кавказ в IX–II тыс. до н.э. Санкт-Петербург: Петербургское Востоковедение, 1997.
15. Нариманов, И. Г. Древняя культура Азербайджана. Баку: Элм, 1965.

Məqalənin redaksiyaya daxilolma tarixi: 27.06.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 29.06.2026
Məqalənin çapa daxil olunma tarixi: 20.07.2026

Səbinə BABAYEVA
DOI: doi.org/10.61226/12.2.2023/20262.16
Azərbaycan Turizm və Menecment Universiteti,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
sabina.babayeva@atmu.edu.az
https://orcid.org/0000 0003-1372-4852
DOI: doi.org/10.61226/12.2.2023/20262.16

MUZEY KADR HAZIRLIĞI SİSTEMİNİN YARANMASI VƏ İNKİŞAFI

Xülasə: Məqalədə XIX əsrin ikinci yarısından müasir dövrə qədər muzey sahəsi üçün kadr hazırlığı sisteminin formalaşmasının tarixi prosesi nəzərdən keçirilir. Müəllif Avropa və Amerika muzeyləri nəzdindəki ilk ixtisaslaşmış kurslardan dünyanın aparıcı universitetlərində tammiqyaslı akademik kafedra və proqramların yaradılmasına keçidi təhlil edir. Muzeyşünaslığın bir elm kimi təşəkkül tapmasında Madriddəki Ali Diplomatiya Məktəbinin, Parisdəki Luvr Məktəbinin və ABŞ-da Sara Stivensonun yenilikçi kurslarının təsirinə xüsusi diqqət yetirilir. Həmçinin rəqəmsal texnologiyaların təsiri altında muzey təhsilinin müasir transformasiyası tədqiq edilir ki, bu da rəqəmsal kurator, inklüzivlik üzrə menecer və muzey analitikası mütəxəssisi kimi yeni ixtisasların yaranmasına səbəb olmuşdur.

Məqalədə informasiya cəmiyyətinin çağırışları nəzərə alınmaqla, muzey mütəxəssislərinin hazırlanması məsələlərində müasir muzeyşünaslığın fənlərarası xarakteri vurğulanır.

Tədqiqatın məqsədi XIX əsrin ikinci yarısından rəqəmsal dövrün müasir reallıqlarına qədər muzey təhsilinin təşəkkül tapmasının tarixi prosesini kompleks şəkildə təhlil etmək və muzey mütəxəssislərinin peşəkar hazırlığında baş verən əsas dəyişiklikləri müəyyən etməkdir.

Tədqiqatın vəzifələri aşağıdakılardır: muzey təhsilinin yaranma (genezis) tarixini izləmək; ilk ixtisaslaşmış təlim kurslarının yarandığı vaxtdan ciddi akademik təhsilin formalaşmasına qədər olan dövrdə görkəmli şəxsiyyətlərin və aparıcı universitetlərin muzey kadrlarının hazırlanmasına verdiyi töhfəni qiymətləndirmək; informasiya texnologiyalarının muzey peşələrinin strukturunun dəyişməsinə təsirini təhlil etmək.

Açar sözlər: muzeyşünalıq (muzeyologiya), muzey, muzey təhsili, universitet nəznində kurslar, akademik proqramlar, informasiya texnologiyaları, fənlərarası yanaşma.

Сабина БАБАЕВА

ВОЗНИКНОВЕНИЕ И РАЗВИТИЕ СИСТЕМЫ ПОДГОТОВКИ МУЗЕЙНЫХ КАДРОВ

Резюме: В статье рассматривается исторический процесс формирования системы подготовки кадров для музейной сферы со второй половины XIX века до наших дней. Автор анализирует переход от первых специализированных курсов в европейских и американских музеях к созданию полноценных академических кафедр и программ в ведущих университетах мира. Особое внимание уделяется влиянию Школы высшей дипломатии в Мадриде, Луврской школы в Париже и инновационных курсов Сары Стивенсон в США на формирование музеологии как науки. Также изучается современная трансформация музейного образования под влиянием цифровых технологий, которая привела к появлению новых специальностей, таких как цифровой куратор, менеджер по инклюзивности и специалист по музейной аналитике.

В статье подчеркивается междисциплинарный характер современной музеологии в вопросах подготовки музейных специалистов с учетом вызовов информационного общества.

Цель исследования – всесторонний анализ исторического процесса формирования музейного образования со второй половины XIX века до современных реалий цифровой эпохи и выявление основных изменений в профессиональной подготовке музейных специалистов.

Задачи исследования: проследить историю возникновения (генезиса) музейного образования; оценить вклад видных деятелей и ведущих университетов в подготовку музейных кадров в период от появления первых специализированных курсов до формирования серьезного академического образования; проанализировать влияние информационных технологий на изменение структуры музейных профессий.

Ключевые слова: музеология, музей, музейное образование, университетские курсы, академические программы, информационные технологии, междисциплинарный подход.

Sabina BABAYEVA

THE GENESIS AND DEVELOPMENT OF THE MUSEUM PROFESSIONAL EDUCATION

Abstract: The article examines the historical process of the formation of the personnel training system for the museum sphere, from the second half of the 19th century to the present. The author analyzes the transition from the first specialized courses at European and American museums to the establishment of full-fledged academic departments and programs in the world's leading universities. Particular attention is paid to the influence of the Higher Diplomatic School in Madrid, the École du Louvre in Paris, and Sara Stevenson's pioneering courses in the USA on

the emergence of museology as a science. The work also explores the modern transformation of museum education under the influence of digital technologies, which has led to the emergence of new specialties such as digital curator, inclusion manager, and museum analytics specialist. The article emphasizes the interdisciplinary nature of contemporary museology in the context of professional training, taking into account the challenges of the information society.

Research Goal is a comprehensive analysis of the historical process of the formation of museum education and the identification of major changes in the professional training of museum specialists from the second half of the 19th century to the modern realities of the digital era.

Research Objective are as follows:

- To trace the history of the origin (genesis) of museum education;
- To evaluate the contribution of prominent figures and leading universities to the training of museum personnel from the time the first specialized training courses were created to the emergence of serious academic education;
- To analyze the impact of information technologies on the changing structure of museum professions.

Keywords: museology, museum, museum education, professional training, university-based courses, academic programs, information technology, interdisciplinary approach.

GİRİŞ

Müasir muzeyşünaslıq tərəfindən toxunulan bu tədqiqat işinin vacib aspektlərindən biri muzeylər üçün gənc kadrların hazırlanması və müasir beynəlxalq sosial-iqtisadi inkişaf nəzərə alınmaqla, onların hazırlanmasının universal sistemini yaratmaq məqsədilə müxtəlif ölkələrin müsbət təcrübəsindən istifadə edilməsidir.

Muzey mütəxəssislərinin peşəkar hazırlığının tarixi XIX əsrin ikinci yarısından başlayır və bu, ilk növbədə Avropa və ABŞ-da muzeylərin sayının sürətli artımı, habelə cəmiyyətin geniş təbəqələrinin orada qorunan mədəni-tarixi dəyərlərə olan marağı ilə şərtlənirdi. Məhz həmin dövrdən etibarən ABŞ-da və bir sıra Avropa ölkələrində muzeyləri müxtəlif elm sahələrinə aid olan kolleksiya toplama, mühafizə və muzey ekspozisiyalarının yaradılması məsələlərində bilik qazanmış mütəxəssislərlə təmin etmək üçün kadrların peşəkar hazırlığına diqqət yetirilməyə başlandı.

Qeyd etmək lazımdır ki, mütəxəssis hazırlığı üzrə ən erkən tədris proqramları formalaşmış akademik fənlərlə sıx bağlı idi. Təlim prosesində tələbələr arxeologiya, antropologiya, təbiət tarixi və ya incəsənət tarixi kimi obyektlərlə əlaqəli elmi sahələrin muzeylərdə tətbiqi haqqında müəyyən biliklər əldə edirdilər; tədris isə ilkin olaraq universitet muzeylərinin nəzdində açılan xüsusi kurslarda keçirilirdi.

Tədqiqat hissə. Muzeyşünaslıq təhsili sahəsində ilk mühüm hadisə 1856-cı ildə İspaniya hökuməti tərəfindən Madriddə Ali Diplomatiya Məktəbinin (Escuela

Superior Diplomática) təsis edilməsi oldu. Adının "diplomatiya məktəbi" olmasına baxmayaraq, tədris olunan əsas fənlər arxeologiya, tarix, numizmatika və paleoqrafiya idi. Bu, desakralizasiya prosesində (əşyaların müqəddəs statusunu itirməsi) katolik kilsəsindən müsadirə edilmiş nəhəng mədəni-tarixi sərvətin sistemləşdirilməsi zərurətindən irəli gəlirdi. Məktəbin tələbələri gələcək ekspozisiya fəaliyyətinin əsasını qoyan latın dili, epiqrafika və bərpa nəzəriyyəsini öyrənirdilər. Məktəbin məzunları elmi kataloqlaşdırma və bərpa metodlarından istifadə edərək ölkənin mədəni irsinin bərpası, qorunması, öyrənilməsi və nümayişi istiqamətində mühüm işlər aparırdılar. 1867-ci ildə İspaniya kraliçası II İzabellanın fərmanı ilə yaradılmış İspaniya Milli Arxeologiya Muzeyinin təşəbbüskarları və ilk kuratorları məhz Diplomatiya Məktəbinin ilk məzunları olmuşdular [1].

Muzey kadrlarının hazırlanması sahəsində növbəti mühüm hadisə 1882-ci ildə Parisdə Luvr Ali Məktəbinin (École du Louvre) təsis edilməsi oldu. Fransa Mədəniyyət Nazirliyinin tabeliyində olan bu ali təhsil müəssisəsi incəsənət tarixi, arxeologiya, epiqrafika, antropologiya və muzeyşünaslıq üzrə tədris kursları təklif edirdi. Tədris, sənət əsərlərinin və muzey kolleksiyalarının yaradılma və təqdimat kontekstində dərindən öyrənilməsinə əsaslanırdı [2]. Luvr Məktəbində "kuratorlar, missionerlər və qazıntı mütəxəssisləri" hazırlamaq üçün arxeologiya ilə dolayısı yolla bağlı olan fənlər öyrədilirdi. Daha sonra, 1902-ci ildə məktəbin tədris proqramına incəsənət tarixi kursu, XX əsrin 20-ci illərinin sonunda isə muzeoqrafiya üzrə kurslar daxil edildi [3].

Sonradan muzey işi üzrə mütəxəssislərin profil fənləri əhatə edən peşəkar hazırlığı bir çox ölkələrdə sürətlə yayılmağa başladı. Burada kadr hazırlığı, bir qayda olaraq, muzeylərin yaxud universitet muzeylərinin nəzdində təşkil olunmuş xüsusi kurslarda həyata keçirilirdi. Bu cür kursların fəaliyyət dinamikası - ilkin ixtisaslaşma kurslarının tədrisindən muzey işinin hərtərəfli öyrənilməsinə qədər olan yol - ABŞ-da incəsənət və muzey işi sahəsində kadr hazırlığının peşəkar səviyyəsinin inkişafı prosesində özünü aydın şəkildə büruzə verir.

ABŞ-da incəsənətə və bədii təhsilə marağın artması 1876-cı ildə Filadelfiyada Müstəqillik Bəyannaməsinin elan edilməsinin yüzilliyinə həsr olunmuş Ümumdünya Sərgisindən (Expo 1876) sonra sürətləndi. Bu, 1877-ci ilin sonu - 1878-ci ilin əvvəllərində Filadelfiya şəhərində Pensilvaniya Muzeyinin nəzdində Sənaye İncəsənəti Məktəbinin (School of the Industrial Art) açılmasına səbəb oldu. Məktəbin ilk tədris kursları sənayenin ehtiyacları nəzərə alınmaqla eskiz, rəngkarlıq və yapma üzrə ümumi məşğələlərlə məhdudlaşırdı. Kurslarda hər hansı bir peşənin öyrədilməsi vəzifəsi qoyulmamışdı [4].

Əgər 1908-ci ilin əvvəlinə qədər keçirilən kurslar ciddi şəkildə bədii və texniki fənlərlə məhdudlaşırdısa, 1908-ci il ərzində Sənaye İncəsənəti Məktəbinin nəzdində arxeologiya, incəsənət və bədii-sənaye muzeyləri üçün muzey kuratorlarının hazırlanması üzrə kurslar təşkil edildi. Bu kursların ilhamvericisi və müəllimi, muzeylə bağlı olan Sənaye İncəsənəti Məktəbində ilk muzeyşünaslıq kursunu təklif edən amerikalı muzey kuratoru, Pensilvaniya Universitetinin Arxeologiya şöbəsinin prezidenti Sara York Stivenson oldu [5].

Kurs on iki mühazirədən ibarət idi və aşağıdakı mövzuları əhatə edirdi: muzeylərin tarixi; müasir muzey və onun funksiyaları (bədii qalereya, sənaye muzeyi, elm muzeyi, yerli muzey, tarix muzeyi, xüsusi və ya monoqrafik kolleksiya); muzey üçün dominant ideyanın seçilməsi; muzey binası (işıqlandırma, isitmə, su təchizatı, emalatxanalar, bərpa otaqları, tədqiqat otaqları, muzey fondları); təsnifat və etiketləşdirmə məsələləri; kolleksiyaların təbiəti və onların emalı (daş, ağac, sümük və fil sümüyü, dəmir, polad, mis və bürünc, keramika, şüşə və şirə, tekstil, krujeva); artefaktların bərpası məsələləri; kolleksiya toplama sənəti, muzeyin maliyyə-təşkilati məsələləri və s. [6].

Kursun tələbələri Filadelfiyadakı muzeyləri ziyarət edir, muzey eksponatlarının idarə olunması, konservasiyası və qorunub saxlanılmasının bütün aspektlərini öyrənirdilər. Tədris prosesində mühazirələrlə yanaşı, tələbələrlə praktik məşğələlər də keçirilirdi; burada onlar kolleksiyaların müəyyən edilməsi, təsnifatı, nümayişi və saxlanılması üzrə bilik və bacarıqlara yiyələnir, muzey obyektlərinin idarə edilməsinə dair ilkin biliklər əldə edirdilər. Beləliklə, S. Stivensonun Sənaye İncəsənəti Məktəbindəki tədris kursları muzey işinin nəzəriyyəsini və praktikasını özündə birləşdirən təlimi təmin edirdi.

ABŞ-da yeni təbiət tarixi muzeylərinin sayının getdikcə artması və müvafiq kadr çatışmazlığı Ayova Dövlət Universiteti Təbiət Tarixi Muzeyinin direktoru Homer Dilli bu günə qədər mövcud olan dördillik muzeyşünaslıq proqramını yaratmağa məcbur etdi. Muzey kadrlarının hazırlanması üzrə ilk proqram 1925-1942-ci illərdə Nyu-Cersi ştatının Nyuark Muzeyində keçirilən müntəzəm muzey işi kursları olmuşdur. Burada ən mühüm fakt ondan ibarətdir ki, 1910-cu ildə Ayova Universiteti Təbiət Tarixi Muzeyində professor Homer R. Dill tərəfindən sərgi metodikasının tədrisinə başlanılması Nyuark Muzeyində təklif olunan muzey tədqiqatları proqramının sələfi hesab olunur.

Muzey kadrlarının hazırlanmasında növbəti mərhələ 1922-1953-cü illərdə Harvard Universitetinin Foqq Muzeyində professor Pol C. Saksın tədris etdiyi "Muzey işi və muzey problemləri" kursu oldu. O, proqrama muzeylərin tarixi və fəlsəfəsi, təşkili və idarə olunması, təhsil, muzey binaları, kolleksiyalar, quraşdırma, bərpa və mühafizə, qeydiyyatın aparılması, muzey siyasəti və muzey etikası üzrə birillik kurs daxil etmişdi. Sərginin planlaşdırılması və təqdimatı ilə yanaşı, praktiki məşğələlər, muzeylərə və şəxsi kolleksiyalara ziyarətlər tədris proqramının ayrılmaz hissəsi idi.

Tezliklə oxşar kurslar bir sıra digər tədris müəssisələrində də keçirilməyə başlandı: Uellsli kolleci (Massaçusets), Vaşinqton Ştat Universiteti, Roçester Universiteti (Nyu-York), Sirakuz Universiteti (Nyu-York) və Prinston Universiteti (Nyu-Cersi).

Bu təcrübə Amerika Muzeylər Assosiasiyası (AAM) tərəfindən bəyənildi. Assosiasiya 1926-cı ildə muzey işi üzrə təlimin zəruriliyini rəsmi şəkildə tanıdı və universitetlərlə muzeylər arasında əməkdaşlıq təklif edərək bildirdi ki, ideal muzey işi təlim proqramı "universitetdə tədris olunan, ümumi mədəniyyət, incəsənət, tarix və elmin öyrənilməsini əhatə edən nəzəri iş olmalıdır. Muzeydəki praktiki iş isə

muzeyin təşkili, idarə edilməsi, binalar, maliyyə, kolleksiya toplama, qeydiyyat, eksponatların hazırlanması və yerləşdirilməsi, tədqiqatlar, təhsil və reklam sahələrini əhatə etməlidir" [7, s. 268-274]. Təklifdə bildirilirdi ki, universitetlər, Amerika Muzeylər Alyansı və bir neçə muzey arasında müddəti bir il olan birgə təlim kursu təşkil edilməlidir.

Britaniya Muzey Assosiasiyası tərəfindən universitetlərdə muzey işi praktikasına əsaslanan muzey kadrlarının hazırlanmasına böyük diqqət yetirilirdi. 1930-cu ildə "Muzey praktikasının əsas müddəaları" kimi təqdimatları, habelə muzeylərə tanışlıq ekskursiyalarını ehtiva edən ilk beşgünlük kurs təşkil edildi. Kurs iştirakçılarını daha da həvəsləndirmək məqsədilə 1930-cu illərdə ümumi muzey işi və onun daha ixtisaslaşmış bölmələri üzrə təlimləri, habelə çoxsaylı praktiki elementləri əhatə edən proqrama malik rəsmi muzey diplomu təsis edildi. Bu proqrama tələbələrdən müxtəlif əşyaların olduğu cədvəli eyniləşdirməyin (identifikasiya etməyin) tələb olunduğu buraxılış imtahanı da daxil idi [8].

Muzey kadrlarının hazırlanması üzrə tədris proqramları digər ölkələrin bir sıra universitetlərində də mövcud idi. Belə ki, ilk muzeyşünaslıq kafedrası 1922-ci ildə Brno şəhərindəki (Çexoslovakiya) Masarik Universiteti nəzdində yaradılmış və ona Moraviya Muzeyinin direktoru Yaroslav Helfert rəhbərlik etmişdir. Y. Helfert tərəfindən keçirilən dərslər praktiki xarakter daşıyırdı və muzey tərəfindən kolleksiyaların toplanması, ekspozisiya işi, eksponatların uçotu və mühafizəsi, muzeyin idarə edilməsi kimi məsələləri əhatə edirdi. Digər bir nümunə isə 1930-cu ildə Halle Universitetində (Almaniya) "Muzeyşünaslıq və incəsənət tarixi" adı altında yaradılmış fəxri kafedra idi. Argentinada muzey işi üzrə tədris kursları 1923-cü ildən Buenos-Ayres Milli Universitetinin fəlsəfə və ədəbiyyat fakültəsində, 1938-ci ildən isə Rio-de-Janeyro Universitetində (Braziliya) tədris olunmağa başlamışdır.

1920-1930-cu illərin hüdudlarında SSRİ-də muzeyşünaslıq mərkəzləri yaradılır və muzey jurnalları nəşr edilməyə başlayır. 1930-cu ilin dekabrında Moskvada Birinci Ümumrusiya Muzey Qurultayı keçirildi və burada digər məsələlərlə yanaşı, yeni gənc kadrların hazırlanması məsələlərinə də baxıldı [9, s. 222-225].

1934-cü ildə Moskva Universitetində SSRİ-də muzeyşünaslığın inkişafında mühüm rol oynamış muzeyşünaslıq (muzeyologiya) kafedrası açıldı.

İkinci Dünya müharibəsindən sonra, xüsusilə Mərkəzi və Şərqi Avropa ölkələrində muzeyşünaslıq universitetlərdə qəti şəkildə möhkəmləndi. 1950-ci illərdə Almaniya Demokratik Respublikası Şərqi Berlində "Muzey işləri üzrə Mərkəzi İdarə"ni və Leypsiqdə "Muzeyşünaslar üçün Peşə Kolleci"ni təsis etdi; Brno (Çexoslovakiya) və Zaqreb (Yuqoslaviya) universitetləri isə muzeyşünaslığın ilk dəfə akademik fənn statusu aldığı məkanlar oldu [10, s. 235-252].

1962-ci ildə Brnodakı (Çexoslovakiya) Moraviya muzeyinin antropoloqu və mühafizi Yan Yelinek tərəfindən Y.E. Purkine adına Universitetin fəlsəfə fakültəsinə həm muzey, həm də universitetlə institusional şəkildə bağlı olan muzeyşünaslıq kafedrasının yaradılması haqqında təklif təqdim edildi. 1963-cü

ildə həmin universitetdə muzeyşünaslıq kafedrası yaradıldı [11, s. 6]. 1968-ci ilin iyun ayında Brnodakı universitetin muzeyşünaslıq ixtisası üzrə ilk məzunları öz diplomlarını aldılar ki, onların da əksəriyyəti sonradan muzey direktoru oldular. İki il davam edən muzeyşünaslıq kursu ümumi və xüsusi muzeyşünaslıq üzrə nəzəri və praktik məşğələləri əhatə edirdi. Kurs muzeyşünaslıq sahəsində dissertasiya işinin müdafiəsi ilə başa çatırdı [11, s. 6-7].

Beləliklə, ötən əsrin 70 ili muzeylər nəzdində təhsil kurslarının keçirilməsi təcrübəsindən tədricən uzaqlaşaraq, muzey fənlərinin universitet və kolleclərin ixtisaslaşmış kafedralarında tədrisinə keçidlə əlamətdar oldu. Həmin vaxtdan etibarən muzeyşünaslıq (muzeyologiya) bir elm sahəsi kimi dərin elmi tədqiqat obyektinə və bakalavr, magistr və aspirantura səviyyələrində müntəzəm universitet proqramları olan muzey kadrlarının hazırlanması üzrə akademik intizama çevrilməyə başladı.

Ötən əsrin üçüncü rübündən müasir dövrə qədər ümumilikdə muzeyşünaslıq, xüsusilə də muzey təhsili sahəsində alimlərin və muzey mütəxəssislərin apardıqları sonrakı elmi tədqiqatlar və təklif etdikləri işləmələr bu sahənin dünyanın əksər ölkələrində müasir təhsil prosesində fənlərarası sahə kimi nəzərdən keçirilməsinə şərait yaratmışdır. Beləliklə, bu sahə tədris proqramlarına "muzeyşünaslıq" (muzeyologiya), ingilisdilli ölkələrdə isə "museum studies" adı altında daxil edilmişdir.

Muzey mütəxəssislərinin hazırlanması üzrə təhsil prosesinin indiki forma və istiqamətləri muzeylərin müasir kadrların bilik və bacarıqlarına dair tələblərini dəyişdirən kommunikasiya və informasiya texnologiyalarının sürətli inkişafı ilə birbaşa bağlıdır. Bu gün muzey işçiləri bazarında klassik muzey əməkdaşının bilik və bacarıqlarını muzey menecmenti, marketinq və müasir informasiya texnologiyaları sahəsində geniş bilik və vərdişlərlə birləşdirən mütəxəssislərin muzey işinə cəlb edilməsinə tələbat artmaqdadır. Klassik muzey üçün xarakterik olmayan inklüzivlik üzrə menecer; mediator; muzeyin brendinin media məkanında tanıdılması ilə məşğul olan PR-menecer və SMM-mütəxəssis; onlayn kolleksiyaları, virtual sərgiləri və muzeyin mobil tətbiqlərini idarə edən rəqəmsal kurator; artefaktların rəqəmsallaşdırılması üzrə mütəxəssis; multimedia mütəxəssisi; marketoloq; muzeyin inkişafı üzrə menecer və bu kimi digər mütəxəssislərə tələbat kəskin şəkildə yüksəlmişdir.

Belə mütəxəssislərin hazırlanması üçün ABŞ, Avropa, Yaponiya, Çin və dünyanın digər ölkələrinin aparıcı universitetləri və kolleclərı klassik muzey fənləri ilə yanaşı, tədris prosesinə İnternetin, sosial şəbəkələrin və digər müasir informasiya texnologiyalarının muzey praktikasına aktiv tətbiqi ilə şərtlənən yeni təhsil proqramlarını daxil edirlər. Bunlar muzeyin maddi obyektlərinin rəqəmsallaşdırılması metodlarının öyrədilməsi və onların uzunmüddətli saxlanılması (Digital Preservation); muzey üzrə interaktiv ekskursiya proqramlarının hazırlanması və rəqəmsal texnologiyalar vasitəsilə itirilmiş mədəniyyət nümunələrini bərpa etmək bacarığı (Virtual Reality and Augmented Reality); mobil tətbiqlər vasitəsilə ziyarətçilərin davranışını təhlil etmək və

auditoriyanı anlamaq, ekspozisiyaların ziyarətçilər tərəfindən qavranılma effektivliyini artırmaq üçün təkmilləşdirilməsi və muzeyin cəlbediciliyinə xidmət edən digər vəzifələri yerinə yetirmək üçün böyük məlumat kütlələrindən istifadə etmək qabiliyyəti (Museum Analytics and Big Data) kimi istiqamətləri əhatə edən yeni tədris fənləridir.

Nəticə. Beləliklə, muzey kadrlarının hazırlanmasının yaranması, inkişafı və müasir vəziyyətinin tədqiqinin nəticələrinə əsaslanaraq yekun olaraq qeyd edə bilərik ki, bir əsrdən çox vaxt ərzində muzey işi mütəxəssislərinin hazırlıq sistemi universitet muzeyləri nəzdində təşkil olunan dar ixtisaslı tətbiqi kurslardan bakalavriat, magistratura və doktoranturanı əhatə edən inkişaf etmiş üçpilləli akademik təhsil sisteminə çevrilmişdir. Bununla yanaşı, muzey mütəxəssislərinin hazırlığında ilk addımları atanların (Sara Stivenson, Pol Saks, Yan Yelinek və b.) təcrübəsi muzey pedaqogikasının ən vacib prinsipinin – akademik mühazirələrin muzeylərdəki praktiki işlə qırılmaz əlaqəsinin təməlini qoymuşdur ki, bu da müasir təhsil proqramları üçün aktual olaraq qalır.

Rəqəmsal texnologiyaların və internet kommunikasiyalarının muzey praktikasına sürətli tətbiqi muzey işçisinin səlahiyyətlərini dəyişdirmiş və ali təhsil müəssisələrindən müasir audiovizual vasitələri, sosial şəbəkələri, virtual kolleksiyaları idarə etməyə, onlayn auditoriyanı təhlil etməyə və s. qadir olan prinsipial olaraq yeni mütəxəssis hazırlamağı tələb etmişdir.

Tədris proqramlarında ciddi dəyişikliklər baş vermişdir – klassik muzey təhsili iqtisadi və sosial fənlərlə (menecment, marketinq, PR) birləşdirilir ki, bu da muzeylərin bazar şəraitində rəqabətədavamlı qalmaq və qlobal informasiya məkanında geniş auditoriya üçün cəlbedici olmaq istəyi ilə şərtlənir.

ƏDƏBİYYAT

1. The National Archaeological Museum. History of Museum. [Elektron resurs]. URL: https://www.man.es/man/en/museo/historia.html
2. Louvre Museum. Our History. [Elektron resurs]. URL: https://www.ecoledulouvre.fr/en/ecole/our-history.
3. Jesus-Pedro Lorente. The development of museum studies in universities: from technical training to critical museology. [Elektron resurs]. URL: https://www.researchgate.net/profile/Jesus-Lorente /publication/254332570_The_development_of_museum_studies_in_universities_From_technical_training_to_critical_museology/pdf?origin=publication
4. School of Industrial Art of the Pennsylvania Museum. Circular of the Art Department. 1912-1913. [Elektron resurs]. URL: https://archive.org/details/schoolcatalog191213penn/page/n3/mode/2up?view=theater.
5. American Philosophical Society. Sara York Stevenson. [Elektron resurs]. URL: https://www.amphilsoc.org/blog/sara-yorke-stevenson-1847-1921. Circular of the School of Industrial Art of the Pennsylvania Museum. Art Department (School of Applied Art). 1910-1911. [Elektron resurs]. URL:

https://archive.org/details/schoolcatalog191011penn/page/18/mode/1up?view=theater.
6. Syllabus of the Courses for the Training of Curators / Bulletin of the Pennsylvania Museum. 1908. Number 23 (July). P. 50-51. [Elektron resurs]. URL:https://archive.org/details/pennsylvaniamuse23unse/page/50/mode/1up?view=theater.
7. Glaser J.R. Museum Studies in the United States: coming a long way for a long time / Museum Staff Training. UNESCO, 1987. No. 156. P. 268-274. [Elektron resurs]. URL:https://unesdoc.unesco.org/ark:/48223/pf0000079465
8. Museum Association. Our Story. [Elektron resurs]. URL: https://www.museumsassociation.org/about/our-story/.
9. Дмитриенко Н.М., Жеребцова К.О. Первый Всероссийский музейных съезд и его влияние на Сибирские музеи// Вестник Томского государственного университета. Культурология и искусствоведение. Томск, 2019. № 33. С. 222-235.
10. Lorente J.-P. The development of museum studies in universities: from technical training to critical museology//Museum Management and Curatorship. 2012. P. 237-252. [Elektron resurs]. URL: http://www.tandfonline.com/loi/rmmc20.
11. Bruno Soares. Provoking Museology: the Geminal Thinking of Zbynek Z. Stransky // Museologica Brunensia. 2016. V. 5. No. 2. P. 6. [Elektron resurs]. URL: https://digilib.phil.muni.cz/sites/default/files/pdf/136259.pdf

Məqalənin redaksiyaya daxilolma tarixi: 29.06.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 01.07.2026
Məqalənin çapa qəbul olunma tarixi: 20.07.2026

Turizm və qonaqpərvərlik tədqiqatları. İl 15, Say 2, 2026, 181-191s.
Tourism and Hospitality Studies. Volume 15, Number 2, 2026, p. 181-191.

Sara BAĞIRLI
DOI: doi.org/10.61226/12.2.2023/20262.17
c.ü.f.d., b./m
Azərbaycan Turizm və Menecment Universiteti
s.bagirli@atmu.edu.az
https://orcid.org/0009-0001-7534-2983

MÜALİCƏ-SAĞLAMLIQ TURİZMİNDƏ YOLLAYIŞ SİSTEMİ VƏ MÜASİR İQTİSADİ İNKİŞAF PERSPEKTİVLƏRİ

Xülasə: Məqalədə müalicə-sağlamlıq turizmində "yollayış" sisteminin iqtisadi mexanizmləri və onun müasir bazar münasibətlərindəki transformasiyası tədqiq edilir. Tədqiqat zamanı dövlət mərkəzli paylama modelindən sosial-iqtisadi tərəfdaşlıq modelinə keçid prosesi təhlil olunur. Xüsusilə aztəminatlı təbəqənin sosial inteqrasiyası, müəssisələrdəki turist kvotaları və tibbi sığorta əsaslı maliyyələşmə sxemləri məqalənin əsas istiqamətlərini təşkil edir. Eyni zamanda, qlobal sağlamlıq turizmi bazarında ABŞ, Almaniya, Türkiyə və İsrail kimi ölkələrin rəqabət üstünlükləri, eləcə də turistlərin xərc davranışları statistik məlumatlarla əsaslandırılır.

Açar sözlər: sağlamlıq turizmi, yollayış, sosial turizm, dövlət-özəl sektor tərəfdaşlığı, sanatoriya-kurort müalicəsi, tibbi turizm, xidmət keyfiyyəti, iqtisadi səmərəlilik, turizm bazarı.

Sara BAGHIRLI

VOUCHER SYSTEMS IN HEALTH TOURISM AND MODERN ECONOMIC DEVELOPMENT PERSPECTIVES

Abstract: The article examines the economic mechanisms of the voucher system in medical and health tourism and its transformation in modern market relations. The study analyzes the transition from a state-centered distribution model to a socio-economic partnership model. Key focus areas include the social integration of low-income groups, tourist quotas in facilities, and health insurance-based financing schemes. Furthermore, the competitive advantages of countries like the USA, Germany, Turkey, and Israel in the global health tourism market, along with tourist spending behaviors, are substantiated with statistical data.

Keywords: Health tourism, tourism voucher, social tourism, public-private partnership, sanatorium-resort treatment, health tourism, service quality, economic efficiency, tourism market.

Сара БАГИРЛИ

СИСТЕМА ПУТЕВОК В ЛЕЧЕБНО-ОЗДОРОВИТЕЛЬНОМ ТУРИЗМЕ И СОВРЕМЕННЫЕ ПЕРСПЕКТИВЫ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ

Аннотация: В статье рассматриваются экономические механизмы ваучерной системы в сфере лечебно-оздоровительного туризма и её трансформация в условиях современных рыночных отношений. Исследование анализирует переход от государственно-центрированной модели распределения к модели социально-экономического партнерства. Основное внимание уделяется социальной интеграции малообеспеченных слоев населения, квотированию мест в оздоровительных учреждениях и схемам финансирования на основе медицинского страхования. Кроме того, на основе статистических данных обосновываются конкурентные преимущества таких стран, как США, Германия, Турция и Израиль, на мировом рынке медицинского туризма, а также анализируются потребительские расходы туристов.

Ключевые слова: Оздоровительный туризм, туристический ваучер, социальный туризм, государственно-частное партнерство, санаторно-курортное лечение, медицинский туризм, качество услуг, экономическая эффективность, рынок туризма.

GİRİŞ

Sanatoriya-kurort bileti dövründə turizm məhsullarının təşkilini izləyərək bu nəticəyə gəlmək olar ki, turizm məhsulları aşağıdakı sxem üzrə hərəkət edirdi: “dövlət – turizm müəssisəsi (idarəsi) – insan”. Dövlət əhalinin sağlamlığı ilə bağlı xərclərin əsas tədiyəçisi rolunu yerinə yetirir və hər bir konkret müəssisənin işçilərinə müəyyən turizm mərkəzlərinə putyovkalar (yollayışlar) təklif edirdi. “Putyovka” sistemində Həmkarlar ittifaqının xətti ilə xüsusilə dövlət təşkilatlarında çalışan işçilərə güzəştli xidmətlər təklif edilirdi.

Respublika əhalisinin sosial cəhətdən zəif təbəqələrinə göstərilən sosial xidmətlərin ümumi həcmində ənənəvi olaraq əhəmiyyətli seqment təşkil edən qeyri-kommersiya sektorunu sosial turizmin inkişafında iştiraka cəlb etmək lazımdır.

Dövlətin sosial siyasəti vətəndaşların sosial baxımdan müdafiə olunmamış kateqoriyalarının və vətəndaşların hər kateqoriyasına münasibətdə diferensiasiya edilmiş qiymət siyasəti yürüdən sağlamlıq müəssisələrinin dəstəklənməsinə yönəldilməlidir. Belə siyasət aşağıdakı məqamlarla ifadə olunmalıdır:

• sosial turistlər üçün ayrılan “putyovka”ların dəyərinin ümumi məbləğinə vergi yükünün azaldılması;

• sanatoriyaların maddi-texniki bazasının yenilənməsinə kömək;

• həmkarlar ittifaqının tabeliyində olan sanatoriyalarda xidmətlərin təkminləşdirilməsi;

• dövlət sektoru ilə yanaşı, özəl təşkilatların "putyovka"lardan yararlanmaq imkanlarının təmin olunması;

• özəl sağlamlıq müəssisələrinin məhsullarının 10-15%-ə qədərinin "putyovka"lar vasitəsilə həmkarlar təşkilatının xətti ilə satışını təşkil etmək; • turizm mərkəzlərinin əlil arabalarında hərəkət edən əlillərin qəbulu üçün yenidən qurulmasına kömək [1].

Lakin ekspertlərin fikrincə, sosial turistləri qəbul edən sağlamlıq turizm müəssisələrinin hər birində sosial turistlərin sayı 10-20%-dən çox olmamalıdır. Bu göstərici aztəminatlı şəxslərin turizm müəssisələrində dincələnlərin ümumi sayına inteqrasiyası üçün ən əlverişli göstərici olub, onların başqa sosial təbəqələrə məxsus insanlar arasında özlərini psixoloji cəhətdən rahat hiss etmələrinə imkan verəcək. Məxsusi olaraq əhalinin aztəminatlı kateqoriyaları üçün sağlamlıq mərkəzlərinin yaradılması isə cəmiyyətin tam qütbləşməsinə gətirib çıxarar və belə insanların istirahətini sosial cəhətdən gərginləşdirərdi.

ƏSAS HİSSƏ

Müasir şəraitdə sanatoriya-kurort müəssisələri kommersiya əsasında işləməyə məcburdurlar, bu isə "putyovka" ilə güzəştli gələnlərin sayının azalmasına gətirib çıxarır. Sanatoriya-kurort müalicəsi üçün dotasiya verən müəssisələrin bu imkanının kəskin azalması nəticəsində əhaliyə güzəştli putyovkalar verilməsinin kəskin ixtisarı fonunda sağlamlıq xidmətlərinin verilməsinin həcmi bir neçə dəfə azalmışdır.

Ölkədə daxili turizmə qatılanlar iki milyon nəfərdən çoxdur ki, bunun da 2%-ni sağlamlıq xidmətlərindən istifadə edənlər təşkil edir. Bu da çox aşağı rəqəm sayılır. Qeyd olunan göstəricinin aşağı olmasının bir sıra səbəbləri vardır ki, bunlardan biri insanların kurortlar haqqında az məlumatlı olması, sanatoriya-kurort müalicəsinin faydalı olması barədə az bilməsi və ətraflı maariflənməyə ehtiyaclarının olmasıdır. Hazırda Azərbaycanda müalicə-sağlamlaşdırıcı turizmin inkişaf etdirilməsində Qərb ölkələrinin – Almaniyanın, İtaliyanın, Çexiyanın, Slovakiyanın, Polşanın, Sloveniyanın geniş tətbiq etdiyi "dövlət sektoru ilə özəl sektor müəssisələrinin birgə əməkdaşlığı" təcrübəsi aktiv araşdırılmalı və istifadə olunması imkanları nəzərdən keçirilməlidir. Sağlamlıq turizmində tibbi sığorta hesabına maliyyələşdirilən kurort müalicəsi sxeminə keçilməsi vacibdir. Həmkarlar təşkilatının tabeliyində olan sanatoriya-kurort müəssisələrinin müasir bazar münasibətləri dövründə yetərli xidmətlər təqdim etməməsi onların kütləvi turist cəlb etməsinə imkan vermir. Bu nöqteyi-nəzərdən sağlamlaşdırıcı istirahətin təşkilində "qismən maliyyələşdirmə" sxeminin yaxın illərdə daha aktiv tətbiqi onların fəaliyyətinin genişləndirmiş olacaqdır. "Putyovka" siteminə dövlət təşkilatları ilə yanaşı, özəl qurumların da cəlb olunması, geniş istehlakçı kütlələrinə yönəldilməsi onun effektivliyini artırmış olardı. Bu baxımdan "putyovka" üstünlüklərini aşağıdakı kimi qruplaşdıraq olar:

• "Dövlət sektoru ilə özəl sektor müəssisələrinin birgə əməkdaşlığı" modeli. Qeyd olunan model dövlətin özəl sektora dəstəyi, bu sahənin stimullaşdırılması, uzunmüddətli güzəştli kreditlərin verilməsi, bu sahə üzrə mövcud layihələrin dəstəklənməsindən ibarətdir.

• Ənənəvi sosial turizminin inkişafının dəstəklənməsi. Bu məqsədlə həmkarlar təşkilatının xətti ilə "putyovka" üzrə güzəştli xidmətlər öz əhəmiyyətini saxlayır ki, bu da ölkənin bir çox regionlarından davamlı turist axınlarının təmin olunmasına imkan verir.

• Kurort destinasiyasının sağlamlıq, təhsil, mədəniyyət və biznes-kommunikasiya mərkəzi, unikal təbii ehtiyatlar bazasında hərtərəfli sağlamlıq ərazisi kimi identifikasiya edilməsi. Bu məqsədlə Naftalan, Abşeron, Lənkəran, Qəbələ, Qalaaltı, Naxçıvan sağlamlıq destinasiyaları kimi identifikasiya edilməsi onların cəlbediciliyinin artırılmasına, strateji inkişafına təkan vermiş olardı [2].

Azərbaycanda ənənəvi olaraq dövlət sektorunda işləyən insanlar üçün "putyovka" sxeminin inkişaf etməsi səciyyəvi olub. Hazırda Azərbaycanda müalicə-sağlamlıq turizminin inkişafı xeyli dərəcədə bu ənənənin üzərində qurulub və ondan bəhrələnir. Mövcud infrastruktur rekonstruksiya olunmaqla müasir dövrün tələblərinə uyğunlaşdırılaraq potensial yerli turistlərin ehtiyaclarının ödənilməsi üçün hazır vəziyyətə gətirilib. Vaxtilə kurort mərkəzi kimi məşhurlaşmış Naftalan və Abşeron sanatoriya-kurort müəssisələrinin yenidən qurulması cəlbedici destinasiya olaraq əhəmiyyətin saxlamışdır.

Ölkədə "putyovka" sxemi Həmkarlar İttifaqı üzvləri üçün təqdim edilən güzəştli xidmətlərdən ibarətdir. Bu sxemin əhatə dairəsi AHİK üzv olan müəssisə və təşkilatların üzvlərinin ödədiyi üzvlük haqqına görə güzəştli sağlamlıq və istirahət xidmətlərindən istifadəyə əsaslanır. AHİK əsas üzvləri dövlət təşkilatlarından ibarət olduğuna görə hazırda "putyovka"lardan onlar daha çox yararlanmış olur.

Azərbaycandan xeyli sayda dövlət qulluqçusu, müəllim, həkim və s. sənət sahibləri kurortsanatoriya müəssisələrində dincəlməyə üstünlük verirlər. Əlbəttə ki, burada münasib qiymət amilinin rolunu xüsusi olaraq qeyd etmək lazımdır. Həmkarlar Təşkilatının tabeliyində olan sanatoriya müəssisələri öz müştərilərinin əhəmiyyətli hissəsinin məhz ölkədaxili vətəndaşlar olduğunu nəzərə alır, xidmətlərin müasir səviyyədə təşkil olunmasında bazardakı tələbata əsaslanmaqla güzəştli qiymət amilinə, nisbətən uzunmüddətli müalicə-sağlamlığı nəzərdə tutan turizm xidmətlərinin təqdim olunmasına xüsusi fikir verirlər.

Sağlamlıq turizmi dünya turizminə hər il milyonlarla dollar vəsait gətirir. Bütün dünyada sağlamlıq turizmi sahəsində sürətli bir irəliləyiş var. Bu irəliləyiş böyük bir bazar yaratdı və bir çox ölkələr bu bazardan pay almaq üçün bir-biri ilə rəqabətə başladılar.

Sağlamlıq ilə əlaqəli səyahət xərclərinin təhlili göstərir ki, bu sahədə inkişaf etmiş ölkələrin vətəndaşları üstünlük təşkil edir. Beynəlxalq sağlamlıq turizmində ABŞ, Kanada, Qərbi Avropa ölkələri və Körfəz ölkələrinin vətəndaşları üstünlük təşkil edib. Bu da həmin ölkələrin vətəndaşlarının maliyyə imkanlarının daha yaxşı olması, tibbi və sağlamlıq xidməti almağa meyl etməsi ilə bağlıdır.

Dünyada 2007-ci ildən sonra sağlamlıq turizmi sənayesində sürətli inkişaf başlayıb. ÜTT-nin verdiyi məlumata görə, 2018-ci ildə ABŞ-da sağlamlıq turizmi gəlirləri 22,5 milyard dollar, Avropada 54,2 milyard avro olduğu müəyyən edilib. Macarıstan və Çexiya kimi ölkələrin bu sektordan 1 milyard dollardan çox gəlir əldə edib. Avropa Birliyi ölkələrində turizm gəlirlərinin 5,8%-i, Amerikada 9,2%-i, Asiyanın bütün subregionları üzrə 5,6%-i sağlamlıq turizminin payına düşür. Sağlamlıq turizmi digər sektorlarla qarşılıqlı şəkildə inkişaf edir və bu sahədə yatırımlar edilməsi ilə ölkə iqtisadiyyatında irəliləyişlər əldə olunur [4].

Turizm gəlirləri inkişaf etməkdə olan ölkələr üçün lazım olan xarici valyuta axınını təmin etdikləri və digər ixrac məhsullarına qarşı üstün olduqları üçün bir çox ölkələr xaricdən turizm gəlirlərini artırmaq üçün əhəmiyyətli səylər göstərirlər. Tarixi və mədəni irsi ilə yanaşı, təbii dəyərləri ilə zənginlik və müxtəlifliyə sahib olan ölkələrin sağlamlıq turizmi miqyasını qiymətləndirmək üçün bu sektora edilən investisiyalarına və təşəbbüslərinə göstərilən dəstəyi, tanıtım fəaliyyətlərini qiymətləndirmək lazımdır.

Sağlamlıq turizmi üçün edilən investisiyalar uzunmüddətli gəlirləri təmin etdiyinə görə ölkələrin bu sahəyə maraqlarını artırmış olur. Sağlamlıq turizminin internet, media və digər kütləvi informasiya vasitələri ilə geniş yayılması insanların digər ölkələrdə alternativ tibbi imkanlardan, keyfiyyətli və sağlamlıq xidmətlərindən yararlanmağa sövq edir.

Sağlamlıq turizmi son 15 ildə sürətlə inkişaf etmişdir. Sağlamlıq turizmində inkişaf edən Hindistan, Kosta Rika, Macarıstan, Türkiyə, Litva, İsrail, İordaniya, Tayland, Malayziya, Cənubi Koreya və Kuba kimi ölkələr siyahıda liderdir. Tədqiqatçılar insanların tibbi xidmətlər üçün hər nəfərə 3000-10000 dollar arasında pul xərclədiklərini qeyd edirlər.

Buna görə də bu turizm bazarının 2021-ci ildə 125 milyard dəyərində olduğu müəyyən edilib. Sağlamlıq bazarının gəlirləri 2018-ci ildə 4,2 trilyon dollar olmuşdur və gələcək ildə 6,4%-dən çox bir böyümə yaşanacağı gözlənilir. Eyni zamanda, ABŞ-da 3,5 milyard, Avropada 2,5 milyard dollar sağlamlıq turizmi xərcləri müəyyən edilmişdir.

Sağlamlıq turizmində inkişaf səviyyəsi və göstərilən tibbi xidmətlərin sayına görə, Amerikada ABŞ, Braziliya, Kolumbiya, Kosta Rika, Kuba, Meksika, Panama, Avropada Xorvatiya, Macarıstan, İspaniya, Türkiyə, Fransa, Almaniya, Asiyada BƏƏ, İordaniya, Hindistan, Cənubi Koreya, Malayziya, Filippin, Sinqapur və Tayland, Afrikada CAR lider ölkələrdəndir, xarici pasiyentləri daha çox qəbul edir, Son beş ildə ABŞ, Cənubi Koreya, Türkiyə, Tayland, Malaziya, Hindistanın sağlamlıq turizmindən əldə olunan gəlirləri dinamik olaraq artmaqdadır [3].

Bu da sağlamlıq turizmi sənayesinə yönəldilən investisiyaların artması, yeni infrastruktur sahələrin təşkili, xidmətlərin sayının artırılması və sağlamlıq turizm paketlərinin aktiv olaraq marketinqi ilə bağlıdır.

Sağlamlıq turizmi üzrə turist göndərən ölkələr iki qrupa bölünür:

1. tibbi xidmətlər üçün gözləmələrin çox olduğu ölkələr – ABŞ və Aİ ölkələri. Bu ölkələrdə cərrahi əməliyyatlar üçün gözləmələrin olması, bəzi xəstəliklərin müalicəsinin nisbətən baha olması, estetik əməliyyatların tibbi sığorta xidmətinə aid olmaması və qiymətlərinin yüksəkliyi qeyd olunan ölkələrin vətəndaşlarının xarici ölkələrdə daha yaxşı və münasib xidmətləri axtarmasına səbəb olur.

2. tibbi xidmətlərin yetərli olmaması və ya müəyyən xəstəliklərin, orqan köçürülməsinin başqa ölkələrdə daha yaxşı və peşəkar təşkili – belə ölkələrin vətəndaşları xarici dövlətləri seçərkən qiymət (ölkələri ilə müqayisədə ucuz olması), müalicənin keyfiyyəti və ixtisaslaşma, klinikaların həkim personalı, nüfuzu və s. nəzərə alırlar. Bu qrup insanlar sağlamlığın bərpası və reabilitasiyası məqsədilə termal sanatoriya-kurort xidmətlərini də seçirlər.

Müalicə üçün uzun gözləmə vaxtının olmaması, daha keyfiyyətli müalicə almaq, sağlamlıq sahəsində müxtəlif texnologiyalara müraciət, müalicədən əlavə gəzmək və yeni mədəniyyətlərlə tanış olma arzusu və s. turistlərin bu və ya digər ölkəni sağlamlıq turizmi məqsədilə seçməsinə təsir göstərən amillərdir.

Sağlamlıq turizmindəki xərcləmələrinin əsasını digər turizm növlərindəki kimi, yerləşmə, qidalanma, nəqliyyat xərclərindən əlavə müalicə və əməliyyat üçün ayrılan xərclər, xəstəxana xərcləri və s. kimi xərclər təşkil edir.

Bu xərcləmələr əsasında ölkələrin gəlirləri formalaşır və hər ölkə üzrə qiymət strategiyası müəyyənləşir. Sağlamlıq turizmində turistlərin kliniki müalicə xərcləri müxtəlif prosedurları əhatə edir.

Qeyd etmək lazımdır ki, turistlərin bir səfər üçün xərclədikləri ümumi məbləğ onun seçdiyi ölkədən və müalicə almaq istədiyi prosedurdan asılı olaraq dəyişir. Tədqiqatçılar bu məbləğin təxminən 3000 – 10000 dollar arasında dəyişdiyini deyirlər.

Qeyd etmək lazımdır ki, sağlamlıq turizmində iştirak edən turistlər həm müalicə, həm də tətil məqsədli səyahətdə olduqları üçün onların gözləntiləri də, yaratdığı dəyər də yüksəkdir. Sağlamlıq turizmi digər alternativ turizm növləri ilə ölkənin turizm potensialının cəlbediciliyini artıran başlıca vasitələrdən biridir.

Sağlamlıq turizmi sahəsində ən çox seçilən ölkələrə ABŞ, Hindistan, Kuba, Kosta Rika, Tayland, Sinqapur, Kolumbiya, Malayziya, Türkiyə, Meksika, Almaniya və Cənubi Koreya aiddir. Cənubi və Orta Amerika ölkələri çox yüksək müalicə xərcləri səbəbi ilə ABŞ xaricində müalicə olunmaq istəyən ABŞ vətəndaşlarına xidmət göstərirlər. Malayziyada xəstələrin təxminən 75%-i daha yaxşı tibbi xidmət üçün İndoneziya və Filippin kimi ətraf ərazilərə səyahət edirlər. Avropa ölkələrində isə xəstələr ən çox Avropa birliyi daxilində olan ölkələrə səyahət edirlər. Bəzən bu səyahətə sərhədyanı ölkələrə xəstə hərəkatı deyilir. Məsələn, Belçikaya gələn xəstələrin 60%-i Niderlanddan, 30%-i qonşu Avropa ölkələrindəndir.

Əvvəllər turistlər seçim edərkən qabaqcıl texnologiyaya sahib müasir infrastruktura, səhiyyə xidmətlərinin yüksək keyfiyyət standartlarına, nəqliyyat

rahatlığına fikir verirdilər və bunların əsasında lider ölkələrin ortaq xüsusiyyətləri müəyyən olunurdu. İndi isə ölkədən daha çox sağlamlıq mərkəzlərinin xüsusiyyətlərinin ön plana çıxdığı görülür.

Turistlər müxtəlif səbəblərdən sağlamlıq turizmində iştirak edirlər və bu səbəblər ölkələr üzrə tələbatı da formalaşdırır. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

- Əsas gəlirlərini sağlamlıq turizmindən əldə edən və tibbi xidmətlərin inkişafına görə fərqlənən ölkələr (Sinqapur, Tayland)
- Ölkənin coğrafi və siyasi üstünlüklərinə görə turistlərin daha çox seçdiyi ölkələr (İordaniya, Braziliya, İran)
- Səhiyyə xidmətlərinin keyfiyyəti və texnoloji təchizatının yüksək səviyyəsinə görə turistlərin seçimində üstünlük verdikləri ölkələr (ABŞ, Almaniya)
- Ölkədəki sağlamlıq turizmi sahəsində çeşidli xidmətlər təqdim etdiyinə görə turistlər tərəfindən seçilən ölkələr (Macarıstan, Hindistan, İspaniya)
- Xaricdə təhsil alan ixtisaslı həkimlərin xidmətinin təqdim edildiyi ölkələr (Hindistan, Malta, Malayziya)
- Coğrafi yerləşmə, turizm təcrübəsi, tibdə qabaqcıl texnologiya, keyfiyyətli səhiyyə xidməti, iqtisadi xərclər və s. üstünlüklərinə görə turistlər tərəfindən seçilən ölkələr (Türkiyə, İsrail, Malayziya)

Xəstələrin müalicə üçün səyahət etməsinin müxtəlif səbəbləri var. Bu səbəblər öz növbəsində sağlamlıq turizminə olan tələbi müəyyənləşdirir. Bunları ümumiləşdirməklə, dünyadakı qloballaşma prosesini, gözləmə müddətini, qabaqcıl texnika və texnologiyaya sahib olan və beynəlxalq miqyasda daha çox tibbi tədqiqatların aparıldığı ölkələrdə müalicə almaq arzusunu, informasiya və kommunikasiya texnologiyasında sürətli inkişafı, milli səhiyyə sistemlərində yaşanan problemləri və qeyri-kafi sağlamlıq sistemlərini, məhsul dəyişikliyini, istehlakçı məlumatlılığı, sektorların yeni bazar axtarışlarını, inkişaf etmiş ölkələrdə tibbi xidmətlərin bahalı olması və eyni xidməti digər ölkələrdə daha ucuz əldə edilə bilmək imkanları və psixoloji təsirini, xəstələrin öz ölkəsindən fərqli olaraq başqa bir ölkədə daha keyfiyyətli xidmət ala bilmək psixologiyasını, sahib olduqları sağlamlıq sığortası ilə əlaqədar problemləri, xroniki xəstələrin, yaşlılar və ya əlillərin başqa yerlərə getmək və müalicə almaq istəməsini, narkotik və müxtəlif asılılıqları olan insanların fərqli və ya daha uyğun mühitlərdə olma arzularını, öz ölkələrində yüksək sağlamlıq xərclərini, əhalinin sayının xüsusi çəkisində yaşlı insanların sayının artmasını, tətil vərdişi olan və səyahət edərkən xroniki xəstəliklərinin müalicəsini tapmaq istəyini qeyd etmək olar.

İnkişaf etmiş ölkələrdə səhiyyə xidməti baha başa gəlir. Bu səbəbdən inkişaf etmiş ölkələrdə qocalan əhali üçün səhiyyə xərclərinin payı gündən-günə artmaqdadır. Artan səhiyyə xərcləri yerli sosial təminat qurumlarına, sığorta şirkətlərinə və digər ödəniş qurumlarına problemlər yaradır. Bu səbəbdən inkişaf etmiş ölkələrin sosial təminat və özəl sığorta qurumları keyfiyyətli səhiyyə

xidmətləri göstərən digər ölkələrlə müqavilə bağlayaraq səhiyyə xidmətlərinin qiymətini azaltmağa çalışırlar.

Coğrafi bölgə və ya sosial-mədəni mühit fərqli tələblər və gözləntilər yaratsa da, hansı ölkədən, sosial təbəqədən, etnik mənsubiyyətdən, dini inancdan asılı olmayaraq, bütün insanların əsas tələbi və gözləntisi etibarlı bir mühitdə keyfiyyətli səhiyyə xidmətləri görməkdir. Bu gözləntiləri sağlamlıq turizminin növləri üzrə qruplaşdırmaq olar:

Tibbi turizm (və ya kliniki turizm) xidmətlərinə tələb onu iki fərqli növə ayırır. *Estetik tibbi turizm* yaşayış səviyyəsini yüksəltmək, həyat keyfiyyətini və fiziki görünüşü yaxşılaşdırmaq üçün həyata keçirilən tədbirlər toplusudur. Bu sahədə ən çox təqdim olunan xidmətlər saç əkimi, implant, göz, sinə, burun, üz estetikliyi, qarın çəkmə əməliyyatı, liposaksiya, bədən estetiyi, botoks, lazer müalicələridir. Bunlar zəruri hesab edilməyən lakin fərdi xüsusiyyətlərdən asılı olaraq həyat keyfiyyətinə təsir edən amillərdir. *Medikal (kliniki) tibbi turizm* müalicə almaq, sağlamlıqlarını bərpa etmək və həyati funksiyalarını qorumaq üçün xəstələrin üstünlük verdiyi bir turizm növüdür. Ən çox seçilən tibbi müdaxilə növləri arasında xərçəng və ürək əməliyyatı, beyin şişi müalicəsi və kök hüceyrə müalicələri ilk sırada dayanır. Bu xəstəliklərin müalicəsində nəzərə alınan əsas amillərdən biri qiymətlərdir. Tibbi turistlər müalicə almaq istədikləri ölkələr haqqında məlumat alır, sonra isə alternativlər arasında seçim edirlər. Qiymət faktorlarından başqa tibbi turizm məkanının cəlbediciliyinə təsir edən amillərə bölgənin mədəniyyəti, məsafə, tibb üzrə ixtisaslaşma və ölkənin tibbi turizmdə nüfuzu aiddir [5].

Termal turizm isə əsasən Avropada – Çexiya, Macarıstan, Fransa, Rusiya, Ukrayna və s. ölkələrdə daha çox inkişaf edib. Bu ölkələrdəki mövcud müalicə-sağlamlıq müəssisələri ixtisaslaşdırılmış sanatoriya və sağlamlıq xidmətləri təklif edir. Termal sağlamlıq turizmindən istifadə edənlər müvafiq infrastrukturun olmasına, təbii termal su mənbələrinin olması və termal suyun fiziki və kimyəvi, bakterioloji tərkibinə, ətraf mühitin sağlamlığına, nəqliyyat və transfer standartlarının təmin edilməsinə, yüksək ixtisaslı tibbi və turizm işçisinin olmasına, müasir tibbi texnologiyaya, keyfiyyətli xidmət standartlarına və s. əhəmiyyət verirlər.

Yaşlı və ya 3-cü yaş turizmində yaşlılara qayğı göstərilə biləcək xidmətlərə və təcrübəyə ehtiyac duyulur. Yaşlılara qayğı dedikdə yaşlıların yalnız yaxşı bir gün keçirməsini təmin etmək nəzərdə tutulmur. Bu turizm növü yaşlılıq səbəbindən fiziki fəaliyyət potensialı gündən-günə azalan insanların mümkün qədər aktiv qalması üçün təklif olunan xidmətlər toplusunu yaradır.

Bu qrupdakı şəxslər ümumilikdə uyğun təbii-iqlim şəraitinin olduğu ərazilərə üstünlük verirlər. Ucuzluq, ərazi üzrə sağlamlıq xidmətlərinin yayılması, bölgəyə girişin asanlığı bu qrupdan olan şəxslərin seçim edərkən üstünlük verdikləri əsas şərtlərdir. Lakin bütün yaşlı insanların gözləntiləri eyni olmadığından, bəzilərinin xəstəliklər və ya fiziki qabiliyyət fərqləri yaşlılara qulluq üçün alt tətbiq sahələrinin ortaya çıxmasına səbəb oldu. Yaşlı turizmini bir

neçə alt tətbiq sahələrinə bölmək mümkündür ki, bunlara sağlam qocalara qulluq, palliativ (termal dövr) yaşlılara qulluq, xroniki xəstəliyi olan yaşlılara qulluq, reabilitasiya və müalicə prioritetli qocalara baxım aid edilir.

Sağlamlıq imkanları məhdud şəxslər üçün turizmin əsas iştirakçılarının tələbləri onların əlilliyi olduğu sahələr üzrə müəyyənləşir. Əlillik dərəcəsinə görə bu turizm növündə iştirak edən turistlərin əsas tələbləri məlumatların, nəqliyyatın, infrastrukturun və xidmətin əlçatanlığı kimi amillər aid edilirş

Turistlərin əsas motivasiya mənbəyi isə turizm məhsulunun qiymətidir. Xüsusilə inkişaf etmiş ölkələrdə sağlamlıq xidmətləri təklif edən müəssisələrin daha çox özəl sektorların əlində cəmləşməsi bu ölkələrdən olan xəstələrin sərfəli qiymət axtarışına çıxmasına səbəb olmuşdur. Göndərən ölkə ilə qəbul edən ölkə arasında valyuta fərqi və göndərən tərəfin valyuta nisbətinin üstün olması da turistlər üçün cəlbedici xarakter daşıyır.

Növündən asılı olmayaraq sağlamlıq turizminin bütün sahələrində təklif olunan xidmətlər, onların keyfiyyəti, həkim və sağlamlıq işçilərinin təhsili, potensialı və ərazinin əlçatanlığı əsas amillər olaraq vurğulanır. Turistlər arasında keçirilmiş sorğu nəticəsində əlavə faktorların da onları sağlamlıq turizmində iştirak etməsi üçün motivasiya etdiyi müəyyən olunmuşdur. Ərazi üzrə ətraf mühitin vəziyyəti, iqlim, mədəniyyət və əhalinin adət-ənənələri və s. faktorlar da əsas götürülür.

Sağlamlıq turizmində təklif olunan xidmətlər dörd əsas istiqamətlər üzrə qruplaşdırılır ki, bunlara yaşlılara qulluq xidmətləri, sağlamlığın təbliği xidmətləri, reabilitasiya xidmətləri və müalicə ilə əlaqəli xidmətlər aid edilir. Ardıcıl olaraq bunlara nümunə kimi spesifik xəstəliyi olmayan sadəcə baxım məqsədilə səyahət edən yaşlılar üçün xidmətlər, SPA, masaj, bitki müalicəsi kimi alternativ tamamlayıcı xidmətlər, dializ kimi spesifik asılılıqlarla mübarizə proqramları, xəstəliklərlə bağlı tibbi turizm göstərilə bilər. Bunlara müvafiq olaraq bir sıra ölkələrdən təhlillər aşağıda əks olunmuşdur:

İsrailə tibbi məqsədlə turistlər daha çox Avropa (xüsusən Şərqi Avropa), MDB ölkələri, ABŞ, Avstraliya, Kipr və Cənubi Afrikadan gəlirlər. Tibbi turistlər İsrailə sümük iliyi nəqli, ürək əməliyyatı və kateterizasiya, onkoloji və nevroloji müalicə, ortopedik prosedurlar, avtomobil qəzalarının bərpası daxil olmaqla müxtəlif cərrahi prosedur və müalicə üçün gəlirlər. İsrailin bu sektorda populyarlığı, yüksək keyfiyyətli tibbi xidmətə sahib olan inkişaf etmiş bir ölkə statusu ilə yanaşı, bir çox inkişaf etmiş ölkələrə nisbətən daha az tibbi xərclərinin olmasıdır. Amerikalılar arasında isə İsraildə təklif olunan ortopedik prosedurlar məşhurdur, çünki İsraildəki bu prosedurların dəyəri ABŞ-a nisbətən təxminən yarı qiymətədir. İsraildəki tibbi turistlər həm dövlət, həm də özəl xəstəxanalardan istifadə edirlər. İri İsrail xəstəxanalarında tibbi baxımdan eyni dərəcədə yüksək standartlara cavab verən digər müəssisələrə nisbətən müqayisəli prosedurlardan ucuz başa gələn tibbi turizm paketləri təklif olunur. Statistik məlumatlarda 2018-ci ildə İsrailə 500 min tibbi turistin gəldiyi qeyd edilir. Bu tibbi turistlər yerli xəstələrdən fərqli olaraq güzəştli müalicə alırlar. Bundan əlavə, bəzi insanlar Ölü

dənizi və Təbəriyyə gölündəki müalicə-sağlamlıq mərkəzlərini ziyarət etmək üçün İsrailə gəlirlər.

İrana 2012-ci ildə 30 min, 2015-ci ildə isə 150 – 200 min nəfər turist tibbi məqsədlərlə gəlib. Hazırda bu rəqəmin 500 minə çatdığı qeyd edilir. İranda Hepatit B və C virusu infeksiyası üçün aşağıbüdcəli müalicə xidməti mövcuddur və bu infeksiyalara qarşı xüsusilə Orta Şərq ölkələrindən olan insanlara təqdim edilə bilən unikal təcrübə var. Bundan əlavə İrandakı əczaçılıq şirkətləri Hepatit B və C virusu infeksiyalarına nəzarət üçün lazım olan dərmanları çox aşağı qiymətlərlə və yüksək keyfiyyət ilə istehsal edirlər.

Qabaqcıl tibbi texnologiyanın mövcudluğu və həkimlərin yüksək peşəkarlığı ABŞ-a tibbi yardım üçün gedən əcnəbilərin sayının artmasına səbəb olan motivator kimi göstərilir. ABŞ-da bir sıra böyük tibb mərkəzləri və tədris xəstəxanalarında müalicə almaq istəyən və xarici ölkələrdən olan xəstələrə xidmət göstərən beynəlxalq tibb mərkəzləri var. Bu müəssisələrin əksəriyyəti beynəlxalq xəstələrə tibbi yardım, yaşayış, maliyyə və təcili yardım xidmətləri daxil olmaqla nəqliyyatla təmin olunmaq üçün xidmət paketləri təklif edir.

2015-ci ildən açıq ürək əməliyyatından tutmuş digər xəstəliklərin müalicəsi üçün mümkün olan xidmətləri təklif edən Tayland 2,81 milyon xəstəni cəlb edərək tibbi turizm üçün məşhur bir məkana çevrildi. Rəsmi statistikasına görə 2017-ci ildə Taylanda gələn tibbi turistlərin sayı 3,3 milyon, 2018-ci ildə isə bu rəqəm 3,5 milyona çatmışdır.

Azərbaycan İran, Türkiyə, Gürcüstan və Rusiyadan tibbi turizm üçün gələn turistlərin hədəfidir. Bakıda son illərdə beynəlxalq təcrübəni tətbiq etmək üçün klinikalar inşa edilib və Avropanın müxtəlif ölkələrindən olan işçi heyəti buraya cəlb edilib. Bununla belə, ölkəmizə daha çox kurort turizm məqsədilə gəlinir və perspektivlər bu istiqamətdə daha çoxdur. Bunu, Naftalan, Duzdağ, mineral və termal suların bu istiqamətdəki istifadəsi ilə əsaslandırmaq olar.

2017-ci ildə Almaniya xəstəxanalarına 1,2 milyard avrodan çox gəlir gətirən 250 000 xarici xəstə daxil olub. Bəziləri səyahət zamanı gözlənilmədən xəstələnən qonaqlar idi, lakin xarici xəstələrin 40%-dən çoxu planlı şəkildə müalicə üçün gəlib. Müalicə məqsədi ilə ölkəyə gələn turistlərin əksəriyyəti Polşa, Niderland və Fransadan idi. Buraya Orta Şərqdən gələn turistləri də aid etmək olar. Almaniyada universitet xəstəxanaları və Berlindəki University Hospital Freiburg və ya Vivantes kimi böyük bələdiyyə klinikaları tibbi turizm üçün ən məşhur yerlərdir. Hallwang Clinic GmbH ABŞ, İngiltərə, Avstraliya və Yaxın Şərqdən olan xəstələri özünə cəlb edən və Almaniyada xərçəng xəstəliyinin müalicəsində ən yüksək səviyyəli klinikadır.

Türkiyədəki tibbi müalicələrin dəyəri Qərbi Avropa ölkələrinin təklif etdiyi xidmətlərin qiyməti ilə müqayisədə olduqca uyğundur. Buna görə də hər il minlərlə insan tibbi müalicələr üçün Türkiyəni seçir (2018-ci ildə 578 min turist). Buraya səyahət edən tibbi turistlərin 67%-i özəl xəstəxana, 24%-i dövlət xəstəxanası və 9%-i universitet xəstəxanalarından istifadə etmişdir. Türkiyə xüsusilə saç transplantasiyası əməliyyatı üçün əsas mərkəzə çevrilir.

NƏTİCƏ

Tədqiqat göstərir ki, sağlamlıq turizmi müasir iqtisadiyyatda yüksək gəlirli və strateji əhəmiyyətli bir sahəyə çevrilmişdir. Əvvəlki dövrlərdəki dövlət mərkəzli "yollayış" modelinin müasir bazar tələblərinə uyğunlaşdırılması, xüsusilə dövlət-özəl sektor tərəfdaşlığı formatında inkişaf etdirilməsi zəruridir. Azərbaycanda sağlamlıq turizminin payını artırmaq üçün sığorta əsaslı maliyyələşmə sisteminə keçid sürətləndirilməli, yerli təbii resurslar (Naftalan nefti, termal sular və s.) beynəlxalq standartlara cavab verən müasir infrastrukturla birləşdirilməlidir. Sosial turistlərin ümumi turist axınına inteqrasiyası həm iqtisadi səmərəliliyin artmasına, həm də cəmiyyətin sosial müdafiəsinin güclənməsinə xidmət edəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK). *İllik statistik hesabatlar və sanatoriya-kurort fəaliyyəti haqqında məlumat bülletenləri.* Bakı, 2020-2023.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. *Azərbaycanda turizm: Statistik məcmuə.* Bakı, 2022.
3. World Tourism Organization (UNWTO). *International Tourism Highlights: 2019 Edition.* Madrid: UNWTO, 2019.
4. World Health Organization (WHO). *Medical Tourism: Global Health Policy and Quality Standards.* Geneva, 2021.
5. Кусков, А.С. Рекреационная география / А.С. Кусков, В.Л. Голубева, Т.Н. Одинцова. Москва: Флинта, – 2005. – 503 с.
6. https://www.stat.gov.az/source/tourism/

Məqalənin redaksiyaya daxilolma tarixi: 30.06.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 02.07.2026
Məqalənin çapa qəbul olunma tarixi: 20.07.2026

Sənubər CABBAROVA
DOI: doi.org/10.61226/12.2.2023/20262.18
Azərbaycan Turizm və Menecment Universiteti,
tarix üzrə fəlsəfə doktoru, baş müəllim
Gsanubar9@gmail.com
https://orcid.org/0009-0008-4434-387X

AZƏRBAYCANIN BEYNƏLXALQ MƏDƏNİ ƏMƏKDAŞLIĞINDA TÜRKSOY-UN ROLU

Xülasə

Azərbaycan Respublikası ilə TÜRKSOY arasında mədəniyyət sahəsində mövcud olan əməkdaşlıq əlaqələri geniş və davamlı xarakter daşıyır. Bu əməkdaşlığın əsasını Azərbaycanın türk dünyasına və mədəniyyətinə bəxş etdiyi zəngin və çoxşaxəli mədəni irs təşkil edir. Azərbaycan mədəniyyətinin müxtəlif sahələrdəki nailiyyətləri – ədəbiyyat, musiqi, teatr, incəsənət, folklor və xalq sənəti - TÜRKSOY çərçivəsində digər türk dövlətləri ilə paylaşılaraq ortaq mədəni dəyərlərin möhkəmləndirilməsinə xidmət edir. Təşkilatın yaradıldığı ilk illərdən etibarən Azərbaycanda və türk dünyasının digər ölkələrində mədəniyyətin inkişafına yönəlmiş çoxsaylı tədbirlər həyata keçirilmişdir: konfranslar, sərgilər, festivallar, simpoziumlar və elmi seminarlar bu əməkdaşlığın nümunələridir. Qarşılıqlı iştirak ənənəsi formalaşmış və mədəniyyətlərarası dialoq sistemli şəkildə təşviq edilmişdir.

Azərbaycan-TÜRKSOY əməkdaşlığı yalnız mədəniyyət mübadiləsi ilə məhdudlaşmır, eyni zamanda, türk xalqlarının ortaq mədəni irsinin qorunması və gələcək nəsillərə ötürülməsi üçün strateji bir platforma rolunu oynayır. Beləliklə, Azərbaycan Respublikası və TÜRKSOY arasındakı əməkdaşlıq həm ölkəmizin zəngin mədəni irsinin qorunmasına, həm də türk xalqları arasında mənəvi və mədəni bağlılığın gücləndirilməsinə mühüm töhfələr verməkdədir. Bu əməkdaşlıq vasitəsilə Azərbaycan, beynəlxalq mədəni platformalarda öz mədəni dəyərlərini tanıtmaqla yanaşı, digər türk dövlətləri ilə ortaq layihələr və proqramlar həyata keçirərək bölgədə mədəni inteqrasiyanı təmin edir.

Məqalədə Azərbaycanın beynəlxalq mədəni əməkdaşlıq fəaliyyətləri çərçivəsində TÜRKSOY-un rolu geniş təhlil olunmuş, təşkilatın ölkəmizin mədəni diplomatiyasına verdiyi töhfələr, türk dünyasında mədəni əlaqələrin gücləndirilməsi və ortaq layihələrin həyata keçirilməsi kimi aspektlər ətraflı şəkildə qeyd edilmişdir.

Açar sözlər: *Azərbaycan, Türkiyə, TÜRKSOY, tarix, mədəniyyət, əməkdaşlıq.*

Sanubar Jabbarova

THE ROLE OF TURKSOY IN AZERBAIJAN'S INTERNATIONAL CULTURAL COOPERATION

Summary

The existing cooperation relations in the field of culture between the Republic of Azerbaijan and TURKSOY are both extensive and continuous. The foundation of this cooperation is the rich and diverse cultural heritage that the Azerbaijani people have given to the Turkic world and the pan-Turkic culture. The achievements of Azerbaijani culture in various fields - literature, music, theater, art, folklore and folk art - are shared with other Turkic states within the framework of TURKSOY, serving to strengthen common cultural values. Since the first years of the organization's establishment, numerous events aimed at the development of culture have been held in Azerbaijan and other countries of the Turkic world; conferences, exhibitions, festivals, symposiums and scientific seminars are examples of this cooperation. A tradition of mutual participation has been formed and intercultural dialogue has been systematically promoted. Azerbaijan-TURKSOY cooperation is not limited only to cultural exchange; at the same time, it plays the role of a strategic platform for the preservation and transmission of the common cultural heritage of the Turkic peoples to future generations. Thus, the cooperation between the Republic of Azerbaijan and TURKSOY makes significant contributions to both the preservation of the rich cultural heritage of our country and the strengthening of spiritual and cultural ties between the Turkic peoples. Through this cooperation, Azerbaijan, in addition to promoting its cultural values on international cultural platforms, ensures cultural integration in the region by implementing joint projects and programs with other Turkic states.

The article extensively analyzes the role of TURKSOY within the framework of Azerbaijan's international cultural cooperation activities, and details aspects such as the organization's contributions to the cultural diplomacy of our country, strengthening cultural ties in the Turkic world, and implementing joint projects.

Keywords: *Azerbaijan, Turkey, TURKSOY, history, culture, cooperation.*

Санубар Джаббарова

РОЛЬ ТЮРКСОЙ В МЕЖДУНАРОДНОМ КУЛЬТУРНОМ СОТРУДНИЧЕСТВЕ АЗЕРБАЙДЖАНА

Абстракт: Существующие отношения сотрудничества в области культуры между Азербайджанской Республикой и ТЮРКСОЙ являются обширными и продолжительными. Основой этого сотрудничества является богатое и разнообразное культурное наследие, переданное азербайджанским

народом тюркскому миру и общетюркской культуре. Достижения азербайджанской культуры в различных областях -литературе, музыке, театре, искусстве, фольклоре и народном творчестве – передаются в рамках ТЮРКСОЙ другим тюркоязычным государствам, служа укреплению общих культурных ценностей. С первых лет существования организации в Азербайджане и других странах тюркского мира были проведены многочисленные мероприятия, направленные на развитие культуры; конференции, выставки, фестивали, симпозиумы и научные семинары являются примерами этого сотрудничества. Сформировалась традиция взаимного участия и систематически продвигается межкультурный диалог.

Сотрудничество между Азербайджаном и ТЮРКСОЙ не ограничивается только культурным обменом; оно также играет роль стратегической платформы для сохранения и передачи общего культурного наследия тюркских народов будущим поколениям. Таким образом, сотрудничество между Азербайджанской Республикой и ТЮРКСОЙ вносит значительный вклад как в сохранение богатого культурного наследия нашей страны, так и в укрепление духовных и культурных связей между тюркскими народами. Благодаря этому сотрудничеству Азербайджан, помимо продвижения своих культурных ценностей на международных культурных площадках, обеспечивает культурную интеграцию в регионе посредством реализации совместных проектов и программ с другими тюркскими государствами.

В статье подробно анализируется роль ТЮРКСОЙ в рамках международного культурного сотрудничества Азербайджана, а также рассматриваются такие аспекты, как вклад организации в культурную дипломатию нашей страны, укрепление культурных связей в тюркском мире и реализация совместных проектов.

Ключевые слова: *Азербайджан, Турция, ТЮРКСОЙ, история, культура, сотрудничество.*

GİRİŞ

Müasir beynəlxalq münasibətlər sistemində mədəni diplomatiya dövlətlərin xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi çıxış edir. Qloballaşma şəraitində mədəniyyət xalqlar arasında qarşılıqlı anlaşmanın, etimadın və əməkdaşlığın möhkəmləndirilməsində mühüm vasitəyə çevrilmişdir. Bu baxımdan ortaq tarixə, dilə, mədəniyyətə və mənəvi dəyərlərə malik türk xalqları arasında mədəni əlaqələrin inkişaf etdirilməsi xüsusi aktuallıq kəsb edir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsini xarici siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir. Bu əməkdaşlıq çərçivəsində türk dünyası ilə mədəni əlaqələrin inkişafı, ortaq tarixi-mədəni irsin qorunması və beynəlxalq səviyyədə təbliği dövlətin mədəniyyət siyasətinin mühüm tərkib

hissəsinə çevrilmişdir. Məhz bu baxımdan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY Azərbaycan üçün yalnız mədəni əməkdaşlıq platforması deyil, həm də mədəni diplomatiyanın həyata keçirilməsi, türk xalqları arasında inteqrasiyanın gücləndirilməsi və ümumtürk mədəni irsinin qorunmasına xidmət edən mühüm beynəlxalq institut kimi çıxış edir.

Məqalənin məqsədi Azərbaycanın beynəlxalq mədəni əməkdaşlıq sistemində TÜRKSOY-un rolunu araşdırmaq, təşkilat çərçivəsində həyata keçirilən mədəni layihələri, Azərbaycanın bu prosesdə iştirakını və əldə olunan nəticələri elmi baxımdan təhlil etməkdir. Tədqiqat zamanı tarixi-müqayisəli, sistemli təhlil, təsviri və analitik metodlardan istifadə edilmiş, mövzu ilə bağlı elmi ədəbiyyat, rəsmi sənədlər və statistik məlumatlar araşdırılmışdır**.**

1991-ci ildə Sovet İttifaqının dağılması ilə Azərbaycan müstəqillik əldə edərək öz dövlətçiliyini bərpa etdi. Bu tarixi hadisə yalnız siyasi müstəqillik deyil, həm də milli kimliyin, mədəniyyətin və tarixə bağlılığın yenidən qurulması prosesini başlatdı. Azərbaycanın müstəqillik əldə etməsi, xalqın azadlıq və öz müqəddəratını təyin etmə hüququna olan inamının təntənəsi idi. Bu proses, ölkənin daxili və xarici siyasətində yeni istiqamətlərin müəyyənləşdirilməsini tələb edirdi. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan Respublikasında siyasi sabitlik bərqərar oldu. Bu hadisə ölkənin daxili siyasi həyatında mühüm dönüş nöqtəsi kimi dəyərləndirilir, çünki uzunmüddətli siyasi qeyri-sabitlik və iqtisadi çətinliklərdən sonra dövlətin idarə olunması sistemində yeni nizam-intizam təmin edildi. Siyasi sabitliyin bərqərar olması ilə paralel olaraq dövlət quruculuğu sahəsində genişmiqyaslı islahatlar həyata keçirilməyə başlandı; qanunvericilik bazasının gücləndirilməsi, inzibati strukturun modernləşdirilməsi, hüquq və iqtisadi sistemin təkmilləşdirilməsi bu prosesin əsas komponentləri oldu.

Bu dövr həmçinin Azərbaycanın müstəqilliyinin qorunması və möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edirdi. Ölkə yalnız siyasi müstəqilliyini deyil, həm də milli kimliyini və mədəni suverenliyini möhkəmləndirməyə başladı. Azərbaycanın əldə etdiyi siyasi stabillik, türk dünyası ilə əlaqələrin genişləndirilməsi üçün əlverişli zəmin yaratdı. Bu imkanlar çərçivəsində ölkəmiz, türk dövlətləri ilə mədəni, elmi və incəsənət sahələrində əməkdaşlıq təşəbbüslərini gücləndirə bildi.

Bundan əlavə, Heydər Əliyevin rəhbərliyi ilə atılan addımlar ölkənin beynəlxalq arenada mövqeyinin möhkəmlənməsinə və regional mədəni əməkdaşlığın inkişafına təkan verdi. Azərbaycanın mədəniyyət diplomatiyası bu dövrdə aktivləşdi, TÜRKSOY kimi beynəlxalq mədəni təşkilatlarla sıx əlaqələr quruldu, türk dünyasının ortaq mədəni irsinin qorunması və təbliği istiqamətində müxtəlif layihələr həyata keçirildi. Nəticədə ölkədə siyasi stabillik və dövlət quruculuğu sahəsində başlanan islahatlar həm daxili inkişafı təmin etdi, həm də Azərbaycanın türk dünyası ilə mədəni əməkdaşlıq imkanlarını əhəmiyyətli dərəcədə genişləndirdi.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan beynəlxalq aləmdə öz mövqeyini möhkəmləndirmək və dünyaya inteqrasiya olunmaq üçün fəal siyasət yürütməyə başladı. Bu inteqrasiya həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə özünü göstərmişdir. Azərbaycanın beynəlxalq aləmlə əlaqələrinin inkişafı onun dövlətçilik və diplomatiya sahəsində uğurlarını gücləndirmiş, ölkəni regionda strateji tərəfdaş kimi tanıtmışdır.

Beynəlxalq aləmə inteqrasiyanın vacib istiqamətlərindən biri də mədəni və humanitar əməkdaşlıqdır. Bu baxımdan, Azərbaycanın türk dünyası ilə əlaqələri xüsusi əhəmiyyət kəsb edir. 1993-cü ildə Azərbaycan TÜRKSOYA üzv oldu. Bu addım Azərbaycanın yalnız mədəniyyət sahəsində deyil, həm də diplomatik və iqtisadi əlaqələrini gücləndirmək istiqamətində atdığı strateji addımlardan biri idi.

TÜRKSOY Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə 1992-ci ildə İstanbul və Bakı şəhərlərində keçirilmiş Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan respublikaları mədəniyyət nazirlərinin görüşləri zamanı əldə edilmiş razılaşmalar əsasında yaradılmış, 1993-cü il iyulun 12-də isə Almatı şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistanın mədəniyyət nazirlərinin iştirakı ilə keçirilən iclasda "Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı"nın təsis olunması barədə saziş imzalanmışdır. Sonralar TÜRKSOY haqqında Müqaviləyə müşahidəçi ölkələr simasında Başqırdıstan və Tatarıstan muxtar respublikaları, Şimali Kipr Türk Respublikası, Xakasiya, Tuva, Çuvaşiya və Qaqauziya, Altay respublikaları da qoşuldular. Beləliklə, hazırda TÜRKSOY-a 6 üzv və 8 müşaidəçi ölkə daxildir [2, s. 366]

Türk xalqları, zəngin və qədim mədəni irslərinə arxalanaraq, tarixdən gələn fürsətlərdən yararlanaraq milli-mədəni özünüifadə və yenidənqurma istiqamətində mühüm addımlar atmağa başladılar. Eyni soydan, dilindən, tarix və mədəniyyətindən, adət-ənənəsindən gələn xalqlarımız arasında mənəvi əlaqələri gücləndirmək və bu prosesləri məqsədəuyğun şəkildə yönəltmək məqsədilə TÜRKSOY təşkilatının həmin dövrdə yaradılması vaxtında və əhəmiyyətli bir təşəbbüs oldu. Qeyd edək ki, Azərbaycan və Türkiyə rəhbərlərinin siyasi iradəsi ilə atılan addımlar nəticəsində Azərbaycan Respublikası beynəlxalq mədəni əməkdaşlıq təşkilatı olan TÜRKSOY-un təsisçilərindən biri kimi çıxış etdi.

TÜRKSOY yaradıldığı gündən bəri türk xalqlarının mənəvi birliyini və qardaşlıq münasibətlərini gücləndirmək, ortaq türk mədəniyyətini gələcək nəsillərə çatdırmaq və dünyada tanıtmaq istiqamətində fəaliyyət göstərir. Təşkilatın əsas fəaliyyət istiqaməti, dünyanın müxtəlif guşələrində yaşayan türkdilli xalqlar arasında mədəni yaxınlığı təmin etmək və onların zəngin mədəni irslərini qarşılıqlı şəkildə tanıtmaqdır. Təşkilat türk xalqlarının tarixi, ədəbiyyatı, musiqisi, incəsənəti və digər mədəniyyət sahələrini öyrənmək, qorumaq və gələcək nəsillərə çatdırmaq məqsədini daşıyır. Bu baxımdan TÜRKSOY yalnız mədəniyyətin qorunması ilə kifayətlənmir, eyni zamanda türk xalqlarının ortaq mədəni dəyərlərini dünya

ictimaiyyətinə tanıtmaq və onların mənəvi birliyini gücləndirmək üçün platforma rolunu oynayır. Təşkilatın fəaliyyətləri arasında sərgilər, konfranslar, festivallar, təhsil proqramları və nəşrlər də yer alır ki, bunlar da türk xalqlarının mədəni irsini daha geniş auditoriyaya çatdırmağa xidmət edir. Nəticədə TÜRKSOY, türk dünyasında mədəni dialoqun inkişafına, xalqlar arasında qarşılıqlı anlaşmanın və əməkdaşlığın möhkəmlənməsinə əhəmiyyətli töhfələr verir [1, s.8-10].

Türk dünyası ilə qlobal miqyasdakı mədəniyyət və incəsənət mühiti arasında davamlı və dayanıqlı qarşılıqlı təsir yaradan TÜRKSOY-un fəaliyyəti, təsis olunduğu vaxtdan etibarən üzv dövlətlərin rəhbərlərinin himayəsi altında həyata keçirilmiş və onların rəğbətini qazanmışdır [7].

TÜRKSOY-un yaradılması, həmçinin Azərbaycanın beynəlxalq mədəni əməkdaşlıq sahəsindəki fəaliyyətinin genişlənməsinə və türk dünyası ilə əlaqələrinin möhkəmləndirilməsinə xidmət etdi. Təşkilatın fəaliyyəti çərçivəsində keçirilən tədbirlər, sərgilər, festivallar və digər mədəni layihələr, türk xalqlarının mədəniyyətlərinin dünyaya tanıdılması və ortaq mədəni dəyərlərin təşviqi istiqamətində mühüm rol oynadı.

1996-cı il noyabrın 6-da TÜRKSOY-un Bakıda təşkil olunan VIII Zirvə toplantısında çıxış edən Ümummilli lider Heydər Əliyev bu təşkilatla bağlı öz fikirlərini belə ifadə etmişdir: "Mədəniyyətimizi, elmimizi, təhsilimizi, insanların mənəviyyatını daha da yüksəklərə qaldırmaq üçün mədəni, elmi-texniki əlaqələrin inkişaf etdirilməsi çox zəruri vəzifələrdən biridir. TÜRKSOY bu işi görür və indiyə qədər, qısa müddətdə – üç il ərzində toplanmış təcrübə sübut edir ki, bu təşkilat bundan sonra da çox səmərəli fəaliyyət göstərə bilər və ölkələrimiz, xalqlarımız üçün daha çox iş görə bilər. Bu da ondan ibarətdir ki, xalqlarımızın əlaqələrini bir-biri ilə daha da sıx bağlasın. Mədəniyyət, ədəbiyyat vasitəsilə bu əlaqələri daha da genişləndirmək xalqlarımız üçün çox lazımdır, zəruridir" [3]. Bu sözlər Azərbaycanın TÜRKSOY vasitəsilə mədəni və diplomatik əlaqələri strateji prioritet olaraq gördüyünü açıq şəkildə göstərir. Ulu öndər Heydər Əliyevin fikrincə, mədəniyyət və ədəbiyyat xalqlar arasında körpü rolunu oynayır və bu əlaqələri daha da genişləndirmək zəruridir.

TÜRKSOY-un türk xalqlarının ortaq mədəni həyatına verdiyi mühüm töhfələrdən biri, 2012-ci ildən başlayaraq Avropada tətbiq edilən Mədəniyyət Paytaxtı modeli əsasında Türk Dünyasının Mədəniyyət Paytaxtları təşəbbüsünün yaradılmasıdır. Bu təşəbbüsün məqsədi, türk dünyasının mədəniyyət və incəsənət sahələrini canlandırmaq, şəhərlərin mədəni potensialını nümayiş etdirmək və həm yerli, həm də beynəlxalq səviyyədə diqqət mərkəzində saxlanılmasıdır. Layihə çərçivəsində 2012-ci ildə Astana (Qazaxıstan), 2013-cü ildə Eskişehir (Türkiyə), 2014-cü ildə Kazan (Tatarıstan), 2015-ci ildə Mərv (Türkmənistan), 2016-cı ildə Şəki (Azərbaycan), 2017-ci ildə Türküstan (Qazaxıstan), 2018-ci ildə Kastamonu (Türkiyə), 2019-cu ildə Oş (Qırğızıstan), 2020-ci ildə Xivə (Özbəkistan), 2022-ci ildə Bursa (Türkiyə) və 2023-cü ildə isə azadlığına qovuşmuş Şuşa (Azərbaycan) şəhərləri Türk Dünyasının Mədəniyyət Paytaxtları elan edilmişdir [4, s.74-82].

Qeyd edək ki, "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsinin əsası 2010-cu ildə türkdilli ölkə başçılarının İstanbul şəhərində keçirilən 10-cu sammitində qoyulub. Qərara əsasən, Türk dünyasından hər il bir şəhər "mədəniyyət paytaxtı" elan edilir.

2016-cı ildə Azərbaycan mədəniyyətinin incisi sayılan Şəki şəhəri TÜRKSOY tərəfindən "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan olundu. Bu qərar sadəcə bir şəhərə verilən ad deyildi. Bu, əsrlərlə tarix, mədəniyyət və incəsənətlə yoğrulmuş qədim Şəkinin ruhunun dünyaya təqdimatı idi.

2016-cı ilin aprelində Azərbaycanın Şəki şəhərində keçirilən təntənəli açılış mərasimi türk dünyasının mədəniyyət xadimlərini, dövlət rəsmilərini və sənət adamlarını bir araya topladı. Şəkinin tarixi Xan sarayının və qədim karvansaraların divarları arasında səslənən musiqi türk xalqlarının qardaşlığını bir daha xatırlatdı. Şəkinin mədəniyyət paytaxtı olması çərçivəsində teatr tamaşaları, folklor gecələri, rəssamlıq sərgiləri təşkil olundu. Ənənəvi sənətlər – ipəkçilik, xalçaçılıq, şəbəkə ustalığı böyük maraqla qarşılandı. Ədəbi gecələrdə Nizaminin hikmət dolu misraları, Füzulinin eşq fəlsəfəsi, Nəsiminin azadlıq hayqırtısı səsləndi. Bu tədbirlər göstərdi ki, Azərbaycan ədəbiyyatı yalnız bizim deyil, bütün türk dünyasının ortaq xəzinəsidir.

Şəhərin mətbəxi də diqqətdən kənarda qalmadı. Şəki halvasının şirinliyi, piti yeməyinin dadı mədəniyyətin yalnız sənətdə deyil, süfrədə də yaşadığını sübut etdi. Burada qonaqlar bir daha anladılar ki, mədəniyyət sadəcə abidələrdə deyil, gündəlik həyatın hər anında yaşayır.

Amma ən əsası odur ki, bu tədbirlər Şəkiyə yeni bir ruh bəxş etdi. Şəhərin küçələrində müxtəlif xalqlardan gələn sənətkarların dostluqla gəzməsi, musiqilərin birləşib vahid bir ahəng yaratması türk dünyasının birliyinin canlı nümunəsinə çevrildi.

2016-cı ildə Şəki sadəcə bir mədəniyyət paytaxtı olmadı. O, türk xalqlarının ortaq dəyərlərinin yaşadığı bir ev, qardaşlığın simvolu oldu. Bu tarixi hadisə Şəkinin tarixində yeni bir səhifə açdı və Azərbaycan mədəniyyətinin dünyaya tanıdılmasında unudulmaz iz qoydu.

Tədbirlər təkcə əyləncə məqsədi daşımırdı. Onların hər biri Şəkinin zəngin mədəniyyətini dünyaya göstərmək üçün bir fürsət idi. Xan sarayı UNESCO-nun Dünya İrs Siyahısına namizəd kimi xüsusi təqdim olundu. Şəki ipək sənətinin təbliği üçün sərgilər təşkil edildi, "Şəki ipəyi – türk dünyasının mirası" adlı layihə reallaşdırıldı.

Şəki tarixi memarlığı, zəngin folkloru, şirniyyat mədəniyyəti, incəsənəti ilə hər zaman seçilib. TÜRKSOY-un qərarı ilə şəhər bir il boyunca türk xalqlarının mədəniyyətinin görüş yerinə çevrildi. Hər küçədə bir festival ab-havası, hər sarayda bir sənət nəfəsi duyulurdu.

2023-cü ildə Şuşa şəhərinin Türk Dünyasının Mədəniyyət Paytaxtı elan edilməsi həm Azərbaycan üçün, həm də ümumilikdə türk dünyası üçün xüsusi əhəmiyyət kəsb edir, çünki Şuşa Qarabağın mədəniyyət və musiqi mərkəzi kimi

tarixən böyük nüfuza malik olub. TÜRKSOY-un qərarına əsasən, şəhərin Mədəniyyət Paytaxtı statusu onun tarixi irsini qorumaq, mədəni və incəsənət fəaliyyətlərini təşviq etmək, eyni zamanda bölgədə mədəni həyatın canlanmasına dəstək vermək məqsədini daşıyır. Bu addım, həmçinin Azərbaycanın mədəniyyət diplomatiyasını gücləndirir və türk xalqları arasında ortaq mədəni irsin önəmini vurğulayır.

Şuşa şəhərinin Türk Dünyasının Mədəniyyət Paytaxtı elan edilməsi münasibətlə il ərzində bir sıra mühüm tədbirlər həyata keçirildi. May ayında baş tutan möhtəşəm açılış mərasimi ilə başlayan tədbirlər silsiləsi, türk dünyası ilə mədəni əməkdaşlığın gücləndirilməsinə və Şuşanın zəngin mədəni irsinin beynəlxalq aləmdə tanıdılmasına xidmət etdi. İlk olaraq, I Türk Dünyası Mədəniyyət Forumu keçirildi ki, bu da türk xalqları arasında mədəni inteqrasiyanın dərinləşməsi baxımından xüsusi əhəmiyyət daşıdı.

Azərbaycan Milli Kitabxanası tərəfindən hazırlanan "Şuşa-Türk Dünyasının Mədəniyyət Paytaxtı" elektron məlumat bazası ictimaiyyətə təqdim olundu. Bu baza Şuşanın tarixi, mədəni irsi, görkəmli şəxsiyyətləri və 2023-cü ildə həyata keçirilmiş tədbirlər haqqında geniş məlumat təqdim etməklə, həm elmi tədqiqatçılar, həm də gənc nəsil üçün mühüm mənbə rolunu oynadı.

Şuşa ilə bağlı tədbirlər yalnız ölkə daxilində deyil, beynəlxalq səviyyədə də keçirildi. İyul ayında Gürcüstanın Bolnisi, Marneuli və Tbilisi şəhərlərində "Şuşa – Türk Dünyasının Mədəniyyət Paytaxtı" mövzusunda fotosərgilər təşkil olundu. Bu sərgilər, Şuşanın tarixi və mədəni irsinin daha geniş auditoriyaya təqdim edilməsinə şərait yaratdı və gənclər arasında mədəniyyətlərarası dialoqu təşviq etdi.

Ənənəvi "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı da 2023-cü ildə xüsusi məna daşıdı. Tədbir çərçivəsində fərqli ölkələrdən gələn musiqiçilər və kollektivlər çıxış edərək türk xalqlarının musiqi ənənələrini bir araya gətirdilər və mədəniyyətlərarası əlaqələrin daha da möhkəmlənməsinə zəmin yaratdılar.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 6 dekabr tarixli sərəncamı ilə təsdiqlənmiş "Şuşa şəhərinin 2023-cü il üçün Türk Dünyasının Mədəniyyət Paytaxtı elan edilməsi ilə bağlı tədbirlər planı" əsasında isə mədəniyyət, incəsənət və təhsil sahələrini əhatə edən çoxsaylı layihələr reallaşdırıldı.

Beləliklə, 2023-cü ildə Şuşa şəhərinin Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunması çərçivəsində həyata keçirilən tədbirlər, həm Azərbaycanın mədəniyyət diplomatiyasını gücləndirdi, həm də türk dünyasının mədəni inteqrasiyasına töhfə verdi. Bu tədbirlər Şuşanın zəngin irsini yenidən canlandırmaqla yanaşı, şəhərin beynəlxalq miqyasda mədəniyyət mərkəzi kimi mövqeyini daha da möhkəmləndirdi.

Qeyd edək ki, 2024-cü ildə isə Türk Dünyasının Mədəniyyət Paytaxtı statusu Türkmənistanın Anev şəhərinə verilmişdir. Bu seçimin məqsədi, türk dünyasının müxtəlif bölgələrində mədəniyyətin təşviqi və şəhərlərin mədəni potensialının beynəlxalq səviyyədə nümayiş etdirilməsi olmuşdur. Anev şəhərində keçirilən

açılış mərasimi çərçivəsində türk xalqları arasında mədəni əməkdaşlıq layihələri təqdim edilmiş, həmçinin müxtəlif sərgilər, konfranslar və musiqi tədbirləri təşkil olunmuşdur [6]. 2025-ci ildə isə bu şərəfli status Qazaxıstanın Aktau şəhərinə verilmişdir. Açılış mərasimində TÜRKSOY-un Baş Katibi və üzv dövlətlərin mədəniyyət nazirləri iştirak etmiş, şəhərin mədəni və incəsənət sahəsindəki layihələri nümayiş etdirilmişdir. Bu ənənə türk dünyasında mədəniyyətin davamlı inkişafını təmin etməklə yanaşı, üzv ölkələr arasında mədəni dialoqu gücləndirir və bölgədə ortaq mədəni identifikasiyanın formalaşmasına xidmət edir [5].

Azərbaycan ilə TÜRKSOY-un əməkdaşlığı yalnız rəsmi sənədlərdə qalmayan, əslində xalqlar arasında körpü rolunu oynayan bir münasibətdir. Bu əlaqələr türk dünyasının ortaq mədəni sərvətlərinin yaşadılması və gələcək nəsillərə ötürülməsi baxımından əvəzsizdir.

İlk növbədə, mədəniyyət və incəsənət mübadiləsi xüsusi vurğulanmalıdır. Azərbaycan teatr kollektivlərinin səhnə tamaşaları, musiqi ansambllarının ifaları, rəssam və heykəltəraşların yaradıcılığı türkdilli ölkələrin festivallarında daim maraqla qarşılanır. Hər dəfə muğamın ecazkar sədaları, aşıq sənətinin qopuzu və ya xalçalarımızın naxışları TÜRKSOY tədbirlərində nümayiş olunanda, bu təkcə bir sənət nümunəsi deyil, Azərbaycan xalqının ruhunun təcəssümü kimi qəbul edilir.

Ədəbiyyat da bu əməkdaşlığın ən parlaq sahələrindən biridir. Ədəbiyyat və elm sahəsində əməkdaşlıq bizə klassiklərimizi yeni müstəvilərdə tanıtmaq imkanı verir. Nizami Gəncəvinin hikmət dolu misraları, Füzulinin ilahi məhəbbət fəlsəfəsi, Nəsiminin azadlıq ideyaları TÜRKSOY vasitəsilə türk xalqlarının birgə yaddaşına daha dərindən həkk olunur. 2010-cu ildən başlayaraq hər il türk dünyasının bir dahi şəxsiyyətinin adına elan edilir, onunla bağlı silsilə tədbirlər keçirilir. Məsələn, 2012-ci il "Mirzə Fətəli Axundzadə ili", 2017-ci il "Molla Pənah Vaqif ili" , 2021-ci ilin "Nizami Gəncəvi İli" elan olunması Azərbaycanın ədəbiyyatının bütün türk dünyasında bir daha ucaldılması demək idi.

Əməkdaşlığın başqa bir istiqaməti isə ortaq yubileylər və xatirə illəridir. Bu tədbirlər yalnız bir şəxsin xatirəsini yad etmək deyil, türk xalqlarının ortaq köklərini, birgə keçmişini xatırlatmaqdır. Məsələn, "Koroğlu İli"ndə dastan qəhrəmanının igidliyi, ədalət uğrunda mübarizəsi bütün türkdilli ölkələrdə qeyd olunaraq ortaq qəhrəmanlıq mirasına çevrildi.

Nəhayət, musiqi və folklor irsinin təbliği olmadan Azərbaycan – TÜRKSOY münasibətlərini təsəvvür etmək mümkün deyil. Muğamın ilahi ahəngi, aşıqların sazı, xalq mahnılarımızın səmimiyyəti türk dünyasının müxtəlif guşələrində səslənərək qardaş xalqlar arasında duyğu körpüsü yaradır. "Türk dünyası opera günləri", "Türk xalqları musiqi festivalı" kimi layihələr bu mənada böyük önəm daşıyır. 2013-cü ildə Azərbaycan milli musiqi sərvətlərindən biri olan Üzeyir Hacıbəylinin məşhur operettası "Arşın mal alan"ın 100 illiyi təntənəli şəkildə qeyd olundu. Bu tədbirin keçirilməsinin əsəs məqsədlərindən biri də Azərbaycan milli musiqisinin beynəlxalq səviyyədə tanıdılması və Türk dünyasının mədəni irsi ilə paylaşılması idi.

Bu əməkdaşlığın nəticəsi olaraq, operettanın konsert versiyası UNESCO-nun səhnəsində nümayiş olundu. Tədbir həm Azərbaycan mədəniyyətinin zənginliyini, həm də Ü. Hacıbəylinin milli musiqi irsini beynəlxalq aləmə tanıtmaq baxımından böyük əhəmiyyət kəsb edirdi. Konsertdə həm Azərbaycan, həm də digər Türk dövlətlərinin sənətkarları iştirak edərək, əsərin melodiyalarını yüksək peşəkarlıqla təqdim etdilər.

Bu tədbir Azərbaycan ilə TÜRKSOY arasındakı mədəni əməkdaşlığın önəmli nümunəsi sayılır. Eyni zamanda, Ü.Hacıbəyli irsinin qorunması, gələcək nəsillərə ötürülməsi və dünya mədəniyyətinə inteqrasiyası baxımından mühüm addım idi. UNESCO səhnəsində göstərilən bu konsert versiyası, həm milli operetta ənənəsinin beynəlxalq səviyyədə qəbul edilməsinə, həm də Azərbaycan musiqi mədəniyyətinin dünyada tanıdılmasına xidmət etdi.

Bütün bunlar göstərir ki, Azərbaycan - TÜRKSOY əməkdaşlığı sadəcə mədəni tədbirlər toplusu deyil. Bu münasibətlər türk dünyasının birliyini, ortaq köklərini və gələcək ümidlərini ifadə edən mənəvi bir bağdır. Azərbaycan bu bağın qurulmasında fəal iştirak edir və öz zəngin mədəniyyətini qardaş xalqlarla paylaşmaqla, eyni zamanda onların dəyərlərini də özününküləşdirir. Bu əməkdaşlıq həm bu günümüz, həm də sabahımız üçün böyük əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. Beynəlxalq TÜRKSOY təşkilatının XV toplantısında Azərbaycan Respublikasının Mədəniyyət Naziri Polad Bülbüloğlunun çıxışı. “Mədəni-maarif” jurnalı, 2001, № 1-2, s.8-10
2. Heydər Əliyev və Şərq, 6 cilddə, III kitab: Türkiyə Cümhuriyyəti (Müəllif-tərtibçilər: Qaley Allahverdiyev, Vəhdət Sultanzadə). Bakı, “Çaşıoğlu”, 2003, 472 s.
3. Heydər Əliyevin Türksoy Beynəlxalq Təşkilatının Bakıda keçirilən VIII toplantısında nitqi. 6.11.1996. https://islamworld.preslib.az/page/R2jI85tNhb
4. Nadirsoy F. "TÜRKSOY"un yaranması zərurəti və təşkilatın Azərbaycanla əməkdaşlıq tarixi. Tarix, insan və cəmiyyət-2023, 2 (39), s.74-82
5. https://az.baku-art.com/az/aktauda-turk-d-nyasin-n-medeniyy-t-paytaxt-2025-ilinin-ach-l-sh-m-rasimi-ke-irilib
6. https://azertag.az/xeber/2024_cu_il_uchun_turk_dunyasinin_medeniyyet_paytaxti_susadan_turkmenistanin_anev_seherine_oturulub-2846079
7. https://www.turksoy.org/az-AZ/tarihce

Məqalənin redaksiyaya daxilolma tarixi: 02.07.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.07.2026
Məqalənin çapa qəbul olunma tarixi: 20.07.2026

UOT: 338.48:656:004
DOI: doi.org/10.61226/12.2.2023/20262.19
Taleh AĞAZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti,
"Menecment" kafedrasının müəllimi
e-mail: taleh.aghazada@gmail.com
https://orcid.org/0009-0003-3491-2593

AZƏRBAYCANDA DAYANIQLI TURİZM SƏNAYESİNİN İNKİŞAFINDA NƏQLİYYAT SİSTEMİNİN STRATEJİ ƏHƏMİYYƏTİ

Xülasə: Tədqiqatda turizm sənayesinin dayanıqlı inkişafında nəqliyyat sənayesinin rolu və müasir inkişaf meyillərinin tədqiq edilmişdir. Turizm və nəqliyyat sektorları arasında qarşılıqlı əlaqələrin iqtisadi və institusional aspektləri təhlil olunmuş, rəqəmsallaşma və innovativ texnologiyaların nəqliyyat xidmətlərinin inkişafına təsiri araşdırılmışdır.

Tədqiqat zamanı müqayisəli təhlil sistemli yanaşma və analitik qiymətləndirmə metodlarından istifadə olunmuşdur. Müəyyən olunmuşdur ki, nəqliyyat infrastrukturunun inkişafı, rəqəmsal xidmətlərin tətbiqi və logistika sistmelərinin ətkmilləşdirilməsi dayanıqlı turizm modelinin formalaşdırılmasının əsas şərtlərindən biridir.

Tədqiqat işində Azərbaycanda turizm və nəqliyyat sektorlarının inteqrasiyası istiqamətində mövcud problemlər və inkişaf perspektivləri qiymətləndirilmiş, beynəlxalq təcrübə tədqiq edilmiş və sahənin inkişafı üçün bir sıra təkliflər irəli sürülmüşdür.

Açar sözlər: turizmdə nəqliyyat, turizm sənayesi, nəqliyyat sənayesi, dayanıqlı turizm, rəqəmsallaşma, innovativ texnologiyalar, turizm infrastrukturu, Azərbaycan

Taleh AGHAZADA

THE STRATEGIC IMPORTANCE OF THE TRANSPORTATION SYSTEM IN THE DEVELOPMENT OF SUSTAINABLE TOURISM INDUSTRY IN AZERBAIJAN

Abstract: The study examines the role of the transportation industry and modern development trends in the sustainable development of the tourism industry. The economic and institutional aspects of the interrelationship between the tourism and transportation sectors were analyzed, and the impact of digitalization and innovative technologies on the development of transportation services was investigated.

During the research process, comparative analysis, a systematic approach, and analytical evaluation methods were applied. It was determined that the development of transport infrastructure, the implementation of digital services, and the improvement of logistics systems are among the main conditions for the formation of a sustainable tourism model.

The research evaluated the existing problems and development prospects related to the integration of the tourism and transportation sectors in Azerbaijan, examined international experience, and proposed several recommendations for the development of the field.

Keywords: transport in tourism, tourism industry, transportation industry, sustainable tourism, digitalization, innovative technologies, tourism infrastructure, Azerbaijan.

Талех АГАЗАДЕ

СТРАТЕГИЧЕСКОЕ ЗНАЧЕНИЕ ТРАНСПОРТНОЙ СИСТЕМЫ В РАЗВИТИИ УСТОЙЧИВОЙ ТУРИСТИЧЕСКОЙ ИНДУСТРИИ В АЗЕРБАЙДЖАНЕ

Абстракт: В исследовании рассматриваются роль транспортной отрасли и современные тенденции развития в обеспечении устойчивого развития туристической индустрии. Проанализированы экономические и институциональные аспекты взаимосвязи между туристическим и транспортным секторами, а также исследовано влияние цифровизации и инновационных технологий на развитие транспортных услуг.

В процессе исследования были использованы методы сравнительного анализа, системного подхода и аналитической оценки. Установлено, что развитие транспортной инфраструктуры, внедрение цифровых услуг и совершенствование логистических систем являются одними из основных условий формирования модели устойчивого туризма.

В исследовательской работе были оценены существующие проблемы и перспективы развития интеграции туристического и транспортного секторов в Азербайджане, изучен международный опыт и предложен ряд рекомендаций по развитию данной сферы.

Ключевые слова: транспорт в туризме, туристическая индустрия, транспортная отрасль, устойчивый туризм, цифровизация, инновационные технологии, туристическая инфраструктура, Азербайджан.

GİRİŞ

Turizm sənayesinin inkişafı müasir dünya iqtisadiyyatının prioritet istiqamətlərindən biri hesab olunur. Qloballaşma, rəqəmsallaşma və beynəlxaqlinteqrasiya proseslərinin sürətlənməsi turizm və nəqliyyat sektorları arasında

qarşılıqlı əlaqələrin daha da güclənməsinə səbəb olmuşdur. Müasir şəraitdə turist mobilliyinin təmin olunması, beynəlxalq tursit axının genişlənməsi və turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi nəqliyyat sənayesinin inkişaf səviyyəsindən birbaşa asılıdır. Bu baxımdan nəqliyyat infrastrukturu turizm sənayesinin əsas strateji elementlərindən biri kimi çıxış edir.

Müasir turizm bazarında hava, avtomobil, dəmir yolu və dəniz nəqliyyatı turist axının formalaşmasında mühüm rol oynayır. Xüsusilə beynəlxalq hava nəqliyyatı aparıcı mövqeyə malikdir və ölkələrin turizm potensialının reallaşdırılmasında əasas amillərdən biri hesab olunur. Hava limanlarının inkişafı beynəlxalq aviareyslərin genişlənməsi, büdcə hava yolu şirkətlərinin fəaliyyətinin artması və rəqəmsal xidmətlərin tətbiqi turizm sənayesinin inkişafına əhəmiyyətli təsir göstərir.

Azərbaycan son illərdə turizm və nəqliyyat infrastrukturunun inkişafı istiqamətində mühüm layihələr həyata keçirilmişdir. Beynəlxalq hava limanlarının açılması və modernləşdirilməsi, tranzit-logistika imkanlarının genişləndirilməsi, xüsusilə "Zəngəzur Dəhlizi"nin aktuallığı, və rəqəmsal texnologiyaların tətbiqi ölkənin turizm bazarında rəqabət qabiliyyətinin artırılmasına yönəlmişdir. Bununla yanaşı, turizm sənayesində innovativ texnologiyaların tətbiqi, "smart airport" konsepsiyası, RFID və QR texnologiyalarına əsaslanan elektron baqaj idarəetmə sistemləri, mobil tətbiqlər və rəqəmsal xidmətlər müasir hava nəqliyyatı sistemlərinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Tədqiqatda nəqliyyat sənayesinin əsas formaları, onların turizm sənayesinə təsiri və beynəlxalq turizmdə istifadə xüsusiyyətləri araşdırılmışdır. Eyni zamanda Azərbaycanda nəqliyyat və hava limanı infratrukturunun mövcud vəziyyəti, hava yolu şirkətlərinin fəaliyyəti, turist axının statistik göstəriciləri, büdcə aviaşirkətlərin turizm bazarına təsiri və rəqəmsal nəqliyyat texnologiyalarının tətbiq perspektivləri təhlil edilmişidr. Bununla yanaşı, müasir hava limanı konsepsiyası çərçivəsində rəqəmsal texnologiyaların tətbiq imkanları və onların turizm xidmətlərinin keyfiyyətinə təsiri qiymətləndirilmişdir.

DAYANIQLI TURİZM SƏNAYESİNİN İNKİŞAFINDA NƏQLİYYAT SİSTEMİNİN STRATEJİ ƏHƏMİYYƏTİ

Turizm sənayesinin səmərəli fəaliyyəti və inkişafı nəqliyyat sektorunun imkanları ilə sıx şəkildə əlaqəlidir. Müasir dövrdə nəqliyyat sistemlərinin inkişafı, infrastrukturun təkmilləşdirilməsi və müxtəlif nəqliyyat növlərinin inteqrasiyası turist mobilliyinin genişlənməsinə mühüm təsir göstərir. Nəqliyyat sahəsində tətbiq olunan innovativ yanaşmalar və texnoloji yeniliklər coğrafi baxımdan uzaq ərazilərdə yerləşən turizm məkanlarının əlçatanlığını artıraraq onların turizm dövriyyəsinə cəlb olunmasına şərait yaradır.

Daxili, gəlmə və getmə turizminin effektiv təşkili nəqliyyat xidmətlərinin keyfiyyəti və əlçatanlıq səviyyəsi ilə birbaşa bağlıdır. Turistlərin təhlükəsiz, rahat və vaxtında daşınmasının təmin edilməsi turizm məkanlarının əlçatanlığının

artırılmasında mühüm rol oynayır. Bu baxımdan nəqliyyat sektoru ilə turizm şirkətləri arasında koordinasiyalı əməkdaşlıq turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi üçün əsas şərtlərdən biri hesab olunur.

Turizm sənayesində nəqliyyat xidmətləri yalnız turistlərin təyinat məntəqəsinə çatdırılması ilə məhdudlaşmır. Buraya hava limanlarından və dəmir yolu vağzallarından mehmanxanalara transfer xidmətləri, ekskursiya marşrutları üzrə daşımalar və digər turizm obyektlərinə nəqliyyat xidmətləri də daxildir. Nəqliyyat xidmətlərinin keyfiyyəti, rahatlığı və səyahət müddəti turistlərin marşrut və istirahət istiqaməti seçimlərinə birbaşa təsir göstərən əsas amillərdən biri kimi çıxış edir. Xüsusilə beynəlxalq turizmdə nəqliyyat infrastrukturunun inkişaf səviyyəsi və səyahət vaxtı turist axınının formalaşmasına əhəmiyyətli təsir göstərir.

Nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi və bu sahəyə yönəldilən investisiyaların artırılması turizm sənayesinin genişlənməsi üçün mühüm əhəmiyyət daşıyır. Müasir və əlçatan nəqliyyat sistemi turizm obyektlərinə çıxış imkanlarını yaxşılaşdırmaqla yanaşı, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə də müsbət təsir göstərir. Hazırda turistlər üçün müxtəlif nəqliyyat vasitələrinin mövcudluğu səyahət marşrutlarının daha çevik və rahat şəkildə təşkilinə imkan yaradır.

Beynəlxalq turizmdə ən geniş yayılmış nəqliyyat növlərindən biri avtomobil nəqliyyatıdır. Çeviklik, sərbəst hərəkət imkanı və əlçatanlıq kimi üstünlükləri avtomobil nəqliyyatının turistlər arasında populyarlığını artırır. Xüsusilə avtomobil icarəsi xidmətlərinin geniş yayılması bu sahədə fəaliyyət göstərən şirkətlərin inkişafına və turizm bazarında rəqabətin güclənməsinə şərait yaratmışdır. Avtomobil nəqliyyatı turistlərə fərdi marşrut seçimi və səyahət prosesinin daha sərbəst idarə olunması imkanını təqdim edir.

Turizm sənayesində avtobus nəqliyyatı da mühüm əhəmiyyətə malik nəqliyyat növlərindən biri hesab olunur. Xüsusilə transfer xidmətləri, şəhərdaxili daşımalar və ekskursiya marşrutları üzrə turistlərin hərəkətinin təmin edilməsində avtobus nəqliyyatı geniş istifadə edilir. Qısa və orta məsafəli səyahətlərdə avtobus və dəmir yolu nəqliyyatı əlçatanlıq və iqtisadi səmərəlilik baxımından mühüm üstünlüklərə malikdir.

Bununla yanaşı, uzun məsafəli beynəlxalq turist daşımalarında hava nəqliyyatı üstün mövqeyə malikdir. Sürət, rahatlıq və geniş coğrafi əhatə imkanları aviasiya sektorunu beynəlxalq turizm sənayesinin əsas nəqliyyat komponentlərindən birinə çevirmişdir. Xüsusilə uzaq məsafəli marşrutlarda hava nəqliyyatı digər nəqliyyat növləri ilə müqayisədə daha effektiv və vaxt baxımından əlverişli hesab olunur.

XX əsrin ikinci yarısından etibarən aviasiya sənayesində baş verən texnoloji inkişaflar və beynəlxalq hava əlaqələrinin genişlənməsi turizm axınının artmasına mühüm təsir göstərmişdir. XXI əsrin əvvəllərindən başlayaraq büdcə hava yolu şirkətlərinin fəaliyyətinin genişlənməsi beynəlxalq səyahətlərin əlçatanlığını artırmış və turist mobilliyinin sürətlənməsinə şərait yaratmışdır.

Büdcə aviaşirkətlərinin artması xüsusilə gənclər, fərdi turistlər və qısamüddətli səyahət seqmentlərində turizm bazarının genişlənməsinə təkan vermişdir.

COVID-19 pandemiyası dövründə bir çox ölkələrdə quru sərhədlərinin bağlanması beynəlxalq turizm axınlarına ciddi təsir göstərmişdir. Bu şəraitdə quru nəqliyyatı əsasən daxili turizm çərçivəsində istifadə olunmuş, beynəlxalq turist daşımalarında isə hava nəqliyyatı əsas rolunu qoruyub saxlamışdır. Azərbaycan üçün də gəlmə və getmə turizmi baxımından hava nəqliyyatı strateji əhəmiyyət daşıyan əsas nəqliyyat növü hesab olunur.

Dayanıqlı turizm sənayesinin formalaşdırılmasında nəqliyyat sistemi strateji əhəmiyyətə malik əsas komponentlərdən biri hesab olunur. Müasir şəraitdə turizm marşrutlarının əlçatanlığı, turist axınının davamlılığı və regionlararası inteqrasiyanın genişlənməsi nəqliyyat infrastrukturunun inkişaf səviyyəsindən birbaşa asılıdır. Xüsusilə beynəlxalq hava nəqliyyatı, dəmir yolu və avtomobil yollarının müasir standartlara uyğun inkişaf etdirilməsi turizm sənayesinin rəqabət qabiliyyətinin artırılmasına mühüm təsir göstərir. Nəqliyyat sisteminin səmərəli təşkili yalnız turist mobilliyini təmin etmir, eyni zamanda regionların sosial-iqtisadi inkişafına, məşğulluğun artmasına və xidmət sektorunun genişlənməsinə də şərait yaradır.

AZƏRBAYCANDA TURİZM VƏ HAVA NƏQLİYYATI İNFRASTRUKTURUNUN MÖVCUD VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Azərbaycan Respublikasında turizm və nəqliyyat sektorlarının inkişafı son illərdə ölkənin sosial-iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Qeyri-neft sektorunun inkişafı strategiyası çərçivəsində turizm sənayesinin genişləndirilməsi və nəqliyyat infrastrukturunun modernləşdirilməsi istiqamətində mühüm layihələr həyata keçirilmişdir. Beynəlxalq hava limanlarının yenidən qurulması, tranzit-logistika imkanlarının artırılması, magistral yol şəbəkəsinin təkmilləşdirilməsi və rəqəmsal nəqliyyat xidmətlərinin tətbiqi turizm sektorunun inkişafına müsbət təsir göstərmişdir.

Hazırda Azərbaycanda hava nəqliyyatı gəlmə və getmə turizminin əsas komponentlərindən biri hesab olunur. Heydər Əliyev Beynəlxalq Hava Limanı regionun ən müasir hava nəqliyyatı mərkəzlərindən biri kimi fəaliyyət göstərir və ölkənin beynəlxalq turizm bazarına inteqrasiyasında mühüm rol oynayır. Bununla yanaşı, Gəncə, Qəbələ, Lənkəran, Naxçıvan, Füzuli və Zəngilan beynəlxalq hava limanlarının fəaliyyəti regionların turizm potensialının genişləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Son illərdə büdcə hava yolu şirkətlərinin fəaliyyətinin genişlənməsi, beynəlxalq uçuş marşrutlarının artması və rəqəmsal xidmətlərin tətbiqi turist axınının artmasına və nəqliyyat xidmətlərinin əlçatanlığının yüksəlməsinə şərait yaratmışdır.

Azərbaycanda turizm və nəqliyyat sektorlarının inkişafı ölkənin iqtisadi diversifikasiya siyasətinin əsas istiqamətlərindən biri kimi çıxış edir. Son illərdə

nəqliyyat infrastrukturunun yenilənməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi və turizm xidmətlərinin modernləşdirilməsi istiqamətində həyata keçirilən layihələr ölkənin turizm potensialının artırılmasına mühüm təsir göstərmişdir. Magistral avtomobil yollarının yenidən qurulması, beynəlxalq hava limanlarının fəaliyyət imkanlarının genişləndirilməsi və logistika sistemlərinin təkmilləşdirilməsi turistlərin hərəkət imkanlarının artırılmasına və regionların turizm dövriyyəsinə inteqrasiyasına şərait yaratmışdır.

Müasir mərhələdə hava nəqliyyatı Azərbaycanın beynəlxalq turizm əlaqələrinin formalaşmasında aparıcı rol oynayır. Ölkədə fəaliyyət göstərən beynəlxalq hava limanları və aviaşirkətlər xarici turist axınının təmin edilməsində mühüm əhəmiyyətə malikdir. Xüsusilə Heydər Əliyev Beynəlxalq Hava Limanı regionun əsas tranzit mərkəzlərindən biri kimi çıxış edir və müasir texnoloji həllərin tətbiqi baxımından strateji əhəmiyyət daşıyır. Bununla yanaşı, rəqəmsal xidmətlərin genişlənməsi, onlayn qeydiyyat sistemləri, elektron bilet texnologiyaları və innovativ hava limanı həlləri turizm və nəqliyyat sektorlarının inteqrasiyasını daha da sürətləndirir.

2006-cı ildə hava nəqliyyatı vasitəsilə ümumilikdə 1 818 min sərnişin daşınmışdır. Həmin sərnişinlərin 1 284 min nəfəri və ya 70,6%-i beynəlxalq reyslərin, 534 min nəfəri və ya 29,4%-i isə daxili aviareyslərin payına düşmüşdür. 2024-cü ildə isə hava nəqliyyatı ilə daşınan sərnişinlərin sayı 2 704 min nəfərə çatmışdır ki, bu da 2006-cı illə müqayisədə 48,7% artım deməkdir. Göstərilən dövrdə beynəlxalq uçuşlar üzrə daşınan sərnişinlərin sayı 2 080 min nəfər (76,9%), daxili aviareyslər üzrə isə 624 min nəfər (23,1%) təşkil etmişdir.

Hava nəqliyyatı turizm sənayesinin inkişafına birbaşa təsir göstərən və yüksək iqtisadi gəlirlilik potensialına malik əsas nəqliyyat sahələrindən biri hesab olunur. 2006–2024-cü illər ərzində sərnişin daşımalarından əldə edilən ümumi gəlirin həcmi 3,4 dəfə artaraq 1 018 198 min manata yüksəlmişdir. Bu müddət ərzində beynəlxalq sərnişin daşımalarından əldə olunan gəlir 3,7 dəfə artaraq 974 231 min manat təşkil etmiş, daxili aviareyslərdən əldə olunan gəlir isə 1,3 dəfə yüksələrək 43 967 min manata çatmışdır.

COVID-19 pandemiyası qlobal turizm və nəqliyyat sektorunda ciddi dəyişikliklərə səbəb olmuş, turistlərin yalnız səyahət istiqamətlərinə deyil, həm də istifadə etdikləri nəqliyyat modellərinə təsir göstərmişdir. Pandemiyadan sonrakı dövrdə sərnişinlərin daha çevik, iqtisadi və əlçatan səyahət imkanlarına üstünlük verməsi çarter və aşağıbüdcəli hava daşımalarının əhəmiyyətini daha da artırmışdır. Xüsusilə beynəlxalq turizm bazarında sərnişinlərin fərdi və qısamüddətli səyahətlərə marağının artması aviasiya sektorunda yeni biznes modellərinin formalaşmasına şərait yaratmışdır.

Çarter aviareysləri əsasən aviaşirkətlərlə turoperatorlar və turizm şirkətləri arasında bağlanan xüsusi müqavilələr əsasında təşkil olunur. Bu model turistlərin birbaşa reyslərlə turizm məkanlarına çatdırılmasına və ənənəvi marşrutlarla çətin əlçatan olan istiqamətlərə uçuşların həyata keçirilməsinə imkan yaradır. Müasir

dövrdə çarter daşımaları xüsusilə mövsümi turizm bazarında mühüm rol oynayır və beynəlxalq turizm aviasiyasının gəlirli seqmentlərindən biri hesab olunur. Rəqəmsal rezervasiya sistemlərinin inkişafı və onlayn satış platformalarının genişlənməsi çarter daşımalarının əlçatanlığını daha da artırmışdır.

Son illərdə aşağıbüdcəli (low-cost) və hibrid aviaşirkətlərin beynəlxalq turizm bazarındakı payı sürətlə genişlənmişdir. Bu tendensiya aviasiya sektorunda rəqabətin güclənməsi, sərnişin tələbatının dəyişməsi və rəqəmsal satış kanallarının inkişafı ilə əlaqədardır. Low-cost aviaşirkətlərin fəaliyyəti nəticəsində hava nəqliyyatı daha geniş sosial qruplar üçün əlçatan olmuş, turistlərin səyahət davranışlarında əhəmiyyətli dəyişikliklər müşahidə edilmişdir. Uzunmüddətli istirahət səfərləri ilə yanaşı, qısa müddətli və daha tez-tez həyata keçirilən səyahətlərin sayı artmışdır. Bununla yanaşı, ikinci dərəcəli şəhərlər və kiçik turizm məkanları da beynəlxalq turist axınını cəlb etmək imkanları əldə etmişdir.

Azərbaycanda da turizm və hava nəqliyyatı sektorunun inkişafı aşağıbüdcəli aviaşirkətlərin fəaliyyətinin genişləndirilməsi üçün əlverişli şərait formalaşdırır. Son illərdə beynəlxalq turist axınının artması, tranzit potensialının genişlənməsi və müasir hava limanı infrastrukturunun inkişafı bu istiqamətdə mühüm imkanlar yaratmışdır. Hazırda Türkiyənin Pegasus Hava Yolları və Macarıstanın Wizz Air şirkətləri Azərbaycan bazarında fəaliyyət göstərərək sərnişinlərə daha əlçatan hava nəqliyyatı xidmətləri təqdim edirlər. Bununla yanaşı, rəqəmsal bilet sistemləri, mobil tətbiqlər və onlayn rezervasiya texnologiyalarının inkişafı büdcə aviaşirkətlərinin fəaliyyət effektivliyini daha da artırır.

Müasir mərhələdə çarter və aşağıbüdcəli hava daşımalarının genişlənməsi Azərbaycanın beynəlxalq turizm bazarında rəqabət qabiliyyətinin yüksəlməsinə və turist axınının artmasına mühüm təsir göstərə bilər. Ölkənin coğrafi mövqeyi, inkişaf edən nəqliyyat infrastrukturu, beynəlxalq hava limanlarının modernləşdirilməsi və ictimai-siyasi sabitlik turizm və aviasiya sektorlarının uzunmüddətli inkişafı üçün əlverişli zəmin formalaşdırır.

Hazırda Azərbaycan dünyanın 100-dən artıq ölkəsindən turist qəbul edən beynəlxalq turizm istiqamətlərindən biri hesab olunur. Son illərdə ölkəyə gələn xarici ziyarətçilərin coğrafiyası əhəmiyyətli dərəcədə genişlənmişdir.

Cədvəl 1-in məlumatlarına əsasən, araşdırılan dövr ərzində Azərbaycana gələn turistlərin sayında nəzərəçarpacaq artım qeydə alınmışdır. Belə ki, ölkəyə daxil olan turistlərin ümumi sayı təhlil olunan müddətdə 2,1 dəfə yüksəlmişdir.

Cədvəl 1

Azərbaycana gələn və gedən şəxslərin nəqliyyat növləri üzrə hərəkət göstəriciləri

	2006	**2010**	**2015**	**2020**	**2024**	**2024-cü il 2006-cı ilə nisbətən dəfə**
Ölkəyə gələn xarici ölkə vətəndaşlarının sayı - cəmi	**1262,0**	**1962,9**	**2006,2**	**795,7**	**2626,7**	**2,08**
o cümlədən nəqliyyat növləri üzrə:						
avtomobil	767,3	720,4	660,0	505,0	602,8	0,786
dəmir yolu	204,4	312,1	230,7	14,9	3,6	0,0176
hava nəqliyyatı	281,4	645,8	968,9	219,4	1986,8	7,06
su nəqliyyatı	8,9	14,1	32,1	19,7	33,5	3,76
digər	...	270,5	114,5	36,7		-
Xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı - cəmi	**1835,9**	**3175,6**	**4095,8**	**1164,6**	**2158,9**	**1,2**
o cümlədən nəqliyyat növləri üzrə:						
avtomobil	1147,2	1473,5	2610,8	738,3	612,5	0,534
dəmir yolu	266,4	543,1	352,2	21,8	2,9	0,011
hava nəqliyyatı	406,3	631,9	843,3	277,5	1498,7	3,69
su nəqliyyatı	16,0	34,9	53,2	34,6	44,8	2,8
digər	...	492,2	236,3	92,4		-

Mənbə: Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Hazırda Azərbaycanda fəaliyyət göstərən 8 beynəlxalq hava limanı "Azərbaycan Hava Yolları" QSC-nin idarəetməsi altında fəaliyyət göstərir. Mərkəzləşdirilmiş idarəetmə modeli hava limanı xidmət haqları, aeroport rüsumları və digər tariflərin regionun bəzi qonşu ölkələri ilə müqayisədə daha

yüksək formalaşmasına təsir göstərən amillərdən biri kimi qiymətləndirilir. Bu vəziyyət isə xüsusilə aşağıbüdcəli aviaşirkətlərin Azərbaycan hava nəqliyyatı bazarına daxilolma imkanlarını müəyyən dərəcədə məhdudlaşdırır və rəqabət mühitinə təsir göstərir.

Azərbaycan Respublikasının strateji inkişaf prioritetləri çərçivəsində aviasiya sektorunun regional tranzit və hava nəqliyyatı mərkəzinə çevrilməsi əsas hədəflərdən biri kimi müəyyən edilmişdir. Strateji Yol Xəritəsində ölkənin aviasiya infrastrukturunun genişləndirilməsi, sərnişin axınının artırılması və beynəlxalq uçuş şəbəkəsinin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Proqnozlara əsasən, 2030-cu ilə qədər Heydər Əliyev Beynəlxalq Hava Limanında illik sərnişin dövriyyəsinin 10 milyon nəfərə çatdırılması və əlavə olaraq ən azı 30 yeni beynəlxalq uçuş istiqamətinin açılması planlaşdırılır.

Turistlər üçün hava limanı xidmətlərinin əlçatanlığının və keyfiyyətinin artırılması məqsədilə sərhəd-keçid prosedurlarının sadələşdirilməsi, baqaj xidmətlərinin sürətləndirilməsi və rəqəmsal xidmətlərin genişləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bununla yanaşı, turist axınının daha səmərəli idarə olunması üçün optimal aviamarşrutların formalaşdırılması, beynəlxalq aviaşirkətlərlə əməkdaşlığın genişləndirilməsi və hava nəqliyyatı infrastrukturunun inkişaf prioritetlərinin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Müasir beynəlxalq hava limanlarında rəqəmsal texnologiyalar əsasında qurulan elektron baqaj idarəetmə sistemlərinin tətbiqi sürətlə genişlənməkdədir. RFID və QR kod texnologiyalarına əsaslanan innovativ həllər sərnişinlərə baqajların real vaxt rejimində izlənilməsi, transfer proseslərinin optimallaşdırılması və xidmət keyfiyyətinin yüksəldilməsi imkanını təqdim edir. Bu texnologiyalar hava nəqliyyatı və turizm sənayesində rəqəmsal transformasiyanın mühüm istiqamətlərindən biri hesab olunur. Dünyanın aparıcı hava limanlarında elektron baqaj ötürülməsi, biometrik qeydiyyat və mobil idarəetmə sistemləri geniş tətbiq olunsa da, Azərbaycanda bu texnologiyaların istifadəsi hələ inkişaf mərhələsindədir. Gələcəkdə "smart airport" konsepsiyası çərçivəsində bu sistemlərin tətbiqi turizm və nəqliyyat xidmətlərinin səmərəliliyinin artırılmasına mühüm töhfə verə bilər.

Bununla yanaşı, müasir nəqliyyat sistemlərində süni intellekt əsaslı sərnişin idarəetmə platformaları, biometrik identifikasiya texnologiyaları, elektron boarding sistemləri və kontaktsız xidmət modellərinin tətbiqi getdikcə daha geniş yayılır. Xüsusilə "smart mobility" və "contactless travel" konsepsiyalarının inkişafı hava limanlarında sərnişin axınının daha effektiv idarə olunmasına, təhlükəsizlik səviyyəsinin yüksəldilməsinə və xidmət proseslərinin sürətləndirilməsinə imkan yaradır. Bu baxımdan Azərbaycanın nəqliyyat və turizm sektorunda rəqəmsal innovasiyaların tətbiqinin genişləndirilməsi ölkənin beynəlxalq turizm bazarında rəqabət qabiliyyətinin artırılması üçün mühüm strateji istiqamətlərdən biri hesab oluna bilər.

NƏTİCƏ

Aparılmış tədqiqat göstərir ki, nəqliyyat sistemi dayanıqlı turizm sənayesinin formalaşdırılması və inkişaf etdirilməsində strateji əhəmiyyətə malik əsas sahələrdən biridir. Müasir dövrdə turizm və nəqliyyat sektorları arasında qarşılıqlı əlaqələrin güclənməsi turist mobilliyinin artmasına, beynəlxalq turizm axınının genişlənməsinə və ölkələrin iqtisadi inkişafına mühüm təsir göstərir. Xüsusilə hava nəqliyyatı beynəlxalq turizm sənayesinin əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir və turistlərin səyahət seçimlərinə birbaşa təsir göstərir.

Tədqiqat nəticələri göstərir ki, Azərbaycanda son illərdə nəqliyyat və turizm infrastrukturunun inkişafı istiqamətində mühüm irəliləyişlər əldə edilmişdir. Beynəlxalq hava limanlarının modernləşdirilməsi, yeni aviamarşrutların açılması, tranzit-logistika imkanlarının genişləndirilməsi və rəqəmsal xidmətlərin tətbiqi ölkənin beynəlxalq turizm bazarındakı mövqeyinin güclənməsinə şərait yaratmışdır. Bununla yanaşı, aşağıbüdcəli aviaşirkətlərin fəaliyyətinin genişləndirilməsi və hava nəqliyyatı bazarında rəqabət mühitinin gücləndirilməsi turist axınının artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Araşdırma zamanı müəyyən edilmişdir ki, müasir rəqəmsal texnologiyaların nəqliyyat sisteminə inteqrasiyası turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. RFID və QR texnologiyalarına əsaslanan elektron baqaj idarəetmə sistemləri, biometrik identifikasiya, elektron boarding və "smart airport" həlləri sərnişin xidmətlərinin optimallaşdırılması və hava limanlarının fəaliyyət effektivliyinin artırılması baxımından mühüm üstünlüklər yaradır. Azərbaycanda bu texnologiyaların tətbiq imkanlarının genişləndirilməsi gələcəkdə turizm və nəqliyyat sektorunun rəqabət qabiliyyətinin artırılmasına mühüm töhfə verə bilər.

Nəticə etibarilə, dayanıqlı turizm sənayesinin inkişafı üçün nəqliyyat infrastrukturunun modernləşdirilməsi, rəqəmsal innovasiyaların tətbiqi, beynəlxalq hava əlaqələrinin genişləndirilməsi və xidmət keyfiyyətinin yüksəldilməsi strateji prioritetlərdən biri kimi çıxış edir. Azərbaycanın əlverişli coğrafi mövqeyi, inkişaf edən hava limanı infrastrukturu və artan beynəlxalq turizm potensialı ölkənin regional turizm və tranzit mərkəzlərindən birinə çevrilməsi üçün geniş imkanlar formalaşdırır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Turizm və nəqliyyat statistik göstəriciləri [Elektron resurs]. – Bakı, 2025. - https://www.stat.gov.az/ (müraciət tarici 15.05.2026).
2. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. – Bakı, 2016. -111 s.
3. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. – Bakı, 2021. – 40 s.
4. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. – Bakı: İqtisad Universiteti nəşriyyatı, 2010. – 493 s.
5. Ушаков Д.С. Экономика туристской отрасли. Р.-на-Д.: Феникс: Март, 2010. 446 с.
6. Кутепова Г. Н. Транспортное обслуживание в туризме [Электронный ресурс] / Г.Н. Кутепова. Режим доступа: https://studfile.net/preview/3826731/page:3/ (дата обращения 13.05.2025).
7. Graham A. Managing Airports: An International Perspective. – London: Routledge, 2018. -2018 – 432 p.
8. Page S. Transport and Tourism: Global Perspectives. – Harlow: Pearson Education, 2009. – 448 p.
9. International Air Transport Association (IATA). Air transport statistics and smart airport technologies [Electronic resource]. – URL: IATA Official Website (accessed: 15.05.2026).
10. Prideaux B. The Role of the Transport System in Destination Development // Tourism Management. – 2000. – Vol. 21, No. 1. – P. 53–63.

Məqalənin redaksiyaya daxilolma tarixi: 06.07.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.07.2026
Məqalənin çapa qəbul olunma tarixi: 20.07.2026

UOT 069
DOI: doi.org/10.61226/12.2.2023/20262.20
Zenfira SEYİDOVA
Naxçıvan Dövlət Universiteti
Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi
turalmemmedov521@gmail.com
https://orcid.org/0009-0008-5713-9624

RƏQƏMSAL, HİBRİD VƏ QARIŞIQ TƏDRİS YÖNÜMLÜ MUZEY PROQRAMLARINA MÜƏLLİMLƏRİN MÜNASİBƏTİNİN TƏHLİLİ

Xülasə

Bu məqalənin məqsədi post-pandemiya dövründə muzeylərin rəqəmsal, hibrid və qarışıq tədris proqramlarında iştirak edən müəllimlərin ehtiyaclarını, gözləntilərini və qarşılaşdıqları çətinlikləri daha ətraflı şəkildə araşdırmaqdır. Pandemiya dövründə ənənəvi muzey ziyarətlərinin məhdudlaşması muzeylərin təhsil fəaliyyətində yeni yanaşmaların tətbiqini zəruri etmişdir. Bu baxımdan muzeylər yalnız fiziki ekspozisiya məkanı kimi deyil, həm də virtual turlar, rəqəmsal resurslar, onlayn tapşırıqlar və interaktiv tədris materialları təqdim edən mühüm maarifləndirici mərkəzlər kimi çıxış etməyə başlamışdır. Tədqiqat müxtəlif məktəblərdə çalışan müəllimlərin bu proqramlardan istifadə imkanlarını, texniki təminat səviyyəsini, metodiki hazırlığını və məktəb mühitinin belə fəaliyyətlərə nə dərəcədə şərait yaratdığını öyrənir. Eyni zamanda müəllimlərin rəqəmsal bacarıqları, muzey materiallarını dərs prosesinə inteqrasiya etmə təcrübəsi və şagirdlərin belə fəaliyyətlərə münasibəti də diqqət mərkəzində saxlanılır. Araşdırma göstərir ki, rəqəmsal, analoq, hibrid və qarışıq muzey proqramları yalnız texniki vasitələrlə məhdudlaşmamalı, pedaqoji məqsədlərə uyğun planlaşdırılmalı və şagirdlərin fəal iştirakı üçün interaktiv imkanlarla zənginləşdirilməlidir. Müəlliflər transmedia hekayəçilik yanaşmasının muzey təhsilində tətbiqini də mühüm hesab edirlər. Bu yanaşma müxtəlif media platformaları vasitəsilə daha cəlbedici, yaradıcı, iştirakçı və birgə öyrənməyə əsaslanan pedaqoji mühitin formalaşmasına imkan yaradır.

Açar sözlər: Rəqəmsal maarifləndirmə, qarışıq tədris, irs, pedaqogika, təhsil, postrəqəmsallıq.

Zenfira SEYIDOVA

ANALYSIS OF TEACHERS' ATTITUDES TOWARDS DIGITAL, HYBRID, AND BLENDED EDUCATIONAL MUSEUM PROGRAMMES

Abstract

The purpose of this article is to examine in greater detail the needs, expectations, and challenges faced by teachers participating in museums' digital, hybrid, and blended educational programs in the post-pandemic period. The restrictions placed on traditional museum visits during the pandemic made it

necessary for museums to introduce new approaches in their educational activities. In this regard, museums have begun to function not only as physical exhibition spaces, but also as important educational centers offering virtual tours, digital resources, online assignments, and interactive teaching materials. The study explores the extent to which teachers working in different schools are able to use these programs, as well as their level of technical provision, methodological preparedness, and the degree to which the school environment creates favorable conditions for such activities. At the same time, teachers' digital skills, their experience in integrating museum materials into the teaching process, and students' attitudes toward such activities are also kept in focus. The research shows that digital, analogue, hybrid, and blended museum programs should not be limited only to technical tools; rather, they should be planned in accordance with pedagogical objectives and enriched with interactive opportunities to ensure students' active participation. The authors also consider the application of the transmedia storytelling approach in museum education to be important. This approach enables the formation of a more engaging, creative, participatory, and collaborative pedagogical environment through various media platforms.

Keywords: *Digital outreach, blended learning, heritage, pedagogy, education, postdigital.*

Зенфира СЕЙИДОВА

АНАЛИЗ ОТНОШЕНИЯ УЧИТЕЛЕЙ К ЦИФРОВЫМ, ГИБРИДНЫМ И СМЕШАННЫМ ОБРАЗОВАТЕЛЬНЫМ ПРОГРАММАМ МУЗЕЕВ

Аннотация

Цель данной статьи заключается в более подробном изучении потребностей, ожиданий и трудностей, с которыми сталкиваются учителя, участвующие в цифровых, гибридных и смешанных образовательных программах музеев в постпандемийный период. Ограничения, введенные в период пандемии на традиционные посещения музеев, обусловили необходимость применения новых подходов в образовательной деятельности музеев. В этом отношении музеи стали выступать не только как физические экспозиционные пространства, но и как важные образовательные центры, предлагающие виртуальные туры, цифровые ресурсы, онлайн-задания и интерактивные учебные материалы. Исследование рассматривает, в какой степени учителя, работающие в различных школах, способны использовать данные программы, а также уровень их технического обеспечения, методической подготовки и степень благоприятности школьной среды для реализации подобной деятельности. Одновременно в центре внимания находятся цифровые навыки учителей, их опыт интеграции музейных материалов в учебный процесс, а также отношение учащихся к таким формам деятельности. Результаты исследования показывают, что цифровые,

аналоговые, гибридные и смешанные музейные программы не должны ограничиваться только техническими средствами; напротив, они должны планироваться в соответствии с педагогическими целями и обогащаться интерактивными возможностями для обеспечения активного участия учащихся. Авторы также считают важным применение подхода трансмедийного повествования в музейном образовании. Данный подход посредством различных медиаплатформ способствует формированию более увлекательной, творческой, participatory и collaborative педагогической среды.

Ключевые слова: цифровое просвещение, смешанное обучение, наследие, педагогика, образование, постцифровая эпоха.

GİRİŞ

Post-pandemiya dövrü muzeylər üçün həm yeni çağırışlar, həm də yeni imkanlar dövrünü ifadə edir. Bu reallıq uzunmüddətli düşünməyi və strateji yanaşmanı zəruri edir [11]; [27]. Ən mühüm çağırış və imkanlar toplusu muzeylərin rəqəmsal mövcudluğu və pedaqogik fəaliyyətləri ilə bağlıdır. COVID-19 pandemiyası muzey təhsilçilərini qısa müddətdə yeni rəqəmsal bacarıqlar əldə etməyə, müxtəlif rəqəmsal platformalarda fəaliyyət göstərməyə və daha geniş spektrdə rəqəmsal alətlərdən istifadə etməyə məcbur etdi. Bu dövrdə, həmçinin hibrid və qarışıq tədris formatları ilə bağlı eksperimentlər aparılmağa başlandı. Pandemiya zamanı bir sıra tədqiqatlar aparılmış və muzeylərin, eləcə də digər mədəni irs qurumlarının qəfil yaranan böhran şəraitində aktuallığını qorumaq üçün necə uyğunlaşdığı xəritələndirilmişdir [15]. Bu araşdırmalar Avropada [16], ABŞ-da [1], Şimali və Baltik ölkələrində [24], Birləşmiş Krallıqda, Danimarkada [3], həmçinin qlobal səviyyədə [13], [2] həyata keçirilmişdir. Bu tədqiqatlar göstərir ki, bir çox muzeylər hədəf auditoriyası ilə əlaqəni qorumaq üçün qısa müddətdə rəqəmsal imkanlarını səfərbər etmişlər. İlkin mərhələdə bu təşəbbüslər əsasən muzeyin yerində keçirilən ənənəvi fəaliyyətlərinin (məsələn, ekspozisiyalar üzrə bələdçi turları) Facebook və ya YouTube üzərindən canlı yayımlarla əvəzlənməsi formasında idi. Lakin pandemiyanın davam etməsi ilə birlikdə, yalnız mövcud proqramları onlayn müstəviyə daşımaqdan daha irəli gedən innovativ həllər də inkişaf etdirilməyə başlandı.

Bu tədqiqatların nəticələri ilə bağlı olaraq qeyd etmək vacibdir ki, muzeylər qlobal bir böhrana reaksiya göstərmişlər. Pandemiya dövründə muzey təhsilçiləri daha çox eksperimental yanaşma vasitəsilə həll yolları tapmağa çalışmış, bu zaman uzunmüddətli və ya strateji düşüncə çox nadir hallarda prioritet hesab edilmişdir. Əslində, bu, gözlənilməz və hazırlıqsız qarşılanmış bir böhran vəziyyətinin idarə olunması məsələsi idi. Bundan əlavə, həmin dövrdə böhranın nə qədər davam edəcəyi barədə ümumi razılıq da mövcud deyildi. Muzey təhsilçiləri ilə aparılmış müsahibələr göstərir ki, xüsusilə Şimali və Baltik kontekstində bir çox muzey mütəxəssisləri refleksiyaya (dərin düşünməyə və təcrübədən nəticə çıxarmağa) ehtiyac duyduqlarını ifadə etmişlər. Görünür ki, COVID-19 dövründə

rəqəmsal pedaqogika sahəsində qazanılmış təcrübələr və öyrənilmiş dərslər hələlik muzeylərin uzunmüddətli strategiyalarına və idarəetmə sənədlərinə tam şəkildə daxil edilməmişdir.

2. Nəzəri baxışlar

Postrəqəmsallıq (postdigital) anlayışı bu tədqiqatda muzeylərdə və məktəblərdə rəqəmsal pedaqogikanı nəzəri baxımdan təhlil etmək üçün əsas konseptual çərçivə kimi istifadə olunur [14]. Bu anlayış hazırda müxtəlif elmi sahələrdə getdikcə daha çox tətbiq olunur və ilk dəfə 2000-ci illərin əvvəllərindən istifadə edilməyə başlanmışdır [20]. Lakin bu anlayışın tətbiqi müəyyən çətinliklər yarada bilər, çünki postrəqəmsallıq çox fərqli məna və istiqamətlərdə şərh olunur, müxtəlif kontekstlərdə fərqli nəticələr doğurur. Buna baxmayaraq, anlayışın bu "qarışıqlığı" və çoxmənalılığı müasir cəmiyyətin mürəkkəb və "çətin idarəolunan" (wicked) problemlərinin təbiətindən irəli gələn qaçılmaz bir xüsusiyyət kimi qəbul edilə bilər.

Jandrić və həmkarlarının (2018: 895) qeyd etdiyi kimi: "Postrəqəmsallığı müəyyənləşdirmək çətindir; o, qarışıq, proqnozlaşdırılmaz, həm rəqəmsal, həm analoq, həm texnoloji, həm də qeyri-texnoloji, həm bioloji, həm də informasiyaya əsaslanandır. Postrəqəmsallıq həm mövcud nəzəriyyələrimizdə bir qırılma nöqtəsidir, həm də onların davamıdır. Lakin bu qarışıqlıq, müasir insan varlığının təbii halı kimi görünür." Bununla belə, postrəqəmsallıq anlayışı daxilində bəzi ümumi istiqamətlər və ortaq elementlər mövcuddur ki, bunlar bu tədqiqatın nəticələrinin kontekstində xüsusilə əhəmiyyət kəsb edir. Növbəti hissədə bu ortaq cəhətlər daha ətraflı şəkildə vurğulanır [14, s.895].

Postrəqəmsallıq anlayışı rəqəmsalın artıq əhəmiyyətini itirdiyi bir dövrə keçidi ifadə etmir. Əksinə, bu anlayışın əsas istiqamətlərindən biri – və bu tədqiqat üçün də mühüm olan cəhət – rəqəmsal və qeyri-rəqəmsal arasında sərhədləri aşmaq zərurətini vurğulamasıdır. Postrəqəmsallıq, rəqəmsal və analoq anlayışları arasında sərt fərqlərin qoyulmasının həm mümkünlüyünü, həm də faydalılığını sual altına alır. Bu yanaşmaya görə, müasir dövrdə insanlar müxtəlif media formaları arasında fasiləsiz və təbii keçidlər edirlər. Buna görə də, bəzi fəaliyyətləri "rəqəmsal" və ya "qeyri-rəqəmsal" kimi etiketləmək sadələşdirici və bəzən də əks nəticə doğuran bir yanaşma ola bilər. İkinci ortaq cəhət isə postrəqəmsallığın rəqəmsal inkişafı təkxətli, əvvəlcədən müəyyən edilmiş və "inqilabi" proses kimi təsvir edən anlayışlara tənqidi münasibət göstərməsidir. Yəni "rəqəmsal inqilab" kimi ifadələrin məhdud yanaşmasını sorğulayır [17]; [20]. Muzey kontekstində, bu iki istiqamət seqmentləşdirilmiş düşüncə tərzinə radikal tənqid gətirir və yeni alternativlərin təsəvvür edilməsinə imkan yaradır. Bu baxımdan "postrəqəmsal muzey" anlayışı diqqətəlayiqdir – burada rəqəmsal və fiziki fəaliyyətlər arasında sərhədlər yoxdur, əksinə, onlar ahəngdar şəkildə inteqrasiya olunmuşdur [19]. Belə bir muzeydə rəqəmsal fəaliyyətlər ayrıca şöbələrdə məhdudlaşdırılmır, bütöv fəaliyyət sisteminin bir hissəsinə çevrilir [19]; [8, s.561]. Tula Giannini və Jonathan Bowen bu vəziyyəti çox incə bir şəkildə belə ifadə edirlər: "Fiziki və rəqəmsal, real və virtual arasındakı sərhədlər bir-birinə

qarışaraq bütövlük təşkil edir; insanlar və institutlar, daxili və xarici mühit arasındakı ayrılıq keçirici hala gəlir və bu da əməkdaşlığa, tərəfdaşlığa və paylaşmaya şərait yaradır" [8, s.561].

3. Muzey konteksindən təhlillər

Black (2012) cəmiyyət daxilində muzeylərin roluna dair paradigma dəyişikliyinin baş verdiyini irəli sürür [4]. Bu dəyişiklik nəticəsində muzeylərdəki öyrənmə təcrübələrinin keyfiyyət və müxtəlifliklə zənginləşdirilməsi xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır. Eyni zamanda, cazibədar və interaktiv muzey mühiti cəmiyyətdə baş verən dəyişikliklər fonunda ilham və öyrənmə mənbəyi kimi mərkəzi rol oynayır. Palmyre Pierroux (2019) da qeyd edir ki, muzey sektoru bilik, öyrənmə və öyrənən anlayışlarına dair yenilənmiş baxışlara uyğunlaşmaqda mühüm çətinliklərlə qarşılaşır [21]. Black (2012) muzeylərdəki öyrənmə formalarını formal və qeyri-formal öyrənmə olaraq fərqləndirir. Onun fikrincə, bütün öyrənmə həm proses, həm də nəticə elementlərini özündə birləşdirir: proses – necə öyrəndiyimizi, nəticə isə – nə əldə etdiyimizi müəyyən edir. Formal öyrənmə muzeydə elə bir yanaşmaya əsaslanır ki, burada muzeyin özündə ziyarətçilərin kəşf edə və öyrənə biləcəyi bilik toplusu mövcuddur. Yəni ziyarətçi muzeyin təqdim etdiyi məlumatı qəbul edən şəxs kimi çıxış edir. Digər tərəfdən, qeyri-formal öyrənmə muzeydə elə bir mühitin yaradılması ilə mümkündür ki, burada ziyarətçilər yaradıcı və tənqidi düşünür, problemləri həll edir və mənaları özləri üçün formalaşdırırlar. Wollentz və digərlərinin (2021) fikrincə, muzeylər məktəblərdə aparılan formal tədris prosesinə tamamlayıcı rol oynaya bilər [25]. Yəni muzeylər yalnız bilik ötürən məkan deyil, həm də öyrənmə prosesini dəstəkləyən, onu praktik və interaktiv şəkildə zənginləşdirən tədris tərəfdaşları kimi çıxış edə bilərlər.

Muzeyşünaslıq sahəsində aparılan tədqiqatlar göstərir ki, ünsiyyət imkanları yaradan mühitin formalaşdırılması öyrənmə prosesinin əsas şərtlərindən biridir. Bu məsələ, sosiomədəni nəzəriyyələrin muzey tədqiqatlarına daxil edilməsi ilə daha dərindən öyrənilmişdir. Bu nəzəriyyələr insan fəaliyyətinin vasitələnmiş (mediated) xarakterinə diqqət yönəldir və bununla da muzeylərdə fiziki mühitin və sosial qarşılıqlı əlaqənin mənaların formalaşmasında oynadığı rolu araşdıran yeni istiqamətlərin yaranmasına səbəb olmuşdur [21]. Bizim yanaşmamızda öyrənmənin sosial aspektlərini dəyərləndirərkən əsas vurğu ünsiyyətin əhəmiyyəti üzərindədir. Yəni insanın ətraf mühitdəki resurslardan necə istifadə edərək öyrənmə prosesini dəstəklədiyi ön plana çıxarılır. Başqa sözlə, öyrənmə fərdi deyil, birgə əməkdaşlığa əsaslanan sosial hadisə kimi qəbul edilir [22].

Məktəblərin rəqəmsallaşması müəllimlər üçün həm tədrisə baxış bucağını, həm də öyrənmənin dizayn edilmə tərzini dəyişmək baxımından yeni bir təzyiq formalaşdırır. Bu proses müəllimlərdən ənənəvi dərs planlaşdırma və bilik ötürən rolunda çıxış etmə təcrübələrindən kənara çıxmağı tələb edir. Nəticə etibarilə, rəqəmsallaşma yeni öyrənmə və tədris modellərinin – xüsusilə qarışıq (blended) və hibrid (hybrid) öyrənmə formalarının – formalaşmasına şərait yaradır. Qarışıq öyrənmə (blended learning) anlayışı Stefan Hrastinski (2019) tərəfindən nisbətən

yeni bir konsepsiya kimi təsvir edilir, halbuki hibrid fəaliyyətlər termini daha geniş istifadə olunur. Hrastinskinin fikrincə, qarışıq öyrənmə inklüziv (əhatəli) "çətir anlayış" kimi qəbul edilə bilər və bu anlayış altında müxtəlif tədris baxışları, kontekstlər və öyrənmə şəraiti formaları mövcuddur [12].

Hrastinskiyə (2019) əsasən, bu anlayış üçün ən çox istifadə edilən iki tərif aşağıdakılardır:

- "Üzbəüz tədrisin kompüter vasitəsilə həyata keçirilən tədrislə birləşdirilməsi" [9, s.5];
- "Sinifdə üzbəüz öyrənmə təcrübələrinin onlayn öyrənmə təcrübələri ilə düşünülmüş şəkildə inteqrasiyası" [7, s.96].

Graham (2009) bildirir ki, hibrid və qarışıq öyrənmə terminləri çox vaxt eyni mənada və qarşılıqlı əvəzlənə bilən anlayışlar kimi istifadə olunur. Bu anlayışların hər ikisi analıq və rəqəmsal elementlərin qarışığı kimi xarakterizə olunur [10].

Bu qarışıqlıq müxtəlif səviyyələrdə özünü göstərə bilər:

- müxtəlif media formalarının birləşməsi,
- fərqli öyrənmə nəzəriyyələrinin inteqrasiyası,
- müxtəlif pedaqoji yanaşmaların qarışığı,
- yaxud fərqli öyrənmə kontekstlərinin birləşdirilməsi [12].

Öyrənmə kontekstində iştirak (participation), qarşılıqlı əlaqə (interaction) və birgə yaradıcılıq (co-creativity) anlayışlarına yanaşdıqda, onların bir-biri ilə sıx bağlı olduğu görünür. Lakin Nico Carpentier-in (2015: 22) fərqləndirməsinə əsasən, bu anlayışlar arasında incə, lakin mühüm bir fərq mövcuddur: "Qarşılıqlı əlaqə (interaction) sosial-ünsiyyət əlaqələrinin qurulması kimi qəbul edilir, iştirak (participation) isə güc və qərarvermə ilə bağlıdır" [6, s.22]. Bu baxımdan, öyrənmə mühitinə interaktiv imkanların daxil edilməsi təkcə ünsiyyətin artması demək deyil, həm də qərarvermə prosesində iştirakın və təsir imkanlarının genişlənməsi istiqamətində mühüm bir addım kimi dəyərləndirilə bilər [18].

NƏTİCƏ

Aparılmış tədqiqatın nəticələri göstərir ki, postpandemiya dövründə muzeylərin rəqəmsal transformasiyası təhsil və öyrənmə proseslərində fundamental dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklər yalnız texnoloji yeniliklərlə məhdudlaşmır, həm də pedaqoji yanaşmaların və öyrənmə münasibətlərinin mahiyyətini yenidən formalaşdırır. Postrəqəmsallıq konsepsiyası muzeylərin fəaliyyətini rəqəmsal və analoq sərhədlərindən kənarda dəyərləndirməyi, onların qarşılıqlı inteqrasiyasını zəruri hesab edir. Bu baxımdan, muzeylər tədricən sadəcə bilik ötürən məkan deyil, həm də sosial ünsiyyət, yaradıcılıq və təcrübə mübadiləsi platformalarına çevrilir. Müəllimlərlə aparılmış müsahibələr göstərir ki, rəqəmsal, hibrid və qarışıq tədris modelləri ənənəvi tədris formalarına alternativ deyil, onların tamamlayıcısı kimi çıxış edir. Bu modellər öyrənməni daha interaktiv, çevik və fərdiləşdirilmiş formaya gətirir.

Rəqəmsallaşma müəllimlərdən yalnız texniki bacarıqlar deyil, həm də yeni pedaqoji düşüncə tərzi tələb edir. Bu prosesdə muzeylər təhsil sisteminə strateji tərəfdaş kimi inteqrasiya oluna bilər.

Postrəqəmsal muzey anlayışı rəqəmsal və fiziki fəaliyyətlər arasında sərhədləri aradan qaldıraraq, vahid tədris məkanının formalaşmasına şərait yaradır. Beləliklə, muzeylər sosial qarşılıqlı əlaqənin, transmedia hekayəçiliyin və birgə yaradıcılığın mərkəzinə çevrilir. İştirakçılıq və qarşılıqlı əlaqə elementlərinin inteqrasiyası muzey təhsilinin keyfiyyətini və cəlbediciliyini artırır. Nəticə etibarilə, tədqiqat göstərir ki, muzeylərin rəqəmsal, hibrid və qarışıq formatlara keçidi yalnız zərurət deyil, həm də yeni öyrənmə fəlsəfəsinin formalaşması üçün bir fürsətdir. Bu istiqamətdə muzeylər və məktəblər arasında əməkdaşlığın dərinləşdirilməsi, postrəqəmsal pedaqogikanın tətbiqini sürətləndirə və öyrənməni daha inklüziv, davamlı və yaradıcı prosesə çevirə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. American Alliance of Museums. (2021). *Trendswatch – Navigating a Disrupted Future.* Washington, D.C.: American Alliance of Museums.
2. Axiell. (2020). *Culture at a Crossroads: Digital Transformation in the Age of COVID-19.* https://www.axiell.com/report/report-culture-at-a-crossroads-digital-transformation-in-the-age-of-covid-19/
3. Bille, T. (2021). *Teater-og museumsvaner før og under COVID-19.* Copenhagen: Kulturministeriet. https://applaus.nu/wp-content/uploads/2023/03/artikel_om_teater-_og_museumsvaner_foer_og_under_covid-19_.pdf
4. Black, G. (2012). *Transforming Museums in the Twenty-first Century.* London: Routledge.
5. Black, G. (2018). Meeting the audience challenge in the "age of participation." *Museum Management and Curatorship, 33*(4), 302–319.
6. Carpentier, N. (2015). Differentiating between access, interaction and participation. *Conjunctions, 2*(2), 7–28.
7. Garrison, D. R., & Kanuka, H. (2004). Blended learning: Uncovering its transformative potential in higher education. *Internet and Higher Education, 7*(2), 95–105.
8. Giannini, T., & Bowen, J. P. (2019). *Museums and Digital Culture: New Perspectives and Research.* Cham: Springer.
9. Graham, C. R. (2006). Blended learning systems: Definition, current trends and future directions. In C. J. Bonk & C. R. Graham (Eds.), *The Handbook of Blended Learning: Global Perspectives, Local Designs* (pp. 3–21). San Francisco: Pfeiffer.
10. Graham, C. R. (2009). Blended learning models. In M. Khosrow-Pour (Ed.), *Encyclopedia of Information Science and Technology* (pp. 375–382). Hershey, PA: IGI Global.
11. Högberg, A., Wollentz, G., & Holtorf, C. (2022). Framtidsmedvetande på museer: Några svenska länsmuseer i fokus. *Nordisk Museologi, 34*(2), 5–22. https://doi.org/10.5617/nm.10068

12. Hrastinski, S. (2019). What do we mean by blended learning? *TechTrends, 63*(5), 564–569. https://doi.org/10.1007/s11528-019-00375-5
13. ICOM. (2020). *Museums, museum professionals and COVID-19.* https://icom.museum/wp-content/uploads/2020/05/Report-Museums-and-COVID-19.pdf
14. Jandrić, P., Knox, J., Besley, T., Ryberg, T., Suoranta, J., & Hayes, S. (2018). Postdigital science and education. *Educational Philosophy and Theory, 50*(10), 893–899.
15. Levin, A. (2020). "Isolation as a collective experience": Museums' first responses to COVID-19. *Museum and Society, 18*(3), 295–297.
16. NEMO. (2021). *Follow-up Survey on the Impact of the COVID-19 Pandemic on Museums in Europe: Final Report.* NEMO. https://www.ne-mo.org/fileadmin/Dateien/public/NEMO_documents/NEMO_COVID19_FollowUpReport_11.1.2021.pdf
17. Negroponte, N. (1998). Beyond digital. *Wired, 6*(12), 288.
18. Oliver, M., & Trigwell, K. (2005). Can "blended learning" be redeemed? *E-Learning and Digital Media, 2*(1), 17–26.
19. Parry, R. (2013). The end of the beginning: Normativity in the postdigital museum. *Museum Worlds, 1*(1), 24–39. https://doi.org/10.3167/armw.2013.010103
20. Pepperell, R., & Punt, M. (2000). *The Postdigital Membrane: Imagination, Technology and Desire.* Bristol: Intellect Books.
21. Pierroux, P. (2019). Learning and engagement in museum mediascapes. In K. Drotner, V. Dziekan, R. Parry, & K. C. Schrøder (Eds.), *The Routledge Handbook of Museums, Media and Communication* (pp. 128–142). London: Routledge.
22. Säljö, R. (2013). *Lärande och kulturella redskap: om lärprocesser och det kollektiva minnet.* Lund: Studentlitteratur.
23. Sonne, L., Hansen, A., Banik, V. K., Wollentz, G., & Djupdræt, M. B. (2023). Development, test, and evaluation of new continuing education for museum staff in Scandinavia. In J. Lövgren, L. Sonne, & M. N. Weiss (Eds.), *Folk High School Research* (pp. 139–161). Münster: LIT Verlag.
24. Wollentz, G. (2023). *Digital Pedagogy at Museums for Increased Participation and Co-creation: A Handbook for Museum Professionals.* Östersund: Jamtli Förlag.
25. Wollentz, G., Brandt Djupdræt, M., & Sonne, L. (2021). Museet som ett socialt rum och en plats för lärande – en introduktion. In G. Wollentz, M. B. Djupdræt, A. Hansen, & L. Sonne (Eds.), *Museet som ett socialt rum och en plats för lärande* (pp. 7–21). Östersund: Jamtli Förlag.
26. Wollentz, G., Djupdræt, M. B., Hansen, A., Sonne, L., & Banik, V. K. (2022). The museum as a social space and a place for lifelong learning. *Nordisk Museologi, 34*(2), 23–42. https://doi.org/10.5617/nm.10069
27. Heritage, A., Iwasaki, A., & Wollentz, G. (2023). *Anticipating Futures for Heritage: ICCROM Foresight Initiative Horizon Scan Study 2021.* Rome: ICCROM.

Məqalənin redaksiyaya daxilolma tarixi: 09.03.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.07.2026
Məqalənin çapa qəbul olunma tarixi: 15.07.2026

УДК 008
DOI: doi.org/10.61226/12.2.2023/20262.21
Lamiyə QULİYEVA
Bakı Slavyan Universiteti
dosent, fəlsəfə elmləri doktoru
https://orcid.org/0000-0002-9303-4335
klamiya@hotmail.com

AZƏRBAYCANDA POLYAK MEMARLIĞININ ŞAH ƏSƏRLƏRİ

